**Asif Atanın – İnam Atanın**

**Mütləqə İnam Ocağı**

# Günev Atalının Yükümlüyündəki
# "Atagün" Ailəsinin
# 34-cü ildə
# Aylıq mərasimləri

**Asif Atanın-İnam Atanın**
**Mütləqə İnam Ocağı**

Ata-Ocaq ilsırasının 36-ili
**"Atagün" və "Ulufərəh" Ailələrinin**
**I "Ailə Günü" mərasiminin**
**Gedişatı**

**Gün:** 21 Günəş Ayı;
**Yer:** Atagün Eli (Örənqala),
**Başlanır**: saat 16:00

Oda Amal Ruhuna uyğun hazırlanır. Gül-çiçək, texniki vəsaitlər hazırlanır – bunlara sorumlu Elana Atalı.

Hamı: "Ata Ruhuna pənah gətirmişik!" – deyir.

**Hesabat qonuları:**

1) Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı.
2) Ruhani Ailəçilik üslubunda nə kimi dəyişikliyin, yeniliyin olmasını istəyərdim?
3) Yurdumuzun bu günü (hadisələr, sorunlar) və sabahı Ocaq görümündə.

Qonaqlara söz verilir.

**Müqəddəs oxuma**: "Haqq-Haqsızlıq" Kitabından bir hissə oxunub şərh edilir.

"Ata Ruhunu ürəyimizdə aparırıq!",
"Atamız Var olsun!" səcdəsi ilə Ailə Günü sona çatır.

**Günün carı:**

Ailələşdik – Ocaqlaşmanın yeni aşamasına qədəm qoyduq!

*Gedişatı yazdı:* ***Soylu Atalı***
*5 Günəş Ayı, 36-il. Saray-Soylu.*
*(mart, 2014.)*

## “Atagün” və “Ulufərəh” Ailələrinin
## I “Ailə Günü” mərasimində deyilmiş fikirlər

*“Ailə Günü” Günəş Ayının 21-də (mart) Atagün Elində (Örənqalada) keçirildi. Mərasimin qurallar icra olunduqdan sonra “Ulufərəh” Ailəsinin Yükümlüsü* ***Göylü Atalı*** *Ataya səcdə ilə sözünə amallaşmadan başladı:* “Bu ay ərzində demək olar ki, bir şey oxumamışam, Atanın “İnam və Şübhə” kitabını bilgisayarda (latın qrafikalı Azərbaycan abesində) yenidən yazıram. Nə öyrənmişəmsə ordan öyrənmişəm. Saytlardakı yazılarımızı oxumuşam. Mən bunu amallaşma hesab eləmirəm. Amallaşma kitabı içinə çevirmək deməkdir.

Kamilləşmə hesabatım: Ocağa gələndə bizim bir andımız olur: “ömrüm sənindir Ata, onu götür, istədiyin kimi sərf et, andıma xilaf çıxsam özümü ölmüş sayaram”. Mən də bu məsuliyyəti zaman-zaman dərk elədim. Bir şeyin şahidi oldum ki, nə zaman ömrümü Atanın ixtiyarından alıram, həmin an uduzuram. Bunu Ocağa gəldiyim dövrdən hər dəfə hiss edirəm. Məni Ocaqda saxlayan, qoruyan Ocaq əməlçiliyi olmuşdur. Əməlçilik də Evladın həyatında adətən iki yöndə inkişaf edir. Bir var əməlin üstünə uça-uça gedəsən, dünyanı fərəhlə qarşına alaraq o əməli həyata keçirəsən, bir də var qeyrətə boğularaq həyata keçirəsən. Yəni bir var Ocağı yaşadasan, bir də var icra edəsən. Qeyrətə boğulub addım atmaq icra etməkdir. Bu, son vaxtlar mənim ömrümdə daha çox iz qoyub, ona görə də qayğılanıram. Bu əhval yorucu əhvaldır və ömrə fərəhsizlik gətirir. Çalışıram bu əhvaldan çıxım. Səbəbi çox sadədir, son vaxtlar özümlə çox az məşğul oluram. Fitrətdən gələn duyğularla hərəkət edirəm və daha çox verilən tərbiyədən hərəkət edirəm. Atanın “artmayan azalır” fikri özünü məndə doğruldur.

Seçimlərimdə bəzən yanılıram, səhv addımlar atıram, idrakla yox, duyğularla hərəkət edirəm. Ən pisi də odur ki, bəzən vicdanıma qarşı çıxdığımı görürəm. İnsanda hansısa bir duyğunu inkişaf elətdirmək və ya ləğv eləmək olar. Amma vicdanı susduranda mənəviyyat zədə götürür. Bu da son ayımın daha bir qayğısıdır. Ancaq düşündükcə gəldiyim bir nəticə məni ruhlandırır, bir ümid işığı kimi gəlir mənə – ümumi halda içimdə İnsanlıq heyvanlığa qalib gəldi.

Başqa bir məqam: Amaldaşıma münasibətimi bir daha özüm üçün çözürəm, yəni sevgimin gücünün az olduğunu görürəm. Ağılla düşünəndə amaldaşlarıma çox dəyər verirəm. İstənilən bir məsələdə ətrafın baxışı mənim üçün heç vaxt önəmli olmayıbdır, vicdanıma hesabat verirəm birinci növbədə. Yəni çox dəyər verirəm, münasibətim ali bir münasibətdir. Bir də var real münasibət, gerçək yaşam. Gerçək yaşamıma baxanda görürəm ki, yüksək dəyər verdiyim halda, münasibətimdə hardasa soyuqluq var. Yenə deyirəm, ağılda onu bilirəm ki, həyatın yüz dənə dostluğu amaldaşın bir sevgisinə bərabər deyil. Bir insan ki, Atanı şeçibdi, onun dəyəri mənim ağlıma yaxşı çatır. Mövzu ilə bağlı onu demək istərdim, – amaldaşlara yönəlik sevgi bütöv olmalıdır. Bu olacaqsa qalanları öz-özünə gələcək. Əməl də gələcək, Ruhani Ailə də öz ruhunu ifadə edəcək. Birinci növbədə sevgini yaratmalıyıq. Bunun üçün özümə qarşı yeni mərhələdə tələbkarlığa başlamışam...

**Üstün Atalı** (Ataya səcdə edir və sözünə başlayır): "Günəş Ayı fərqli keçdi. "Yeni İl"imiz, "Bayramımız" bir əlvanlıq gətirdi ömrümüzə. Bu ay yalnız Ocağa sərf etdiyim məqamlar gözümün önünə gəlir. Adi həyata xərclədiyim vaxtı ömrümdən itirirəm. Həyatda itirdiyim vaxt özümə gərginlik gətirir. Bu, mənim davranışlarımda hiss olunur. Həyat işi ilə məşğul olmaq adamı yorur, amma bircə saat Ocaq işi görürəm, doğrusunu deyim ki, fərəhlənirəm. Əslində o da lazımdır, bu da lazımdır. Dünyadan təcrid olmaq olmaz. İşsiz-gücsüz qalmaq da olmur. Amma nə olur-olsun, elə bir Evlad olmaq istəyirəm ki, ağzımı açanda Ata ilə başlayıb, Ata ilə qurtaram. Atanı xalqa verə biləm, həm ömrümlə, həm də əməllərimlə.

...Öz duyğularımı sözlə ifadə edə bilmirəm. İçimdə boşluq hiss edirəm, Atayla dolmaq istəyirəm. Soylu Atalı deyir ki: bir var əlinə qələm alıb söz yazasan, bir də var içindən bulaq kimi qaynayıb ifadə olunasan. Qaynamaq üçün gərək içinə yığa biləsən. Hələ ki, Atanın tələb etdiyi səviyyəyə çatmamışam. Cəmiyyəti necə dəyişmək olar – özünü dəyişməklə. Özüylə döyüş əməlinə yetməklə. Atamız Var olsun!

**Güntay Atalı:** Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya (İnam Ataya) ali səcdə ilə!

Ocaqçı kimi ilk “Ailə Günü” tədbirinə qatılıram. Həmişə düşünürdüm ki, bu Ocaqçılar niyə hisslərini açıb tökürlər, içlərində görəsən bir sirr saxlamırlarmı? Buna ehtiyac varmı? Son bir ayda dərk etdim ki, həqiqətən ehtiyac var. Birinci, Ocaqçının özünə görə, mütləq səmimi olur. Başqaları da bundan bir nəticə götürür. Bu yaxınlarda Soylu bəylə söhbət edirdik, mövzumuz da millət olmaqdan, xalq olmaqdan idi. Soylu bəy qeyd etdi ki, 15-ci əsrdə Nəsimi və onun ətrafındakılar xalq idi, 9-cu əsrdə Babək və onun ətrafındakılar xalq idi. Bu dəyərlərimiz məlum məsələdir, xalqın gözündə bütöv deyillər. Onların, bir dəyər kimi, öz yeri var, amma Asif Ata tamam başqa bir dəyərdir. Bu gün Asif Ata cismani olaraq yoxdur, amma Asif Atanın çağırışına səs verənlərdən, onu ürəyinə hopduranlardan xalq yaranır. 100 il bizdən sonra da bu səviyyədə Atadan qaynaqlanan xalq olacaq. Mən buna mütləq şəkildə inanıram. Gələcəkdə mənim də, bir Ocaqçı kimi, görmək istədiyim başqa şeylər var. Söz yox ki, mən hələ Atanı öyrənməliyəm. Soylu bəy söhbətlərimizin birində qeyd elədi ki, müstəqil addım ata bilən qüdrətli Ocaqçılar olmalıdır ki, Atanın nə demək istədiyini xalqa yaxşı çatdırsınlar. Ata onda daha sürətlə xalqın ruhuna hopacaq. Amallaşma mövzusunda onu deyim ki, Atanın “Bitiqləri”ni hələ oxumağa başlamamışam. Hamısına baş vurmuşam, amma sistemli oxumamaşam. Soylu bəyin kitabını oxuyuram. Planlaşdırıram ki, Bitiqləri sistemli oxuyam. Xalqlaşma işini bacardığım qədər aparıram, qonaq getdiyim yerlərdə, pastlaşdığım insanlarla söhbət aparıram. Əsas odur ki, fərəhliyəm, Ataya inanıram. Biz, toplum olaraq, həyatımızın 20 faizini özümüzə sərf edirik, qalan 80 faizini avaraçılığa sərf edirik. Mən Ata Ocağına gəlməklə ömrümün 80 faizini xilas eləmişəm. Atamız Var olsun.

**Günev Atalı:** Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya (İnam Ataya) ali səcdə ilə sözümə başlayıram.

Bir haşiyə çıxım qardaşımın sözüylə bağlı. Əslində biz burda dediyimiz sözü sabaha deyirik, eşitməyənlərə deyirik. Bizi gəlib eşitməyənlər, bizi eşitmək məcburiyyətindədirlər, başqa yol yoxdur... Amallaşmam: Atamızın Dünyaçılıq-İnsançılıq kitabı ilə başladım bu ay ammallaşmağa.

İnsan necə dünyalaşır? Necə dünyanı insaniləşdirir? Məsələn, dağda

vüqar görür, vüqar insani keyfiyyətdir. Çayda nəğmə görürsən, nə gözəl haldır bu. Səmada ucalıq görür, Günəşdə şəfqət görür hamısı insani keyfiyyətlərdir. Bu, insanla dünyanın birliyidir, – dünyayla insanın birliyidir, burada gözəl bir əhval yaranır. Bunu mən əvvəl də oxumuşdum, amma indi daha yaxşı ağlıma çatır.
İkinci Amallaşmam "Qutsal Öyrənim Günü" üçün Mütləqə İnamın ruh bölümünün, Ruhanilik hissəsini oxumuşam.
*(Günev Atalı qeydlərini oxuyur- Ü. A.)*




Kamilləşməm haqqında: Mən özümü çox xoşbəxt sayıram. Çünki bu ay ərzində daha çox dərk elədim ki, mənim Ocaqsız həyatım yoxdur. Nəinki həyatım, anım yoxdur. Nə edirəmsə, Ocaq üçün edirəm. Hətta ən xırda işin dalınca gedirəmsə, onun içində Amala gərəklilik varsa gedirəm. Şəxsi həyatım yavaş-yavaş gözümdə adiləşib.

Məbədimizin 900-ə qədər daşını qaldırıb hörmüşük. Yol qırağında, gəlib gedənlərin gözü qarşısında Məbədimiz ucalır. Heç ağlıma da gəlmir ki, mənim cismani həyatım sona çatacaq, bu cür fərəhlə yaşayıram.

Hər biriniz bilirsiniz ki, mən 25 ildir buradan Ocağı haraylayıram. Getmədiyim yer qalmayıb, dönə-dönə döymədiyim ağıl qalmayıb. Ocaq burada boşuna ad kimi olmayıb. Sağlığında Atanın bu bölgədə görüşü

olmuşdur. Ata öləndə də, İnam Evi məsələsinin baş tutmasında da heç nə bu bölgədə adi bir hadisə kimi olmayıb. Hansı işin altındayıq, biz təsəvvür edirik. Bu Bayrağın altında duran adama adi adam demək olarmı? Ağlımda, ürəyimdə elə varlığın qüdrətini izləyirəm ki, tarixin yönünü dəyişməyə başlayıb. Buna inamım hədsiz dərəcədə böyükdür. Ömrüm də bu dəyişikliyə təkan vermək üstə qurulmaqdadır. Bir zamanlar özümü nəyəsə təhrik edirdim, indi mənim bütün ömrüm bu əhvalla dolubdur.

Xalqlaşma hesabatım. Bu ay ərzində bir neçə yas məclislərində açıq söhbətlər aparmışam. Evlərdə fərdi görüşlərim olub. Ancaq bununla belə, bu ay mənim ən az xalqlaşma işim olubdur. Ümumiyyətlə isə, elə bir məqamım olmayıb ki, Ocaqsız olsun. Hara getmişəm orda Ocaq söhbətləri aparmışam. Çünki ilk cümlədən başlayır maraq. Çünki sən hamıdan fərqli bir cümlə deyirsən. İstər-istəməz fikirlər sənə qarşı yönəlir. Biz, bir xalq olaraq, nədən yıxıldıq? Nədən qurduqlarımız başımıza uçdu. Hanı türk tarixi, niyə qeyb oldu? Bax, onun səbəblərini qoyuram ortaya. Filan səbəbdən yıxıldıq, öz kökümüzdən ayrıldıq, ruhani keyfiyyətlərimizdən ayrıldıq. Özgələşdik, yadlaşdıq, yadların istədiyi kimi olduq. Elə adından bəllidir ki, yadlıq yadlıqdır da. Yadlıq səni köləyə çevirmək üçün səni sənin əlindən alır. Beş yaşlı bir uşaq köhlən bir atı dörd nalla çapır. Niyə? At ondan gücsüzdür? Atın öz gücündən xəbəri yoxdur. Bir xalq olaraq, gücümüzdən xəbərimiz yoxdur. Heç olmasa tariximizə baxaq, tarixi uğurlarımıza baxaq. Bütün qəhrəmanları bir yerə yığsan Babəkin beş gününə bərabər olmaz. Bağdaddan Hindistana qədər hökm edən bir orduya qarşı çarıqlı bir oğlan durdu. Bu oğul qılınc qaldırdı, 23 il yağını sarsıltdı. Ağlına da yerləşmirdi ki, ona xəyanət olacaq. Siyasət adamı deyildi. İnanmazdı ki, Səhllər ona qarşı çıxardı. Çünki o, ər idi. Xalq elə bir günə düşüb ki, bu erməni dığaları qatdı qabağına apardı insanlarımızı. Çünki özümüzdən xəbərimiz yoxdur. Dəyərlərimizi gözdən salmaq üçün qurumlar, institutlar işləyir. Hər hansı bir xalqı zəbt etmək üçün birinci növbədə onun dəyərlərini öz gözündən salmaq lazımdır. Belə-belə bütün nizam pozuldu. Bu nizamın pozulması gətirdi Asif Atanı meydana. Qaranlığın qatılaşması Asif Ataya ehtiyac yaratdı. Belə bir məqamda, belə bir şəxsin ortaya çıxması və İnam yaratması, ideyalarını ortaya qoyması,

peyğəmbərlik etməsi, bayrağı qaldırıb qabağa düşməsi dərin tələbdən yarandı. Bu o demək deyil ki, təkcə Azərbaycan bu gündədir, bütün bəşəriyyət bu gündədir. Soylu Atalı vurğu edir ki, Peyğəmbərlik – bəşəriyyətin nizamı pozulanda meydana gəlir. Misir fironlarının zülmkarlığı Musanı ortaya çıxardı. Bir-birinin qanını tökməkdən usanmayan quldarların dövründə İsa gəldi. Dünyada ilahiliyin tam yoxa çıxdığı bir dövrdə, ateizm dövründə, Mütləq sözünün təsirinin aradan qalxdığı bir dövrdə Asif Ata gəldi. Dedi ki: "Dünya əbədi, sonsuz, kamil Mütləqin təzahürüdür. Bu ahəngdə Mütləq yaşayır.

Gəldilər, allahlı zülmkarlar yarandı. Cənnət-cəhənnəm icad elədilər. Allahı həmin zülmkarlara bənzədirdilər. O necə qüdrət sahibidir ki, ağacdan düşən yarpaq belə, onun iradəsi ilə olur, dünya isə darmadağın olur, yerlə bir olur, məhv olur. Bəs bunu görmür? Bu yaxınlarda bir yas yerində söhbət etdim. Mövzu İslamın əsas ideyalarından biri olan qismətçiliklə bağlı idi. "Deməli, bütün olanlar ancaq Allahın iradəsi ilə olur. Deməli, İmam Hüseyn Allahın yazdığı qismətlə məhv olubdur. Orda o ölməli idi. Bəs onda Yeziddən, Muaviyədən nə istəyirsiniz? Onda o hökmü yazanın yaxasından tutmaq lazımdır. O birisi Allahın yazdığını icra edibdir. Onda o, Allahın sözünə baxdığına görə ona minnətdar olmalısınız". Bu, istər-istəməz düşündürür insanları. Yurdumuz yad əhvallarla dolubdur. Artıq əllərini hər şeydən üzüblər."Daha heç nə edə bilməzsən", "heç nə mümkün deyil". Yurdumuz çox şey itirib, özünə qarşı yadlaşıbdır. Atılan addımların hamısı millətə qarşıdır. Möhtəşəm binalar tikirlər, gəlib qırmızı lent kəsirlər, amma mənə o gərək deyil. Sən mağarada yaşa, amma o mağaradan insan çıxsın, ordan müqəddəs şəxsiyyətlər çıxsın. Bu baxımdan yurdumuz çox acınacaqlı bir durumdadır. Qruplaşmalar yaranıb, bura filankəsindir, ora filankəsin. Hər yanı bölüblər. Səbəbi odur ki, bu xalq öz gücünə inanmır. İnamı da olmayanın idrakı olmaz. Mənəviyyatsızlıq uçurumları yaranır və hər gün dərinləşir. Sabahı Mütləqə İnam Bayrağına sarılmaqda, Asif Ata İdeyası əsasında yaranan xalqda təsəvvür edirəm. Bu Bayrağın altında kim varsa, hələlik elə xalq odur. İlk addımdan çox şey asılıdır. Ona görə qəflətdən ayağa qalxmaq lazımdır. Bu millətə yiyəlik lazımdır. Atamız Var olsun!




**Soylu Atalı** (Ataya səcdə ilə sözünə başladı): “Atagün” Ailəsinin “Ailə Günü”ndə hesabat verməzdən öncə istərdim toxunulan məsələlərlə bağlı fikrimi ifadə edim.

Amallaşma hesabatı haqda demək istəyirəm. Bəzən Ocaqçılar deyirlər ki, Atadan oxudum, az oxudum, oxumadım və s. Bunu demək lazımdır, ancaq bilmək gərəkdir ki, amallaşma təkcə kitab oxumaq demək deyil. Sən bu ay ərzində Atadan bir şey oxumaya bilərsən. Bu vaxta qədər oxumusan axı. Düşüncələrində elə bir hikmətə gəlib çıxa bilərsən ki, o sənin üçün də ciddi bir qapı açar, amaldaşların üçün də. Düşüncəni demək lazımdır, nə anladım. Hər günüm Amalı düşünməkdirsə, hər günüm Amal üstə yaşamaqdırsa, mən düşünəndə Amalımı yaşayıram axı. Ona görə Amallaşmanı təkcə kitabdan deyil, həm də düşüncə yarpaqlarından götürürük.

Göylü “Dünyanı qarşıma almaq” fikri dedi. Doğru deyir. Bu, Ocaqçı üçün ali bir şərt deyil, bəlkə də sadə bir şərtdir. Dünya zəlil gündədir. Hər şey adiləşib. Məgər bu sənin xalqındadır təkcə?! Dünyanın hər yerindədir. Evin içini açıb tökmək məgər Azərbaycandan gəlir? Dünyadan gəlir. Bu nədir ki, bunu mən sayım. Dünyada mən həqiqəti sayardım. Dünyada böyük hikməti sayardım, o yoxdur axı. Putin böyük şəxsiyyətdir? Böyük şəxsiyyət deyil. Obama böyük şəxsiyyətdir? Böyük

şəxsiyyət deyil. Alimin icad elədiyi silah dünyanı təhdid edirsə, təhdid silahının arxasında duran adam böyük şəxsiyyət deyil axı. O şəxsiyyəti dünya üçün örnək götürmək olmaz axı. Örnək götürə bilərsən bax, burada bu evi. Deyərsən ki, nəfəsi təntiyən, üzü üstə düşən, ümüdü məhv olan insanlar gələr sənin bu evində ümid tapar, həqiqət tapar, gözəllik tapar. Dünyanın məzmununu tapar. Dikələr beli, ayağa durar, deyər hələ yaşamağa dəyər. Özünü tanıya bilər insan balaca bir ünvanda. "Dünyanı qarşına almaq" o deməkdir. Bu boyda ləyaqət ortaya qoyursan. Özündən keçirsən, böyük insani zəhmət ortaya qoyursan. Bakıdan durub gəlmisən bura. Gəlmisən bu ünvanı, – yüz illər bundan sonrakı çağlar üçün müqəddəs söz söyləyən, örnək göstərən bir ünvanı ziyarət eləməyə. Bu ünvanda dayanıb yüz il bundan sonraya söz deyirsən. "Dünyanı qarşına almaq" o deməkdir...

Vicdan və duyğu məsələsi. Vicdan özüldür, duyğu özül deyil demək olmaz. Duyğu da özüldədir. Duyğu nə istəyir? Niyə duyğu istəyir ya istəmir, vicdan da ona mane olur. Bax, onu bizə Ruhaniyyat öyrədir. Asif Ata deyir ki, Özüylədöyüş sənin içində vicdanını qəhr eləyən duyğu saxlamır. Onu qırağa qoy, onu əməlsiz qoy. Vicdanına qanad olan duyğu böyüt. Onda üzü gülə-gülə sabaha uçub gecədəksən. Duyğu vicdanın qanadıdır, üzü sabaha.

Sevgi məsələsi. Məncə bizim Amaldaşımız Göylü fikrinə bir az korrektə etməli idi. Sevgini yaratmaqmı, böyütməkmi? Sevgi var axı. Sənin sevgin olmasa idi, bu boyda dağlar aşa bilərdin? Hardasa başqa əhvallar sevgini zəif göstərə bilər, onu arxa plana keçirə bilər, adamda hansısa bir yaddançıxmalar ola bilər. Onu aradan qaldırmaq, təkmilləşdirmək, böyütmək, əsilləşdirmək, kamil səviyyəyə çatdırmaq gərəkdir. Sənin sevgin var. Ocaq mühiti olduqca sağlam mühitdir.

Güntayın dediyi bir söz ki, mən vaxtımı əslində xilas elədim. Ata deyir ki, vaxtı diriltmək gərək. Vaxtı diriltmək, yəni beyni tüfeyli fikirlərdən qorumaq, əli-əməli hərcayi gedişlərdən qorumaq. Onda vaxtı dirildəcəksən. Vaxtı nə alır, – daxildəki balaca duyğuların əyilməsi, əzilməsi, yana sapması. Ocaq – vaxtın dirildiyi ünvandır. Bütün dünya üçün bunu demək lazımdır, bütün dünya üçün bu özünü doğruldur. Üstün özüylə bağlı əsəb, gərginlik məsələsinə toxundu. Başqa bir iş görəndə əsəbiləşirəm, Ocaq işi görəndə fərəhlənirəm deyir. Doğru

məntiqdir. Əgər sən Ocaq işi görəndən sonra ayrı bir iş görüb əsəbiləşirsənsə, bu o deməkdir ki, Ocaq işi tam bitməyib içində. Tam bitməsi nə deməkdir, – aşiqlik. Aşiq öz fiziki varlığı üçün də gedər iş görər, ancaq heç əsəbiləşməz. Amma ömrünün əsas hissəsini həyata verərsənsə, onda əsəbiləşərsən. Xilas Aşiqlikdədir. Amal aşiq istəyir. Günev dedi ki, "Mən özümü çox xoşbəxt sayıram". Bu adi bir cümləyə oxşayır. Amma o deyiliş hamının dediyi deyiliş deyil. Yəqinlikdir bu. Təsadüfən bu gün əhvalının yaxşı olmasından irəli gəlmir. Bu, daxildə yaranan müəyyənlikdir, oturmadır. O vurğuda bir misqal belə saxta bir şey yoxdur. O mənə qanad verir. Sən içində yəqinlik yaradırsan. Gəlirsən elə bir səviyyəyə və vurğu edirsən – "Mən xoşbəxtəm". Gəlirsən və deyirsən ki, mən kamiləm. Bu yəqinlikdir, bu möhürdür. O möhürü sənin ürəyin vurur. Yaşamısan, qalxmısan, ucalmısan. İllərini həsr etmisən, qalxmısan. Qüdrət onda yaranır. Bütün dünya ona qarşı çıxa bilər, o yenə deyəcək ki, mən xoşbəxtəm. Kənddə yaşayan biri də deyə bilər ki, mən xoşbəxtəm. Sən harda yaratdın xoşbəxtliyini?! Ancaq Günev deyə bilər ki, 25 ildir bu xoşbəxtliyi yaşayıram. Tolstoy 70 yaşında ağlına gəldi ki, o xoşbəxtdir. Adam yaşayır, günlərin birində anlayır ki, o xoşbəxtdir. Bu özü bir təsdiqdir.

Asif Ataya tapınmaq məsələsi. Ocaqda hər bir fərd Asif Ataya tapınmağından qürur hissi keçirir. Təkcə Asif Ata Ocağının tədbirində deyil, dünyanın hər yerində qürur hissi keçirir. Həmin qürurla deyə bilərsən ki, xalq Ocaqdadır. Mən Azərbaycanın xəlqi mənasını sevirəm, heç kim mənim qarşımda durub bu xalqı aşağıladığımı deyə, bunu sübut eləyə bilməz, gücü çatmaz. Mənim ömrümə xalqın ağrısı yüklənib. Mənim ürəyimə onun özünə qarşı yaşadığı fəlakətlərinin kədəri yüklənib... Sonra, dünyanın hər yerində bu sözü mən deyərəm: Asif Atanın davamında min il sonralar üçün belə, fəlakət yoxdur, qəbahət yoxdur, insana xəyanət yoxdur, bəşərə xəyanət yoxdur. Məhəmmədin davamında xəyanət var. Möhtəsim Səhllə birləşib xəyanət elədi, Babəki qətlə yetirib, vətənini məhv elədi, azadlığını qəhr elədi. Bu, Məhəmmədin davamıdır. Asif Atanın davamında o yoxdur, olmayacaq. Məhəmmədin davamında var, çünki, təməlini Məhəmməd özü töküb. O özülün üstündə bu yarandı. Asif Ata elə özül qoymayıb. Hara çəkirsən çək.

Ona görə deyirəm, Məhəmməddən qorxan adamdan türk olmaz, xalq olmaz. Mən türkəm, xalqam, öz evimin içində öz işığımı yandırıram. Öz başımın üstündə öz göyümü görürəm. Öz allahımı görürəm, ona tapınıram. Ona görə deyirəm ki, mən Türkəm və xalqam, xalqın məzmunu məndədir. Məhəmməddən qorxan sən, necə türk ola bilərsən, mənə kafirlik damğası vuran sən, necə türksən? Nəyin türkdü, necə xalqsan sən?! Mən bir yazı yazmışdım: İsa dağılmış, tökülmüş Avropa insanından özünə, allahına münasibət bəsləyə bilən insan yaratmaq üçün çalışdı. Görəsən, Asif Ata dağılmış, müsəlmanlaşmış bu xalqdan türk yarada biləcəkmi? Nə vaxt türk yarada biləcək? O vaxt türk yarada biləcək ki, o deyəcək mən müsəlman deyiləm, xristian deyiləm, buddist deyiləm. Mənim tarixim var, babalarım var, o tarixin üstündə qətiyyətlə dayanan şərəfli bir türkəm. Bütün qəlbimin gözəlliklərini bəşəriyyətə açan şərəfli bir insanam, onda sən deyə biləcəksən ki, türksən. Ona görə Ocağın nə işlə məşğul olduğunun fərqinə varmaq lazımdır. Beş adam bir araya gəlir haray çəkir, söz deyir, ürəyinin şəhdini-şirəsini qoyur ortaya. Oyun oynamır, taledir bu, aqibətdir bu. Bütün bəşər aqibəti yeni bir səviyyədə sənin qəlbində təcəlla tapıb. Bəşəri görmək istəyən o qəlbə baxsın. Ayrı yerdə bəşəri tapa bilməyəcək. Ocağın atdığı addım və ortaya qoyduğu ləyaqət min il öyrəniləcək bir dəyərdir. Mən bu Yolun aşiqiyəm. Atanın əlini içimə salıb təmizlədiyi bir aşiqəm. Mənim eşq duyğularımı Asif Atanın Mütləqə İnam sevdası yazıb-yaradıb. Ona görə mənim başqa yönə vaxtım yoxdur. Mən ancaq Ocaqla məşğul oluram. Bu xalqın mahiyyətində həqiqət ehtiyacı var, həqiqət işığı var.Asif Ata yox yerdən ona həqiqət uydurmur axı. Yox yerdən ona gələcək uydurmur. Xalqın içində elə böyük məsələlər var ki. Asif Ata "Azərbaycanımız-Azərbaycanlığımız" dəyər sistemini verib. Bu sistemdə Asif Ata Dədə Qorqud haqda danışır. Halbuki Dədə Qorqud haqda yazını insanlarımız gedib xaricdə axtarmalı olur. Drezdendə, Vatikanda... Dədə Qorqud elə bir həyat sistemidir ki, bütün bu gün arzuladıqlarımız hamısı o təməllər üzərində gəlişir. Ata deyir ki, Dədə Qorqud Ağsaqqallıq böyüklüyümüzün ifadəsidir. Ağsaqqallıq böyüklüyümüzün ifadəsi nağıl deyil, həyatdır. Dədə Qorqudda Ağsaqqallıq məsələsi həyat sistemidir. Böyük var idi, ailə var idi, igid var idi, qəhrəman var idi, nizam var idi. Üstündən min il keçdi, xalq

dastanlar yaratdı. Xalqın həmin arzusu, niyyəti Koroğluda yenidən ortaya çıxdı. (7777) Dəlilər böyük bir xalq deməkdir. Yəni xalqın obrazını ifadə eləyir. Bu xalqın içində yarımca şər yoxdu, xəyanət yoxdu, hamısı mərddir, halaldır. Ata deyirdi ki, mən inanmıram Həmzə türk olsun. Mən də əminəm ki, Koroğlu dünyası türkün dünyası idi, Həmzə erməni toplumunun obrazı idi. O gəldi Türkün içinə, ona yer verdilər, üzünə xoş baxdılar. Axırda türkün torpağını parça-parça əlindən aldı. Koroğlunun atını aldadıb əlindən alması elə həmin mənadır. Necə bir-birinə bənzəyir. Ona görə də xalqın içini böyütmək gərək, ağlını böyütmək gərək. Dəyərinə baxmaq gərək, nağıl deyil bu. Bəzən sən Ermənini nümunə göstərirsən ki, erməni qədər də olmadıq. Deməli, sən Koroğlunu dərk eləmirsən, Babəki dərk eləmirsən, Dədə Qorqudu dərk eləmirsən. Babəkin özündən keçməsini istəmirsən. O, özündən keçirdi ki, sən bu günə düşməyəsən. Bu gün ayaqlar altında qalmısan, namusun əllərdə qalıb. Babəkin azadlıq carının adı "Gələcək" idi – sənin ruhunun xilas olduğu Gələcək. Asif Atanın da dediyi odur. Asif Ata demir ki, on beş gündən sonra mən bu xalqı düzəldəcəm. Deyir 100 ildən sonra sənin xalqın məhv olmasın, ləyaqət qoysun ortaya. Həmin Gələcəyi yaradır. Babək sənin üçün Gələcəyi verirdi, arzusunu gözündə qoydular, xəyanət və sairə. İndi Babəkinə sahib çıx. Onda getdikcə gəlib çıxacaqsan Asif Atanın çağırışına. Nə istəyir səndən Asif Ata? Asif Ata deyəndə ki, bu bayrağı başının üstünə qaldır, ona görə demirdi ki, ona da tarixdə bir yuva aç. Bu Bayraq sənin başının üstündə olanda, sənin başının üstündə başqasının çətiri olmayacaq, göylər üzünə qapanmayacaq, işığa həsrət qalmayacaqsan, əbədiliyin sevgisinə həsrət qalmayacaqsan. Bu Bayqağı başının üstünə as, ürəyin bu bayrağın işığı qədər böyüyəcək və azadlığına sahib çıxacaqsan...

Mən bu Bayrağı öpdüm, dərk elədim ki, duyğularımın gözəlliyindən utanmıram. Duyğularının gözəlliyini dərk eləməyən utanır. Öz böyüyünə tapınmaqdan utanır, onu sevməkdən utanır, həqiqət carçısı olmaqdan utanır, hamının biri olmamaqdan, qırağa çıxmaqdan əziyyət çəkir. Gülərlər mənə, lağ eləyərlər mənə...

İndi Ocağı, onun hikmətini də gör, bu dünyanın gedişatını da. "Ruhani Ailəçilik üslubunda nə kimi dəyişikliyin, yeniliyin olmasını istəyirəm." Bu sual o demək deyil ki, biz Asif Atanın yaratdığı üsluba

yenilik gətirəcəyik. Asif Atanın Ailəçilik kontekstində tələbləri var, mən o tələblər zəminində yanaşmağı deyirəm. Hansı təşəbbüslər lazımdır? *(Soylu Atalı yeni təşəbbüslər irəli sürdü - Ü.A.)*

Bir neçə kəlmə də Yurdumuzun bu günü, sabahı haqqında. Sovetlər dağılandan daim uçurum dərinləşir. Bunu dərinləşdirən nədir? Hər zaman biz bunu vurğu edirik, sözmüzü deyirik və s. Buna səbəb siyasi mənada Azərbaycanın milli ideolojisinin olmamasıdır. Milli ideoloji olmadığı üçün, nə qədər ki, sən kürəyini qırağa söykəyirsən, o qıraqdan səni yıxa biləcək dalğalar gələcək üstünə. Çünki, qıraq heç bir vaxt səni düşünməyib, düşünməyəcək də. Ümumbəşəri bir hal yaranmayıb ki, umasan, filan xalq vicdanlı xalqdır. Mənafelər dünyasında yaşayırıq, maraqlar dünyasında yaşayırıq. Pis mənada özünə yararlıqlar dünyasında yaşayırıq. Heç bir vaxt qıraqdan sənə müsbət, xeyirli iş gəlməyəcək. Bizim içimizdə fəaliyyət göstərənlərimiz kürəyini söykəyir qırağa. Bu birinci səbəb. İkinci, din. Din bütün balacalığı ilə özünü göstərir, cəmiyyəti daim çalxalayır, anarxiya yaradır. Dinin yaratdığı anarxiya, siyasətin yaratdığı anarxiyadan az deyil. İkisi də uçurumu dərinləşdirir. Çoxrəylilik məsələsi aradan qalxmalıdır. İnsanların fikir müxtəlifliyində yalnız bir haqqı var: Kənddə yaşayan insan öz təsərrüfatını beləmi qursun, eləmi qursun. Evini beləmi tiksin, eləmi tiksin, bu məsələlərdə o azaddır. Dövlət məsələsində, xalq məsələsində onun necə gəldi qarışmağa haqqı yoxdur. Hər kəs ağlına gələni üyüdür, tökür ortaya. Millətin düşünəni, sevəni, ziyalısı ortaya durmalıdır. Ağıl işlətməlidir, ortaya məntiq qoymalıdır, milli ideoloji qoymalıdır. Bu məntiqlə, bu ideoloji ilə dövlətçilik məsələləri möhkəmlənməlidir. İkinci, dindən addım-addım qətiyyətlə imtinanı bacarmalıdır, üzünü tutmalıdır Mütləqə İnama, Türklüyə. Tutmasa uçurum dərinləşəcək. Harda üzünü tutacaqsa, orda başlayacaq fəlakətdən çıxmağa dönüş. Ondan sonra dayanıb düşünmə başlayacaq. Ona qədər bizdən asılı deyil. Biz özümüz nə iş görürüksə görürük. Biz xalqın qulağını doldurmalıyıq hər yerdə. Sən onun qulağını doldur, günlərin bir günü o uçurumda boğulan deyəcək ki, biz Ocaqdan yapışmalıyıq. Ona qədər deyəcəyik. Çünki elə şeylər var ki, bizdən asılı deyil. Bizdən asılı olan öz içimizi yaratmaqdır. Biz əyilməməliyik, dönməməliyik, yıxılmamalıyıq, nə düşünürüksə onu eləməliyik. Öyrətməliyik, Atanın dediyi kimi, fərd-

fərd, hal-hal, ağac-ağac. Bu gün biz nə ediriksə düz edirik, bacardığımızdan da beşqat artıq edirik. Atamız Var olsun!

**Elçin Həsənov:** İlk öncə təşəkkürümü bildirirəm dəvətiniz üçün. Bundan sonra çalışacam müntəzəm iştirak edim, çünki, bu mənim üçün bir dəyərdir. İnsan içindəki pisliklərdən çıxmaq üçün, ətrafdakı insanların basqılarından azad olmaq üçün Ocağa qoşulmaq istəyir. Sizə bir daha təşəkkür edirəm...

*(Elçin bəy "Amal Bağı"nda və "Qutsal Onluğun Qəbul Törəni" ilə bağlı çatılmış Tonqal başında da söz dedi-Ü.A.)*

"Keçmişini unudan xalqın gələcəyi olmaz. Bizim, Asif Ata Ocağı olaraq, bu gün bura toplaşmaqda məqsədimiz odur ki, keçmişimizi unutmuruq. Türkçülüyümüzü, Türk millətinin adət-ənənələrini, tarixdə iz qoyduğu işlərini biz unutmuruq və yeni inkişaf mərhələsinə başlayırıq. Biz nəyə görə acınacaqlı, pis durumlarda qalmışıq? Çünki bir millət olaraq, öz keçmişimizi unutmuşuq. Asif Ata bundan çıxmağın yollarını deyir. Hal-hazırda onun davamçıları türk millətinin özünə qayıtması uğrunda ortaya ləyaqət qoyurlar. Mən ümidliyəm ki, bizim də davamçılarımız olacaq və bu məsələlər uğrunda mübarizə aparacaq – bu millətin tarixi ənənələrini, qəhrəmanlığını, bütövlüyünü özünə qaytaracaq".

***Günəş Ayı, 36-cı il.***
***(mart, 2014.)***

**Asif Atanın-İnam Atanın**
**Mütləqə İnam Ocağı**

**Günev Atalının evinə**
**“Qutsal Onluğun Qəbul Törəni”nin**
**Gedişatı**

**Yer:** Atagün Elində Günevin evi;
**Gün**: 22 Günəş Ayı, 36-il.
**Başlanır**: saat 16-da.

Törən Odası Mütləqə İnam Ruhaniyyatının tələbinə uyğun hazırlanır: çiçək, məşəl, texniki vasitələr. Təşkilatca sorumlu Günev və Göylü Atalılar.

***xxx*** Öncə həyətdə Ocaq qalanır və Ocaq başında qutsal söz söylənilir.

***xxx*** Odaya keçilir, Mütləqə İnam Bayrağı gətirilir. Törən “Ata Ruhuna pənah gətirmişik!” səcdəsi ilə başlanır.

***xxx*** Ocaq Yükümlüsü Soylu Atalının açılış sözündən sonra: hamı ayaq üstə saygı duruşunda Qutsal Bitiqlərin odaya gətirilməsini qarşılayır.

***xxx*** Bitiqlərin adını və məzmununu vurğu eləməklə Soylu Atalı onları bir-bir Günev Atalıya təqdim edir. O, Bitiqləri öpüb bir-bir gözüstə tutaraq stol üstə yığır.

***xxx*** Sonra sözü olan Ata, Qutsal onluq və Ocaq Yükümlüsü haqqında söz deyir.

“ Atamız Var olsun!” səcdəsi ilə Törən başa çatır.

**Günün carı:**
Qutsal Bitiq ünvanları yaranır – evlərimiz Ocaqlaşır.

*Gedişatı yazdı:* ***Soylu Atalı***
*5 Günəş Ayı, 36-il.*
*Saray-Soylu.*

## Günev Atalının evinə
## Qutsal Bitiqlərin Qəbul Törəni keçirildi

*Öncə həyatdə tonqal qalandı. Tonqal başında Günev Atalı törəni qutlama sözü dedi. Sonra tədbir odada davam elədi.*

*Tədbir "Ata Ruhuna Pənah Gətirmişik!" Səcdəsiylə başladı. Hamı ayaq üstə səcdə duruşunda Mütləqə İnam Bayrağı gətirilir.*

**Soylu Atalı:** *Asif Atanın Mütləqə İnam Ocağı olaraq onun yaratdığı, yazdığı Müqəddəs Kitabları türk millətinin, insanlığın, bütövlükdə bəşəriyyətin Qutsal Bitiyi (Müqəddəs Kitabı) kimi qəbul eləmişik. Asif Atanın yazdığı kitablar hər bir insanın qəlbində, ağlında işıqlanmalıdır. Hər bir insanın qəlbi, hər bir insanın müqəddəsliyə meyil eləyən duyğuları Asif Atanın hikmətiylə böyüməlidir. Onda biz İnam xalqı olarıq. Onda biz üzümüzü, yönümüzü müqəddəs gələcəyə tuta bilərik. Onda biz öz varlığımızla öyünə bilərik. Onda biz öz varlığımıza güvənə bilərik.*



*Biz bu gün Asif Atanın Ocağının yaratdığı ənənələrdən birini həyata keçiririk. Bu, Asif Atanın kitablarının – Bitiqlərinin ünvanlaşması üçün nəzərdə tutduğumuz bir törəndir. Asif Atanın Bitiqləri başqa evlərdə ola bilər. Onun 13 cildini aparıb başqa bir evə də qoya bilərsən. Ancaq o ünvan "Qutsal Bitiq Ünvanı" sayılmır. Onun üçün biz Asif Atanın kitablarını özümüzün qəbul etdiyimiz bir tərzdə, təqdim elədiyimiz bir*

*tərzdə ünvanlaşdırırıq və ünvanlaşdırdığımız təqdirdə də onu qoruyuruq. Sabaha çatdırırıq. Biz Asif Atanın kitablarının ünvanlarını yaradırıq. O ünvanlar həm bizim insanlarımızın qəlbidir, həm də insanlarımızın evidir.*

*Əyləşə bilərsiniz.*

Müqəddəs Günümüzə – "Qutsal Onluğun Qəbul Törəni"nə açılış sözü deməzdən öncə Atamıza səcdə qılıram və onun adından törənimizi açıq elan edirəm.

Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə sözümə başlayıram və Bayrağımızı öpürəm.

"Qutsal Bitiqlərin Qəbul Törəni" quralını (qaydasını) biz 5 il bundan öncə qəbul eləmişik, – 22 Günəş Ayı, 31-ci il tarixində. Üstündən beş il keçib. Tarix təsadüfən üst-üstə düşüb. Bu gün 22 Günəş Ayı, 36-cı ildir. Biz növbəti bir ünvana – Günev Atalının evinə Bitiqləri qəbul edirik. Bu qəbuldan sonra onun evi "Bitiq Ünvanı" kimi qalacaq. Mən düşündüm ki, Günev Atalı bu bölgədə ömrünün təxminən yarısını Asif Atanın Yoluna həsr edib, sözünü eşitdirib, bu işi həm də böyük bir həvəslə, eşqlə genişləndirir. Ona görə də Günevin evinin "Qutsal Bitiq Ünvanı" olmaması, bu, Ocaq tərəfindən düzgün qiymətləndirilməz, daha doğrusu, Ocaq üçün doğru sayılmaz.

Bu, artıq dördüncü ünvandır. Birinci ünvanı biz Keşlədə qəbul elədik. İkinci ünvan mənim evim oldu Sarayda. Üçüncü ünvanı Şəmkirdə qəbul elədik. Bu dördüncü ünvandır. Dördüncü törəndir biz həyata keçiririk, – "Qutsal Bitiqlərin Qəbul Törəni"ni. Nədir bunun mənası, məzmunu? Yenə deyirəm ha, bu kitabları çap eləyib hansısa bir başqasının evinə qoya bilərsən. Amma o ev "Qutsal Bitiq Ünvanı" sayılmır. Bizim qanunumuz budur. Biz onu mütləq törən əsasında təsdiq etməliyik. Özü də Qutsal Bitiq Ünvanının yaranması kitabın əsasən türk abesindəki variantına görədir. Biz indi kitabları iki variantda hazırlamışıq. Biri indi oxuduğumuz latın qrafikalı Azərbaycan abesi, bir də Orxon-Yenisey əsaslı Ocaq-türk abesi. Onun qəbulu əsasən, dediyimiz kimi, Ocaq-türk abesinə görədir. Çünki Asif Atanın Bitiqləri onun öz xalqının abesində yazılmalı, oxunmalı, öyrənilməlidir. Bunu hələ Ocaqdan, Ocaqçılardan başqa heç kim yazıb-oxuya bilmir, ona

görə də biz onun ikinci variantını – latın variantını da hazırladıq ki, oxunsun. O çağa qədər ki, Ocaq-türk abesində hamı oxuya biləcək.




İndi biz burda ruhani sənəd oxuyacağıq. Qutsal Bitiqlər qəbul olduğu ünvandan qırağa çıxmır, verilmir. O yalnız burda oxunur. Bu evdən qırağa verilmir. Evdən qırağa vermək üçün ayrı nüsxələr hazırlanmalıdır. Amma bu variantlar burdan çıxmır. Niyə çıxmır? Əvvəla, onlar bizim üçün Müqəddəs kitablardır. Ona görə müqəddəsdir ki, bizi özümüzə tanıdır. Bizim içimizi öz milli kimliyimiz, milli mahiyyətimiz və insani kimliyimiz əsasında qurur. Burda bəşər məsələsi də var. Bizi qurduğu üçün, insanlığı qurduğu üçün, bizə insanlığı öyrətdiyi, yönəltdiyi üçün müqəddəsdir. Müqəddəs kitablar oxunmalıdır, amma olduğu ünvandan pərən-pərən düşməməlidir. Bilmirsən aparıldığı ünvanda o kitaba necə münasibət olacaq. Ona görə də o nüsxələr müqəddəs nüsxələr sayılır və qorunur. Onu yazmaq olmaz, cızmaq olmaz, pozmaq olmaz, onu stolun üstünə tullamaq olmaz. Ruhani sənəddə yazmışam, oxuyacam. Bu münasibət xalq olmağın əsas şərtlərindən biridir. Ruhaniyyatın əsas şərtlərindən biridir bu. Burada qətiyyən əski xurafatçılıq-filan axtarmaq doğru deyil. Çünki xalq öz kitabına, kitabının içindəki müqəddəs sözə necə münasibət bəsləyirsə,

onun varlığı o cür ifadə olunur. Pis münasibət bəsləyirsə, pis ifadə olunur. Yox, ona müqəddəs yanaşırsa, onun varlığı da müqəddəs olaraq öz təsdiqini tapır. Ona görə də biz kitablara münasibəti xüsusiləşdirmişik. Biz beş adamın içində, on adamın içində Asif Atanın kitablarına münasibət ənənəsi yaradırıq. Ocaqçıların və Ocaqsevərlərin içində Asif Atanın kitablarına münasibət ənənəsi yaranıb.

Baxın, ərəb gəldi sənin böyüklərinin başını kəsdi, girdi evinin içinə. Kitabını verdi sənə ki, bunu gözünün üstündə saxla, ən yüksək yerdə saxla ki, bu səni özgələşdirsin (Bunu sözlə demir, amma məzmun bu oldu).

Asif Atanın kitabını da biz veririk və deyirik ki, öp gözünün üstə tut, qoru ki, bu səni özümləşdirsin. Görürsünüzmü, o kitaba münasibətlə bu kitaba münasibət arasında seçim eləməliyik. O kitaba münasibətlə bu kitaba münasibət arasında özümüz üçün müəyyənlik yaratmalıyıq. Sənə verilən kitablar səni hara çağırır? Səni hansı gələcəyə çağırır? Hansı gələcəyə çağırır, deyim. Səni millətsiz, qohumsuz, qardaşsız, bacısız, ailəsiz, xalqsız gələcəyə çağırır. Baxın o kitabların təməl prinsiplərinə. Ona görə mən də üzümü tuturam türk millətinə. Hələlik türk millətinə, ümumən isə bəşər övladına, İnsanlığa üzümü tuturam və deyirəm: əlinə aldığın kitabı öyrən. Gör o səni hara çağırır. Hara yönəldir. Öyrənəndən sonra biləcəksən ki, nə sənə gərəkdir. Öyrənmədən sənə deyirlər ki, bunu gözünün üstünə tut, sən də gözünün üstünə tutursan, gözünə qaranlıq çökür, özünü görmürsən. Mən də sənə Asif Atanın kitabını verirəm. Öyrənib verirəm. Mən sənin xalqının kişisiyəm, xalqının övladıyam. Sənin yolunda özümü oda-atəşə atıram. Niyə mənə inanmamalısan? Sənə kitab verirəm ki, bunu öyrən və gözünün üstünə tut. Ona görə də əlinə aldığın kitabı yaxşı öyrən. Səni hara çağırır, nəyə çağırır. Çox ciddi şərtdir bu. Asif Atanın kitabı səni çağırır insan olmağa, ailə olmağa, vətən olmağa. Səni çağırır millət olmağa. Nəhayət, səni çağırır bəşər olmağa. Bunların hamısını da qurur hal-hal, nizamla yetirir, verir. Bayaq mən sizə söhbət elədim, biz bu gün Asif Atadan danışırıq, çox adam bilmir, tanımır. Elə bilir ki, biz Asif Atanı uydururuq. Elə bilirlər Azərbaycanı uydururuq. Əksinə, onların ağlında Azərbaycan uydurulub kiçilməsin deyə, biz onlara yön veririk. Biz üzümüzü tuturuq Azərbaycanın qədimliyinə. Görürsünüz kimdən danışırıq? – Babəkdən,

Dədə Qorquddan, Nəsimidən. Bu gün biz əslində Asif Atanı bu xalqa təqdim eləməklə Babəki, Nəsimini, Dədə Qorqudu ona təqdim eləyirik. Yəni onun varlığını özünə qaytaran dəyərləri ona təqdim edirik. Asif Atanın ətəyindən tutmağımız əslində bu xalqın indiyə qədər yaranmış bütün dəyərlərini onun özünə qaytarmaq mənası daşıyır. Mən bundan əvvəl dediyim məsələni bir daha vurğu eləyirəm: Babək harayıdır bu. Babək harayıdır xalqın içində yenidən düşüncələrə qayıdır, yenidən ayağa durur. Yenidən öz harayıyla, hikmətiylə bizim qarşımıza gəlir. Bizə yol olur. Nəsiminin harayıdır, hesab eləmə ki, Nəsimi öldü getdi. Hesab eləmə ki, Babək öldü getdi. Nə qədər insan var, insanlıq var, onun harayını çəkəcək. Öz səsinə qatacaq, öz nəfəsinə qatacaq. Onun gözəlliklərini təqdim eləyəcək. Öz gözəlliklərinə qatıb sənə verəcək. Yəni əslində xalqın gözəlliklərini xalqın özünə qaytaracaq. Bütün görüşlərimdə mən bunu deyirəm gənclərə, – Babək var sizin içinizdə. Aşkarlayın onu. Mən Babəkdən sizə ona görə danışıram, Nəsimidən ona görə daışıram ki, Nəsimi ölüb qurtarmayıb. Xalq Nəsimi ilə bitmədi. Nəsimilər var içinizdə. Aşkarlayın. Aşkarla onu, böyüt, qaytar xalqın özünə. Xalqına xidmət eləsin. İçindəki böyüklük, içindəki Babək, içindəki Nəsimi qoy xalqına xidmət eləsin. Görün, nə qədər böyük işin arxasındayıq biz. Nə qədər böyük bir ləqayətin arxasındayıq. İnsanlıq tarixi yaradırıq. Millət tarixi yaradırıq. Türkün ruhaniyyat tarixini yaradırıq. Bu vaxta qədər türkün əsaslı ruhaniyyat tarixi olmayıb. Zərdüşt türkün ruhaniyyat tarixi deyil. Çünki türk ona sahib çıxıb həyatına çevirmədi. Zərdüşt tarixin qalığıdır. Təəssüf ki, tarixin qalığıdır. Göstərin Dədə Qorqudu xalqın həyatnda, tarixin qalığıdır. Göstərin Babəki xalqın həyatında. Təəssüf ki, tarixin qalığıdır. Babəkdə çağdan, zamandan artıq olan, üstün olan hikmət xalqın mayasında var, amma ruhaniyyatına çevrilmədi. Ruhaniyyat tarixini əmələ gətirmədi. Qurmadı. Özündən olmadı. Biz Babəki çox sevirik. Amma Babəkin dediyini biz sistem kimi görmürük. Nəsimini biz çox sevirik. Amma Nəsimi ayrıca bir ruhaniyyat sistemi deyil. Biz onu çox sevirik. Əməyini də, dediyi hikməti də, aşiqliyini də, divanəliyini də. İnsanı göylərə qaldırmasını da. Əvəzsiz idi. Amma bax, yazılı kitab qəbul edirik, sizə indi təqdim edəcəyimiz kitabların içindəki məzmun sistemdir, – yeni həyat quran sistem. Göy Tanrıçılıqdan danışırlar. Göy Tanrıçılığın

sistemi yoxdur. Olsaydı, ərəbçilik ruhumuzu işğal eləyə bilməzdi... Yaratmaq imkanın var, yiyəlik eləmirsən. Yiyəlik eləmədiyin üçün yaratdıqların bitkin olmayıb. Yaratmalıydın, inkişaf etdirməliydin, cilalamalıydın. Xalqın ömrünə, həyatına verməliydin ki, sənin də ruhaniyyatın olsun. Bax, indi Asif Ata az bir sayda insanıyla bitkin bir ruhaniyyat yaradıb, onun fəlsəfəsini yaradıb, onun nəzəri əsaslarını yazıb, onun yönünü yazıb. Onun ənənəsini yazıb, əməlini verib. Böyük bir sistemdir. Asif Atanın yazdığı o kitabları, o sistemi götür, tamamilə yenidən, sıfırdan xalq olaraq həyatını başla. O qədər əsaslı bir ruhaniyyat sistemidir. Hər şey var orda! İnsan var, insanın insana münasibəti var, dünyaya münasibəti var. Bəşərə münasibəti var, təbiətə münasibəti var. Ailəsinə münasibəti var, hər şeyə münasibəti var. Dövlətinə münasibəti var, nə yoxdu ki orda?! Ölüsünə, dirisinə, hər şeyə münasibəti var. Qaydaları var. Götür, yaşa, yaşat. Qüdrətli bir xalq ol! Bax, mən sizə deyirəm, hesab eləyin ki, etnik tərkibi müəyyən olmayan bir topluma o sistemi ver ki, al bununla başla, xalq ol. O, onunla başlayar, gələcəkdə ən məşhur xalq olar. O qədər dərindir. O qədər zəngindir. Yəni etnik kimliyi sıfıra bərabər olan biri gələr o sistemlə özünü əməlli-başlı təsdiq eləyə bilər. Sən köklü-köməcli, yaradıcılığı bəlli olan, min illər tarixi bəlli olan bir xalq, götür həyatını dəyiş. Çıx əsarətdən. Çıx basqıların altından. Çıx, özün ol. Özün ol və dünya ol, bəşər ol. Dünyanın yalançı idarəsində niyə çabalayırsan. Sənin boyun ona uyğun deyil axı. Sənin boyun çox yüksəkdir. Amma boyunu o qədər əyri tutubsan ki, boynun əyilib. Asif Ata sənin boynunu düzəltməyə gəlib. Bu kitabların mənası budur.

İndi mən sizə ruhani sənədi oxuyacam. Sonra kitablarımızı qəbul edəcəyik. Sonra sözü olan söz deyəcək. Mən ilk Törən üçün qəbul olunmuş ruhani sənədləri oxumaq istəyirəm.

**“Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim**
**Asif Ataya – İnam Ataya ali səcdəylə!**

**Qutsal Nəşr Törəni**
**Qutsal Bəlgə**
**(Ruhani Sənəd)**

Türkün İlk Ruhaniyyat Ocağı Asif Atanın – İnam Atanın Mütləqə İnam Ruhaniyyatını (yəni İrsini) Qutsal Onluq və Üç Yan Bitiq olmaqla nəşrə hazır duruma gətirmişdir. Bu münasibətlə İnam Evində Qutlama Törəni keçirilir. Törənə Ocaq Evladları ilə yanaşı Ocaq yörəsindən olanlar da qatılırlar. Törəndə Qutsal Bitiqlərin anlamı, məzmunu, gələcəyi haqqında söz deyilir. Sonda Bitiqlər Mütləqə İnam Bayrağı altında hazırkı Tarixi Törən tərəfindən Mütləqə İnam (Asif Ata) Ruhaniyyatı mətninin dəqiqlik etalonu kimi qəbul olunur.

*(Bax, bu qəbul elədiyimiz onluq dəqiqlik etalonudur. Dəyişiklik eləmək olmaz. Baxmayaraq ki, bu ruhani sənədi mən yazmışam, amma Asif Atanın adından yazmışam. Onun Ocağına təqdim eləmişəm. Mən burada imza qoymuşam, amma mən özümdə haqq görmürəm bu ruhani sənədin üzərində dəyişiklik edim. Özümdə səlahiyyət görmürəm bunu dəyişdirim. Çünki Ocaqla oyun oynamaq olmaz. Bizim ruhani sənədlərimiz konstitusiya aktı kimidir Ocaq üçün. Mənim qəbul eləməyimə baxmayaraq, dəyişmək yolverilməzdir. O səlahiyyəti mən özümə vermirəm...*

*Biz Asif Atanın Kitablarını təsnifatlaşdırdıq, sistemləşdirdik, amma üslubuna, cümləsinə, vergülünə, sözünə əl vurmadıq. Vurmağa icazəmiz yoxdur. Haqqımız yoxdur. Asif Atanın möhür vurduğu, yazdığı heç nəyi dəyişməyə haqqımız yoxdur. Ancaq və ancaq inkişaf elətdirmək haqqımız var. İnkişaf etdirək, yeni ideyalar, təşəbbüslər verək, amma təməl prinsiplərə bizim toxunmağa haqqımız yoxdur. O, peyğəmbər hökmüdür, peyğəmbər hikmətidir. O, peyğəmbər təfəkküründən süzülüb gəlib. O, filosof beynindən gəlib. “Yox, bu indiki dövrə uyğun deyil, filan”, bu kimi deyilişlər keçmir”. Dövrə uyğun olan ənənələrdir. Biz onu inkişaf elətdirəcəyik. Bizdən sonra da inkişaf olacaq. Təməl prinsip*

*dəyişməyəcək. Bax, buna münasibət birmənalı şəkildə belə qəbul olunur. Bunu Ocaq olaraq bilməliyik.)*

Bitiqlər ayrı-ayrılıqda mavi parçaya bükülür və İnam Evində özəl olaraq onlar üçün ayrılmış yerdə saxlanılır.

*(Mən bir haşiyə də çıxım. Birinci, Qutsal Bitiqlərin yazılıb ərsəyə gəlməsində Göylü Atalının əvəzsiz xidməti var. Biz Göylümüzü təqdir eləyək. Bitiqlər bilgisayarda Göylü tərəfindən yazılıb, onun zəhmətinin bəhrəsidir, gecəsini-gündüzünü ona həsr edib, bilgisayarda yazıb. O, Bitiqləri göz bəbəyi kimi qoruya-qoruya kəlmə-kəlmə yazıb Ocağa təqdim eləyib.*

*(Göylü Ataya səcdə ilə Bayrağı öpür - G.A.)*

*Sonra, o kitabların hər birinə onun ölçüsündə bükməcə (köynək) tikilib, bunu Üstün Atalı eləyib. Ona görə Üstünün bu ləyaqətini, zəhmətini təqdir edirik. Hər bir Törəndə bunların əməyi təqdir olunmalıdır. Amma Qutsal Bitiqlərin Ünvanlaşması bir yerə qədərdir. Onu deyəcəm.*

*(Üstün Ataya səcdə ilə Bayrağı öpür - G.A.)*

*Eləcə də Qutsal Bitiqlərin yazılmasında, korrektəsində Nurtəkinin özünəməxsus ləyaqətli xidməti var. Biz onun da əməyini təqdir edirik. Atanın qarşısında üzü ağdır.)*

Törən Ocaq İlsırasına yazılır, ancaq növbəti illərdə təkrar olunmur. Qutsal Bitiqlərin ilk nüsxələri İnam Evindən qırağa verilmir. Hər hansı bir Bitiq baxılmaq, oxunmaq üçün götürüldükdə öncə öpülüb göz üstündə tutulur, bundan sonra qarşıya qoyulub açılır. Bu zaman stolun üstündə həmin Bitiqdən başqa heç nə olmur. İstifadə başa çatanda Bitiq yenidən öpülüb göz üstə tutulur, bükməcəsinə geydirilib yerinə qoyulur. Bitiqlərə münasibətin bu quralı hər bir Ocaq Evladının evində də gözlənilir. Qutsal Bitiqlərin saxlandığı odada ucadan danışmaq, qəzəblənmək, çığırmaq, bağırmaq, başqasının xətrinə dəymək, yersiz zarafatlar etmək müqəddəsata saygısızlıq sayılır. Mütləqə İnam Ocağının Qutsal Bitiqlərə münasibəti xalq üçün örnəkdir. Nəzərə çatdırılır ki, Onluq və Yan Bitiqlər Asif Ata irsinin yalnız bir hissəsidir. Ancaq önəminə görə başlıca hissəsidir.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız Var olsun!

Mütləqə İnam Ocağının Yükümlüsü
**Soylu Atalı**
08 Köçəri Ayı, 30-cu il. Atakənd.
(Fevral, 2009, Bakı.)

*Bu, ruhani sənədin yazıldığı tarixdir. İndi sizə ikinci ruhani sənədi oxuyuram.*

**“Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə!**

**Mütləqə İnam Ruhaniyyatı**
**Qutsal Bəlgə**

Türkün İlk Ruhaniyyat Ocağı Asif Atanın – İnam Atanın Mütləqə İnam Ocağı 30-cu ildə (miladın 2008-2009-cu illərində) Asif Ata İrsindən özünün ən uca ümumbəşəri ruhani dəyər kimi tapındığı hissəni – On Qutsal Bitiq və Üç Yan Bitiq (“Qutsal Onluq”) adı altında nəşrə hazırlyır. Onluq Atamızın 43 Müqəddəs Kitabını və 7 Müqəddəs Kəlamını özündə birləşdirir. Bitiqlərin təsnifatı və sistemləşdirilməsi içlərindəki kitabların Mütləqə İnam baxışında yerinə görə aparılmışdır. Hər Bitiq Ata təlimindəki məna ifadəsinə əsasən adlandırılmış, Ata mətnlərinin bütövlüyü, ilkinliyi, məzmunu, dili, üslubu, cümlə quruluşu olduğu kimi saxlanılmışdır. Asif Ata irsinə yönəlik bu prinsip həmişə və hər yerdə gözlənilməlidir. Bitiqlərin indi təqdim olunan quruluşu, biçimi, adları, sayı da toxunulmazdır. “Onluq” Mütləqə İnam Ocağı tərəfindən Mütləqə İnam Ruhaniyyatı, Ata Müqəddəsatı sayılır. Yan Bitiqlər (əlavə cildlər) Müqəddəs irsə daxil edilir, məzmunlarına görə Onluğa daxil edilmir. Çünki Onluq Mütləqə İnam Dünyabaxışının cövhərini və meyarını birbaşa, Yan Bitiqlər isə onun ayrı-ayrı məqamlarını və dolayısıyla ifadə edir. Bütövlükdə Ata dilindən, Ata qələmindən nə çıxıbsa, Mütləqə İnam Dünyabaxışının Qutsal İrsi sayılır. Ancaq Onluğa daxil edilmir.

*(Bir şeyi də qeyd edim. “İnam və Şübhə”, “Müdriklik Səlahiyyəti” Qutsal Onluğa daxil deyil. Niyə? Onlar Asif Əfəndiyev dövrünün*

*kitablarıdır. Onlar bizim üçün əzizdir. Orda çox gözəl, aydın hikmətlər var. Orda çox gözəl yön var. Xalqın içinin harayını çəkən rüşeym – başlanğıc ordan başlayıb. Gözəldir. Amma Asif Əfəndiyev dövrünün tənqidi yöndə kitablarıdır. Bir daha vurğu edirəm, bizim üçün Ata dilindən çıxan hər şey əzizdir, gərəklidir, dəyərlidir. Xalqa gərəkdir. Amma Qutsal Onluğa daxil olmur.)*

İrsin yiyəsi, qoruyucusu, sorumlusu Asif Atanın – İnam Atanın Mütləqə İnam Ocağıdır. İrslə bağlı bütün hüquqlar bu Ocağa məxsusdur.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız Var olsun!

Mütləqə İnam Ocağının Yükümlüsü

**Soylu Atalı**

08 Köçəri Ayı, 30-cu il. Atakənd.

(Fevral, 2009. Bakı.)

*Nəhayət, məhz bugünkü günlə bağlı yazdığım Ruhani Sənədi də oxuyuram sizə.*

**“Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə!**

### Qutsal Bəlgə

Asif Atanın Mütləqə İnam Ocağı İlsıramızın 36-cı ili, Günəş Ayının 22-də Günev Atalının evinə “Qutsal Onluğun Qəbul Törəni”ni həyata keçirir. Bu tarixdən başlayaraq Günev Atalının evi “Qutsal Bitiq Ünvanı” sayılır. “Ocaq Tarixinin Qızıl Dövrü”nə yazılır.

*(Bir dənə də Ruhani sənəd vardı – “Ocaq Tarixinin Qızıl Dövrü”nü təsdiq edən sənəd, gətirməmişəm. Biz şeyi də diqqətinizə çatdırım. Mən bir ruhani sənəd yazdım ki, Qutsal Bitiqlərin Qəbul Törəni həyata keçirildiyi gündən həmin gün Ocaq Tarixinin Qızıl Dövrü sayılır. Xalqda Bitiqlərin Ünvanlaşması – Ocaq Tarixinin Qızıl Dövrüdür. 22 Günəş Ayı 31-ci il tarixdən, Qutsal Bitiqlərin Qəbul Törəninin ilk günü Ocaq Tarixinin Qızıl Dövrü sayılır).*

Qutsal Bitiqlərə Münasibət Bəlgələrinin tələbləri Qutsal Bitiqlərin yeni ünvanı olan Günev Atalının evində qüvvəyə minir. Bu hadisə evdə

yaşayanların ləyaqətini, Bitiqlərə yiyəlik ərdəmliyini ifadə edir. Ancaq evin əlavə imtiyazı olmur. Ev pirləşmir, İnam Evinə – Məbədə bərabər tutulmur. Türk Ulusunun peyğəmbərinin (Atasının) Qutsal Bitiqlərinin öz ulusal abesində xalqın evlərində ünvanlaşması gününü "Ocaq Tarixinin Qızıl Dövrü" adlandırmışıq. Bu tarix 22 Günəş Ayı, 31-ci ildən başlayır.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

Mütləqə İnam Ocağının Yükümlüsü
**Soylu Atalı**
18 Günəş Ayı, 36-cı il. Atakənd.
(Mart, 2014. Bakı.)




İndi bununla bağlı əlavə bir fikir də deyim. Günev qardaşımız, bu ruhani sənəd həm türk abesində, həm latın qrafikasında (əlyazı da burda var), bu sənin evinin ruhani sənədidir. Bunun bir nüsxəsini mən evdə saxlamışam.

İndi zəhmət olmasa, ayaq üstə Bitiqlərimizi qarşılayaq. Göylü və Üstün onu bir yerdə gətirsinlər.

*(Göylü və Üstün Bitiqləri özəl taxçada gətirirlər - G.A.)*

Qutsal Bitiqlərimizin təqdimatına başlayırıq.

*(Ocaq Yükümlüsü Bitiqləri bükməcədən (köynəkdən) bir-bir çıxarıb adını deyir, mənasını izah edir və Günev Atalıya təqdim edir. O da qəbul edərək öpüb gözünün üstə tutur.)*

**Soylu Atalı:** İndi xahiş edirəm Günev Atalıdan, Bitiqləri evinə qəbul eləməsiylə bağlı nə düşünür, hansı hissləri keçirir, nə fikri varsa, buyurub izhar eləsin.

**Günev Atalı**: Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə!

Bayrağımızı öpürəm.

Qəbul Törənimizlə bağlı nə hisslər keçirirəm? Burda nə hisslər keçirilə bilər? Birinci növbədə, hədsiz bir iftixar hissi. İkinci, mənim bu evimin, divarlarımın belə bir gərəkli ünvana çevrilməsi mənim üçün heç nəylə ölçülməyən bir fərəh əməldir. Bunun arxasında ömrümüzün sonuna qədər varıq. Necə ki, Ocağa qəbul olunanda and içdik – "ömrüm sənindir, Ata, götür onu və istədiyin kimi sərf elə". Bu Yükü həmin andın bir hissəsi kimi qəbul edirik. Bəli, bu divarlarımızın İnam Ata kitablarının ünvanı olması və onun arxasında durmaq qüruru, məsuliyyəti necə gözəldir. Biz onu fəxrlə qəbul edirik. Bu oda təkcə bizim odamız deyil. Bizi bu gün tam anlamayan insanlarımızın ixtiyarı var bu evdə. O dərəcədə ki, hətta mən evdə olmayanda gəlib bu kitabları oxumaq istəyənə açarlarımı verib gedə bilərəm. Bundan artıq bir xidmət varsa, onu da qəbul edirəm.

Bu kitabların ərsəyə gəlməsi, təbii ki, çox uzun bir proses keçdi. Birinci növbədə, Asif Atanın özünü yaratması. Bütün o düşüncələrin, bütün o əzabların onun içinə axması, xalqının dünyada yersiz bir duruma salınması, zəngin dəyərlərə malik xalqın bugünkü səviyyəsi Atanın içində yoğruldu, axtarışa çevrildi, Ocaq yarandı. Asif Ata xilaskarlıq harayı çəkməyə başladı, Atakənddə (Bakıda), sonra bölgələrdə. Hər görüşləri də elə-belə başa gəlmirdi. Həm Ocaqçıların fədakarlığı sayəsində əmələ gəlirdi, həm Atanın özünün inadı. Asif Atanın hədsiz inamı vardı. İnanırdı ki, bu xalqı belə qurmaq olar. Bu xalq uçurulmuş durumdadı. Yadlıqlara qarşı bu xalqı qaldırmaq lazımdır. Yadlqılardan imtina eləməsə, özünü tapmayacaq.




Asif Atanın insani varlığından süzülüb gəldi bu kitablar. Türkün yolunu müəyyənləşdirdi. Ocaq yarandı. Ocağın Ruhani Ailə biçimi yarandı, hər şeyi yarandı. Ocağın bayrağı yarandı. Bu Bayrağın altında Asif Ata təkcə Azərbaycanın deyil, Bəşəriyyətin dərdini düşünürdü. İnsanlığın dərdini düşünürdü. İndi Ocaq Atanın işlərini davam edir. Bu kitabların hazırlanması da o böyük işi davam eləmək üçündür. Atanın Ruhani inadı Evladlarda davam edir...

Bütün bunları bir araya gətirən, onlara yiyəlik eləyən Soylu Atalı yarandı. Ona görə Asif Atanın Ocağı Onun ölümündən sonra sönmədi. Ləyaqətli bir şəxsiyyətin – Soylu Atalının ərdəmliyi Ocağı yaşatdı. Ona görə bu böyük İrs xilas oldu, dağılmaqdan qorundu. Bu gün Asif Ata Ocağına yiyəlik eləyən, Yükümlülük eləyən, bütün cəfasını çəkən, hətta hər bir Ocaqsevərin qayğılarını belə daşımaqdan usanmayan Soylu Atalının qüdrətiylə Ocaq ülvi bir mühitə çevrilib. Soylu Atalını şərh eləməyə mənim sözümün qüdrəti çatmır. Amma Soylu kimliyi bəllidir, o, qarşısıalınmaz ruhani bir seldir, onun içində qurucu bir hikmət var. Bu gün mənim özümün Asif Ata Ocağının varlığında olmağımın ən böyük səbəbkarı Soyludur. Demək olar ki, əsası da Soyludur. Minnətdaram ki, Soylu məni sönməyə qoymadı. Mənim elə bir dövrüm, elə bir vaxtım olub ki, müəyyən mənada bir az yorulmuş, qırağa duran

məqamlarımda Soylu gəldi, əlimdən tutdu, mən yenidən başladım... Sözümü bitirirəm, yenə vurğulamaq istəyirəm ki, bu ünvan xalqındır, bu elindir. Vaxt məhdudiyyəti yoxdur. Evdə olmasam belə, açarı verib gedə bilərəm. Buyur, orda kitablar. Orda çay var, çörək var... Bu hal mütləq olacaq! Mən ona inanmasam, bütün bunlar nəyə lazımdır?! 25 ildir o böyük inamla Yol gedirəm... Atamız var olsun!

**Soylu Atalı:** Bax, bu ünvanda qardaşımın amaldaşı, çiyindaşı Elana bacımızın qatqısı var, rolu var. Mən qəti əminəm ki, bu gün onun da fərəhli günüdür. Ona görə dinləyək, o da sözünü desin.




**Elana Atalı:** Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə sözümə başlayıram və bayrağımızı öpürəm. Müqəddəs kitabların mənim olduğum evə qəbuluna görə içim, ürəyim fərəhlə doludur. İnanıram ki, vaxt gələcək, yana-yana dünyanın dağıldığını deyənlər bu kitabları oxuyandan sonra dünyanın düzəlməsinə inanacaqlar. Necə ki, mən inanıram. İnanıram ki, bu kitablarda dünyanın ruhani nicatı var. Çalışırıq ki, xalqımız da bunu bilsin.

Bu kitabların evimizə, ruhumuza gətirdiyi işığın sevinci ilə yaşayacam. Ürəyim fərəhlə dolur. Atamız Var olsun!

**Soylu Atalı:** İndi Göylü Atalını dinləyək. Haqqı var.

**Göylü Atalı** Ataya səcdə edib sözünə başladı: Atagün Eli bir neçə cəhətdən müqəddəsləşmiş ünvandır. Birinci, ona görə ki, burda Atanın adı, ruhu, inamı yaşayır. Burda Atanın ilk dəfə gömüldüyü torpaq var. Sonra, ona görə ki, bu adı, bu ruhu, bu inamı yaşadan Evladları – Günev və Elana Atalılar var. İnam Məbədi var. Nəhayət, "Qutsal Bitiqlərin Qəbul Törəni"ylə müqəddəs ünvan yarandı bu evdə, bu eldə, bu yurdda. Kitabların ərsəyə gəlməsinə gəlincə, Günev bəy bunu çox doğru vurğuladı. Uzun bir yol gəlibdir. Ən başından Atanın əzabları, düşüncələri, ömrü hamısı bu kitablara hopub. Biçimcə kitab halına gətirmək sonrakı mərhələlərdir, ikinci etapdır. Düzdür, bu da qeyrət istəyir, hünər istəyir. Bu baxımdan özümü çox xoşbəxt hiss edirəm ki, bu hünərdə mənim də qatqım olub. Qürur hissi keçirirəm ki, Atanın böyük işinə çiyin verə bilmişəm.




**Üstün Atalı:** Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə sözümə başlayıram.

Bu gün bayramdır. Bu gün bizim timsalımızda xalqın öz içinə üz tutmasının bayramıdır.

Yeriş üçün inad lazımdır. Yeriş üçün mübarizə lazımdır. Bəs mübarizəni necə aparırıq? Atanın ideyasıyla, Atanın kitablarını xalqa

verməklə. Biz başqa dünyabaxışlar kimi zülmlə, zorla gəlmirik. Biz sevgiylə gəlirik. Biz öz inamımızı, öz sevgimizi veririk. İnanırıq ki, bu təməl üstündə də xalqın sevgisini qazana biləcəyik. Ağlını böyüdə biləcəyik. Sevgi, inad, hünər olan yerdə qeyri-mümkündür ki, ondan qaçasan. Yerimək üçün bizim istənilən qədər gücümüz də var, tapınacaq, dayaq ola biləcək ideyamız da var.

Bu gün burda olduğum üçün özümü xoşbəxt sayıram. Amaldaşlarımı qutlayıram. Gün o gün olsun ki, belə Qutsal Bitiq ünvanları tək Atagün Elində deyil, bütün bölgələrdə də olsun. Mənim öz evimdə bu sevinclə bu hadisəni gözləyirəm. Atamız var olsun!

**Soylu Atalı:** Bir ildən bir az artıq vaxt öncə axtarışlarla, soraqlarla yurdunda söz yiyəsinin olmasını eşitməklə ünvanımıza üz tutan və dəyərlərimizi öyrənməyə, içinə çəkməyə başlayan, özünü Ata Yoluna borclu bilən, onun yükünün altına girən, türk heyrətiylə, insan heyrətiylə vurulan, Ocağımıza ümid verən, güvənc verən Güntay qardaşımız söz desin.

**Güntay Atalı:** Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə sözümə başlayıram. Bayrağımızı öpürəm.



Çox gözəl bir Günə şahidlik eləyirəm. Bu eldə bu ev “Qutsal Bitiq Ünvanı”na çevrildi. Təsdiq olundu. Günev qardaşımın, Elana bacımızın sevincinə qatılıram. Bu, Ocaq tarixində ən dəyərli yeri olan bir addımdır. Asif Atanın başladığı işi davam etdirməklə tarix yazırıq. Bu, sıradan bir iş deyil. Kimsə baxar qıraqdan, ona adi görünər, mənim isə içimi heyrət bürüyüb.

Soylu bəy ömrünün 24 ilini Asif Atanın Amalına verib, qaynayıb-qarışıb Amalla. Bizə də daim ruhani yön verir, buna görə mən Soylu bəyə minnətdarlığımı bildirirəm. Azərbaycan-türk ruhaniyyat tarixində Soylu bəy artıq adını yazıb, təsdiq eləyibdir. Ona görə də bu ünvanın Qutsal Bitiq Ünvanı olması münasibətilə onu təbrik edirəm. Eləcə də Günev qardaşımızı, Elana bacımızı təbrik edirəm, onlar çox gözəl bir ünvanda yaşayırlar.

Türk Ruhaniyyatının yaradıcısını (Asif Atanı) oxumaq, öyrənmək gərək. O, insana İnsan olduğunu deyir. Millətə millət olduğunu deyir. Xalq olmağın yolunu göstərir. Toplumdan xalq düzəldir. Dəyərlərin itdiyi bir vaxtda dəyər yaradır, dəyərlərə sahib çıxıb xalq yaradır. Sabaha söz deyir. Min il bundan sonraya söz deyir. Çox xoşbəxtəm. Sağlığımızda belə ünvanların çoxalmasını görmək istəyirəm. Atamız Var olsun!

**Soylu Atalı:** Biz dünəndən bura gəlmişik. Dünəndən də demək olar ki, iş başındayıq. Sözümüz, tədbirimiz, əhvalımız görün nə qədər zəngindir. Bax, biz burda dedik, danışdıq, nahar elədik, iki gündür bir yerdəyik. Bu gördüyünüz insanlar bir-biri üçün adiləşmədi. Bir-biri üçün önəmini, dəyərini azaltmadı. Bir-birinə güldən ağır söz demədi. Yolboyu gələndə bir söz işlətdim. Səfərə gedirik. Səfər çox böyük mədəniyyətdir. İnsanlar tədbirimizə gəlir. İki saat, üç saat, dörd saat bir yerdə oluruq. Bu müddəti özünü sıxarsan, mədəniyyətli, qanacaqlı görünməyə çalışarsan. Amma bir gün, iki gün, üç gün bir yerdə səfərdə olasan, içində nə varsa, üzə çıxacaq. Yaxşı, ya pis. Mümkün deyil axıra qədər özünü gizləyəsən. Asif Atanın Ocağı, mühiti, görürsünüzmü, necə içlər oluşdurur. Dedik də, güldük də, biz burda qaşqabaqla oturmamışıq. Zarafatımız da oldu. Amma əndazəni keçmədik, bir-birimiz üçün adiləşmədik. Sayğı ortadan qalxmadı. Dəyərimiz öz yerini tanıdı. Bu

böyük bir mədəniyyətdir. Bizim gəlişimiz ruhani səfərdir. Bu da ruhani səfər mədəniyyətinin təsdiqidir.

Bax, iki gündür bizimlə bir yerdə içindən söz deyir, içindən hal gəlir, bayaq da mən tonqal başında həyəcanını müşahidə elədim. O həyəcanın özü mənimçün müqəddəsdir. Bizimlə bir yerdə tədbirdə söz deyir, halımıza bağlanır, halımıza daxil olur. Eləcə də Bakıda, nə qədər tədbir keçiririksə, tək-tək tədbirlər olub ki, qatılmayıb. Səhv etmirəmsə, iki ildir bizim tədbirlərimizə qatılır Elçin bəy. Uzun müddətdir tanıyıram, müşahidə edirəm, onun mərifəti, mədəniyyəti, xalqdan gələn tərbiyəsi – bunlar insanlıq üçün özü bir mədəniyyət örnəyidir. İndi sözü varsa, buyursun.

**Elçin Həsənov**: Bilirsiz, bəy, insanın gözləri bəzən nə demək istədiyini bildirir. Elana xanım da mənim kimi emosionaldır. Çıxışını bildirə bilmədi. Amma mən onun gözlərindən və bugünkü hərəkətlərindən hər şeyi anladım. Biz iki gündür burdayq. Bütün çətinliklərə rəğmən, acılara, xəstəliklərə rəğmən böyük bir insaniyyətlik göstərdilər Günev bəy də, Elana xanım da. Bu gün biz insanlığın nə olduğunu burda gördük. Bundan sonra da görəcəyik. Mən birinci dəfədir bura gəlirəm. Gözəl bir əhvalla sabah çıxıb gedəcəm... Asif Ata Ocağı bu deməkdir. İnsanlıq axtara-axtara neçə ildən sonra mən Asif Ata Ocağına gəldim. İnsanlığın nə olduğunu, türkçülüyün, vətənçiliyin nə olduğunu gördüm. Mən onların nə olduğunu bilirdim, bilmək ayrı, görmək ayrı. Bu gün biz sayca kiçik bir Ailəyik, amma böyük yükləri çiynimizdə daşıyırıq.

Mən burdan böyük xatirələr aparıram özümlə. Böyük insanlara rast gəldim. İnsanlıq bu deməkdir. İnsanlığın, vətənpərvərliyin nə olduğunu, gözəlliyin nə olduğunu mən bu evdə gördüm. Sizlərdə gördüm. Bu pafoslu sözlər deyil. Ürəkdən gələn sözlərdir. Amal Bağında Məbədin tikintisi gedir. Böyük işlər görür Günev bəy. İnsanların ora axın-axın gələcəyinə mən əminəm. Çünki hər şey kiçik bir atəşdən, qığılcımdan yaranır. Neçə illər ola bilər, 24 il də olar, 25 il də. Mən bir dəfə demişdim ki, demokratiya uzun yoldur. Mən baxıram ki, İnsanlaşma özü uzun bir yoldur. Bu yolu biz getməliyik. Biz vətən, torpaq deyirik. Bu millətin pisi də, yaxşısı da bizimdir. Heç kimdən qaça bilməzsən. Sən millətindən qaça bilməzsən. Pis insan yoxdur, pis münasibət var. Pis insanlara da, bizə pis münasibət bəsləyənlərə də insanlığımızı

göstərməliyik, örnək olmalıyıq ki, onlar da bizim dalımızca gəlsinlər. Bundan sonra belə olacaq.

Bugünkü Törənin məzmunu münasibətlərimizdə özünü göstərdi. Hər birinizi təbrik edirəm.

**Soylu Atalı:** Təvəkkül bəy bizim bir neçə tədbirimizdə olub. Bu ənənəmizi də bilmirdi, bildi. Təvəkkül qardaşımız bizə artıq doğmalaşıb. Yeganə arzum odur ki, Təvəkkül bəy getdikcə hərtərəfli Atanın irsiylə, işiylə, tələbiylə yüklənsin. Çünki o, öz evinin oğlu deyil, indi o hesab eləsin ki, öz elinin və öz xalqının oğludur. Öz elinin, xalqının oğlu olmaqdan böyük şərəf yoxdur. Dinləyək qardaşımızı.

**Təvəkkül bəy:** Emosional olduğumdan danışmaqda çətinlik çəkirəm. Mənim yazdıqlarım vardı, indi gətirəcəkdim, bir az tələsik oldu, ona görə qaldı. Əvvəllər elə bilirdim ki, mənim kimi düşünən olan insanlar yoxdur. Amma sizi tanıyandan sonra, bu Ocağa gələndən sonra gördüm ki, mən tək deyiləm, əksinə, hələ öyrənəcəyim çox şeylər varmış.

Uşaqlıqdan bu hisslər mənim içimdə idi. Bu millətə həqiqətən yazığım gəlirdi. Nə yaxşı ki, siz varsınız. Nə yaxşı ki, belə ləyaqətli qadınlarımız var. Mən fəxr edirəm ki, sizin əhatənizdəyəm. Yeganə məqsədim də budur ki, millətimizi bax bu işıqlı yola dəvət eləməkdə əlimdən gələni əsirgəməyim. Biz öz kökümüzə qayıda bilək. Şəxsən Soylu qardaşımıza da mən təşəkkür edirəm ki, belə coşğun, qanadlı söhbətlər aparır, iş aparır. Bu, məni həqiqətən çox təsirləndirir. Uğurlarımızın artacağına çox inanıram. Atamız Var olsun!

**Soylu Atalı:** Var olun. Hər birinizin ruhunuz uca olsun. Bayaq da vurğu elədiyim kimi, biz iki gündür davamlı iş başındayıq. Nə baş verdi? İçimizin insan sevgisiylə, tələbiylə və üz tutduğumuz gələcəyin müqəddəs sorağıyla evimizdən, yurdumuzdan qopub gəldik – vətənimizin Atagün Eli adlanan, Atagünləşən bir ünvanına. Biz burada iki Ruhani Ailənin birgə “Ailə Günü” mərasimini keçirdik. Bu mərasimdə biz insanlığın, Ocaqçılığın hesabatını verdik. Bura gəlməzdən öncəyə qədərki yaşantılarımızı ifadə elədik. Mübarizəmizin yönünü ifadə elədik. Gördüyümüz işlərin hesabatını birgə dinlədik. Bu, yolun gedişini rəvanlaşdıran, gözəlləşdirən, qabağa aparan yeni mərhələyə çatdıran mərasimdir. İnsanın öz içində yol getməsidir. Amalında yol getməkdir.

Xalqında yol getməkdir. Bu, üzü gələcəyə böyük bir eşqlə qopub uçmaqdır.

Bu gün biz Amal Bağında İnam Məbədini ziyarət elədik. İnam Evini ziyarət elədik. Eyni zamanda Atanın gömüldüyü ilk torpağı ziyarət elədik. Ora gəlişimizin mənasını izhar elədik. Biz Asif Atanın iz qoyduğu torpağa gəlirik, gözümüz yadlıqlardan yığışır. Gözümüz, üzümüz özümüzə dönür. Bizim gəlişimizin məqsədi odur. Tələbi odur. Biz öz yurdumuzu ziyarət edirik. Müqəddəsliyi öz yurdumuzda yaradırıq. Biz vətən adlanan böyük bir məzmunla, mənayla üz-üzə gəlirik, iç-içə gəlirik. Bizim ziyarətimizin məqsədi budur. Vətənləşirik, insanlaşırıq. Bundan böyük əməl bəşər tarixində mövcud deyil... Dünyada bundan ali iş yoxdur. İçəridə nə qədər uca əhvallar qaynayır. İnsan nə qədər coşar, nə qədər daşar. Niyə içimiz aşıb-daşır? Niyə yorulmuruq, niyə tükənmirik? İllərlə bu gücü, bu qüdrəti yaratmışıq. Nədən? Asif Ata içimizə hopub. Onun varlığı ömrümüzə daxil olub. Hər bir insan öz içində Atanı yaratmalıdır. Öz içində yaratdığı Atayla özünə Atalıq eləməlidir. O, fiziki olaraq yoxdur həyatda. Amma onu sən içində fərəhinə çevirirsən, gücünə, qüdrətinə çevirirsən. Onunla özünə Atalıq eləyirsən. Tükənmirsən. Atanın tükənməzliyi gəlir içinə. Atanın coşğunluğu gəlir içinə. Bax, görürsünüzmü, ona görə biz deyirik ki, bundan böyük əməl tanımırıq. Bundan böyük iş tanımırıq. Nə eləyirsən elə, İnamın Atasından böyük idraka malik olmayacaqsan ki. İnamın Atası bütün həlqələrin hamısının möhkəmliyini yoxladı. Heç biri gələcəyə bağlı deyil. Dişinə vurdu hər şeyi. Ona görə dedi ki, ancaq və ancaq Ocaq gərəkdir. Bu gün sənin xalqın elə bir səviyyədədir ki, bu xalqın çiyninə yarımca xurcun belə, qoya bilməzsən, nəinki böyük hikmət yükü. Ona söz deyirsən, ayrı hava çalır. Ləyaqətsizləri Allah kimi qarşılayır, səni isə görmür. Sən bu səviyyə ilə hara gedirsən?! Ona görə dəyişməlisən. İçindən dəyişməlisən. Atanın dediyi kimi, ağac-ağac, hal-hal, fərd-fərd. Az-az ağlı başında olan insanlarımızın içi o qədər böyüməlidir, o qədər genişlənməlidir ki, o iç, o dözüm min il tab gətirsin. Bizim içimiz min il tab gətirməlidir. Min il o fərəh qaynamalıdır. Bizim içimiz o qədər fərəhlə qaynamalıdır ki, min il ürəyimiz dözməlidir o yükə ki, xalq olaq. Xalq olmaq kommunist partiyası olmaq deyil. Böyük məsələdir.

Beləliklə, biz bu gün bu tədbiri böyük bir şövqlə, fərəhlə həyata keçirdik. Sizin hər birinizin qəlbinizin sevincini, fərəhini, dözümünü alqışlayıram. Hər birinizin qəlbinizin gözəlliyini yaradan o fərəhi alqışlayıram. Hər birinizin qəlbinizdən öpürəm. Atamıza layiq əhvallar sərgilədiyinizə görə, Onun gələcəyinə uyğun əhvallar sərgilədiyinizə görə sizin qəlbiniz müqəddəsdir və öpüləsidir. Kəbədən müqəddəsdir sizin qəlbiniz.

Bununla da Günev Atalının evinə "Qutsal Onluğun Qəbul Törəni"ni başa çatdırırıq. Amaldaşlarım Günev və Elana, sizi təbrik edirik. Ocağımızı təbrik edirik. Sizin ləyaqətinizə sevgimizi ifadə edirik. Həm də sizə Ocağımızın, Atamızın adından böyük bir İrsi həm ərmağan edirik, həm də sizə tapşırırıq. Sizə güvənirik və inanırıq.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız Var olsun!

***Günəş Ayı, 36-cı il.***
***(mart, 2014.)***



**Asif Atanın – İnam Atanın**
**Mütləqə İnam Ocağı**

Ata-Ocaq İlsırasının 36-cı ili
**Günevin Yükümlüsü olduğu "Atagün" Ailəsinin**
**II Aylıq Mərasiminin**
**Gedişatı**

**Gün:** 30 Çiçək Ayı;
**Yer:** Atagün Eli (Örənqala);
**Başlanır**: saat 16.00

• Oda Mərasimin Ruhuna uyğun hazırlanır. Gül-çiçək, yazmaq üçün texniki vasitələr təşkil olunur. İşə sorumlu Elana Atalıdır.
• Hamı ayaq üstə "Ata Ruhuna Pənah gətirmişik!" deyir.

**Hesabat qonuları:**
1. Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı;
2. İdeya düşüncələri dəyişməlidir. Bunun üçün Ruhani Ailə biçiminin yaratdığı məsuliyyət və vəzifələri necə qiymətləndirirəm?

Qonaqlara söz verilir, mövqeləri dinlənilir.

**Müqəddəs Oxuma:** "Haqq-Haqqsızlıq" kitabının davamı oxunub şərh edilir.

"Ata Ruhunu Ürəyimizdə aparırıq!", "Atamız Var olsun!" səcdəsiylə Gün başa çatır.

**Gün'ün Carı**

Ata Yolu – Yorulmazlıq və Dönməzlik deməkdir!
"Atagün" – Atalılar Dünyasını qorumağa qadir!

*Gedişatı yazdı:* ***Günev Atalı***
*16 Çiçək Ayı, 36-cı il. Atagün Eli.*
*(aprel, 2014. Örənqala.)*

**Qəbul olunur.**

**Mütləqə İnam Ocağının Yükümlüsü**
**Soylu Atalı**
*Çiçək Ayı, 36-cı il. Saray-Soylu.*

## “Atagün” Ailəsinin II “Ailə Günü” mərasimində deyilmiş fikirlər

*Əvvəl mərasim qaydaları icra olundu, sonra Ailənin Yükümlüsü Günev Atalı sözünı Ataya səcdə ilə başladı:* Müqəddəs Günümüzə başlayırıq. Ocaq günsırasının 36-cı ili, Çiçək Ayının 30-u, ikinci “Ailə Günü”müzü keçiririk. Şərhə ehtiyac yoxdur. “Ailə Günü”müzün məğzi, mənası hər birimizə aydındır. Yurdumuzun acınacaqlı halı hər birimizin ürəklərimizə hopduğundan “Ailə Günü”müz həmin əhvalı açır, onun əlacını izhar edir. Gün’ün bir tələbi də budur.

Ailəçilər hesabat verirlər. Ay ərzində nə iş görüb, hansı səviyyəyə yetibdir. Onun amallaşmasında, kamilləşməsində və xalqlaşmasında nə dərəcədə gəlişmə var. Bu kimi əhvallar da burda açılır: Özüylə döyüşüm (özümü böyütməm) hansı səviyyədədir. Amalı necə çatdırmışam, yəni harda, kimə, necə? Beləliklə, bəlli mövzulara cavab veririk. Bugünkü sualımız da “İdeya düşüncələri dəyişməlidir, bunun üçün Ruhani Ailə biçiminin yaratdığı məsuliyyət və vəzifələri necə qiymətləndirirəm?” Amallaşmamla bağlı deyəcəm. Ata irsindən müxtəlif kitablara müraciət eləmişəm. Ayrı-ayrı hissələri təkrar-təkrar oxumuşam. Soylu Atalının yazılarını, internetdə sayta qoyulan başqa Ocaq yazılarını, mətbuatda gedən yazıları oxumuşam. Amma əsasən sistemli şəkildə “Mütləqə İnam”ı davam edirəm. Birinci kitabımız olan “Mütləqə İnam” 5 əsərdən ibarətdir: “İnsan”, “İnam”, “Ruh”, “Həyat”, “İntibah”. “Ruh” əsərindəyəm indi. Ordan özüm üçün ümumiləşdirib yazdığım bir hissəni sizin üçün oxumaq istəyirəm.

*(Günev Atalı “Mütləqə İnam” Qutsal Kitabından özümləşdirdiyi fikirləri oxudu – Göylü Atalı).*

Bir millətin, bir ulusun var olması nədən başlayır? Əlbəttə ki, fərd olmaqdan. Fərd özündəki naqislikləri öldürməyənə qədər, özündəki naqisliklərindən özüylədöyüş vasitəsilə azad olmayana qədər azadlıq haqqında danışmağa heç bir haqqı yoxdur. Çünki cəmiyyətdəki şəri döymək üçün özündəki şəri döymək lazımdır. Şər də ki, insanın özüylə bərabər doğulub, yaranıb. Şər özü bir növ sonradan qazanılan keyfiyyət də deyil. Qorxu duyğusu mənimlə birlikdə doğulub. Həsəd mənimlə birlikdə doğulub. Ola bilər ki, hansısa fərdin fitrətində olmasın. Amma

ümumilikdə bu belədir. Hər bir kəsin daxilində gözəlliklə, ədalətlə, haqqla, mənəviyyatla, xeyirlə yanaşı şər də var. Bunun üçün özündəkini döyürsən, sonra tam haqqın olur ki, cəmiyyətdəki, yaxud başqa-sındakı şəri döyə biləsən.

Təbii ki, mən amallaşdığım qədər böyüyürəm, kamilləşirəm. Demirəm qüsursuzam. Bu yaxınlarda üzləşdiyim bir durumla bağlı üzə çıxan qüsurumu deyim. Bir tələbə uşaq elə heyrətlə "Şəmi-Şoşu" deyilən artistlər var, onların Beyləqanın ərazisindən keçib Horadizə getdiyini elə fərəhlə danışdı ki, mən dəhşətə gəldim. Kimdi o? Halbuki mənəviyyatlı, ziyalı adam haqqında elə heyrətlə danışmırlar. İçimdə elə bir od qalxdı ki, sifətimi yandırdı. Bu əhvala enməyim, təbii ki, yolverilməzdir. Məgər indiki dünya, indiki cəmiyyət bundan artıqdır?! Sonra bir yüngülməcaz teleaparıcı Beyləqana gəlmişdi. İnanın, kəndlərdən qoca qadınlar tökülüb gedirlər onu canlı görməyə. Yaxşı, bu uşaqdır, müasir tələblərə köklənib. Bəs bu ağbirçəklər necə?! Gör toplum hansı səviyyədədir. Millət nə günə düşüb?! Nəyinə görə sən onu görməyə tələsirsən? Niyə buna ehtiyacın var?! Baxın, mən çox sayda tanışıma zəng eləmişəm, dəvət eləmişəm bu günə. Ancaq durub gedir hansısa tumançağa tamaşa eləməyə. Belə hallar bəzən məni özümdən çıxarır. Söz yox ki, daxildə. Büruzə vermirəm. Bu mənim zəifliyimdir. Bu gün belə əhvallara qarşı yönəlib düşüncələrim. Gözlənilməz hadisələrə qarşı hazır olmaq, gözlənilməz münasibətlərə qarşı yerindən oynamamaq. Bu baxımdan özümü qüsursuz hesab eləmirəm.

Özüylədöyüş əməlim hər vaxt davam edir. Ancaq ruhani halım bütövlükdə rəvandır. Günü-gündən əhvalımda Amalıma, Ocağa, Atanın ideyalarına heyrətim, bağlılığım möhkəmlənməkdədir.

Xalqlaşmamla bağlı da bir neçə kəlmə deyim. Qeydlərim var, onu oxumaq istəyirəm:

xxx

9 Çiçək Ayında qayınoğlum Hikmətlə insanın özünə yetməsi, özünü yaratması haqqında söhbət etdim. Bu söhbətim onun tərəfindən ehtiramla qarşılandısa da, nəticəsinə inanmadım. Mühitin kor qoyduğu ürəyin gücü olmur. İstəsə də heyrət etdiyinə can atmaq meyli tez sönür. Ardıcıl özüylə döyüş gərəkdir. Mühitin insanı özünü tanımır. Özünü tanımayan kamilləşməz.

xxx




Qızım Nurtəkini Beyləqana həkimə aparmışdım. O, anası Elanayla növbə gözləyirdi. Mənsə xəstəxananın dəhlizində var-gəl edirdim. Təsadüfən açıq bir qapıdan həkimin başı üstdə asılmış Atatürkün portretini gördüm. Maraqlıdır ki, bütün kabinetlərdə H.Əliyevin, yaxud İ.Əliyevin şəkli, bunda Atatürkün portreti idi. Mənə çox ləzzət elədi. İçəri keçib məhz portret mövzusu ilə bağlı marağımı bildirdim. Sonra da Asif Atanı tanıyıb-tanımadığını soruşdum. Haqqında eşit-diyini bildirdi. Vaxtilə Beyləqanda dəfn olunduğunu və bəlli olaylar haqqında eşitdiyini dedi. Özümü nişan verdim. Amma iş vaxtı olduğundan vaxtını almaq istəmədim. “Evladlıq” və “Ata Yolu” özəl buraxılışını təqdim etdim. Telefon nömrəmi verdim. Ədəbiyyatla tanış olandan sonra gərək bilsəniz zəng edin dedim. Münasibət qurub önəmli iş qura bilərik deyə əlavə vurğu etdim. Adı Fazil həkim idi.

xxx

Tanışım Adəm bəyin iş odasında bir müddət əvvəl ona verdiyim “Evladlıq” buraxılışının ilk səhifəsinin çıxarıldığını gördüm. Həmin buraxılışda ilk səhifədə Atanın peyğəmbərliyi xüsusi iri hərflərlə yazılmış, iri ölçüdə şəkli əks edilmişdir. Həmin hissəni kəsib götürmüşdülər. Səbəbini soruşdum. Pərt halda kimin etdiyini bilmirəm

dedi. Bunun doğru olmadığını anladaraq söhbətə başladım. Az sonra ətrafıma çox sayda adamlar toplaşdı. Hiss etdim ki, məndən əvvəl buraxılışla maraqlanan adamlar imiş. Əvvəl suallar yağışı başladı. Cavab verdikcə söhbətimizə həvəs artırdı. Könlümdən keçən məqam yaranmışdı. Əks mövqe bildirənlər, etiraz edənlər də oldu. Onlara məhəl qoymadan Ocağımızı tamamilə açdım. Yadlıqların viranəyə çevirdiyi Yurdun özümləşmə yolunu göstərdim. Millət hansı səbəbdən bu duruma düşüb?! Məsələni bu nöqtədən izah edəndə yerbəyerdən çaxnaşma başladı. Qızarıb-bozaranlar da oldu. Təbii ki, burda "İslam"dan söhbət açılmışdı,–ərəb istilasının vurduğu ziyanlardan. Ona etirazla başlamışdım söhbəti. Təmkinlə: "Görürsünüzmü, o tikanı canınızdan çıxarmaq vacibdir, ancaq sizi ağrıdır. Dözmək gərək ki, yadlıqları içimizdən çıxara bilək". "Azərbaycanımız – Azərbaycanlığımız" Dəyər Sistemini deyəndə yaxşı qarşıladılar. İdeyalarımız o dərəcədə ağıllarına batmırdı. Peyğəmbər sözünü qəbul etmədilər. Ona görə Peyğəmbərliyi təsdiq edən məzmunu geniş açdım. Burada içimdən haray qopmuşdu. Hamı da susmuşdu. Mən də, deyəsən, hədəfə vura bilmişdim... Xoş əhvalla ayrıldıq. Emin adlı bir gənc ehtiramını bildirdi. Ona ədəbiyyat, əlaqə üçün telefon nömrəmi verdim. O, başqa bölgədən idi. Onun tanıdıqları ilə görüşmək istədiyimi dedim, dəvət edin gələrəm. Daha yaxından bir-birimizi tanıyaq, Asif Ata kimliyindən, istəklərindən danışarıq. İtirmərik, qazanarıq...

xxx

Yenə Ağcabədiyə xəstəxanaya getmişdik. Nurtəkini aparmışdıq. Tanıdığım Yaqub həkimin iş vaxtı olduğundan "Ata Yolu" Buraxılışını verməklə yetərləndim. Ancaq onun ehtiram göstərməsi, ayağa durub qarşılaması, xoş üz göstərməsi Asif Atanın Mütləqə İnam Ocağının ürəklərdə yer tutmasının təzahürü kimi gəldi mənə.

xxx

Atakəndə "Ruhani İdrak Günü" mərasiminə getdim. Mərasim başa çatandan sonra axşamüstü qonşu kənddən gələn taksiylə kəndə qayıtdım. Sürücü Bəhruz məni tanıdı. Yolda söhbət etməyimi xahiş elədi. Ətraf kəndlərdən olan başqa yol yoldaşlarım da maraqla dinlədilər. Dünyanın bugünkü durumunun səbəblərindən başlayaraq əlacına doğru çoxşaxəli söhbət başladı. Əslində Amalımızı qapsayan

söhbətə ara-sıra qıraq söhbətlər, suallar da əlavə olunurdu. Ancaq heç bir etiraz olmadı. Heyrətlə, maraqla sonadək dinlənildi. Sonda "Ailə Günü" toplantımıza dəvət elədim. Söhbətarası oxumağa nə isə kitabdan, qəzetdən bir şey istədilər, hər birinə "özəl buraxılış" verdim. Əlaqə saxlayıb münasibətimi davam etdirmək istədiyimi bildirdim.

xxx

Ağcabədi rayonunun Pərioğullar kəndində yas məclisində idik. Mollanın mənasız hədislərindən bezən bir neçə nəfərlə məclisdən həyətə çıxıb söhbət elədik. Yörəmizə çoxlu adamlar toplaşdılar. Qohumum Zaməddinlə başladığım milli varolma, insan kamilliyi, kamilliyə aparan yol haqda söhbətimiz genişlənərək, Asif Ata dünyabaxışını bir çox cəhətləriylə əhatə elədi. O kənddə məni 25 il əvvəldən tanıyan bir nəfər də vardı. İsmayıl kişi. Suallar yağış kimi yağırdı. Hərdən etiraz edən, təsdiqləyən də olurdu. Amma heç nəyə baxmayaraq, 2 saata qədər davam edən söhbətdə demək istədiyimi dedim. Uğurla alınmışdı münasibət. Gözləmədiyim qoca, yaşlı adamlar da dəxli olmayan suallar verir, düzgün cavab eşitdiklərinə əminlik göstərirdilər. Beləcə səsim kallaşana qədər danışdım, harayladım.

Mən evə gəldim. Elana dedi ki, əgər belə getsə, sənin səsin tezliklə batacaq. Amma batmadı (Bu sözü sevgi və gülüşlə dedi – G.A.). O biri mövzularla bağlı: "İdeya düşüncələri dəyişməlidir. Bunun üçün Ruhani Ailə biçiminin yaratdığı məsuliyyət və vəzifələr necə qiymətləndirilməlidir?"

Mən Ruhani Ailə yaranmayana qədər də Amal sözümü haraylamaqdan qalmamışdım. Amma heç biri indiki nəticəni verməyib. Düşünəndə ki, sənin əməlin, sənin sözün, sənin fikrin kitablaşır, xalqlaşır, sabahlaşır, bu, mənim məsuliyyətimi ikiqat artırır. Belə qiymətləndirirəm: məsələn, tutalım ki, üç gündən sonra bizim "Ailə Günü"müzdür, mən də əliboşam. Lap loru dildə bunu deyirəm. Xalqlaşma işim olmayıb, Amallaşmam o səviyyədə deyil. Bunun üstündən keçmək olardı. Amma məhz Ruhani Ailə məsuliyyəti mənə o haqqı vermir ki, mən elə-belə, adi yanaşım. Hesab edirəm ki, ciddiyyətim artır.

Sonra mən burda tədbirə adamlar çağırıram, uzaqlığı bəhanə gətirib çətinlik çəkirlər. Halbuki Göylü hər ay Bakıdan bura gəlir, özlərinin də bir Ruhani Ailəsi var, Ailədə özü də Yükümlüdür, ümumilikdə Ocağın

müəyyən bir yükünü daşıyır. Yəni həm Ailənin, həm ümumilikdə Ocağın. Gəlir çəkiliş təşkil eləyir, söz deyir. Necə deyərlər, Soylunun bir sözü var, deyir, həqiqətdən danışırsan, hamı qulaq asır, amma tək bir körpənin sənin sözünə heyrət eləməsi sözünü sanbala çəkib aparır. İnsanın içinə bir əhval, bir təpər gəlir elə bil. Göylünün gəlişi mənə həmin fərəhi verir... Xalq ruhani mənada belə qurulur. Ona görə də düşünə bilən hər bir kəs məsuliyyət daşımalıdır. Atamız var olsun!

**Soylu Atalı:** Çiçək Ayının sonuncu günü Atagün Elində “Atagün” Ailəsinin ikinci aylıq mərasiminə hesabat verməzdən öncə mən Bayrağımızı öpüb Ataya səcdə qılıram.

Ənənəvi olaraq Ailə mərasimimizin hesabat qonuları haqqında, ayrı-ayrı mövzular haqqında danışacağıq. Bunu danışmazdan öncə buraya gəlişimin özəl bir məna daşıdığını vurğu eləmək istəyirəm. Maraqlıdır, elə görünə bilər ki, biz Asif Atanın Ocağını yaşatmaqdan ötrü hər ay özümüzə zəhmət veririk. Yaxud özümüzü məcbur edirik və durub gəlirik bura. Bəlkə də başlanğıcda bu dediyim məqamlar müəyyən mənada var idi. Çünki Ocağı yaşatmaq üçün, doğrudan da, cəfaya qatlaşmaq gərəkdir. Həm də bu bölgədə Günevin varlığı, ona söykək olaraq öz evinin içində uzun və bərabər yol keçdiyi ömür yoldaşıyla Ocağa sahib çıxması, Ocaq Ailəsində fəaliyyət göstərməsi hadisələşdi. Biz istəyirik ki, bu bölgədə Günevin zəhmətinin qədrini bilən, onu dəyərləndirə bilən ayrı-ayrı fərdlər, nəhayət ki, zaman-zaman ayağa durub ortaya çıxa bilsin. İnanıram ki, bu, alınmağa doğrudur. Mərhələ olacaq, çox insanlar Ocaqlaşacaq. O proses gedir. Günev qardaşımızın hesabatından da siz görürsünüz ki, o proses gedir. İnsanların etiraz eləyə-eləyə ciddi maraq göstərməsi, içində ehtiyacın aşkarlanması işi gedir. Deməli, insanların ağlında, içində həm etiraz var, həm də ehtiyac var. İkisi də var. Etirazın səbəbi bəllidir. Heç kəs onun ağlına, qan yaddaşına hakim kəsilən təsirlərdən birdən-birə azad olmaq istəmir. Çünki onun ağlının, idrakının gücü o deyil. Birdən-birə fikirləşir ki, boşluğa düşə bilər. O boşluqda özünə yer tapsın, yol tapsın, ayağa dursun, əlbəttə, onlar üçün asan deyil. Ona görə etiraz labüd şəkildə ortaya çıxır. Hər kəs qüdrətli deyil. Biz istəyirik Yurdumuzda qüdrətli insanlar yaransın. Ocaq zatən ona görə var ki, qüdrətli insanlar yaransın və bu insanlar gözünü sağa-sola döndərəndə ömür yolunda rastlaşacağı

boşluqdan vahimələnməsin və hesab eləsin ki, o, özünü təkcə öz ətrafında təsdiq eləmir. Boşluq onun çölündə deyil. Boşluq onun içindədi, əgər o, özünü həmin əhvalla doldura bilsə, onda boşluqdan söhbət gedə bilməz. İnsan öz içindəki boşluğu doldurmalıdır. Nəylə doldurmalıdır? Asan olmasa da, onu Asif Ata ilə doldurmalıdır. Bununçün də, yenə deyirəm, mərhələlər gərəkdir.

Ehtiyac məsələsinə toxunum. Ehtiyac niyə var? Ehtiyac ona görə var ki, peyğəmbərlər min illərdir insan qəlbinin gözəlliklərini fəth elədilər, amma insan idrakını fəth eləmədilər. Bax, əski peyğəmbərlərlə Asif Atanın bu nöqtədəki, bu xətdəki fərqi ortaya çıxır. Mənim amallaşmamın bir cəhəti də bununla bağlıdır. Bu fikri mən həm amallaşmayla, həm də "gedişat yazısı"nın ikinci mövzusuyla bağlayıram –"İdeya düşüncələri dəyişməlidir": Peyğəmbərlər insan qəlbinin gözəlliklərini fəth elədilər, amma insan idrakını fəth eləmədilər. Nəinki insan idrakını fəth eləmədilər, əksinə, insan idrakının yolunu qapadılar, bağladılar. İnsanın qəlbində gözəlliklər var. Duyğular var. Peyğəmbərlər onu yönəltdilər, insandan uzaqda olan və ona hökm edən qüvvəyə. Bu yanlış məsələ də bəşəriyyətin varlığına hakim kəsildi. Bununla da insanın öz içində labüd şəkildə yaşatmalı olduğu məna gözəlliyi mərhələ-mərhələ ömrü tərk elədi. Duyğuları tərk elədi. Asif Atanın doğru gəlişi ilə insanın içinin həmin ehtiyacı yenidən ayağa durur. Yenidən ödənmək istəyir. Bunu heç nə ödəmir. Əvvəla peyğəmbərlər gəlir ki, insanı heyvandan ayırsınlar. Yəni bioloji həyatın mənəvi-ruhani həyat üzərindəki təsirini aradan qaldırsınlar. Bu gün biz görürük ki, həyat bütünlüklə bioloji qaydalara tabedir. Gedişat bütünlüklə biolojidir. Cismaniliyə bağlıdır hər şey. Hər şey fiziki mövcudluğa bağlıdır. Hər şey fiziki mövcudluğa bağlı olanda insanın yadından çıxır ki, ondan qıraqda da bir başqası var. İnsanın imkanları öz bioloji mövcudluğunu qorumağa, ona həsr olunmağa yönəlir. Bununla da o, artıq başqa şey haqqında fikirləşə bilmir. Mən yalnız özümün mövcudluğumu düşünürəmsə, bəs insanı sevməyə haçan vaxtım olacaq?! Bəs insanın sifətindəki müqəddəslikləri oxumağa haçan vaxtım olacaq?! Onun ağlının gözəlliklərini dinləməyə vaxtım olmayacaq. Bax, peyğəmbərlər ona görə gəlir ki, bunlara sənin vaxtın olsun. Bioloji həyatın təsirlərindən açıla biləsən. Bioloji həyata pərçimlənib qalmayasan.

Ruhani həyatını yaradasan. Ancaq görək peyğəmbərlər buna nail ola bildilərmi? Bilmədilər. Niyə bilmədilər? İnsanın mahiyyəti Ruhaniyyatçılıq deməkdir. Ruhaniyyat əsasında yaşayanda olur insan. Sırf bioloji həyatla məşğul olanda olur heyvanat. Heyvan yalnız boz çöllərdə otardığımız qoyun deyil ki. Heyvan – bütünlüklə fikizi mövcudluğuna həsr olunana deyirlər də. Bütün düşüncəsi bioloji varlığına bağlı olana. Bu fikirlə, bu düşüncəylə yaşamaq heyvanilikdir, insanilik deyil. Peyğəmbərlər gəldilər və axıra qədər insanı heyvandan ayıra bilmədilər. İnsan qəlbinin gözəlliklərinə sahib çıxa bilmədilər. İnsan qəlbinin gözəlliklərini aşkarlayan idrakdır. Gərək qanasan o gözəllikləri. Tanıyasan, dərk eləyəsən. Dərk eləməsən, o gözəlliklər solacaq. Həyətdəki güllərə qulluq göstərməsən solacaq. Zaman-zaman ona qulluq lazımdır. Qəlbin gözəlliklərinin qoruyucusu İdrakilikdir. Onun yolunu bağladılar peyğəmbərlər.

Asif Ata insan qəlbinin gözəlliklərini Dünyanın mənasına bağladı. Dünyanın mənasını anlamağa. Əski peyğəmbərlər insan qəlbinin gözəlliklərini bağladılar tanınmayan, bilinməyən, mücərrəd qüvvələrə. Mücərrəd qüvvələr də vakuum kimi sordu apardı o gözəllikləri. Asif Ata insanın idrakını işıqlandırır və deyir ki, sənin içindəki gözəllikləri idrakınla yaşada bilərsən, qoru-ya bilərsən. Ona görə O, ruha yeni məna verdi. Ruha İnam, İdrak, Mənəviyyat, İradə birliyi dedi. Dedi ki,sənin özündən artıq olan bir qüdrətə inamın gözəldir. Amma sənin özündən artıq olan qüdrət transendental deyil, göylərdə deyil, yaxşı bax, sənin içindədir böyük məna. Allah, həqiqət, ali qüdrət nədirsə, sənin içindədir. İçindəkini İdrakla təsdiq eləyə bilərsən. Yoxsa sənin naşı inamın səni uçuruma aparır. Qanmadığına nə qədər inanacaqsan? İnanacaqsan, inanacaqsan, axırda inamın öləcək. Çünki inamın fərəh üfüqləri tanımayacaq. İnamının gözü qapanır. İnamının gözü idrakdır. Əgər sən ali mənanı, ali qüdrəti öz içində tanıyarsan, dərk eləyərsənsə, sənin içində gözəlliklər qorunacaq. Gözəlliklər nədir? Mənəviyyat. O qorunacaq, o var olacaq. O gözəlliklərdən, o mənəviyyatdan dünyaya işıq saçacaqsan. Həyata işıq saçacaqsan. Yeni nizam başlayacaq. Yeni düzən başlayacaq. Yeni əhval başlayacaq. Yeni sevgi başlayacaq. Asif Ata insana belə bir aqibət hazırlayır.

Dünən bizim “Uluyol-Hünər” Ailəsinin “Ailə Günü”nü keçirdik Bakıda. Oraya bir qonaq gəlmişdi. Uğurlu qonaq idi. Belə-belə, Ocaq harda uğurlu insanlar varsa, cəlb eləyəcək...

İnsanlarımızı küçümsəmək istəmirik, amma Ocağın böyütmək imkanı var. İnsanları böyüdə bilir, bunu biz deməliyik. İnsanların ağlını böyüdür, boşluqdan çıxarır Ocaq.

Nə isə, qonağımız əvvəl bizə inkaredici suallar verirdi. O deyir ki, 36 ildir Ocaq yaranıb, bəşə-riyyətdə bu cür ocaqlar çox olub. Hamısı da yaranıb, qapanıb. Siz də 36 ildir yaranmısınız, hələ heç nə yoxdur. Asif Atanın Ocağı da qapanacaq. Onun narahatlığı budur. Təbii, onun sözündən vurmaq olmaz ki, niyə belə düşünürsən. Amma bizim həqiqətimiz var. O həqiqətlə insanlarımızı üz-üzə qoyuruq. 36 ildir yaranıb nə deməkdir? Siz hər biriniz Asif Atanın işini ciddi araşdırsanız görəcəksiniz ki, 36 ildə 360 illik əməklər var. 360 illik hünərlər var. Sənin oğlunun, qızının, sonrakı nəsilləriyin qibləsini dəyişən, ağlını böyüdən böyük ruhani xəzinə var ortada, böyük İrs var ortada. 36 il siyasi partiyalar üçün çox böyük vaxt deməkdir. Çünki siyasi partiyanın məqsədi hakimiyyətə gəlməkdir. Hakimiyyət dəyişikliyi eləməkdir. Hakimiyyət dəyişikliyi eləmək üçün 36 il durub ayaq döymək, baş sındırmaq, doğrudan da, çox böyük vaxtdır. Amma Ocağın hədəfi o deyil axı. Ocağın hədəfi cılız bir hakimiyyətçilik dəyişikliyinə gəlib çıxmaq deyil axı. Ocağın hədəfi dünyada yeni bəşər halı yaratmaqdır. Yeni bəşər halını beş günə, beş ilə yaratmaq olarmı? Siz niyə yeni bəşər halının ilk rüşeymlərini görmürsünüz?!

Bizim harayımız nədir? Bu yaxınlarda hansısa saytda bir nəfər (adı yadımda qalmadı) deyir ki, 10 ildən sonra Asif Ata Ocağı olmayacaq. Deyirlər bəşər tarixində neçə belə ocaqlar yaranıb sönüb. Hansı ocaqlar sönüb? Babəkin adını çəkdik, Nəsiminin adını çəkdik, məgər onlar biryolluq sönüb?! Əminsinizmi ki, Babək sönüb, əminsinizmi ki, Nəsimi sönüb? Bəs mənim harayım nədir? Bəs mən kiməm? Babək ənənəsi üzərində qalxdı Asif Ata. Nəsimi ənənəsi üzərində qalxıb Asif Ata. Nəsimi harayını çəkir, Babək harayını çəkir Asif Ata. Daha kamil, daha zəngin bir səviyyədə. Daha yeni bir mərhələdə. Babək harayıdır əslində bu. Necə sönüb ki, bu gün haray var. Buna sönmək demək olmaz axı. Sönmək söhbətini ağlınızdan qırağa qoyun. Sönməyi sən

deyə bilərsən, mən deyə bilmərəm. Mən alışıb yanıram. Alışıb yanan deyə bilər ki, sönüb?! Sən yanmırsan, ona görə deyirsən ki, sönəcək. Bu fikirlər obraz kimi görünür, amma bu həqiqətdir. Bu elə bir həqiqətdir ki, bununla yaşamaq bütün zamanları silkələyə bilər. Yetər ki, o həqiqətlə üz-üzə dayana biləsən. Bax, ona görə Ocağı qıraqdan seyr eləyib demək olmaz ki, sönəcək. Deyirlər ki, siz hələ də özünüzlə məşğulsunuz. Bəli, biz özümüzlə məşğuluq. Gör özümüzlə məşğul olmaq nə deməkdir? Özümlə məşğul oldum neylədim? Özümlə məşğul oldum, Asif Atanın böyük irsini yaratdım. Elə bir İrs ki, bütün dünya o irsin içinə girəcək. Min il onu tədqiq eləyəcək. Mən bunu sizə əminliklə deyirəm. Çünki nə yarandığını biz bilirik. Hamısı gözümüzdən, əlimizdən keçib. Dünyanı da öyrənmişik. Bilirik ki, dünyanın bu İrslə müqayisəyə gələn gücü bu gün yoxdur. Asif Ata elə böyük bir dəryadır ki, içinə girəcəksən, çıxa bilməyəcəksən. O qədər genişdir, o qədər zəngindir, tükənməzdir. Bunu yaratmışıq. Özümüzlə məşğul olduğumuz üçün Azərbaycanı qarış-qarış gəzdik, haray çəkdik. Asif Atanın həqiqətini verdik, veririk. Babəki qaytarırıq sənin xalqına, sənin gəncliyinə, sənin ziyalına. Nəsimini qaytarırıq. Böyük şəxsiyyətlərini, böyük ideallarını, böyük ideyalarını qaytarırıq. Özümüzlə məşğul olmaq bu deməkdir. Haray çəkirik hər yerdə. Özüylə məşğul olmağa sadə baxmaq olmaz. Bu tədbirlər bizi içəridən qurur, idrakımızı böyüdür, yetkinləşdirir, həqiqətə gözümüzü açır. Geniş açır özü də. Ona görə Ocağın atdığı addımların, gördüyü işlərin prinsipiallığını dərk eləmək lazımdır. Ona görə mən hesab eləyirəm ki, bizim ruhani ünvanımız var. Boşluq nə deməkdir? Boşluq – ünvansızlıq. Ünvan – boşluğun dolması deməkdir. İnsanları çağırmağa ünvanımız var. Hara çağırırıq? Mütləqə İnamla dolmağa. Mütləqə İnam adlı ünvanımız var. Elə bir ünvan ki, bu ünvan bütün bəşər tarixinin – özü də ruhani tarixinin gözəlliklərini üzə çıxarır və zirvəyə qaldırır. Belə bir bəşəri ünvandır. İnsanın fiziki üz tutması üçün də ünvanımız var. Burda oturduğumuz ünvan fiziki üz tutacağın ünvandır. Ruhaniyyatın yaşadığı ünvan üz tutacağın ünvandır. Mütləqə İnam – içində ünvana çevrilir. Sənin için özü ünvana çevrilir. Sənin ömrün ünvana çevrilir. Sənin ömrünə üz tutur insanlar. Deyirsən ki, məsələn, o eldə filankəsə nifrət var. Nifrət böyüyür, artır. Niyə böyüyür?




Çünki onda ünvan tapır. Gözəllik də beləcə, İnam ünvanı tapır. Arxalanmaq, güvənmək ünvanı tapır. Harda tapır? Sənin qəlbində, əməlində, sevincində, baxışında, döyüşündə. Bu, mərhələ-mərhələ yaranır. Addım-addım, Atanın dediyi kimi, ağac-ağac yaranır. Böüyür, zənginləşir və xalqın içində bir mərhələ başlayır. Bax, biz bu gün burada oturmuşuq. Xalqın böyük hikmətlərini açıb deyirik özümüz üçün. İçimizin gözəllikləriylə uğraşırıq. Bir-birimizə münasibətimizi saflaşdırırıq. Gözəlliklərimizi, çatışanı, çatışmayanı təqdim eləyirik. Öyrənəcəklərimizi bir-birimizə təqdim edirik. Bax burda, bir kəndin bir evində. Bundan Kürdəmirin, Şirvanın xəbəri varmı? Yevlaxın xəbəri varmı? Xəbəri yoxdur. Tovuzun, Qazaxın xəbəri varmı? Yoxdur. Amma burda gedən proses Tovuzun, Qazaxın, başqalarının ruhani sabahını quran gedişdir. Bir ünvanda qurucu proses gedir. Elə bir proses ki, bu anda ondan qurulanın, qurulacaq toplumun özünün xəbəri yoxdur. Bu qədər geniş mənaya, məzmuna malikdir. Hətta biz qəbul eləsək də, eləməsək də o boyda dünyanı sarsıdan, gerçək düzən yaradan sosialist inqilabı baş verdi. Sosialist inqilabının yetişmə prosesindən heç dünyanın xəbəri yox idi. Razliv gölünün qırağında bir dənə kötüyün üstündə baş verirdi. Yenə deyirəm ha, biz o inqilabın nəticələrini qəbul eləmirik. Ona görə qəbul eləmirik ki, dünyanın milli istəklərini gözündə qoydu. Orda sosial

proseslər, sosial dəyişikliklər var idi. İnkar eləyə bilmərik, müəyyən üstünlüklər də vardı. Amma proses, dediyim kimi, dünyanın böyük bir halını, nizamını dəyişə biləcək proses balaca bir kötüyün üstündə yaranıb formalaşırdı. Orda oturub dizinin üstündə yazırdı. Bax, Asif Atanın işi Razliv gölünün qırağındakı işdən qat-qat dərin və yüksəkdir. Bu, o proses kimi sürətli deyil. 15-18 ilə başa gəlmir. Bu, yüz ilə, iki yüz ilə başa gələcək. Amma mərhələ-mərhələ yetişir. O prosesləri yetirəcək insanlar yaranır, düşüncə yaranır, mühit yaranır, ünvanlar yaranır. Bilirsinizmi, bu balaca məsələ deyil. Bunun davamlı olaraq qoruyanı, böyüdəni, inkişaf elətdirəni lazımdır. Davamlı olaraq arxasında duran lazımdır...

Bizim gedişatda xalqlaşma, kamilləşmə hesabatımız da var. Mən kamilləşmə hesabatıyla bağlı bir məqamı vurğu eləmək istəyirəm. Söz yox ki, bu mövzu olduqca çətin və dərin mövzudur. Dərinliyi və çətinliyi nədədir? İnsan, doğrudan da, gərək içini tanıya və aça bilə. Mən sizə deyirəm ki, mən bunu eləyirəm. Bu vaxta qədər də eləmişəm, indi də eləyirəm. Bu vaxta qədər mənim döyməli qüsurlarım çox idi. İndi mənim döyməli qüsurlarım azdır. Ona görə onu ancaq məzmunla deyirəm. Bax, mənim özüylə döyüşüm bu gün sizə hesabat verdiyim amallaşmada özünü göstərir. Xalqlaşmada özünü göstərir. Bir neçə gün əvvəl gündəliyimi yazırdım. Mən indi ayrıca özüylədöyüş gündəliyi yazmıram. Ümumi gündəlik yazıram. O gündəliyin içərisində özüylədöyüş çalarları da var, başqa yaşam halım da var. Gördüyümüz işlər, münasibətlər və s. Elə bunlar da özüylə döyüşün, özünü yaratmanın tələbləridir, gedişatıdır, daha doğrusu.

Mən özümə sual verdim ki, bu nədir, nə istəkdir mənim içimdə. Hər gün mən gündəliyimi yazıram. Axı hər gün ehtiyac yoxdur. Adətən gündəlikdə əlamətdar hadisələri yazarlar. İnanın ki, mən orda istədim ki, günləri ayıram, yazmayam, mən görürəm ki, mənim hər günüm əlamətdardır. Hər günüm Ocaqdır... Ocaqdan başqa həyatım yoxdur. Bu mənim üçün elə bir dönməz taledir ki. Əlbəttə, bu talenin qədrini bilirəm. İçim Asif Atayla elə dolub ki, o dolğunluqla ancaq Fərəh üstə yaşamaq olar. Ayrı cür yaşaya bilmirəm. Mən ancaq nikbin yaşaya bilirəm. Mənim süst yaşadığım günlərim yoxdur. Bax, bu, Asif Atanın yaratdığı haldır, verdiyi aqibətdir. Onun yolunun mənə cızdığı yöndür.

Ona görə də sözümün başlanğıcına qayıtmaq istəyirəm ki, mənim bura gəlişim çox əlamətdar gəlişdir. Təkcə Asif Atanın Ocağı bir qurum kimi yaşasın deyə gəliş deyil. Mənim ciddi ehtiyacım var. Nəyisə qorumaq xatirinə deyil, ehtiyacım var.

Xalqlaşmayla bağlı da bir neçə kəlmə deyim. Ocağımız yaxşı işlər görür. Geniş, əhatəli işlər görür. Çox əsaslı bəhrələnirlər Ocaqdan. Biz xalqlaşmada təkcə üz-üzə ünsiyyətlərlə deyil, həm də fikrimizlə, düşüncəmizlə, tədbirimizlə, tədbirimizin kitablaşmasıyla bəhrələndiririk. İnsafən deyirlər də. Mən özüm mətbuatda da görürəm, ayrı-ayrı yaradıcı adamların yazı üslubunda da görürəm Asif Atanın təsirini. Bu, məsələnin bu tərəfi. Bir də son iki ayda biz səfərlər etmişik Göylüylə, İnamlıyla, bir çoxlarını İnamlıyla. Bu yaxınlarda qeydlərimdən gördüm, iki ayda 32, ya 34 ünvana ayaq döydük. Onlardan 5 görüşümüz baş tutub. Kütləvi görüşlərimiz. Üst-üstə hesablasaq, 150-yə qədər soydaşlarımızla, gənclərlə, onların öyrətmənləriylə görüşlərimiz olub. Bu ünsiyyətdə bayaq dediyim haray var. Bax, gedirik o gəncliyin içinə. O gəncliyin içində Babəklik aşkarlanmalıdır. O gəncliyin içində Nəsimilik aşkarlanmalıdır. Nəsimilər, Babəklər ölüb qurtarmayıb, sizin içinizdədir. Aşkarlayın. Ondan ötrü sənin ağlına təqdim eləyirəm xalqın ideallarını, sənin yurdunun böyüklüyünü, müqəddəsliyini. Sənin yurdunda başlayan Asif Atanın işlərini. Ona görə sizə təqdim eləyirəm ki, siz içinizdəki Babəki, Nəsimini oyadasınız. Yeni Babəklər, yeni Nəsimilər yaransın. Özünəməxsus və xalqının ruhuna sahib çıxsın. Bizim görüşlərin məqsədi odur. Gedişlərin məqsədi odur. Buna mən uğur kimi baxıram. Nail oluruq, çünki biz onu verə bilirik, deyə bilirik. Atdığımız addımlar, gördüyümüz işlər hamısı ağac-ağac, kərpic-kərpic qurulur xalqın içində. Boşuna deyil. Söz yox ki, yenə deyirəm, bizim hədəfimiz 5-10 ilə hesablanmayıb. Uzun illərə bərabərdir. Xalq içəridən dəyişilməlidir. Bu elə-belə asan deyil – xalqın içəridən dəyişməsi.

Mən xalqın içinə baxıram, düzdür, ağrıyıram. Xalqın gedişatını biz izləyirik axı hər birimiz. Görürəm ki, mənəviyyat ölür, gənclik ölür, ailə ölür, münasibətlər ölür. Yediyimiz qidaların hamısının içində bizim birbaşa genefondumuza təsir edə biləcək komponentlər var. Bütün xalq içəridən aqressiyayla dolur. Hamının içində əsəbi gərginliklər var, aqressiya var. Hamı bir-birini didməyə, əzməyə, parçalamağa hazırdır.

Bunu məqsədyönlü həyata keçirirlər. Bir tərəfdən pul qazanmaq üçün eləyirlərsə, bir tərəfdən xalqın bir-birinə sayğı bəsləyib birləşməsinin qabağını alırlar. Xalq bir-birinə qarşı elə aqressiv əhvallara köklənib ki, birinin ayağını tapdala, səni öldürməyə hazırdır. Elə hal yaradırlar ki, xalq birləşməsin. Bütün bunların hamısını müşahidə edirəm. Ağrıyıram. Amma mənim nikbinliyimə zərər vermir. Atanın Yolunun həqiqətini, onun gücünü, gələcəyini dərk edirəm. Atanın yaratdığı Dünyabaxış bulanıq selin qarşısını almağa qadirdir. İndi hansı mərhələdə, hansı nöqtədə alacaq, burda biz münəccimlik eləməyək. Amma alacaq. Bununçün Ocaq var. Bununçün yaşayırıq. Bununçün biz mübarizə aparırıq. Bununçün fərəhlənirik. Bununçün kədərlənirik. Bununçün yetişirik və yetiririk. Bax, hamısı bunun üçündür. Mən sözümü bitirirəm və sizə də təşəkkür edirəm ki, məni səbrlə dinlədiniz.

Yükümüzdən Böyük Fərəhimiz Yoxdur!

Atamız var olsun!

Atamızın bayrağını öpürəm və ona səcdə qılıram.

**Günev Atalı**: Mən səni dinləyəndə, Nəsimiylə, Babəklə bağlı söhbətini dinləyəndə heyrətdən inan ki, bütün bədənim sarsıldı. Xalqın içində o böyüklükləri aşkarlamaq və üzünü, yönünü ona tutmaq. Çox gözəl əhvaldı.

İstər-istəməz insanın içində gizlənən, boğulub qalan qüdrət var, cikkə var, çıxart onu içindən. Danışdım, o əhvala qayıtdım, yenə heyrətləndim...

**Təvəkkül bəy:** Mən də ulu peyğəmbərimiz Asif Ataya səcdə ilə bayrağımızı öpürəm. Bayaqdan danışıqlara, söhbətlərə fikir verirdim. Soylu bəy danışanda, inanın ki, mən özümü o qədər xoşbəxt hiss edirdim ki. Düzdür, xalqın içinə getmək indiki məqamda, indiki ərəfədə bir az çətindir. Necə çətindir?! Bu saat hamı özünə qapılıb. Bir tərəfdən maddiyyat, bir tərəfdən də insanların nə eləmək istədiyi bəlli deyil. Ona görə də sizin danışdıqlarınız mənə qol-qanad verir. Mən sizi inandırım ki, bax, indinin özündə bu saat kəndin içində adamlar ədalətsizlikdən, yalançı dinlərdən qaçır, amma hara getmək istədiyini bilmir. Hamı ədalət, bir işıq axtarır. O işığa necə getmək lazım olduğunu bilmirlər. Harda oluramsa olum, günümün yarısını başqa-başqa yerlərdə oluram.




Harda oluramsa, söhbətlər eləyirəm. Sizin bu fikirlərinizi aşılayıram. Yəni sizin yox, bu, əslində bizim öz fikrimizdir. Bu yol haqq yoludur. Demək olmaz ki, haqq yolu bir adamın işidir. Haqq yolu insan, bəşəriyyət üçündür...

**Elçin Həsənov:** Əslində Soylu bəy bizim demək istədiklərimizin çoxunu danışdı. Mən xalqın dilində danışmaq istəyirəm. Bu gün ölkəmizdə yarıtmaz siyasətin nəticəsində biz uçurumun bir addımlığına düşmüşük. Soylu bəy, ümumiyyətlə, Asif Atanın Ocağı bizə onu göstərir ki, bu uçurumlu yoldan qurtula bilərik. Bizə sadəcə Asif Atanın göstərdiyi yolla getmək qalır. Bizə qədər, bizdən qabaq nə olubsa olub, amma hal-hazırda biz özümüzdə bir cəsarət tapmalıyıq ki, Atanın dediyi bu yükü öz çiynimizə götürüb insanları inandıraq. Bəli, ölkədə çox problemlər var. Amma bu problemi də bir adam həll eləməlidir də. Bunu bir nəfər çiyninə götürməlidir. Bu gün sənin gördüyün o problemlərə biganə qalıb keçəcəksənsə, o problem sənin ailənə, oğluna, oğlundan da nəvənə gedəcək. Yəni sən problemi bu gün həll eləməlisən. Məsələn, 93-cü ildə atəşkəs elan olundu, 21 il keçib. Təsəvvür edin, heç Qarabağda olmayan adamlar, Qarabağ işğal olunanda anadan olmayan adamlar indi əsgərliyi də qurtarırlar. Gör nə qədər keçdi?! Kimlərə qaldı problem? Sizin uşaqlarınıza. Bu məsələni biz həll eləsəydik, bugünkü

nəsilə gəlib çıxmazdı. Bu da belədir. Köklü problemlər yığışıb. Pis çıxmasın, xəncər gəlib dirənib boğaza. Biz demirik bunu zorla həll edəcəyik. Zor bizə heç nə gətirməyəcək. Amma ağıllı insanlar, ziyalı insanlar, ziyalı da bütün məsuliyyəti öz üzərinə götürə biləcək insanlardır. Bəli, Soylu bəy kimi insanların yanında olmaq gərək. Bu böyük bir işdir əslində. Həyata keçəcək. Tarixə yazılacaq...

**Elana Atalı:** Sözümə Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Atanın – İnam Atanın adına səcdə ilə başlayıram. Bayrağımızı öpürəm.




Bu gün, doğrudan da, həmişə olduğu kimi, adamın halında dəyişiklik yaranır. Ailə Günlərində, Ocaqçılarla münasibətdə, istədiyin adamlarla görüşəndə əhvalın da yüksəlir. Adamın içi dolur. Mən də həmişə camaatın içində olanda özümü tək bilirəm. Bir az Təvəkkül qardaşım elə bildi ki, xalqdan danışanda ümidsizlik olur içəridə, yox, ümidsizlik deyil. Sadəcə xalqın necə yazıq vəziyyətə qaldığını görəndə mən özümü tək hiss eləyirəm. Adamın yazığı gəlir. Camaat içində təkəm. Amma bu gün mən özümə, arxa demək birtəhər çıxır, arxa da deyə bilərəm, ürəyim istəyən bir hal olduğunu görəndə fərəhlənirəm. Halım

qanadlanır. Bayaq Soylu qardaşım Babəkdən, Nəsimidən danışanda, Ata haqqı, mən hiss eləmədim, mənə elə gəldi ki, Atanın bayrağı əlimdə qarşıda gedirəm. Belə bir haldaydım.

**Soylu Atalı:** Atanın bayrağı əlində qabaqda getmək, bu çox gözəl hissdir. O hiss adama güc verir.

**Elana Atalı:** Mən camaatın heç nədən xəbərsiz olduğunu görəndə yazığım gəlir. O gün Təvəkkül qardaşımla getmişdik atamı görməyə. Belə baxıram, atam kimi o qədər adam var ki, dünyadan necə yazıq gedir. Elə hey deyir ki, bu dünya düzəlməyəcək. Doğrudan insanlar yazıq gündədir. Belə insanları gördükcə Ocağımızın bəşəriyyətə nə qədər gərəkli olduğunu anlayıram. Ocağımızın varlığından sevinirəm...

**Müqəddəs Oxuma:** X Qutsal Bitiyimiz "Hüquqdan Haqqa" ("Haqq-Haqqsızlıq" Beşinci müqəddəs kitabın) davamı oxunub şərh edildi.

Ailəyə ruhani hədiyyələr təqdim olundu. "Ata Ruhunu ürəyimizdə aparırıq!", "Atamız Var olsun!" səcdəsilə mərasim başa çatdı.

Sonra Amal Bağı ziyarət olundu. Atanın ilk üz qoyduğu torpağa çiçək qoyuldu, müqəddəs söz deyildi. İnam Evində Ocaq Yükümlüsü söz dedi, muğam və saz üstə musiqilər dinlənilib münasibət sərgiləndi Səfər zənginliyi və əhval zənginliyi ilə Atagündən Atakəndə dönüldü.

***İşıq Ayı, 36-cı il. Atakənd.***
***(may, 2014. Bakı).***

**Asif Atanın – İnam Atanın**
**Mütləqə İnam Ocağı**

**Günevin Yükümlüsü olduğu "Atagün" Ailəsinin**
**36-cı ildə III Aylıq Mərasiminin**
**Gedişatı**

**Yer:** Atagün Eli (Örənqala);
**Tarix:** 15 İşıq Ayı;
**Başlanır:** saat 16.00

• Oda Mərasimin Ruhuna uyğun hazırlanır. Gül-çiçək, yazmaq üçün texniki vasitələr təşkil olunur. İşə sorumlu Elana Atalıdır.

• "Ata Ruhuna Pənah gətirmişik!" səcdəsiylə tədbir başlayır.

**Mərasimin qonuları:**

1. Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı;
2. Mütləqə İnam dünyaya din kimi yayılsa nə baş verər? Deyək ki, dövlətin siyasəti ona sahib çıxdı, lap əski Roma imperiyasında olduğu kimi.
3. Hansı halda Ocaqçının özünü qınaması Özüylədöyüş əməlinə stimul verir, hansı halda mane olur?

**Müqəddəs Oxuma:** "Haqq-Haqqsızlıq" kitabının davamı oxunub şərh edilir.

*İştirakçıların mövqeləri dinlənilir və suallarına cavab verilir.*

"Ata Ruhunu ürəyimizdə aparırıq" səcdəsiylə Gün başa çatır.

***<u>Gün'ün Carı</u>***

1) ***Atam, Mütləqim! Ağlıma işıq ver, ürəyimə qüvvət ver!***
2) ***"Atagün"üm – Ocağımın Həyatdan Üstünlüyü!***

*Gedişatı yazdı:* ***Soylu Atalı***
*İşıq Ayı, 36-cı il. Saray-Soylu.*
*(may, 2014.)*

## "Atagün" Ailəsinin III Ailə Günü tədbirində deyilmiş fikirlər

**Hamı:** "Ata Ruhuna Pənah gətirmişik!"

**Ailənin Yükümlüsü Günev Atalı** Ataya Səcdə ilə sözünə başladı: Ürəyinizdə Ata Günəşi olsun! Xoş gəlmisiniz!

Bu gün qutsal bir gündür bizim üçün. Ümumilikdə götürəndə hamımız üçün, ulusumuz üçün, vətənimiz üçün qutsal gündür. Çünki müqəddəslik belə ünvanlardan, belə məclislərdən başlayır.Belə ürəklərdən, belə düşüncələrdən başlayır. Tədricən xalqa yayılır ki, bu, ruhani qələbəyə aparan bir yoldur.

*(Günev Atalı qonaqları bir-birinə təqdim elədi)*

Bu gün Atagün Elində "Atagün Ailə"sinin aylıq mərasimini həyata keçiririk. Asif Ata Ocağı Ailələrdən ibarətdir. Asif Ata Ocağı yurdumuzun, millətimizin, insanlığın ağır mənəvi durumdan çıxmaq Yoludur. Bunun üçün Asif Ata Ruhani Ailə biçimi yaratdı. Məsələn, bu bölgədə "Ata-gün" Ailəsi var, Yükümlüsü mənəm, Bakıda "Ulufərəh" Ailəsinin Yükümlüsü Göylü xanımdır, "Uluyol-Hünər" Ailəsinin Yükümlüsü Nurtəkin Atalıdır və s. Ailələr Ocaqda birləşir və öz gücünü artırır. Biz "Ailə Günü" tədbirlərimizdə hesabatlar veririk. Özümüzü necə yaratmışıq, necə amallaşmışıq, yeni nə öyrənmişik, hansı dərəcədə kamilləşmişik, xalqla təmasımız hansı səviyyədədir, nəyi verə bilmişik, nələrə rast gəlmişik?!

İndi mən hesabatımı vermək istəyirəm: Gedişatımızın birinci qonusu Amallaşma-Kamilləşmə, Xalqlaşma. Amallaşma yönündə mən Asif Atanın ilk kitabı "Mütləqə İnam"ı ardıcıl öyrənirəm. Baxmayaraq ki, 25 illik bir tarxidə mən onu dönə-dönə oxumuşam. Dönə-dönə ürəyimə, ömrümə həkk eləmişəm. Səsini-sorağını yaymışam. Bu kitabı bir növ konspektləşdirirəm və tədbirdə oxuyuram.

*Günev Atalı "Fərd və tarix" bölməsindən özümləşdirdiyi fikirləri oxudu, şərhlər verdi:*

"Burda insana qovuşmaq deyəndə bir şəxsin başqa şəxsə qovuşmasından deyil, insanın öz insani mahiyyətinə qovuşmasından gedir söhbət. İnsan insani mahiyyətinə qovuşanda Mütləqə qovuşur. Amala qovuşmaq Mütləqə qovuşmaqdır. Amal ömrün ali mənasıdır

bilirik ki. Amalda bəlli məqsədimiz var. Ömrü daha çox nəyə həsr edirəm. Mən məişətçilikdən nə qədər aralanıramsa, amala nə qədər yaxınlaşıramsa, bir o qədər ruhaniyyatçıyam. Amalsız insan yarımçıq insandır. Ömür ali mənasını ifadə eləməlidir. Nə qədər adilikdə qalmaq olar. Təbii ki, məişət təmtərağında, məişət zənginliyində səndən də yüksəyi var və bu adidir. Ancaq ondan başqa da dünya var, o dünya sənin ruhunu təmizləyir. Sən dünyanın dərdini özümləşdirəndə öz dərdinə əlac axtardığın kimi dünyaya da əlac axtarırsan və yenilməz qüdrətə yetirsən. İnsan necə ola bilər ki, öz dərdinə əlac axtarmasın. Dünyanın dərdini özününkü hesab eləməkdən gedir söhbət. Dünyanın dərdi əgər mənimdirsə, mən o dünyanın dərdinə əlac axtarıram. Əlacı da, təbii ki, Asif Ata Amalında tapıram. Asif Atanın İnsanlaşma ideyasında. Bütün müşküllərin arxasında insani xəsarət dayanır. Bütün müşküllərin əlacı insanlıqdadır. İnsanlığa aparan yol da, bax, o kitablardır"...




"Fərd ruhuyla xalq ruhunun birləşməsi insanın ali qələbələrindən biridir. Bir nəfər haray çəkir. Bu harayda fərdin ruhu var. Asif Ata haray çəkir – dünya, sənin əlacın, yolun filan məsələdir. Sən insan yaranmısan. Sən insanı əşrəf saymısan. İnsan dünyasında siyasətə yer verdin, yalana yer verdin, dinə yer verdin, özündən ayrıldın, bütünlüklə

başqa düşüncələrə tapındın, insanlıq adlı mənanı, mahiyyəti unutdun. Baxmayaraq ki, tarixin müəyyən dövrlərində müəyyən tarixi simalar haray çəkiblər. Unutmaq olmaz Nəsiminin harayını, Füzulinin harayını, Babəkin harayını, Qorqudun harayını, Yan Qusun harayını, Cordano Brunonun harayını...

Bir neçə kəlmə kamilləşməm haqda deyim. Nə artıb, nə əskilib məndə bu ötən vaxt ərzində. Buna az zaman kəsiyində cavab vermək çətindir. Çünki keçən ayın 30-da "Ailə Günü"müz olmuşdu, indi ayın 15-idir. 15 günün içində məndə sürətlə nəsə artsın, deyim, olmayıb. Amma özümdə bir məsələni çox düşünmüşəm. Mən görürəm ki, məndə fədakarlıq artır. Yəni məişətçilik bütün dövrlərdə məndə zəif olubdur. Ancaq indi görürəm ki, artıq məişətin tələblərini özümdə çox ağır bir yoruculuq hesab eləyirəm. Çox ağır bir yük hesab eləyirəm. Demirəm ki, ömrümü məişətə həsr eləyirəm. Amma məişətin hər gün sallaşmasından tam qopmaq istəyirəm. Bununla belə gecəm, gündüzüm də yoxdur, işləyirəm. Məsələn, hər gün təsərrüfatın müəy¬yən ucundan-qulağından yapışıram. Hesab edirəm ki, təsərrüfatdan yapışmağımın əvəzinə səfərlərdə olaram, görüşlərdə olaram, daha çox Ocaq yayıcılığıyla məşğul olaram. Ancaq bir Ocaq ünvanımız var, indi gedəcəyik, görəcəyik, qardaş da görəcək, Amal bağı deyirik, orda bir İnam Məbədi tikirik. Bu, əlbəttə, tarxidən artıq söz deməkdir.Bütün fikirlərimiz tarixdən artıq söz deməkdir. Bu millətin özünün öz İnam ünvanı yaranır. Bu da bir tərəfi maddiyyata söykəndiyindən lazımdır ki, nəsə əldə eləyəm. Təvəkkül bəylə orda bir az taxıl əkmişik, fikirləşirəm ki, bir az ordan götürərəm, bir az tərəvəz-filan əkərəm, satarıq, bir az burdan götürərik, çünki kənddir, ayrı gəlir yerimiz yoxdur. Ordan tutalım ki, min beş yüz dənəlik daşla İnam Məbədinin (Evinin) hörgüsünü tamam qurtararam... Mən görürəm ki, ömrüm başdan-ayağa amallaşmaqdadır. Baxmayaraq ki, pomidor əkirəm, baxmayaraq ki, taxıl sulamağa gedirəm. Ancaq onları Amal üçün elədiyimə görə mən deyə bilərəm ki, mənim ömrüm amallaşır. Ömür ali məqsədlərə sərf olunanda öz mahiyətinə çatır. Adi məqsədlərdə ömür öz mahiyyətindən çox uzaq düşür. Lap Rokfeller olsan belə, Morqan olsan belə, adilərin adisi olacaqsan. O boyda Çingizxanlar, o boyda Teymurlar bütün əziyyətləri, zəhmətləri özlərindən sonra tarixdə uğurlu bir şey saxlamadı. Ata

deyirdi bir Nəsiminin Ənəlhəqqinə bərabər olmadı Teymurun Buxarası, Səmərqəndi. Onun qılıncının gücü. Hanı o döyüşlərin nəticəsi?! Çünki fiziki döyüş ruhani döyüşü əvəz eləyə bilmir. Mənim nəvəmin dili təzə açılır, “Səni bu hüsnü camal ilə, kamal ilə görüb, qorxdular həqq deməyə, döndülər insan dedilər” söyləyir. Bir körpə bunu deyir, çünki onun içində o hal var. Dili yeni açılana belə ağır bir qəzəlmi öyrətmək olar?! Daxilində var o hal, qanında var. Onu deyə bilir. Nəsiminin qüdrəti budur...

Xalqlaşma hesabatım haqqında da bir neçə kəlmə deyim. Bunu çox vurğulamışam Soylu Atalı ilə söhbətlərimdə. Gəldiyim nəticə odur ki, elə burda da vurğuladıq o sözü, bu bölgədə isti münasibət yaranmaqdadır Ocağa qarşı. Bunu söz xatirinə demirəm. Kimdəsə Ocağa meyil yaratmaq üçün demirəm, mənim həqiqətimdir. Çünki görürəm. Dünən təsərrüfat sahələrində ağacların altında yığışmışdılar. Dəvət elədilər. 16-ya qədər adam vardı, başqa kəndlərdən də vardı, ehtiraslı, haraylı bir görüş oldu. Bir vaxtlar mənə etiraz edənlər də yaxınlıqda oturub qulaq asırdılar. O vaxtlar onlar məbədi dağıtmaqdan danışırdılar. Gedərdilər ona. Yumruq davasına da çıxardılar. Düzdür, mən yumruq işlətməmişəm, ancaq mənə qarşı hərcayi münasibətlər, söyüşlər-filan işlədiblər. Yəni o dövrü keçdik. Nə ilə keçdik? İnadımızla keçdik. Yolumuza, yörəmizə sevgiylə keçdik. O qədər suallar verirlər ki. Bəzən də fikri çox vaxt özüm yönəldirəm. Hər hansı bir fikri açmaq üçün onun verdiyi yarımçıq düşüncəni, bir sualı yönəldirəm. Yaxşı da alınır. Mən Təvəkkül bəylə söhbətimdə bir şey vurğuladım ki, Ocağın məhz xalqlaşması yönündə, Amalın yayılması yönündə Təvəkkül məndən çox irəli gedib. Cəmi bu iki-üç ilin ərzində. O da onun kənddə indiyə qədər yaşadığı ömrün müəyyən təsiri olubdur bu məsələdə. Yəni elcanlı adam olub, özünün çəkisi olub. Bu baxımdan eşidilir, qulaq asılır. Həm də ki, mənə qarşı olan müəyyən tikanları, tutalım ki, hər hansı bir adamda mənə qarşı müəyyən tikanlar var də, mən Ocağı nə qədər gözəl açıram açım, bəziləri Təvəkkülə qulaq asan səviyyədə mənə qulaq asmırlar. Təvəkküldəki nəticələr daha yaxşı görünür. Təvəkkül, mən onlara gedəndə, qonşuya deyir ki, gəl bura, qonağım gəlib. Filankəs gəlibdir, gəlin dinləyin, gəlirlər. Bu mənim fərəhimdir. Mənim qanadım yoxdur uçmağa.

Sonra, söhbətlərimizin birində nəyi vurğuladıq? Müəyyən bir dövrdən sonra, təbii ki, cismən mən olmayanda, bəs orda iş başlayıb, – Məbəd, bunun ideoloji cəhəti, yayılması bir yana, Amal Bağı, İnam Məbədi bəs sabah buna sahib duracaq bir şəxs irəli durmalıdır. Bunu yetirəcik. Bu bölgənin haqqı yoxdur qırağa durmağa! Baxmayaraq ki, bu kəndin ağır qəbahətləri də olub. Həmin qəbahət nədir? Asif Atanın cisminin, nəşinin torpaqdan çıxarılması. Eybi yoxdur, biz onu bağışlayarıq bu elə, obaya.

Qıraq bölgələrə də gedirik, gəlirik, görürük. Burda Asif Atanı tanımamaq haqqında söhbət gedə bilməz. Soylu ilə bu yerlərdə çox olmuşuq. Asif Atanı tanımayan yoxdur.

Rayon mərkəzində olmuşam. Kənd içində demək olar ki, təlabat yaranıb məni dinləməyə. Elə yığışırlar, elə dinləyirlər, elə heyrət eləyirlər. Bu söz insanlığın mahiyyətini ifadə eləyən sözdür axı. Sən ondan danışırsan. Onun daxilindəki sarı simi çalırsan. O tapmayıb özünü. O muğama qulaq asan kimi kövrəlir. O, itirilmiş özünü görür. İtirilmiş mahiyyətiylə üzbəüz qalır. Bunda yaranır o kövrəklik. Odur ki, sözə heyrətlə qulaq asırlar. Mən yaxşı münasibət görürəm. Xalq-laşma hesabatım haqqında da bu qədər.

Burda Soylu qardaşımız, Yükümlümüz bir sual qoyub: “Mütləqə İnam dünyaya din kimi yayılsa nə baş verər?”Sualı müxtəlif cür beynimdə çözmüşəm, istədiyim cavabı ala bilməmişəm. Mütləqə İnam dünyaya din kimi yayılsa nə baş verər? Din kimi yayılsa nə deməkdir? Məsələn, dinçi deyir ki, yalançı allahın düşmənidir. Gəlin görək yalançı olmayan nəinki dinçiyə, kimə rast gəlmək olar ki?! Heç kəsə rast gəlmək olmaz. Çox çətin bir söhbətdir. Çünki dünya təpədən-dırnağa siyasətləşib. Münasibət təpədən-dırnağa ülvilikdən çıxıb. Ola bilməz ki, burda yalançılıq ömürlərə hökm eləməsin. İstər-istəməz, hətta, həyat normasına çevrilib. Dinçi başdan-ayağa yalançıdır. Niyə? Çünki dinin təməli tamamilə yalan üzərində qurulub. Allahı elə günə saldılar ki, nəinki sevilmədi, allahdan başladılar qorxmağa. Qorxmayanı hətta kafir adlandırdılar. Allahdan qorxmursansa deməli kafirsən. Qorxunun özü antiinsanilik törədir. Qorxmaq hara, müqəddəslik hara?! Allahdan qorxsan heç vaxt Allahı sevə bilməzsən. Heç vaxt o məzmunu sevə bilməzsən. Qorxacaqsan, qaçacaqsan ondan. Onun tələbləri də sənin

üçün yaddır. Bu baxımdan yalançılıq əslində dinin tam sütununa çevrildi. İndi divarlara da yazırlar ki, namaz dinin sütunudur. Namazda nə deyirsən? Namazda ola bilər ki, müəyyən yaxşı şeylər deyirsən. Amma onu məqam üçün deyirsən, gündəlik yaşamına çevirmirsən. Həm də ki, din insanın özünü başdan-ayağa manqurtlaşdırır: "Sən yaradılmısan və sən idarə olunursan". Onda bəs mənim düşüncəm hanı? Bəs yaxşı mən özümü mənən yarada bilmirəmsə, inamlı, idraklı, mənəviyyatlı, iradəli bir şəxs kimi yarada bilmirəmsə, mən necə kamil insan ola bilərəm?! Mən necə Allahlı, necə mütləq mahiyyətə yaxınlaşmış bir insan ola bilərəm?! Ona görə də Mütləqə İnamın din kimi yayılmasını mən heç ağlıma da yerləşdirə bilmirəm. Axı burda insanın idrakında dönüş yaratmaqdan gedir söhbət. Bu necə din kimi yayıla bilər?! Alınmaz da. Din kimi yayılanda siyasətlə doğmalaşır, siyasətin inhisarına düşür. Siyasət də yalana tapınır, din də. Əgər İmam Hüseyni öldürəni günahlandırırsansa, İmam Hüseynin alnına o taleni yazanı niyə günahlandırmırsan?! Allah o taleni İmam Hüseynə yazmışdı. Yeziddi, filankəsdi, o da onu icra elədi. Sən icraçıdan çox o fərmanı verəni günahlandır. Burda artıq idrak, məntiq meydana çıxır. Qardaşım, ikinci sözün sənin birinci sözünü inkar eləyir. Mütləqə İnam dünyabaxışının elə yayılmasını mən heç ağlıma yerləşdirmirəm. Mümkün deyil...

Növbəti sual: "Hansı halda Ocaqçının özünü qınaması, özüylədöyüş əməlinə stimul verir, hansı halda mane olur?"

Müəyyən bir dövrdə, müəyyən bir məqamda burda oturub söhbət eləyirik, gözəl danşıram, bir-birimizin ruhunun havası çalınır burda. O gözəlliyi, o yaxşılığı, o özünü qınamanı gündəlik həyatıma çevirəndə, mənim bütün ömrümə hopanda mən daim o əhvalla yaşayıram. Ancaq müəyyən məqamlarda Atanın kitablarını oxuyanda bir cür düşünüb, yaşayanda başqa cür olanda, əlbəttə, mane olur özüylə döyüşə. Özüylə döyüş əslində heç alınmır onda...

Atamız var olsun!

Adamın həyat yoldaşı onunla çiyindaş onda olur ki, bütünlüklə onu dərk eləyir. Balaca Nurtəkin Asif Ata məni Ocağa qəbul eləyəndən sonra dünyaya gəldi. Bir az kövrək məqamdır mənim üçün. Elana onu çox istəyirdi. Deyirdi ki, Nurtəkinimi Asif Atanın Amalına qurban

verərəm. Bu, elə dəli-tərsinə çıxmış bir söz olsa da, amma ürəkdən gəlmişdi, ana ürəyindən çıxmış bir söz idi. Bu o vaxt idi ki, Atanın yanında olmaq hünər tələb edirdi. Yəni Elana bu bölgədə Ocağa qarşı yönələn əks münasibətlərdə, təpkilərdə həmişə qeyrətlə dayanıbdır. Türk kişisi qadınını tərifləmir, amma o, mənim bu gün Amaldaşımdır. Bir neçə kəlmə onu dinləyək. O, bizim Ailənin Evladıdır. Bir neçə kəlmə fikirlərini desin Elana.

**Elana Atalı:** Sözümə Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Atanın adına səcdəylə başlayıram.

Ocaq haqqında düşünəndə, mən Göylüylə Nurtəkini özüm və mübarizə qadınları üçün örnək görürəm. Onların timsalında qadınlığın nə dərəcədə dəyişdiyini görürəm. Özüm də o dərəcədə dəyişirəm. Ocağı tanıyandan sonra bu hal yaranıb məndə. Ümumiyyətlə, bütün insanlarda, istər kişidə, istər qadında insanı çox gözəl hala yüksəldir Ocaq. Mən soydaşlarıma, – qardaşlarıma, bacılarıma Ocaq halında yaşamaq arzulayıram. Hansı evdə, ailədə Ocaqçı halı olarsa, o ev, ailə xoşbəxtdir. Ona görə ki, insan maddiyyatçılıq girdabında məhv olmur. Ruhaniyyat ülvi münasibətlər yaradır. İnsan maddi məqsədlərlə deyil, ruhani məqsədlərlə yaşayır. Bunun üçün də daxili Ocaqla doldurmaq lazımdır. Düzdür, mən o qədər oxuya bilmirəm kitabları. Bizim ailədə Günev yaxşı söhbətlər eləyir. Çox ailələrdə axşam olanda qeybət olur, bizdə Atanın kitablarından söhbət olur. Mən bütün ailələrə elə bu cür söhbətlər arzulayıram. İnsan onda həyatı sevir.

Mən bunu çox demişəm, atam xəstədir, yəqin ki, beş gün, üç gün ömrü var. O qədər narahat gedir ki, həyatdan: “bu dünya düzəlməyəcək” deyir. Mən çox ağrıyıram, istəmirəm ki, insan dünyanın düzəlməyəcəyini düşünə-düşünə ölsün. İstəyirəm Ocağın işığında dünyamızın düzələcəyinə ümidlə yanaşaq. Ataya üz tutmaq – xilas olmaqdır. Soydaşlarıma bunu arzulayıram. Atamız var olsun!

**Günev Atalı:** Soylu Atalı Ocaq Yükümlüsüdür. Bizdə sədr olmur, başçı olmur. Ocağın bir Ruhani Başçısı var, o da Asif Atadır. Ancaq bu gün Ocağın əsas yükünü çəkən Soyludur. Mən Soyludan bir il əvvəl Ocağa gəlmişəm. Ancaq Soylu məni yüz il ötübdü. Bu mənim üçün böyük fəxrdir. Mən həmişə deyirəm, Soylunun qarşısında dilim topuq çalır.

Bir məqamı deyim. Ocaqda belə bir qural var. Mərasim qurtaranda Ocaq Yükümlüsü bir-bir "Evladlıq Nişanələri"ni Ocaqçılara tədqim edir, axırda Soylunun nişanəsini təqdim eləməyi mənə məsləhət gördülər. Bayaq dediyim kimi, Soylunun qarşısında dilim topuq çalır. Ayağım bir-birinə dolaşır. Çünki Soylu Asif Atanı bizə yenidən verdi, yenidən tanıtdırdı. Bunu kim inkar eləsə, nankordur. Atanın ölümündən sonra Ocağı yaşadan Soylunun qüdrəti oldu... Dedim, mən Soylu haqqında nə deyə bilərəm? Mən Soyluya nə qədər yaxınlaşıramsa, Soylunu özümdən uzaqda görürəm. Soylu bir dağdır. Elə bilirsən o dağa yaxınlaşırsan. Görürəm Soylu hələ də əlçatmazdır, uzaqdadır. Heyrət eləyirəm sözünü, elə çaşdım ki, dedim, mən sənə nifrət edirəm. Elana dedi ki, pozun onu. Dedim yox, onun özü bir tarixdir. Dilimin topuq çalması ucalıq qarşısında, sarsılmaqdan doğur. Hər ürəkdə sarsılmaq olmur ki. Soylu demiş, heyrət olmayan ürəklərdə sarsıntı olmur. Bu nədir? Şəms-Rumi münasibətidirmi? Bəlkə də ondan artıqdır. İnanın ki, belədir. İstək, dostluq, qardaşlıq, Amal yükü çəkmək, bəşər yükü çəkmək nə dərəcədə qüdrətlidir. Təvazökarlıqdan qıraq olsa da, bəlkə də zaman gələcək ki, bu münasibətin gözəlliyini araşdıracaqlar. Mən Soylunun ruhani tabeçiliyindəyəm. Bu o deməkdir ki, Soylunun sözü mənim üçün qanundur. Əgər belə olmasa, bir addım da yol getmək olmaz. Onda Ocaqda başıpozuqluq yara-nar. Ördək-balıq-xərçəng nağılında olduğu kimi hərə bir tərəfə çəkər. Hərdən fikirləşirəm, dünya başıma dolanır, bu gün Soylu cismən olmasa, mənim halım necə olar? Söz yox, Soylunun özü demiş, Ocağın elə bir təməli var ki, yüzilləri adlayıb sabaha gedəcək...

*(Bu söhbətlər çox şən keçdi. Soylu Atalı "mən ölmək istəmirəm" deyə şirin yumora keçdi – G.A.)*

**Soylu Atalı:** Ailə Günü o demək deyil ki, quru keçməlidir. Bu cür gözəl yumor da olar. Adiləşmək deyil bu. Ürəyin sevdası gərgin məqamlara da aparır, yumora da.

**Günev Atalı:** Deyir dərdini mənə de, deyim kimsən. Asif Atanın dərdi, sənin dərdin tək Azərbaycanın dərdi deyil axı, Şərqin dərdi deyil axı, tək fərdlərin dərdi deyil axı. Bütün bəşərin dərdini ürəyində daşıyırsan.

İndi qardaş, söz sənindir. Ailənin bir Evladı kimi buyur səni dinləyirik.

**İlqar Türkoğlu:** Günev bəyin çıxışıyla bağlı bir fikir demək istəyirəm. Mən təşəkkür edirəm. Çox gözəl bir məqama toxundunuz. Ocağın din kimi yayılmağına münasibətiniz necə idi? Mənim özümün subyektiv fikrimcə Asif Ata ideyalarını, Mütləqə İnamı, Ruhani Cəmiyyətin formalaşmasını din çərçivəsinə sığışdırmaq qeyri-mümkündür. Bu, əksinə, daha kiçik bir şey ola bilər. Mütləqə İnam, Ruhani Cəmiyyətin formalaşması heç bir dini çərçivəyə sığışa bilməz. Onu din səviyyəsinə endirmək qeyri-mümkündür.

**Günev Atalı:** Mən bir misal çəkim. Ocaqçılar olubdur vaxtilə, yaxşı da əməlləri olub. Kitab çap etdiriblər, fədakarlıqlar ediblər. Sonra da gediblər Ocaqdan. Hətta müəyyən mənada əks mövqedə də olublar. Əslində onlarda din kimi olub Ocaq. Əgər doğrudan da ardıcıl ömrünü yaratsaydı, mümkün deyildi elə dönsün. Deməli, belə də ola bilər. Bu sualı qoyduğuna görə Soylu özü tam, əhatəli cavab verəcək.

**İlqar Türkoğlu:** Çox gözəl bir məqama da toxundunuz, türk qadının ailə başçısı ilə bir sırada dayanması. Bəşəriyyətdə türkün qadını, həyat yoldaşı hər yerdə, hətta döyüş meydanında at belində öz ərləriylə, öz ərənləriylə bir yerdə olublar.



Düşmənə qarşı bir yerdə mübarizə aparıb, bir yerdə də həlak olublar. Çıxış kimi alınmasın. Analogiya aparaq ki, nəyə görə türk qadını birdən-birə ərlərindən, ərənlərindən ayrıldı, qara çadraya büründü. Türkün bir qolu sındı. Türk sındı. Təbii türkü belə sındırdılar. İslam türkü bu cür sındırdı. Onun döyüş meydanlarında qalib gəlmək qüdrətini azaltmaq üçün bu bir variant idi. Ümumiyyətlə, İslam türkə bizim təsəvvür eləyə bilməyəcəyimiz qədər zərbə vurdu. Hələ miladdan öncəki illərdən bəri türkün qüdrətini sındırmaq üçün min hoqqadan çıxdılar. Min oyundan çıxdılar. İslamı türkün məişətinə daxil elədilərsə də, yenə uzun illər türkün qüdrətini sındıra bilmədilər. Sonda onu müxtəlif bölücülüklərlə, müxtəlif təriqətlərlə, məzhəbçiliklə parçaladılar. Bir ailədə biri sünni ola, biri şiə ola, bir vəhabi ola, bir-birinə patoloji nifrətdə ola, bu bir dildə danşan bir millətin, bir ananın, bir atanın övladları bir-birinə düşmən kəsilə. Bax, dinin mahiyyəti budur. Bu ərəbə daha çox lazım idi. Bu farsa daha çox lazım idi. Çünki onlar türkün üzərində qalib gəlmək üçün, türkə xəbislik eləmək üçün, badalaq gəlmək üçün min hoqqadan çıxırdılar...

**Soylu Atalı:** 15 İşıq Ayı, 36-cı ildə "Atagün" Ailəsinin III Ailə Günü mərasimini yaşayırıq. Mən Atamıza səcdə qılıb bayrağımızı öpürəm.

Bizim Ailə Günümüzün tələbi odur ki, burda fərd özünü hərtərəfli görə bilsin. Hərtərəfli anlaya bilsin və özünü yarada bilsin. Lap elə Ocaq mərasimlərində də. Biz kitab oxuya bilərik müstəqil şəkildə. Söz deyə bilərik. Ancaq bizim kitab oxumağımız, söz deməyimiz konkret olaraq mərasimləşmirsə, hesabatlaşmırsa, onda əhvallaşmır. Onda o, yerişə çevrilmir. Kim nə deyir desin, bu cür tədbirlər olmasa, adam gedib qonşusuna Ocaq sözü demir. Deyə bilmir. Bir dəfə deyər ha, ikinci dəfə gedib demir. Kökdən düşmə olur. Ona görə "Ailə Günü" mərasimləri olduqca önəmlidir. Gərək bunu da yaşayasan. Yaşamadan günü yola vermək olar. Bura mənim gəlişim özüm üçün çox əlamətdar xarakter daşıyır. Mən bura həqiqətən dəyişmək üçün, dəyişdirmək üçün gəlirəm, əhvallaşmaq üşün, köklənmək, təzələnmək üçün gəlirəm. Eləcə də Bakıda keçirdiyimiz tədbirlərə. Mənim şəxsən qatıldığım Ocaq tədbirləri çoxdur. İşin bir cəhəti ondadır ki, mən hər üç Ailənin Ailə Günlərində iştirak edirəm. Üstəgəl Ocağın başqa tədbirlərində oluram.

Mənim başqa Ailə Günü tədbirlərinə qatılmağım Amaldaşlarımın arzusu ilə olur.

Bizim istəyimiz odur ki, Ailə Günü keçiriləndə 3-5 adam gəlsin. Bəzən elə adamlar gələ bilir ki, elmi cəhətdən iddialı olur. Sözü olan adam gəlir. Bəzən elə adamlar olur ki, gəlib deyir, Asif Ata bəşəriyyətin dediklərini deyir. Akademiyadan alimlər gəlib bizim tədbirimizdə deyiblər ki, Asif Atanın filan-filan fikirləri bəşəriyyətin ayrı-ayrı fikir adamları tərəfindən səsləndirilib. Mən onların ağzından vurmaq istəmirəm. Mənim elə bir qəsdim yoxdur ki, gəlsinlər bizim tədbirə və biz necə deyiriksə bizi alqışlasınlar, sakit-sükut otursunlar, yox. Mövqe desinlər. Ancaq mən o mövqeni doğru sayıram ki, gələn öz sözünü deyir, durub burada bizə ağıl öyrətmir. Adamlar var gəlib bizə ağıl öyrədir. Mənə ağıl öyrətmə. Sən bu sözü indi deyirsən, mən hər gün düşünürəm. Hər saat düşünürəm. Mənə ağıl öyrətmə. Mən sənə ağıl öyrətmirəm. Mən orada olan insanlara ağıl öyrətmirəm, sevgi verirəm, yön verirəm. Onun özü nə öyrənəcəksə, özü öyrənsin. Mən vazilik eləmirəm. Hədəfim o deyil. Heç kimə demirəm ki, ağıllı ol. Onu mən özümə deyirəm. Mən kim olmalıyam. Bu cəhətdən bizə ağıl vermək doğru deyil. Fikrini de. Bu vaxta qədər mənim hələ ağlıma gəlmir ki, hansısa fikir adamına deyim ki, sən səhv deyirsən. Mən elə demirəm. Demişəm siz bu cür düşünürsünüz, amma biz fərqli düşünürük. Nədə fərqli düşünürük. Bax, bu cür fərqli düşünürük. Sən də hesabını götür, mən də. Mən səni dinədim, sən də məni dinlə. Kimin haqlı olduğunu, doğru dediyini qoy vicdan mühakimə eləsin. Get sən də düşün, mən də düşünüm. İnsan öz vicdanıyla düşünəcəksə, heç vaxt deyə bilməz ki, qarşı tərəf əyri deyir. Düz deyirsə deyə bilməz əyri deyir.

Bir neçə məqam deyim. Bir var arzular, bir də var mübarizə. İnsanlar çox şey arzulayırlar. Məgər Asif Ataya qədərkilər, Asif Atanın çağdaşı, Atadan sonrakı insanlar millətin gələcəyini arzulamırmı? Arzulayır. Millətə sevgisi olsun deyə düşünmürmü? Düşünür. Ancaq arzular yerimir, arzuların yerişinin gücü var. O güc nədir? O güc mübarziədir, mübarizə olmalıdır. Əgər mübarizə yoxdursa, arzular yalnız və yalnız insan qəlbinin hansısa bir guşəsində gizlənib qalacaq. Arzular həyata qədəm qoymur, yerimir. Ona görə də arzu eləmək azdır. Əgər biz istəyiriksə, doğrudan da, Yurdumuzda böyük qlobal dəyişikliklər

eləyək, biz istəyiriksə xalqımızın yönünü dəyişək, onda mütləq mübarizə aparmalıyıq. Mübarizəni də necə apara bilərik?! Mən sizi əmin edirəm, burda oturan on nəfərə qədər adam var ha, burda sizin oturuşunuz mübarizədir. Azərbaycanın hər bir güşəsində ayrı-ayrı ünvanlarda toplantılar olur, insanlar bir yerə gəlir, nədir orda bir araya gəlib böldükləri fikirlər, ortaya qoyduqları düşüncələr. Ən çox sosial-məişət zəminində məsələlər çözülür. Yaxud da siyasi xarakterli məsələlər qoyulur. Hakimiyyət pinsipləri özlərinə yarar şəkildə çözülür. Ən çox budur söhbət. Heç bir ünvanda Ruhaniyyat mövzusu yoxdur. Prinsipial Türkçülük məsələsi, insanın İnsan olması qoyulmur, çözülmür, deyilmir. Heç bir yerdə deyilmir! Fikir, İdeya əsasdır, özüldür. Bu özüllər üzərində gəlib dayanırıq. Bu özüllər üzərində biz fikir yürüdürük. Söz deyirik. Bu mübarizədir. Biz özümüzü kökləyirik, özümüzü doldururuq. Əgər burda özümüzü doldurmasaq, qardaş, gedib o Günəşlidə (qonşu bölgədə) söz deyə bilmərik. Atayla dolmaq məsələsi var. Atayla dolmasan sözün olmur. İçində etiraz olur, içindəki etiraz öldürür səni içəridən. Çünki ifadə eləyə bilmirsən, söz deyə bilmirsən. Məntiqin ucunu tapa bilmirsən. Ona görə burada Ata ilə dolmaq məsələsi var, biz Ata ilə doluruq. Mübarizə aparmaq gərəkdir. "Quru-quru qurbanın olum"la iş getmir.



Hər kəs hesab eləyir ki, öz ailəsi qarşısında məsuldur. Mən ailə qarşısında məsul olmağı doğru sayıram. Amma hər kəs ailəsi qarşısında məsul olur və səhərdən-axşama qədər ailənin qarnına, məişətinə qulluq eləyir. Səhərdən-axşama ailənin qarnına qulluq eləmə. Xalqını düşün. Niyə? Sənin oğlun-qızın, uşağın dünyaya gəlir. Oğlun-uşağın bax bu sürünün (cəmiyyətin) içinə gəlir. Sənin xalqın sürüləşdirilibdir. Oğlun-qızın onun içinə gəlir. Sürüyə çevrilir. Neyləyirsən o sürünü əkib-törəyirsən, ortaya gətirirsən. Heyvanlaşanı niyə doğub-törəyirsən. Axı nəyə lazımdır bu? Heyvan gətirmə dünyaya. Əgər dünyaya övlad gətirmisənsə onu insan elə. İnsan eləmək istəyirsənsə ruhaniyyatla məşğul olmaq lazımdır, gödəniyyətlə məşğul olmaq yox. Gödəniyyətlə məşğul ol, amma elə məşğul ol ki, sənin varlığın gödəniyyətə tabe olmasın, bütün fikrin, düşüncən. Günev qardaşımız bir ifadə işlətdi bayaq. O deyir ki, mən Məbədi tikmək üçün gedib təsərrüfatla məşğul oluram. Və hesab eləyirəm ki, mənim təsərrüfatla məşğul olmağım Amala xidmət elədiyi üçün, bu əməl məni amallaşdırır. Doğru fikirdir. Bax, onun içindən götürürəm. Bizə sovet filmləri nümayiş etdirirdilər. Müharibədə insanların əlində beş tikə çörək var. İyirmi, otuz, qırx, əlli adam oturub o tikəni bölürlər, bir-birlərinə verirlər. Bu bir filmdir, bəlkə də o dərəcədə gerçək həqiqət deyil. Amma bu, insan arzusudur, filmdə öz əksini tapır. Bir tikə çörəyi hamının yeməyə haqqı var. Acından ölür axı. Hamı o bir tikə yemək üçün çöllərə dağılıb. Əlinə silah alıb müharibə aparır. Niyə? Ona görə ki, vətənin vətən olsun, vətənində övladıyın gələcəyi olsun. Gedirsən güllənin ağzına ki, mənim ailəmin, xalqımın gələcəyi olsun. Ancaq ruhaniyyat səndən güllənin ağzına getməyi tələb eləmir. Ruhaniyyat səndən İnsaniliyə Bayraqdar olmağını istəyir. Götür İnsanlıq bayrağını, düş qabağa. Ruhaniyyat səndən onu istəyir. Bu baxımdan deyirəm, əgər biz ayda bir, iki dəfə öz boğazımızdan kəsib, balalarımızın boğazından kəsib xalqın gələcəyinin boğazına qoymuruqsa, onda mənim balamın gələcəyi nədir, mən bimirəm.

Bizim bu zəhmətlərimizin hamısı ruhaniyyatdır. İnsanlıqdır. Hətta bir məqamda insan özünü güllənin qabağına qoyar, vətəninin hərraca qoyulmasına dözməz. Bu özü ruhaniyyatdır. Bu gödəniyyət deyil, məişət deyil. Ona görə də kimsə xalqın ruhani-mənəvi gələcəyini

düşünmürsə, onun öz ailəsini düşünməsi məni inandırmır. Səmimiyyətinə inanmıram. O, heyvana çalışır. Heyvan kimi ömür sürür. Heyvan kimi "ailə" yaradır. Onun insana, insanlığa dəxli yoxdur. Bəli, arzu və mübarizə məsələsini doğru anlamaq gərək. Arzumuzu həyata keçirmək gərək. Arzular tükənmir. İnsan qəlbinin gözəllikləri arzuda öz ifadəsini tapır. Sonra arzulardan əməllərə qonur. Əməllərə qonandan sonra həyat gözəl olur. Arzular əmələ qonandan sonra İnsani gözəlliklər yaranır...

Hərəmiz bir bölgədənik. Mən Bakıda gedib görüşlər keçirirəm. Mənə sual verirlər ki, Asif Atanın nəyisiniz? Deyirəm heç doqquz arxa dönənindən belə kimsəsinə bağlı deyiləm. Azərbaycan dəyəridir bu. Asif Ata mənim ruhumun, mənliyimin Atasıdır. Mənim Ata ilə heç bir fiziki-cismani qohumluğum yoxdur.

Başqa bir mövzu deyim: Vaxt var idi "göydə Allah, yerdə hökmdar" ifadəsi çox geniş şəkildə vurğu edilirdi. Roma imperiyası İsanı niyə qəbul elədi? Ona başa saldılar ki, onsuz da sənin hökmdarlığın yenə sürəcək. "Göydə Allah, yerdə hökmdar" tələbi var. Sən allahın yerdəki kölgəsisən. Sənə allaha qulluq göstərən kimi qulluq göstərəcəklər. Allaha təzim edən kimi qarşında təzim edəcəklər. Hökmdarlar ona görə dini qəbul elədilər. Dini xalqın içində qəbul edib öz inhisarlarına götürdülər. Bu gün də elədir. Azərbaycan iqtidarı niyə bu qədər hər şeyə göz yumur. Din ona lazımdır. Mütləqə İnam lazımdırmı? Deyil! Mütləqə İnam ona görə lazım deyil ki, Mütləqə İnam şəxsiyyət yetirir. Şəxsiyyət istəyir. Şəxsiyyət hökmdara baş əymir, hökmdarı xalqa baş əydirir. Sən bu xalqın qulluqçususan. Sən bu xalqın ağası, koxası deyilsən. Səni xalq qulluq üçün hakimiyyətə gətirir. Məni əymək üçün yox.

Böyük ürəklər var. Böyük ürəklərdə böyük hikmətlər yaşayır. Böyük hikmətlərə, üzr istəyirəm, tüpürürsən və böyük ürəkləri əyirsən. Böyük ürəkləri əydiyin qədər həyat əyilir. Böyük ürəkləri əydiyin üçün həyat eybəcərləşir. Ona görə də bir vaxtlar "göydə allah, yerdə hökmdar" məntiqiylə ki, haray salırdılar, o vaxtlar Nizamilər, bizim böyük şəxsiyyətlərimiz insan qəlbinin gözəlliklərini nəzmə çəkirdilər. Qadını bütə çevirirdilər. "Heyrət ey büt", deyirdilər Füzulilər. Göylərə qaldırırdılar insanı qadının timsalında. İnsanı yerin, göyün, kainatın

əşrəfinə çevirirdi. İnsana rişxənd edilən bir vaxtda, insan aşağılanan, urvatını itirən bir vaxtda poeziya, sənət, ədəbiyyat səfərbər olurdu böyük dühaların qəlbində, ağlında, düşüncəsində. Dirəniş göstərirdi insanın əyilməsinə, əzilməsinə.

İndi bizim çağımızda hara baxırsan əyrilikdir. Hara baxırsan eybəcərlikdir. Niyə? Çünki əyriliklə, eybəcərliklə döyüş yoxdur. Poeziya döyüşmür, ədəbiyyat döyüşmür, sənət döyüşmür. Ədəbiyatı qəlibə saldılar. Mən yazmışdım ki, "Yazıçılar Birliyi" sənətin qəbirstanlığıdır. Ədəbiy-yatı qəlibə saldı. Çinovnikləşdi ədəbiyyat yaradıcıları. Hamısı hakimiyyətin köləsinə, kölgəsinə çevrildi. Xalqın üzərində hakimiyyətin hökmürəvan olmasına qulluq göstərdilər. Bunu yaratdılar. "Yazıçılar Birliyi" o işi həyata keçirir. Ona görə də böyük sənət yaranmır. Böyük ədəbiyyat, böyük poeziya yaranmır.

Xalqın içində səslənən böyük poeziya olmalıdır. Poeziya birbaşa duyğulara təsir eləyir. Poeziya elə bir şeydir ki, orda bədiiyyat var. Orda lirika var. O duyğularladır. Mübarizədə duyğu böyüyüb idrakiliyə yetir. Ona görə böyük poeziya yaranmalı idi. Böyük sənət yaranmalıydı və xalqın döyüşən gücünə çevrilməliydi. Bu gün o yoxdur. Asif Atanın Ocağı, Onun prinsipləri böyük sənət üçün, böyük ədəbiyyat üçün böyük qapılar açır, böyük imkanlar açır.

Burada mən bu məqamları ona görə vurğu eləyirəm ki, biləsiniz, bizim işimiz, mübarizəmiz yalnız din məsələsi ilə deyil. Həyat təkcə dindən ibarət deyil ki. İctimai həyatı nizamlayan, tərəqqiyə stimul verən, həm də adını çəkdiyim məsələlərdir. Biri də ictimai ideologiyadır. İctimai ideologiya bərbad gündədir. Yoxdur ictimai ideologiya. Yaxud milli strategiya deyirlər ona siyasi dildə. Milli strategiya nədir? Milləti qabağa apara bilən, onun təməl prinsiplərini yarada bilən şəxsiyyətlərin ortaya çıxmasıdır. Onların əməyi əsasında həyatımızı həyat eləyən bütün sahələrin hamısı nizamlı şəkildə işlənib xalqın yaşamına verilməlidir. Milli strategiya budur. İstər təhsil olsun, istər hüquq sistemin olsun, istər siyasi sistemin olsun, istər ideoloji sistemin olsun, istər ruhani sistemin olsun, nəyin olursa-olsun, bunların hamısı bir vəhdət təşkil eləməlidir. Bax, milli strategiya odur. Yoxsa təkcə biz demirik ki, həyat ancaq ruhaniyyatdan ibarətdir. Bu dediklərimdən ibarətdir. Bunların hər biri ruhaniyyatın nizamında xalqa gərək

olmalıdır. Poeziya, sənət ruhaniyyatın bir tələbidir. Milli ideologiya ruhaniyyatın bir tələbidir. Hətta dövlət siyasəti ruhaniyyatın bir tələbidir. Hamısı Ruhaniyyat əsasında nizam tapmalı və xalqa gərək olmalıdır. Asif Ata onunla məşğul olur. Yetər ki, onu eşidən, yaşadan oğullarımız olsun.

Bayaq İlqar qardaşımız bir misal çəkdi, – din son həddə gəlib və ordan aşağı meyillənir. Ora gəldi, bəs niyə bu gün də sürətlə ora bir axın olur?! Min ildir bizim toplumumuzun içərisində din məzmunu var. Bizim toplumumuzun ağlı, düşüncəsi, varlığı dinlə nizamlanıb, dinlə qurulub, əyri, ya düz. Quruluşlar dəyişir. Biz sosializm deyilən bir quruluş yaşadıq. Buna elmdə ictimai-iqtisadi formasiya deyirlər. Sonra gətirdilər çıxartdılar kapitalizmə yenidən. Bu kapitalizmə qayıdış birdən-birə “bacarana baş qurban” prinsipiylə dünyanı talayanlar ordusu yaratdı. Kimin harda əlinə imkan düşür qamarlayır. Harda imkanı var aldadır, soyur, çalır, çapır, talayır. Korrupsiya deyirlər, rüşvətxorluq deyirlər, bu nədən yaranır? Ondan yaranır ki, insan tamahı dünyanı qapmağa meyillidir. İnsanda ruhaniyyat olmayandan sonra, əlbəttə, dünyanı qamarlamağa meyil eləyəcək. Dinə ruhaniyyat deyirlər. Din ruhaniyyatdırsa niyə mane olmur?! Din quruluşla döyüşmür axı. Mənə göstərin, xristianlığın başlanmasından islamın başlanmasına qədər; İslamın başlanmasından çağımıza qədər bir dönəmdə, mənə göstərin ki, din quruluşla döyüşüb. Döyüşməyib. Din də vardı quldarlıq dövründə, dövrün quldarları, qulları da vardı. Sadəcə olaraq, din özü o qulun qul səviyyəsində, qul müstəvisində hüquq axtarırdı ona. Qul olmaqdan azad olmurdu haa. Qul hara, insan hara. Yerin, göyün əşrəfi olan insanın, necə olur ki, sən basıb gözünü çıxarırsan. Onu plantasiyalarda özünə qul edirsən. Necə olur o?! Necə olur biri harınlayır, biri əzab-işgəncə çəkir?! Yaxşı, necə sən dinsən, necə ruhaniyyatsan, vicdan hara baxır bəs?! Vicdan hara baxır ki, sən oturubsan ağacın altında, sənin başının üstündə çətir tuturlar, qabağına piy qoyurlar, yalayırsan. O biri orda, boz çöllərdə əzab çəkir günün altında. Bəs ruhaniyyat həll eləməli deyildimi bunu? Həll eləmədi axı.

Yaxud da götürək başqa dövrü, feodalizmi. Mən Quranı oxumuşam, ayələri təhlil eləmişəm, yazmışam. Dinlə bağlı mənim qədər bəlkə də heç kim yazı yazmayıb. Feodalizm dövründə döyüşürdümü din?

Məhəmmədin ayələri feodalizm adlanan ictimai-iqtisadi formasiyanın tələb-lərini nizamlayırdı. Oxuyun o ayələri. Onu bu gün XXI yüzildə kapitalizmə tətbiq eləyirlər, alınmır heç nə. Çünki o feodalizm prinsiplərini ifadə eləyir. Ona görə də din əslində quruluşun içərisinə girdi, quruluşun içərisində əridi. Amma Asif Ata yeni quruluş gətirir. Yeni sivilizasiya gətirir. Bu sivilizasiyanın adı insanlaşma siviliza-siyasıdır. İnsanilik erasıdır. Tamam sivilizasiya dəyişir. Ona görə də Asif Atanın dünyagörüşü din deyil. Ona görə Asif Atanın ideyaları, prinsipləri haqqında danışanda biz iddialı danışırıq.

Asif Ata deyir ki, bəşər tarixi qaralamadır, deyir mən filosofları oxudum, gördüm ki, filosofların fəlsəfələri insana gərək deyil. Görün kim olasan ki, bu cür hünərlə, bu cür qüdrətlə hayqırasan ki, indiyə qədər filosofların fəlsəfələri insana gərək deyil. Mən də oxuyub sübut edirəm ki, gərək deyil. Üzr istəyirəm, bunu biz yekəxanalıq üçün demirik. Bu bizim həqiqətimizin harayıdır. Otursun filosof mənə sübut eləsin ki, gərəkdir. Mən də sübut edəcəm ki, böyük mənada gərək deyil. Niyə? Asif Atanın meyarını qoyacam ortaya ki, bax, buna görə. Sən də mənə deyirsən ki, Asif Atanın dediyini ondan əvvəlkilər deyib. Harda deyib. Kim deyib? De, gedim ətəyindən yapışım. Deməyib! Bunu mən sənə sadəcə olaraq deməyib demirəm. Mən bunu öyrənib deyirəm ki, deməyib. Fikirlə, düşüncəylə ortaya qoyub deyirəm deməyib. Bəli, dinin işi qaldı quruluşun içində. Quruluşla mübarizə aparmadı. Asif Atanın işi isə təkcə dinlə mübarizə deyil. Din quruluşun bir cəhətidir. Asif Ata bütövlükdə quruluşla mübarizə aparır. Onun Ruhani cəmiyyət idealı var. Deyir, nə kapitalizm, nə sosializm. Həmin Ruhani Cəmiyyət idealının da təməl prinsiplərini qoyur ortaya. Mən indi burda açmaq istəmirəm, bir tədbirdə sizi yükləmək istəmirəm... Adamlara bəzən elə gəlir ki, Asif Atanın işi elə yalnız dinlə döyüşməkdir. Xeyr. Din Asif Atanın mübarizə apardığı obyektin bir çalarıdır, bir cəhətidir. Asif Ata bütövlükdə quruluşla mübarizə aparır. Ancaq bunu siyasət biçimində aparmır. Ruhaniyyat səviyyəsində aparır. Qardaşımız bayaq deyir ki, insanların ömründə axtararsan, yalansızlıq tapa bilməzsən. Ancaq bu o demək deyil ki, insan ömrü yalansız keçinə bilməz. İnsan ömrü yalansız olmalıdır.

Mənə, bizim əvvəlki sexin rəisi vardı, deyirdi ki, qardaş, sənə deyirlərmi filan şey, de baş üstə, belə de də. Deyirəm sən məni niyə özünə bənzədirsən. Onda sən niyə oturursan orda. Əgər onu deyəcəkdimsə, onda sən orda oturmayacaqdın, mən oturacaqdım sənin yerində. Mən onu demədiyim üçün orda oturmuram...

Yalanı silmək lazımdır ömürdən. Yalanı silmirsə, qəlbində, duyğularında, düşüncəsində yalan daşıyan insan vətən uğrunda dürüst düşünə bilməz. Demirəm mübarizə apara bilməz, mübarizə böyük söhbətdir, düşünə bilməz. Millətin gələcəyi haqqında doğru, dürst düşünə bilməz. Ona görə insan ömrü yalandan çıxmalıdır. Asif Atanın "Özüylədöyüş" prinsipinin əsas qayəsi ömür-dən yalanı silməkdir. Özüylədöyüşün mənası odur. Biz ona ömrümüzü həsr eləmişik. İllərimizi həsr etmişik. Bəli, çətindir, amma müşkül deyil. Çox da fərəhlidir. Hər zaman amaldaşlarım zəng edib məndən soruşur, necəsən? Deyirəm əlayam. Mən bunu söz xatirinə demirəm, doğrudan əlayam. Mən çox fərəhliyəm. Niyə? Çünki içimdə mənim fərəhimi azalda biləcək zibil saxla-mıram. Döyürəm, döyüşürəm.

Bir mövzuyla söhbətimi yekunlaşdırmaq istəyirəm. Bayaq dediniz, Mütləqə İnam dünyaya din kimi yayılsa nə baş verər? Əvvəla, Mütləqə İnam dünyaya din kimi yayıla bilərmi? Bilər. Necə bilər? Məscidlərdə nə danışırlar? Məscidlərdə əvvəldən axıra qədər müqəddəslik donu geydirilmiş, ruhanilik donu geydirilmiş yalan danışırlar. Allah-insan münasibəti yalandır. Dinə görə Allah fövqəltəbii qüvvədir. Transendentaldır, insan zəlildir, balacadır, əzəli günahkardır. Adəm və Həvvanın törəməsi olduğuna görə və çağında allahı eşitmədiyinə görə, qələt iş tutdu-ğuna görə günahkardır. Biz də Adəm və Həvadan törəmişik. Axı bizim ulu babamız və ulu nənəmiz Adəm və Həvva günahdan çxmadı. Günahdan çıxmayıbsa, biz onun gen daşıyıcılarıyıq, deməli biz günahkarıq. Baxın, müqəddəslikdən danışasan məsciddə, məbəddə, durub qırmızı-qırmızı insanın gözünün içinə baxıb yalan danışasan və özün da danışdığın yalana inanasan. Molla danışdığı yalana inanır özü. Özünü inandırır. Bir dəfə, beş dəfə, deyir deyir, axırda özünü inandırır. Yalan danışa-danışa müqəddəsliyi bərqərar eləyə bilməzsən. İnsan qəlbinin gözəlliklərini üzə çıxara bilməzsən. Mən yalan danışa-danışa gözəl əhvallar sərgiləyə bilmərəm. Səni sevə bilmərəm. Mənim sevgimə

necə bel bağlaya bilərsən ki, mənim (İnsanın) varlığım, nəfəsim yalandır. Ona görə müqəddəslik ünvanı bilinən məscidlərdən, məbədlərdən dünyaya yalan yağır. Bax, biz sadə insanıq, deyək ki, Məscidlə, Məbədlə işimiz olmayan. Müsəlman aləmini götürək. Məscidlə işi yoxdur kütlənin. Amma ruhaniyyatın bilicisi, başbiləni sayılan, məsciddə oturan molla bütün kütlə üçün etalondur. Doğruluq etalonudur guya. Toplum doğrunu-dürüstü hardan öyrənir? Baxır məscidə, çünki kütlə üçün o doğruluq meyarı sayılır. Halbuki kütlənin üz tutduğu, güvəndiyi allahın evində – məsciddə başdan-ayağa yalan var. Küfr var, xəyanət var. Ona görə də toplum o məsciddən başlayan yalana bürünüb. İndi biz Məbəd tikirik. Məbədin içində biz oturaq danışaq. Nədən danışaq? Biz də əgər toplumun gözünün içinə baxıb, həqiqətdən danışmayaq, yalan danışaq, hara gedib çıxmaq olar?! Əslində həqiqətdən o dərəcədə danışa bilməzsən, əgər için həqiqətlə dolmayıbsa. Həqiqət haqqında ayrı-ayrı eşitdiyin fikirləri danışa bilərsən, həqiqəti danışa bilməzsən. Mümkün deyil. Qəlbinin harayını deyirsən sən. Qəlbində həqiqət olmayandan sonra nə deyəcəksən? Ona görə də Məbəddə oturub biz həqiqətin adından danışsaq, özüylə məşğul olmasaq, özüylə döyüşməsək, yalandan açılmarıq, yalnız gözəl, bəlağətli fikirləri sərgiləyərik. Bu da olar "Məbəddə oturanın dediyini elə, elədiyini eləmə". Bu elə dindir. Nə eləyirsən elə, hansı ideyanı ortaya qoyursan qoy, bu elə dindir, özü də ən pis səviyyədə. Yəni toplum o səviyyədə qala bilər. Ancaq burda mənim ümidim nədir bəs? Mən deyirəm ki, İnam din olmaz. Siz də deyirsiniz ki, olmaz. Bəs mənim ümidim nədir? Mənim ümidim odur ki, məscid insan idrakını qapayır. Mütləqə İnam insan idrakının sonsuz imkanlarını açır. Məsələ bundadır. İnsan idrakının imkanları aşkarlandıqca, insan doğruyla yalanı müəyyən eləyə bilir. Həqiqətlə həqiqətsizliyi müəyyən eləyə bilir. Gözəllə çirkini müəyyən eləyə bilir. Gözəli tanıya, sevə bilir. İdrak odur. Boş-boşuna, quru-qurusuna inanmırsan. Naşı inam deyil sənin inamın. Sənin inamın müdrik inamdır. Buna görə də inam özü idraka, həqiqətə əsaslanır. Həqiqətlə yüklənir. Bax, ona görə o Məbəd ki, həqiqət izhar eləyir, o Məbəddən dünyaya yalan yayıla bilməz. Ona görə mən düşünürəm ki, hətta yüz il bundan sonra, iki yüz il bundan sonra Asif Ata təkcə Azərbaycanda deyil, bütün planetə yayıla bilər. Ancaq

dediklərimiz olmasa, din kimi yayıla bilər. Mən sizi əmin edirəm, mən öz inandığımı sizə deyirəm, mən qətiyyətlə deyirəm ki, bəşəriyyət Mütləqə İnama din səviyyəsində deyil, İnam səviyyəsində tapınacaq. Niyə? Çünki bəşəriyyət yalan üstə yaşamaqdan bezib. Yalan əsasında yaşamaqdan bezib. O yolu ona sən verirsən. O yolu tanıyan-dan sonra deyəcək ki, idraklı həqiqət gərəkdir. Əsas odur ki, İşığın yolunu qapama. Bax, Asif Ata bizim idrakımızın gözünü açır. Bəşəriyyətə idraki üfüqlər göstərir. Başını salla, otur otla demir. Din onu deyir. Allahla işin olmasın, onun işinə qarışma. Ancaq Mütləqə İnamın məntiqi odur ki, mən gəldim ki, İnsan allahın sirrinə vaqif olsun. Din deyir allahın işinə qarışma, o sənin ağlının işi deyil. Asif Ata isə deyir ki, allahın sirrinə vaqif olmalısan. Onda sən gözəllikləri dərk eləyəcəksən. Allahın sirrinə vaqif olmayacaqsansa, bilməyəcəksənsə, hər şey səninçün bağlı, qapalı qalacaqsa, onda nə biləcəksən gözəl nədir, çirkin nə? Nədən biləcəksən adi nədir, ali nə? Bilməyəcəksən axı. Ona görə də Asif Ata deyir ki, allahın sirrini bilməlisən. İdraki imkanlar verir, allahın sirrini bil və dünyanı kökündən dəyiş. Bax, Mütləqə İnam ona görə din ola bilməz. Mənim ümidim onadır. Onadır ki, idraki korluq yaratmır, idraki kamillik yaradır. Ona görə yaşasın Ata!

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız Var olsun!



**İlqar Türkoğlu:** Mənim yenə bir sualım var. Bütün hallarda Asif Ata inamının, Mütləqə İnamın, Ruhani Cəmiyyətin formalaşması, yayılması, bəşəriyyət üçün onun yayılması, din kimi geniş istifadə olunmasında nə dərəcədə bunun effekti olacaq, mən bunu təsəvvürümə də gətirə bilmirəm. Çünki əgər onu din səviyyəsinə endirsələr, biz əgər bunu bəşəri dəyərlərə istinad eləyiriksə, bütün dünyaya yayılmasını istəyiriksə, müxtəlif ideya daşıyıcıları təbii, başlayacaqlar onlara öz əxlaqlarını sırımağa. Öz düşüncələrini əlavə eləməyə. Necə konstitusiya yaranır, qanunvericiliyə aid normativ aktlar yaranır, başlayırlar o aktlara müxtəlif kommentariyalar əlavə eləməyə. Əlavə dəyişikliklər eləyirlər. Əsasnamələr əlavə eləyirlər. Suallar yaranır. Müxtəlif kateqoriyada olan insanlar ola bilsin onu qavrasınlar, amma ola bilər onların yaşayışlarına, durumuna uyğun gəlməsin. Ona görə başlayacaqlar orda hər hansı bir əlavələr eləməyə. Ona görə Asif Ata ideyalarını bir az bəsitləşdirəcəklər, ucuzlaşdıracaqlar. Ona görə hər hansı bir din çərçivəsində mən düşünmürəm. Yenə başlayacaqlar ona hər hansı bir formada özlərinin əlavələrini eləməyə.

**Soylu Atalı:** Mən sizə təşəkkür edirəm suala görə. Baxın, Əhəmənilər Zərdüştün ideyasını götürdülər. Rəsmi dövlət dini kimi qəbul elədilər. Əhəmənilərin başçısı öz bacısıyla ailə qurmaq üçün Zərdüştün qatalarına əlavələr elədi. Öz istəklərinə uyğun əlavələr elədi. Bu gün də bəllidir ki, filan çalarların Zərdüştə dəxli yoxdur. Bu elə filankəsin əlavələridir. Çünki Zərdüşt türkdür və Zərdüştdə ailə məsələsi ciddi qoyulub. Mən Zend Avestanı oxumuşam. Onun yasnalarında ailə məsələsi çox yüksək səviyyədə qoyulub, çünki o türk idi. Mən başqa millətləri aşağılamaq üçün demirəm, heç gərək də deyil. Amma türkün mahiyyətində doğrudan da ora enmək yoxdur. Özündən ayrılmış, mənasını itirmiş, genetik qarışığı olan kimsələr bu gün o vaxtkı hökmdarların atdığı addımları ata bilər. Türk etnosunun ümumilikdə mahiyyətində elə eybəcərlik yoxdur. Bu məsələnin bu tərəfi. Əvvəla bir var təməl prinsiplər, bir var təməl prinsiplərdən doğan çalarlar. Təməl prinsiplər Asif Atanın dediyidir. Mütləqə İnam. Mütləq nədir? Filan şey. Buna toxunmaq olmaz. Çünki bu, Mütləq olan, yəni Əzəli, Əbədi, Kamil, Sonsuz olan, Dünyanın daxili qüdrəti, mahiyyətidir. Bu ingilis dilində də belədir, türk dilində də, rus dilində də, yəhudi dilində də. Bunun dəxli yoxdur. Buna barmaq uzatmaq, müdaxilə eləmək olmaz. Amma məsələn, ailə qurmaq prinsipi, milli mədəniyyətin başqa

çalarları. Burada heç kimin içinə müdaxilə eləmək olmaz, özünəməxsusluq olmalıdır. Biz, türk olaraq, Mütləqə İnamı yaratmaqla ingilisin etnik mahiyyətinə müdaxilə eləyəcəyiksə, bəşəriyyət öləcək. Bax, mən islama niyə dirəniş göstərirəm? İslam türkün etnik mahiyyətinə müdaxilə elədi. Sən kimsən? Dilimin içinə girdin, əlifbamın içinə girdin, məntiqimin içinə girdin, düşüncəmin içinə girdin, ailəmin içinə girdin, toyumun, yasımın, adət-ənənəmin, gələnəyimin içinə girdin. Kim idin sən? Kim sənə o haqqı verdi? Mən özümə sual vermişəm və buna cavab vermişəm ki, xristianlıqda o qədər də deyil, amma islamda müdaxilələr çoxdur. Hamı ərəbvaridir. Ya da türk şiə xəttiylə hegemonluq eləyən farsvaridir. Sənin öz milli kimliyin yoxdur. İki çalar deyim mən sizə. Bəlkə də bunlar bizim etnik mahiy¬yətimizə müdaxilə eləməsəydilər, din xalqın içində daha böyük bir sevgiylə yaşadılardı. Ancaq bu olardı bir şərtlə ki, dinin təməl prinsipləri də yalan üzərində olmasın.

Biz hesab edirik ki, Asif Atanın başqa millətlərin etnik mahiyyətinə, milli kimliyinə müdaxilə etməyə yeri yoxdur. Mütləqə İnam dəyərini verirsən. Mütləqə İnamın təməl ideyaları var:

1. Mütləqə İnam;
2. İnsanlaşma, yaxud Kamil İnsan (özüylədöyüş ideyası);
3. Ruhani Cəmiyyət (Xəlqi Birlik);
4. Müstəqil Vətən;
5. Özümlü Şərq ( İndi deyə bilərlər ki, niyə Şərq, bəs Qərb?! Qərbin də, Şərqin də ruhunu qidalandıran, mənliyini təsdiq eləyən dəyərlər sistemidir Özümlü Şərq);
6. Ləyaqətli Bəşər.

Görürsünüzmü, bunlar təkcə bir xalqa aid deyil. Bu ideyalar bütün millətlər üçündür. Ancaq bu ideyalar əsasında hər bir xalqın öz dilində gələnəkləri oturuşmalıdır. Mədəniyyəti yaranmalıdır, özünüifadəsi yaranmalıdır. Eyniləşdirmək olmaz. Onda ruhani imperiya yaranar din kimi. Hamı türk kimi düşünməli deyil ki. Türk kimi özünü ifadə eləməli deyil. Onda birrəng bəşər yaranır. Bu ölü bəşərdir. Biz bunun əleyhinəyik.

**Təvəkkül bəy:** Mən də bir məsələyə toxunmaq istəyirəm. Bax, indiki halda Asif Atanın peyğəmbər kimi tanınması, təriqətlərin belə yayıldığı bir vaxtda, Mütləqə İnamın Atasının peyğəmbər kimi hallanması mənə elə gəlir ki, lazım deyil.

**İlqar Türkoğlu**: Bəli, mən də ona toxunacaqdım. Peyğəmbər sözü daha çox dinlə bağlıdır. Termin kimi, leksikonumuzda peyğəmbər sözü dinlə bağlıdır.

**Soylu Atalı:** Mənim "İnsanlığın İnam Yolu" kitabımda bütünlüklə bu suallara cavab var.




**Təvəkkül bəy**: Mən sizinlə razılaşıram ha, peyğəmbər sözünü də anlayıram. Amma indiki vaxtda bu gərəkdirmi?

**Soylu Atalı:** Qardaş, təriqət ayrı şeydir, bizim dünyabaxışımız ayrı şey. Asif Ata təriqət var deyə, yaxud başqa şey var deyə, addımı dala qoya bilməzdi. O gəlirdi. Gəlməliydi. Və Asif Ata necə var elə gəlməlidir. Özünü təhrif eləyib gələ bilməz. Özünə senzura qoyub gələ bilməz. Onda o Asif Ata olmur, onun dünyabaxışı da gərək olmur. Dünyabaxışın əhatə elədiyi bir məzmun var. O, əhatə elədiyi məzmunla gəlir. O məzmunun bir qırağını saxlayıb bir hissəsiylə gələ bilməz. İndi sizə peyğəmbərliklə bağlı bir şey deyim. Əvvəla bəşəriyyətin tarixində bir çox sözlər öz mənasından ayrılıb başqa məna ifadə eləyib. Məsələn, demoqoqiya. Demoqoqiya sözü yunan sözüdür. Xalqın səsi deməkdir. Pis şey deyil axı xalqın səsi. Ancaq bu gün biz onu boşboğazlara deyirik: demoqoq. Fakt budur ki, bu gün demoqoq sözü boşboğaz statusu alıb. Sən onun mənasına necə varırsan var. İndi, mənim əzizlərim, peyğəmbər sözü hərfi mənada allahdan soraq gətirən deməkdir. Peyğəmbər fars sözüdür, ərəblərdə o, rəsuldur...

Yüz illərdir fars mədəniyyətiylə iç-içəyik. Dilimizə, mədəniyyətimizə fars mədəniyyətinin anlayışları yeriyib, daxil olub. Biz peyğəmbər sözünü dünyabaxış yaradıcısı kimi, xalqın həyatının yönünü dəyişən, xalqın yönünü müəyyənləşdirən, xeyrini, şərini, yasını, toyunu biçimləyən bir şəxsiyyət kimi qəbul eləmişik. Bunun statusu budur. Peyğəmbər sözünə təkcə elçi mənasında yanaşmaq olmaz. Hərfi mənasında dayanıb qalmayıb. Məzmun daşıyır. Məzmun da odur ki, Asif Ata yeni İnam yaradıb. Bu anlamda Asif Ata peyğəmbərdir. Atalıq sözü peyğəmbər sözündən daha qədim, daha alidir. Lakin bu gün biz nə istəyirik? Biz istəyirik ki, semitlərin peyğəmbəri bizim yurdumuzdan getsin. Öz dünyabaxışıyla çıxıb getsin. Bizi rahat buraxsın. Axı o getmir. Bu xırxa gəlib ilişib bizim genetik düyünümüzdə. Bunu nəylə çıxardaq? Bax, bunu Asif Atayla çıxartmaq lazımdır. Asif Ataya da mən Ata deyib peyğəmbər deməsəm, bütün cəmiyyət qəbul edəcək, deyəcək çox gözəl. Peyğəmbərimiz Məhəmməddir, filosofumuz da Asif Ata. Mənsə deyirəm ki, bu elə peyğəmbərdir, Məhəmmədin yerinə gəlib. Mütləqə İnam İslamın yerinə gəlib. Asif Ata da peyğəmbər olaraq Məhəmmədin yerinə gəlib, İsanın yerinə gəlib, Musanın yerinə gəlib. Ona görə türk etnosu Asif Atanın peyğəmbərliyini qəbul edənə qədər biz peyğəmbər sözünü işlədəcəyik. Elə ki, türk etnosuna bu dünyabaxışı verdik, onda deyəcəyik ki, türk, sənin daha gözəl sözün var, elə Ata sözündə dayan.

**İlqar Türkoğlu:** Ata sözü türkdə daha müqəddəs sözdür, hətta peyğəmbər sözündən də.

**Soylu Atalı:** Peyğəmbər sözünü əgər biz Məhəmmədin inhisarına versək, mən sizi əmin edirəm, dini yurdumuzdan çıxara bilməyəcəyik. Bütün dünyanın dini tarixini öyrəndiyim üçün mən bunu sizə deyirəm. Artıq burda bəlli olur ki, Asif Atanın peyğəmbərliyi məsələsi müzakirə və mühakimə mövzusu deyil. Bu insan özünə peyğəmbər deyib. Mən onun peyğəmbərliyini bəşəriyyətə verməliyəm. Bəli, toplum asan qəbul eləməyəcək. Ancaq istəsən də, istəməsən də Asif Ata yeni Dünyabaxış yaradıb və Peyğəmbərdir.

*Təvəkkül bəy təklif etdi ki, növbəti gedişatlar yazılanda bizə də çatsın ki, hazırlaşaq: bax, bu gün mənim demək istədikərimin hamısını qardaşım dedi.*

**Göylü Atalı**: Mütləqim, Müqəddəsim, Ulu peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə sözümə başlayıram. Mənim Atakənddə təmsil olunduğum Ailəmiz var, – "Ulufərəh" Ailəsi. Orda hər ay hesabat

verirəm. Ona görə hər dəfə təkrar burda hesabat vermirəm. Ordan bura sevgimlə, qayğımla gəlirəm. Qayğım da təbii ki, Ocaqdır. Adama deyərlər ki, "yaxşı onda niyə gəlirsən. Bir halda ki, hesabat vermirsən, bu ailədən deyilsən. Buna "Atagün"ünmü ehtiyacı var, mənimmi, ümumiyyətlə ehtiyac varmı? Ehtiyac var. Bu günlərdə bir yaxın dost da mənə dedi ki, axı nə ehtiyac var hər ay getməyə. Ora qoyduğun enerjini başqa bir işə qoya bilərsən. Ocağı inkişaf elətdirmək baxımından. Mən ona dedim ki, yüz dəfə getmək lazımdırsa yüz dəfə gediləcək. Bəs bu ehtiyac hardandır? Buna zərurət kimi də yanaşmaq olar, mənim özümün ehtiyacım kimi də yanaşmaq olar. Ən başlıcası isə ona görə ki, bu gün Azərbaycan xalqı, ümumən türk etnosu pulunu-parasını toplayıb Məkkəyə, Mədinəyə, Məşhədə gedir. Ordan müəyyən titullarla geri qayıdır, hələ bir mənə də üstdən aşağı baxır. Bu gün bizim Kəbəmiz Atagündür. Ona görə ki, burada Atamızın üz qoyduğu torpaq var. O haqqı yetirmək üçün gəlirik.

**Elçin Həsənov:** Qardaşların ürəyində sualları olmağını mən təbii qarşılayıram. Çünki bu həyat təcrübəsini hər kəs kimi mən də keçmişəm. Hər kəsin həyatında fərqli yollar olur. Azərbaycanın reallığını hər kəs kimi mən də dadmışam. Mən də ictimaiyyət nə deyə bilər, qıraqdan kimsə mənə irad bildirə bilər, siyasi fəaliyyətimə görə qınayar. İndiyə kimi də var ha. Deyirlər ki, siyasətlə niyə məşğul olursan, başını aşağı sal, işinlə məşğul ol. Beş manat da sən qazan. Bu cür ölkədəki problemlər tək Asif Ata Ocağında yox, bu gün hər kəsin başına gəlir. Amma mən onu demək istəyirəm ki, Asif Ata Ocağı bizim üçün mayakdır. Biz görürük ki, orda bir işıq var, o işığa tərəf gedirik. O yol bir az uzun yoldur. O yolda yorula da bilərsən, axıra qədər getməyə də bilərsən. Səni yoldan yayındıran da olar. Hər şey ola bilər. Amma biz özümüzdə təpər və güc hiss eləməliyik. Qarşımıza məqsəd qoymalıyıq. İnsan qarşısına məqsəd qoyubsa, o susuz da qalsa, əzab da çəksə, o mayaka gedib çatacaq. Mən çətinlikləri artıq keçmişəm. Mən istədiyimi hələ əldə eləməmişəm. Ona görə yox ki, mən zəifəm, ona görə əldə eləməmişəm ki, mənim kimi insanlar... fərq eləmir, bu böyük bir yoldur, hərə o yolu bir cür gedir. Biz elə eləməliyik ki, bu yolda birləşək. Birləşə bilmiriksə, ən azından bir-birimizə sayğı duyaq.

Siz tarixi bir missiyanı boynunuza götürmüsünüz. Tək Asif Ata Ocağı, yaşadığımız, ayaq basdığımız bu torpağın gələcəyi üçün bu işləri görürsünüz. Bu işləri görmək üçün, yenə deyirəm, Ocaq mayakdır. Biz o mayakın dalınca getməliyik.

İlqar Türkoğlu: Mən təşəkkür edirəm sizə. Çox gözəl bir gün oldu. Bu gün Amal Bağında ziyarətdə də olacağıq. Bu tədbirlərin keçirilməsi çox önəmlidir.

Müqəddəs Oxuma: “Haqq-Hüquq” əsəri oxunub şərh olundu. Ailəyə Nurtəkin Atalının ruhani hədiyyəsi – Ocaq tədbirlərini əks etdirən disklər təqdim olundu.

“Ata Ruhunu Ürəyimizdə aparırıq!”, “Atamız Var olsun” Səcdəsiylə tədbir başa çatdı.

Sonra Amal Bağı ziyarət olundu, “İnam Evi”ndə söhbətlə gün başa çatdı.

*İşıq Ayı, 36-cı il.*
*(may, 2014).*



**Asif Atanın – İnam Atanın**
**Mütləqə İnam Ocağı**

**Günevin Yükümlüsü olduğu "Atagün" Ailəsinin**
**36-cı ildə IV Aylıq mərasiminin**
**Gedişatı**

**Yer:** Atagün Eli (Örənqala);
***Gün:*** 24 Şölə Ayı;
**Başlanır:** saat 16:00

Oda mərasimin Ruhuna uyğun hazırlanır. Gül-çiçək, texniki vəsaitlər hazırlanır. İşə sorumlu Elana Atalı.
"Ata Ruhuna pənah gətirmişik!" səcdəsilə tədbir başlanır.

**Mərasimin Hesabat qonuları:**
1) Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı.
2) İxtiyarımı Ocağa vermişəm. Bu, azadlığımı əlimdən alır anlamına gəlmirmi?
3) Xalq qəhrəman doğa bilir, ancaq qəhrəmanlarını eşitmir. Bu nədən belədir?

İştirakçılara (qonaqlara) söz verilir.

**Müqəddəs oxuma:** "Haqq" Kitabından oxunub şərh edilir.

"Ata Ruhunu ürəyimizdə aparırıq!",
"Atamız Var olsun!"  səcdəsi ilə Ailə Günü sona çatır.

**Günün carı:**

1) Ocaqçılığım – Azadlığımdır!
2) Amalım – Aqibətimdir!

**Gedişatı yazdı:** Günev Atalı
21 Şölə Ayı, 36-il. Atagün Eli.
(iyun, 2014.)

***Qəbul olunur.***
***Ocaq Yükümlüsü Soylu Atalı***

*21 Şölə Ayı, 36-il. Saray-S.*

## “Atagün” Ailəsinin “Ailə Günü” mərasimində deyilmiş fikirlər

*Ocaq Günsırası ilə 24 Şölə Ayı, 36-cı ildə (iyun, 2014) Atagün Elində “Atagün” Ailəsinin IV “Ailə Günü” mərasimi keçirildi. “Ata Ruhuna pənah gətirmişik!” səcdəsilə “Ailə Günü” başladı.* ***Ailənin Yükümlüsü Günev Atalı*** *Ataya Səcdə ilə sözünə başladı:* “Bu gün biz müqəddəs bir günə başlayırıq, yurdumuzun pozulmuş əhvalına və nicatına yönəlik fikir deyəcəyik. İndi ay ərzində öz ruhani yaşamımın hesabatını yığcam şəkildə ifadə eləmək istəyirəm.

Ata müqəddəsatından öyrəndiyim çox kəlam var, ancaq sistemləşdirə bilmədim. Bu ay fiziki işlərim çox oldu. Bununla belə, xalqlaşma yönündə atdığım bəzi addımları gündəliyimdən oxumaq istəyirəm: Orta məktəbdə oxuyarkən sinif yoldaşım olmuş Nəriman adlı tanışımla görüşdüm. O jurnalistdir, əvvəllər Asif Ata ilə yaxından münasibəti olubdur. Rayonun mərkəzində Nərimanla görüşüb, hal-əhval tutarkən “əlhəmdülillah, şükr olsun bu günü yetirən Allaha” dedi. Hiss etdim ki, məni danışdırmaq istəyir. Allahlıq mövzusunda söhbət elədim, İslamın bizə gətirdiyi acı nəticələrdən danışdım. Ocaq “Buraxılış”ı vermək istədim, götürmədi. Ancaq dayanmadan danışırdı. Onun müticəsinə deməsi ki: “İslamdan dönən ölənə qədər dönər və sonda cəza ilə mükafatlanar, yəni cəhənnəmlə”, doğrusu onun bədbəxt, yazıq, düşük görkəminə acıdım. Sonra eşitdim ki, özü də, oğlu da Vəhhabiçiliyi qəbul edib...

27-28 İşıq Ayında Sumqayıt şəhərindən qohumlarım gəlmişdilər. Neçə müddətdir ki, onlarla ardıcıl söhbət edirdim. Mənə münasibətləri də durulmaq üzrədir. Cismani atamın sonevinə (qəbri üstə) getmək istədilər, hətta xahiş etdilər ki, orda imkan verim “Yasin” oxutsunlar. Bir söz demədim. Ancaq oraya gedəndə tamam ayrı bir mühit alındı, “yasin”ə ehtiyac qalmadı. Bir sözlə, bütövlükdə “Mütləqə İnam” tələbində bir ziyarət mərasimi keçirdik. Asif Atanın dünyabaxışında ölümə, ölənə münasibət haqda danışdıq. Əvvəldən şərtləşdiyimiz kimi ağlaş¬masız bir söhbət oldu. “Ölümlə görüş”ü, “Aqibət”i, “Matəm üstə Mütləqlə təmas”ı oxudum. Elanaya baxıb onlar da səcdə durumunda dinlədilər. Əlavə heç nəyə ehtiyac qalmadı. Bacımgil hədsiz dərəcədə

razı qaldıqlarını, gözəl əhvalla dolduqlarını etiraf etdilər. Sonra “Amal Bağı”nı ziyarət etmək istədilər. Asif Atanın ilk üz qoyduğu torpağı ziyarət etdik. “İnam Evi”mizdə Amalımızın incəliklərindən danışdıq. Verdikləri suallardan hiss edirdim ki, ağıllara təsir edə bilmişəm. Cismani qardaşım Ələsgərin mənə qarşı zaman-zaman yaratdığı xortdan təsəvvürlər əriyirdi.

Orda bir neçə məqamı fotoya aldıq. (13 Şölə Ayı 36-cı il.)



Elxas İbrahimin Günəşli kəndində sakinlərlə söhbəti haray səviyyəsinə yüksəlib. Ürəyi təntimiş, həyəcanlı halda gəlib vəziyyəti mənə danışdı. Artıq hər kəs onu maraqla və razılıq əhvalı ilə dinləməyə başlayıb. Sonda adamlar daha səmimi ifadələr dilə gətiriblər. Elxas bəy kəndlərində hökm sürən cəhaləti açıb-tökmüş, onu törədən səbəbləri izah etmiş, xilasın isə Asif Ata Ocağında, İnsanlaşmada olduğunu anlatmışdır. Onun sevincinə qoşuldum, bu fəlakətlərin nədən törəməsinin səbəbini deyərkən daha həssas yanaşmasını arzuladım. Əlavə bildirdim ki, gərək bilsən məni də dəvət elə, mən də söhbət edim, söhbəti daha ciddi məqamlara yönəldərik. Xalq hiss etməlidir ki, bizim yanğımız onlara olan sevgimizdəndir. Beləcə əl-ələ verib Ata təliminin yayılmasını sürətləndirə bilərik... İki gündən sonra kəndin toplandığı yerdə Elxasın Elxaslığı yenidən özünü göstərdi. (17 Şölə Ayı 36 cı il.)

Təvəkkül bəylə ardıcıl təmasda oluruq. Demək olar ki, o hər gün öz sahə evində ora yığışan kəndçiləri ilə məhz Asif Ata ideyalarının dünyaya gərəkliyindən bəhs edir. Artıq həmin adamlarda ora ardıcıl gəlmək meyli yaranmışdır. Bir vaxtlar onu mənimlə münasibətinə görə qınayanlar, indi mənim yaxşı cəhətlərimdən danışırlar. Bir vaxtlar həmin kəndə mənim ayağım dəydiyinə görə hətta ot da bitməyəcəyini deyənlər indi mənə qarşı çox səmimi əhval sərgiləyirlər. Deyərdim ki, bu qardaşların hər ikisi xalqlaşma işlərində məni geridə qoymaqdadırlar. Deməli, mənim də ömrüm boşuna getmir. (18 Şölə ayı 36 cı il.)

İndi "Gedişat Yazısı"ndakı qonu ilə bağlı deyim. Qonu belədir: "İxtiyarımı Ocağa vermişəm, bu, "Ocaq azadlığımı əlimdən alır" anlamına gəlmirmi?"

Çox vaxt hər kəs vurğulayır ki, mən sərbəst olmaq istəyirəm. Heç bir fəaliyyətə qoşulmaq yox, elə özüm sərbəst fəaliyyət göstərmək istəyirəm. İnsan azadlıq sözünü düzgün qiymətləndirməyəndə bu baş verir. Nədir azadlıq? Sən insan gəlmisən bu dünyaya. Sənin azadlığın məhz insanlıq əhvalındadır. Əgər həyatdakı hərcayiliklər, əyləncələr, hər hansı məclislər, tədbirlər səni insanlığın tələblərindən daha çox cəlb edirsə, mahiyyətindən daha çox cəlb edirsə, azadlığı o əyləncələrdə görürsənsə, meyil ora çəkirsə, deməli, sən Azadlığı düzgün dərk eləmirsən. Mən insanam, mənim azadlığım mənim insanlığımdır. Ocaqçı üçün insanlığın təsdiqi Asif Ata Ocağındadır. İnsanın mahiyyətidir sənin Allahın. Özüylə döyüşdükcə öz mahiyyətinə yetirsən. Allah haqqında çox fikirlər deyilir. Sonucda 4 fikir, – sənin taleyin başqasının əlləri ilə yaranıb; dünya sona varacaq, cənnət-cəhənnəm qisməti var; insan heç nəyə qadir deyil. Burda İnsanlıq tələbi, məzmunu yoxdur, müqəddəslik yoxdur. Bunlar yer əməlləridir, həyat əməlləridir–yaxşı işlədiyinə görə sənə mükafat verərəm, pis əməllərinə görə də cəza tədbiri. Heç bir cəza tədbiri heç bir cinayətin kökünü kəsmir. Bəşəriyyət min illərdir hələ böyük həqiqətə yetməyib. Hələ axtarır bəşər. Bəşəriyyətin nizamı pozulub. Çünki xalqlar dəyərləri itirə-itirə gedir. Bu gün mənim üçün türkün itirdiyi dəyərlər daha ağrıdıcıdır. Heç kəsin nə Zərdüştü var, nə Qorqudu var, nə Nəsimisi var. Yəni bu cür dahiləri olmayıb. Başqaları nə qədər itirsə də, türkün itirdiyi qədər deyil. Dəyərlər yaşamır, millət dağılıb gedir. Türk öz kökündən qopdu.

Öz kökündən qopan heç nəyə yaramır. Nə özünə yarayacaq, nə başqasına. Öz yerişi, öz məsləyi, öz əqidəsi olmayan bir xalqın fərdləri də nisbi ləyaqət göstərir. Məsələn, Süleyman Rüstəm deyirdi ki, vətənim üçün ölərəm, əgər öl desələr. Bu sözdə belə idi. Əslində o, imperiyaya qulluq edirdi. İmperiyaya elə "vətənsevərlər" gərəkdir... Bu yandan da din vətənimizi öldürür, çünki ümmət məsələsi var. Hamılaşma, sürüləşmə məsələsi var. Hamı bir cür düşünsün. Hətta düşünməni belə qəbahət sayırlar... Xalq dünyanın mənasız gedişatına qoşulmaqdan ayrılmasa yaradıcılığı olmaz. Yaradıcılığı olmasa bəşəri məzmunu olmaz.



İkinci qonu: "Xalq qəhrəmanlar doğa bilir, amma qəhrəmanlarını eşitmir. Bu nədən belədir?"

Bəli, doğrudan da xalqın içindən dahilər çıxır, şəxsiyyətlər çıxır, ancaq xalq onu eşitmir. Düzdür, hər bir xalq qəhrəman doğmur, ancaq xalqçılıq mahiyyətində bu var.

Xalq öz içində daim o mənanı aşkarlamalıdır. Məsələn, Soylu bəy gənclərlə görüşlərində deyir ki: "mən gəlmişəm sizə deyəm: sizin içinizdə Nəsimi var, Babək var, Qorqud var. Aşkarlayın onları içinizdə. Xalq tarixdə qurtarmayıb, bu gün də var, sabah da olacaq həmin böyüklər. Öldürməyin içinizdə. Sizin içinizdə buna yetmək imkanı var,

bunu aşkarlamaq lazımdır. Bunun üçün qəliblərdən çıxmaq gərək. İndiki bəsit düşüncə ilə aşkarlaya bilməyəcəksən. Sənə yeni düşüncə verirəm, onu aşkarlamaq imkanı verirəm. Xalqın qəhrəmanlıq səviyyəsinə fərd özü yetir". Bilirik ki, bunu cəmiyyət üçün anlamaq çox çətindir, çünki xalq oturuşmuş köhnə düşüncə sistemi ilə yaşayır, sən isə gəlib ona yeni bir əhval verirsən. Amma zəhmətsiz xalq yaranmaz. Düşünmək gərək. Bu Günev deyilən bir nəfər bu bölgədə Asif Atadan niyə qopmaq istəmir? Yüzü ağız büzür, rişxənd edir, ancaq bir nəfərin içində axtarışlar başlayır. Onda o əsil həqiqəti görür. Deməli, bunun içində yanğı xalqına olan sevgidir. O sevgi olmasa, Asif Ata ideyaları da olsa, başqa ideyalar da olsa, mən özüm anlayıb yaxşı şey sayaram, ancaq dağa-daşa düşmərəm, oturaram evimdə, ailəmlə. Mən niyə özümü bu qədər əziyyətə salım. Mənə nə lazımdır başıma daş atıla-atıla Məbəd tikim. Çünki məsələ təkcə Asif Atanın özünə bağlı deyil, mənim sevgim bu xalqımadır. Mənim xalqım bu vəziyyətdə qalmamalıdır. Biz artmalıyıq, böyüməliyik daim. Ata deyirdi, sən mənə yüz Evlad ver, gör mən bu xalqı necə dəyişirəm. O yüz Evlad da elə-belə yaranmır. Onda vətən segisi, millət sevgisi aşiqlik səviyyəsində olmalıdır. Aşiqlik etidaqın əqidə səviyyəsidir. O divardakı "Car"da yazmışıq: "Amalım Aqibətimdir". Bax, Aşiqlik odur. Mən qarşıma məqsəd qoyuram ki, Asif Ata ideyalarını döyülsəm də, söyülsəm də verəcəm bu xalqa. Elə bir maneə mən tanımıram. Ola bilər bu gün öldürə də bilərlər. Ancaq bu gün nəfəs ağzımdan çıxana qədər deyəcəm. Ondan sonra ölümümüz söz deyəcək. Bizim vəsiyyətimiz də var: Mən Asif Ata Ocağının qaydaları ilə yerdən götürülmək istəyirəm. Onda ölüm də söz deyir. Bu isə xalqın maraq səviyyəsini sarsıntı səviyyəsinə gətirir və xalq ayılır. Heç bir şəxsiyyət öz çağında qiymətləndirilmir. Mən burda (İcra Nümayəndəliyində) öz sözümü demişəm: siz elə bilirsiniz ki, mənə nəsə edirsiniz? Tarixdə bu kimi addımlara görə adamların dərisini soyublar, daşqalaq ediblər, gözünü çıxarıblar, asıblar. Qorxuya düşüb qaçmaqla deyil ki. Yaxşı olar ki, dinləyəsiniz. Yanğımı başa düşün nə deyirəm. Səninlə mahiyyətimiz birdir axı, insanlıq harayı çəkirəm, de görüm bu insanlıq nədir? Bilmirsən qoy deyim, qulaq as, qardaş. Sənin mahiyyətin var, əzəli səninlə doğulub. Onu tanı. Onu tanıyandan sonra vətənini tanıyacaqsan. Vətənin sənin üçün təkcə coğrafi ərazi deyil, hərçəndi o

da pərən-pərəndir. Hansı vətən var. Təbii ki, millət də yoxdu. Çünki millət özümlüyünü saxlamırsa, o millət yoxdur. Millət bu gün ərəb tör-töküntüsüdürsə, o millət yoxdur. Ver mənə Qorqud Ağsaqqallığını, Babək hünərini. Yoxdursa, deməli dinləməyə borclusan. Mən sənə Asif Atanı verəcəm. Bir ömür bəs etməyəcək, verəcəm başqasına... Atamız Var olsun! Bayrağımızı öpürəm.

**Üstün Atalı** Ataya Səcdə ilə "Gedişat"da qoyulan "İxtiyarımı Ocağa vermişəm, bu, Ocaq azadlığımı əlimdən alır anlamına gəlmirmi?" qonusu ilə bağlı bir neçə kəlmə söz dedi:

"Mən öz ömrümdən deyəcəm. Ömrümü Ocağa verməyim mənim xoşbəxtliyimdir. Əgər mən 17-18 yaşımda Asif Ata Ocağını tapmasaydım, cəmiyyətdə itib-batacaqdım, yəni mövqesiz yaşayacaqdım. Amma mən Atanı görəndən sonra şəxsiyyət olmağa meyil, ölməzliyə meyil, özünü tanımaq, xalqı tanımaq, xalqı sevmək, özünü qurmaq – belə bir hisslər məni Ocağa gətirdi. Ocaqda ad almaqla mən öz aqibətimi yaradıram. İnsanlarla söhbət edirsən, tədbirə gəlməkdən çəkinir, övladlarını gətirməkdən çəkinir, din faktı ürəklərini xofda saxlayır. Guya Ocaqdan qorumaqla nəyəsə nail olur. Amma məsələ burasındadır ki, öz övladını Ocaqdan qorumaqla Gedişatın uçurumuna yuvarlayırlar. Daha da cəmiyyətin çirkabına, murdarlığına bulaşmalı olacaqsan, çünki mümkün deyil o mühitdə sən saf qalasan, özünü təsdiq edəsən. Ocağa özünü verməklə əslində özünü yenidən qurmalı olursan. Sən burda artıq hərcayi duyğuların arxasınca getmirsən. Əslində ixtiyarın öz əlində olur. Özünə bir dön bax, məxluq kimi, adam kimi yaşamaq istəmirsən, insan kimi yaşamaq istəyirsənsə, bu, sənin üzərində nəzarət anlamına gəlmir. Əslində ixtiyarını Ocağa vermək ixtiyarını – özündə saxlamaqdır.

Mənim üçün hər bir tədbirdə amaldaşımın özü haqda dediyi söz elə mənə aiddir. Onun "Ailə Günü" mərasimində özündə gördüyü nöqsan, yaxud yaşadığı fərəh hissi, onun keçirdiyi görüşlər, elə bilirəm ki, mənim ömrümdür. Bu bir məktəbdir. Bu harda var, heç yerdə yoxdur. İnsanla məşğul olmaq, xalq yaratmaq, ömür yaratmaq. Nə gözəl ki, ömrünü buna verirsən, ixtiyarını buna verirsən".

**Sara xanım:** Bununla ikinci dəfədir ki, sizin tədbirdə iştirak edirəm. Ağlım kəsəndən bəri eşitmədiyim sözləri eşidirəm burda. Sizdən eşitdiklərimi, Asif Atanın adıyla söylədiklərinizi mən heç yerdə

eşitməmişəm. İllərdən bəri, özümün də anlamadığım bir şey məni narahat qoyub, mən sizin dediklərinizi həyatda görmək istəmişəm. Amma gerçəkdə görməmişəm. Mən bilmirdim ki, belə bir ideya yaradan, fərqli yaşayan bir şəxs olubdur, onun davamçıları var. Mən hələ çox az bilgiyə malikəm. Mənim söz deməyim yerinə düşmür, çünki nə desəm bitkin olmayacaq. Siz çox sağ olun ki, mənə söz deməyi təklif elədiniz. Bildirirəm ki, çox sevinirəm bu Ocağı tanımağıma. Mənim fiziki imkanlarım məhduddur, ancaq çalışacam ki, gəlim, iştirak edim, bilgilərim çoxalsın. Sizin ideyaya mən də sahib olum. Çox şadam sizləri tanımağa.

**Günev Atalı:** Sağ olun. Biz sizə əlimizdən gələn köməyi etməyə hazırıq.

**Soylu Atalı** Ataya səcdə ilə sözünə başladı: Ocaq Ailəsi Ocaq Evladı üçün, Ocaqsevər üçün böyük bir məktəbdir. Bu məktəb bizim hər birimizi qurur. Həm həyatın dəyişməsinə hazırlayır, həm də öz xalqının yönünü (qibləsini) müəyyən eləməyə hazırlayır. Ocaq bizi böyük işlərə hazırlayır. Onun əsasında biz burda Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı veririk.

Mənim hər günüm Amallaşmadır. Mən hər gün öyrənirəm. Öyrənməsəm, danışmağa özümdə haqq tapa bilmirəm. Biz Ocaq olaraq, dediyimizi boğazdan deyə bilmərik. Bizim buna haqqımız yoxdur. O şeyi ki, biz yaşamırıq, yaşatmırıq, taleyimizə çevirmirik, ondan danışmağa ixtiyarımız yoxdur. Nəylə yaşayırıqsa, nəylə nəfəs alırıqsa ondan danışırıq. İnsanın yönüylə bağlı, insanın özünü anlaması, tanıması, dərk eləməsiylə bağlı daim düşünürəm. Söz yox, əsas düşüncəmiz onsuz da buna bağlıdır. Çünki millət insanla var olur. Millət insandan qıraqda var ola bilmir. İnsan nədirsə, millət də odur. İnsan sürüdür, millət də sürüdür. Hər birimiz ayrı-ayrılıqda insanıq, amma biz birlikdə millətik. Bizim insana münasibətimiz nədir? Bizim xalqın özünə münasibətimiz nədir? Dünyaya, başqa xalqlara münasibətimiz nədir? Başqa insanlara, Allaha münasibətimiz nədir? İnama, dinə, yerə-göyə münasibətimiz nədir? Hamısı mənim üçün müəyyən olmalıdır. Heç birində mən səmimiyyətsizlik eləməli deyiləm. Heç birində mən aldatmalı deyiləm. Asif Atadan ruhani tərbiyə almış bizlərin cəmiyyətdən fərqimiz nədir? Biz nə deyiriksə, səmimi deyirik, doğru deyirik. Biz

yalan demirik. Məsələn, deyirik bizi filan yerdə eşitmədilər, pis qarşıladılar, filan yerdə yaxşı dinlədilər. Başqaları deyir ki, bizim filan yerdə nüfuzumuz göylərə çatır, hər şey əladır, düzəltmişik. Aldadır bizi. Ən çox da bunu siyasi mövqedə duran adamlar edir. Sanki bütün dünya bunların arxasındadır. Elə deyir ki, mən ümidimi ona bağlayım. Deyir ki, guya güclüdür, mən də ona səsimi verim. Lap sənə inandım, səsimi də verdim. O səsin arxasında da dura bilmirsən. Mənə verdiyin sözün arxasında dura bilmirsən. Səmimiyyətsizliyin, yalanın ortaya çıxır. Ancaq biz o cür düşünümrük. Biz yalan danışmırıq. Doğru deyirik. Səmimiyyətsizlik eləmirik.



Cəmiyyətdə hər bir insan təkdir. Cəmiyyətdə mənə bir insan göstərin ki, o, xoşbəxtdir. Xoşbəxt deyil, özü də təkdir. Cəmiyyətdə insanları birləşdirən nədir – cəhalət. Cəhalətin birləşdirdiyi insan sürüdür. Çünki hər kəs qorxudan bir-birinin dediyini deyir. Heç kim deməz ki, elə Soylu Atalının öyrəndiyini deyirəm mən də. Deməz. Ancaq deyər ki, Allahşükür Paşazadənin dediyini deyirəm. Qorxusundan deyir. İndi soruş görüm Allahşükür nə deyir? Heç nə demir, səni talayır, sən də qorxursan. Mən sənə həqiqətdən danışıram. Səni cəsarətə dəvət edirəm, səni ləyaqətə dəvət edirəm... İnsan nə vaxt cəsarətli olur? İnsan o vaxt cəsarətli olur ki, içi doğru olur, düşüncəsi doğru olur. Qəlbi doğru

döyünür. İnsan onda cəsarətli olur. Mən heç nədən qorxmuram. Mən nə Allahdan, nə dindən, nə Allahşükürdən, nə prezidentdən, heç kimdən qorxmuram. Niyə qorxmuram? İçim düzdür. İçi düz olan adam niyə qorxmalıdır? Bax buradan çıxır ki, insan əgər istəyirsə yaşasın, azad olsun, o doğru yaşamalıdır, qorxudan çıxmalıdır. Cəsarət heç də yetənə yetib, yetməyənə bir daş atmaq deyil. Nənəm mənə kor dedi, gələnə gedənə vur dedi. Mən də özümü dəli oğlanlığa vurum, özümü meydana atım. Bu cəsarət deyil, avantüradır, axmaqlıqdır. Cəsarətin arxasında həqiqət sevgisi var. Cəsarətin arxasında insan sevgisi var. Cəsarətin arxasında vətən sevgisi var. Cəsarətin arxasında Allah sevgisi var. Bir nəfər bəşər övladı mənə göstərin ki, o, Allahı sevir. Mən də deyəcəm ki, sevmir. Sübut edəcəm. Nəylə sübut edəcəm? Bir var dünya, həyat, insan. Dünyanın daxili nizamı. Dünya deyəndə mən bütün kainatı nəzərdə tuturam. Dünyanın nizamı, ahəngi. Bir var Allah məzmunu bu ahəngdə, nizamda, bir də var ictimai həyatda, insan ömründə. Biz ona deyirik Mütləq. Mütləq insanı qorxudan Allah deyil. Mütləq kainatın daxili qüdrətidir, nizamıdır. O, dünyada, həyatda, insanda özünü göstərir. Dünyanın nizamı var. Qalaktikada bütün planetlərin bir-birinə qarşılıqlı təsiri var. O sistem pozulmayıb, yenə də var. İctimai həyatda isə pozulub. İctimai nizamın pozulmasında hər kəsin qatqısı var. Yalan danışmağınla, oğurluq eləməyinlə, qonşunu aldatmağınla, onun cibinə girməyinlə, xalqı məhv eləməyinlə qatqın var. Hardadır Allah? Hanı Allah? Axı Allahın adı ədalətdir, vicdandır, Allahın adı insan sevgisidir. Bütün bunlar Allahın məzmunudur, hanı o məzmun. Göstər ictimaiyyətdə mənə. Yaşadırsanmı onu? Yaşatmırsan. Göstər mənə Allahlı olduğunu. Allahsızsan. Bəs kimdir Allahlı – mən. O məzmunu yaşadıram. O məzmunla yaşayıram. Burda axtarmaq gərək. Yoxsa avamcasına, müticəsinə çoxlu Allah sözü işlədəndə adam Allahlı olmur. Çoxlu Allah sözü işlədirsən, ancaq oğurluq edirsən, çapqınlıq edirsən, əyrilik edirsən. İndi "Allahu əkbər" deyib baş kəsirlər. Suriyada, İraqda, orda-burda, Allahın adını çəkir, baş kəsir. İnsan başı kəsməkdə yerə-göyə sığmayan Allahsızlıq var. İnsanı öldürməklə Allahı öldürürsən. O insan Allah məzmunu daşıyır. Sən onu öldürməklə Allahsızlıq edirsən. Asif Ata deyir ki, insanı xilas eləmək lazımdır. Bəli, bunun üçün onu təzadların içindən çıxartmaq gərəkdir. İnsan təzadların içindədir nə

deməkdir? İnsan bioloji, fiziki varlıq kimi adi, bəsit duyğulara bağlıdır. Həmin adi, bəsit duyğularda yalan da var, meşşanlıq da var, dünyagirlik də var, həsəd də var, xudbinlik, hamısı var. Asif Ata deyir ki, sən özündə ali duyğuları tapmasan, Mütləqi aşkarlamasan, səninlə canavarın arasında fərq silinəcək. Səninlə qoyunun arasında fərq silinəcək. İstəyirsən ki, qoyunla sənin arandakı sınır bəlli olsun, onda həmin fərqi aşkarla¬malısan, onunla yaşamalısan. Onunla yaşadıqca sən təzadlardan çıxacaqsan. Onda deməyəcəksən ki, ay Asif Ata, sən insandan danışırsan, o insan budur? Küçənin ortasında dilənənə deyirsən insan? Mən də sənə deyəcəm ki, o sənin öldürdüyündür. O, orda dilənirsə, deməli Allah ölüb. Allahı öldürmüsən. Allahı diriltmək istəyirsənsə, özünü var et. İnsan böyüklüyü ona görə lazımdır. Asif Ata ona görə deyir "İnsanlaşın – İnsanlaşdırın. Bəşərin nicatı İnsanlaşmaqdadır". Nəsimi nə deyir – həm şaham, həm dilənçiyəm. Həm Allaham, həqqəm. Baxırsan, həm dilənçi insan, həm əzazil şah, Allah insan, böyük insan. Nə qədər ki, insan o içindəki balaca sınırı aşmayıb, ondan dilənçi də gözlə, oğru da gözlə, əclaf da gözlə. Ondan ali xilqət gözləmə. Ondan dünyanın əşrəfi gözləmə. Dünyanın əşrəfi kimdir – içindəki balacalıqları ötən. Ona görə özüylədöyüş ideyası verib Asif Ata. Özüylədöyüş – özgəylədöyüş yox...

Dünya qana qərq olub. Mən Sabir Yanardağ adlı bir alimin 600 səhifəlik bir kitabını oxumuşam, özünü də redaktə edirəm. O, yunan mifologiyasına dayanıb bəşəriyyətdəki antitərəq-qini vurğu edir. Axillesin Troyalılarla döyüşünü təsvir edir. Deyir ki, Axilles Allahın nəvəsidir. Axilles müsbət qəhrəmandır. Ancaq o, dostu Patrokl öləndən sonra Hektorla döyüşə gedir. Yerə-göyə sığmayan kinlə gedir, canavar kimi gedir, qan su yerinə axır, çay ayağa durur ki, əl saxla, sənin tökdüyün qandan mən axıb dənizə yol tapmıram. Qan-qada mənə mane olur. Təbiət dilə gəlir. Təbiət qana qərq olur. Axilles deyir ki, mən qisas almayınca dayanmayacam. Çaylar şahə qalxır, qayalar onun belinə minir. Təbiət mane olmağa çalışır azğın döyüşlərə. Yazar təhlil edir, deyir ki, onun nəsli-nəcabəti Allaha dayanır. Bir halda ki, Allaha bağlı olan da bu qədər qan-qada, qırğın törədirsə, dünyanın halına baxın onda. Gör dünya nə gündədir.

Dünən tarixdə böyük qırğınlar törənib. Qan su yerinə axıb qılıncla-qalxanla, sonra top-tüfənglə. Bu gün də iqtisadi siyasət deyirlər. Bu gün böyük dünya dövlətləri arasında müharibə getmir. Üçüncü Dünya Savaşı getmir. Bir vaxtlar qamarlamaq üçün qılıncını çəkib qıranlar, qamarlamaq üçün topu-tüfəngi tuşlayanlar, qan tökənlər bu gün iqtisadi siyasət deyilən tülkülüklə, bicliklə, məkrlə, murdarlıqla dünya xalqlarını talayırlar. Bunlar müharibədən daha betərdir. Adını qoyur sivilizasiya. Adını qoyur azadlıq. Adını qoyur yeni dünya halı, dünya nizamı. Görün qandan-qadadan nə fərqi var. Həmin qan-qada davam edir. Niyə davam edir? Ona görə davam edir ki, insan öz mahiyyətinə bərabər yaşamır. İnsan Asif Atanın dediyi kimi yaşamır...

İkinci bir söz, mollaya yasda meydan verirsən danışır. Mollanın danışmağa haqqı yoxdur. Çünki molla bir dəfə də olsun böyüklərin kitabını qabağına qoyub oxumayıb. Bir elmi qabağına qoyub oxumayıb. Ərəb dilində Quranı oxyub, içini də qanmır, dünyanın mahiyyətini dərk eləmir. Durub deyir ki, biz heç nəyik, hər şey “göydəki”dir. Allahla insan arasında uçurum yaradır. Hamısı O`dur, biz nəkarəyik. İndi mən deyirəm, əgər biz heç nəyiksə, heç nə zibil deməkdir. Yalnız zibil heç nədir, heç nəyə yaramır. Sən əgər zibilsənsə, mən sənə niyə hörmət eləməliyəm. Dünya ona görə əyilib ki, sən heç nəsən, zibilsən. Ona görə heç kim heç kimə inanmır, heç kim heç kimə hörmət eləmir. Sən bunu yaradırsan ağıllarda, sən xəyanət edirsən bəşəriyyətə. İmkan vermirsən insan insana inansın. İnsan insanı sevsin, insan insanı hər şey saysın. Yaratsın özünü ki, hər şey saysın. İçindəki böyüklüyü görsün ki, hər şey saysın. Sən ona imkan vermirsən, sən zibilsən, heç nəsən. İnsanı heç nə saymaqla, zibil qutusuna tullanacaq qədər dəyərsiz saymaqla bütün dünyada ictimai həyatın nizamını pozursan. Özün də oturursan, yekə üzük barmağında təsbeh fırlayırsan. Hamıya da üstdən aşağı baxırsan. Mən böyüyəm, siz hamınız da balacasınız, məni dinləməlisiniz əhvalıyla. Bu, İnsanlğın fəlakətidir. Deyirsən ki, dünyanın ahəngi, nizamı pozulub, qiyamət yaxınlaşır. Deyirsən Peyğəmbərlər deyir ki, zaman gələcək, insan insanın ətini yeyəcək, qiyamət qopacaq, dünya məhv olacaq. Mənə muştuluq xəbəri verirsən? Bəs neyləyim, onu göstər mənə. Mənə xilas yolu ver. Xilas yolu ver ki, İnsanlığı xilas eləyim. Mənə “uzaqgörənliyinlə” muştuluq demə. İnsanlığı xilas eləmək

istəyirəm. Özümü xilas eləmək istəyirəm. Qiyamətin qabağını almaq istəyirəm. Əgər qiyamət qaçılmazdırsa, onda sənin Allahının da mənası yoxdur, dinin də, insanın da, bəşərin də, heç nəyin mənası yoxdur. Hamı sürüdür də. Hər şey məhv olub gedəcək də, neynirik. Hər şey məhv olub gedirsə, hər şey məhv olmağa məhkumdursa, onda sevgi nə deməkdir, vətən nə deməkdir, millət, ləyaqət, namus nə deməkdir? İnsanın ağlını möhürləmək olmaz. İnsan idrakına yasaq qoymaq olmaz. İnsan dünyaya gəlir ki, Allahın sirlərinə vaqif olsun. Allahın sirləri gözəldir, alidir, onlara vaqif olmalısan ki, gözəl işlər görəsən. Böyük həqiqətlərə yetə biləsən. Gözəllikləri dərk edəsən. Dərk eləməsən, insan qəlbinin gözəlliklərini kəşf eləyə bilməzsən, aşkarlaya bilməzsən. İnsan qəlbinin gözəllikləri heç olur. Onda nəyimə lazımsan sən? İsa yaxşı adamdır, ancaq mənim nəyimə lazımsan ki, sənin rolun, təsirin yoxdur. Ya Məhəmməd nəyimə lazımsan ki, muştuluq verirsən, qiyamət qopacaq. İsa da, Məhəmməd də, siz ona görə gözəl idiniz ki, dünyanın əyilməsini gördünüz, ağladınız ki, belə getməz. Amma siz bu gün gözəl deyilsiniz, bu gün yeniliyin qabağını kəsirsiniz. 7-ci əsr feodalizm quruluşuna çağırırsınız insanları. Burda müqəddəslik yoxdur. Burda xəyanət var. Qorxudurlar insanı, öldürürlər insanı. Məhəmməd ayələrində insanı hədələyir ki, qan-irin içə-içə boğulacaqsan. Gerçəklikdə onu padşahlar həyata keçirir. Bizdə Heydər Əliyev elədi onu. Millətçi oğulları qan-irin içirdə-içirdə öldürdü. Dindən gələn mütiliyin sonucudur bunlar. İnsana deyirlər ki, başınızı sallayın, qoyun olun. Nə Məhəmmədin işinə qarışın, 7-ci əsrdə nə deyib deyib, nə Heydər Əliyevin işinə qarışın... Mənim qarışmaq haqqım var, görüm sən bu gün mənə nə deyirsən? Mən millət olmaq istəyirəm. Mən insan olmaq istəyirəm, millətim məhv olub gedir. 15 yerə parçalanmışam. Təbriz o tərəfdə, Borçalı bu tərəfdə, Dəmirqapı o yanda. Sən ağzıma yumruq dirəmisən, sus demisən, susmuşam, kor ol demisən, kor olmuşam. Ona görə parçalanmışam. Göydə Allah, yerdə hökmdar ideyası ilə məhv eləmisən milləti. Allahşükürü Paşazadəni Prezident niyə qoruyur? Çünki padşahı allahın yerdəki nümayəndəsi kimi dəstəkləyir. Hələ demirəm Paşazadə kapitalistdir. Ancaq bir nəfər dindar adam mənə göstərin ki, ona etiraz edir. Prezident avam, sürü kütləni Alahşükürlərin əliylə idarə edib özünə tabe eləyir, talançılığının yolundan maneəni götürür. Ona polkovnik rütbəli dindar şeyxlər

lazımdır. Onların diliylə mənə deyir ki, kor ol, kar ol, danışma. Allahın işinə qarışma. Allahın işinə qarışma o deməkdir ki, mənim də işimə qarışma. Mən sənin işinə qarışmaram, əgər sənin işin gözəl iş olsa. Allahın işi yoxdur, sirri var. Allahın sirlərini sevə-sevə vaqif oluram. Gözəllikləri bilməliyəm ki, mən ona əməl eləyim. Gözəlliyi bilməsəm necə əməl eləyəcəm. Qoyun əməl edir? Başını aşağı salıb otlayır da. Sən də mənə deyirsən ki, qoyun ol, müti ol. Mən qoyun olsam, hansı gözəllikləri yaşadacam. Bilmirəm axı gözəllik nədir, çirkinlik nə? Bilmək üçün də düşünməliyəm, ağlım olmalıdır, qəlbim işləməlidir, böyüməlidir...

Mənim Amallaşmam – insanı təzadların içindən çıxartmaq yönündədir. Mən bu yöndən hər gün işləyirəm, düşüncələrimi yazıram və təqdim edirəm.

Biz bəşəriyyətin yaratdığı, yaşatdığı heç bir yaxşı şeyə etiraz etmirik, sevirik. Remarkın kitabını oxuyuram. Onun əsərini oxyub "Tərəqqi və antitərəqqi" adında yazı yazmaq istəyirəm. Bu dediklərimizin hamısını əsaslandırıb yazacam orda. Bizə tərəqqi adına sırınan nə varsa, hamısı antitərəqqidir, antiinsanidir. Burada məndən rüşvət alır, məni hədələyir, mənim qolumu burur, həbsə soxur, televiziyada da danışır ki, mən xalqımı sevirəm, hər şey də yaxşıdır...

Xalqlaşma işimiz də uğurludur, az da olsa. Bizim Bakıda çoxsaylı tədbirlərimiz keçir. O tədbirlərimizə adamlar gəlir. Bizim qapımız bütün Azərbaycan toplumunun üzünə açıqdır. Hər kəs gəlib dinləyə, fikir deyə bilər. Heç kimin də ağzına vurmuruq ki, niyə belə deyir, düşüncəsinə də yasaq qoymuruq. Ancaq bizi öyrətməyin əleyhinəyik. Mənim dediklərimi doğru saymırsan, etiraz elə. Ancaq mənə ağıl öyrətmə. Sən fikrini deyərsən, mən də fikrimi deyərəm, polemika aparaq məmnuniyyətlə. Sən öz dediyini de, mən öz dediyimi deyəcəm. Sən də əsaslandır, mən də əsaslandıracam. Mən demirəm ki, sən sus. Əgər fikrin var, de. Əgər fikin yoxdursa, demək xatirinə niyə deyirsən? Fikirlə məşğul olmayan adam nə deyə bilər?! Mən fikirlə hər gün məşğul oluram. Mənim hər gün fərdi görüşlərim olur. Bizim çoxsaylı səfərlərimiz olur. Bölgələrə səfərlər edirik, Azərbaycanı qarış-qarış gəzirik. Biz burda bir Ailəyik, burda özümüzün yaratdığımız, yaşadığımız hadisələrin hesabatını veririk.

Borçalıda, Azərbaycanın onlarca bölgələrində, kəndlərində görüşlər keçirmişik. Gəncliyinə, sadə insanlara, ziyalısına, fəhləsinə, hər kəsə söz demişik. Seçilmiş adam yoxdur bizim üçün. Son iki ayda Bakının 20-yə qədər məktəblərində görüşlərimiz keçib. Türkiyədə yazılarımız çap olundu. Bir müddət əvvəl Nurtəkin, Göylü Türkiyədə görüşlər keçirdilər. Ancaq bunlar çox azdır. Vətən böyükdür, genişdir. Türk Dünyası böyükdür. Davamlı iş aparmaq gərək, hələ çox işlər görülməlidir. Təkcə bizim ölkə deyil, bütün Türk Dünyası yatıb cəhalətin altında...

Hər bir insan təkdir. Qohumun, qardaşın həm var, həm də yoxdur. Ürək qızdıra bilmirsən, ərk eləyə bilmirsən, bircə şey istəyə bilmirsən. Çünki heç kim heç kimə inanmır. Hər kəs özü üçündür. Biz özümüz də, cəmiyyətdə hər birmiz təkik. Asif Atanın insanlaşma mühiti var. Biz hamımız orda gəlib birləşmişik. Öz dünyamız yaranıb. Ona görə biz mübarizə aparırıq, boğulmuruq. Cəmiyyət boğulmalı mühitdir. Adamın ürəyinə işıq salan yaxşı bir şey yoxdur. Hara istəyirsiniz gedin, bir yaxşı şey tapa bilmirsiniz. Biz həşərat kimi doğulub böyüyürük. Heyvan kimi işləyib ölürük, torpağa qarışırıq. Axı belə insan ömrü olmaz. Belə insan dünyaya niyə gəlib, niyə gedir? Dünyanı anlamır, insanlığı dərk eləmir. Bütün bunların hamısı Asif Atanın təlimində, baxışında, görüşündə var... Asif Ata özünü xalqa sırımağa gəlmədi. Xilas eləməyə gəldi. “İxtiyarımı Ocağa vermişəmmi? Vermişəmsə, bu, Ocaq azadlığımı əlimdən alır anlamına gəlirmi?” İxtiyarım nə deməkdir? Bayaqdan mən sizə deyirəm ki, insanı sürüyə çevirirlər. İmkan vermirlər insan özünü insan kimi hiss eləsin. Nə din, nə molla, nə prezident. Nə icra başçısı, məmur imkan vermir. Heç kim imkan vermir ki, bu insan rahat nəfəs alsın, adama oxşasın. İnsan özü də buna cəhd eləmir. Hər kəs də səhərdən axşama kimi heyvan kimi işləyir ki, bir tikə çörək qazansın, balaları acından ölməsin. Halbuki insan gününün 3-5 saatını çörək qazanmağa həsr edər, balalarını dolandırar, yerdə qalan 3-5 saatını özünə həsr edər. Düşünər mən kiməm, dünya nədir, istirahət edər. Özünü insan kimi hiss edər. Buna imkan vermirlər. Sutkanın 24 saatını işlə, yenə də balaların ac qalır. Nizam belə pozulub. Biz deyirik ki, ixtiyarımı Ocağa vermişəm. Bu o deməkdir ki, sən Ocaq, Asif Ata, bu xalqın özülünü yaradırsan, istəyirsən ki, bu xalqın içində qeyrətli,

qüdrətli şəxsiyyətlər yaransın, bu xalqı xilas eləsin. Gələcəkdə dövlətinin başına da bu xalqın qeyrətli, qüdrətli oğulları gəlsin. Gəlsin ki, bu xalqın qədrini bilsin. Bir nəsil özündən əvvəlki nəslin eybəcərliklərini təkrar eləməsin. Bəşəriyyətin insani nizamının yaranmasına çalışırsan. Mən də bunu istəyirəm. Mən bunu istəyirəm ona görə ki, heyvan kimi yaşamaq istəmirəm. Hətta bu gün dünya nədir özü bilər, mən heyvan kimi yaşamaq istəmirəm. Yalançılıqla, murdarlıqla yaşamaq istəmirəm. İnsan kimi yaşamaq istəyirəm. İxtiyarımı sənə vermişəm ki, məni insan olmağa böyüt. Mən də sənin ideallarını yaşadım. İdeallarını yaşadım ki, mənim qohumum, qardaşım, ulusum, hamı fəlakətdən çıxsın. İxtiyarımı ona görə vermişəm. Bu, mənim azadlığımı məhdudlaşdırırmı? Məhdudlaşdırmır, ona görə ki, bizim toplumu sürüyə çeviriblər. Bu sürünün içində yaşayırıq, hara baxırsan adamın ürəyi ağrıyır. Bir milli adətimiz qalmayıb, dəyərimiz, ləyaqətimiz, geyimimizdən tutmuş davranışımıza qədər, özgələşmişik. Küçələrimizdən tutmuş hər yerdə ingilis sözləri. Bir milli anlayışa rast gəlmirsən ki, ürəyinə işıq düşsün. Ürəyə işıq düşməyən bir mühitdə yaşamaq azadlıqdırmı? Əsarətdir, əzabdır. Necə olur ki, ömrümü bundan çıxmağa həsr eləməyim azadlığımın məhdudlaşması sayılsın?! Xilasımdır. Ona görə ixtiyarımı vermişəm ki, məni böyüt, ürəyimi qanadlandır, sənin sevdiyin millətinə qulluq edim. Fədaisi olum sənin millətinin... Allahı diriltmək lazımdır. Allahsızlıq dünyanı bürüyüb.

"Xalq qəhrəmanlar doğa bilir, amma qəhrəmanlarını eşitmir. Bu nədən belədir?"

Var tarixi qəhrəman, var bu günün qəhrəmanı, Gələcəyin qəhrəmanı. Əslində tarixin qəhrəmanı həm də Gələcəyin qəhrəmanıdır. Qəhrəman 5 günün qəhrəmanı olmur. Biz çox vaxt Babəkin adını çəkirik. Çünki Babəkin qəhrəmanlığında ictimai xilaskarlıq var. Çünki Babək deyir ki, millət kölə kimi boyunduruqda yaşamamalıdır. Heç bir millətin haqqı yoxdur ki, başqa bir milləti boyunduruqda saxlasın. Biz demirik ki, bizim millət birləşsin, başqa millətin gözünü deşsin. Nəyimə lazımdır sənin böyüklüyün onda. Millətçilik o demək deyil ki, başqa xalqların gözünü deşəsən. Millətçilik odur ki, sən öz millətinin ləyaqətini ayağa qaldır. Milətinin gələcəyini qur, başqa xalqların əsarəti üzərində yox. Babək ictimai azadlıq məsələsinin həm də yaradıcısı idi. O, tarixi

qəhrəman deyil, gələcəkli qəhrəmandır. Babək olmasa, deyərik ki, bu millət belə gəlib, belə də gedəcək. Kimsə elə deyəndə mən deyirəm ki, Babək kimdir, Nəsimi kim idi bəs. Sənin xalqının içindən oğullar çıxıb. Sənin qeyrətin ayağa duracaq bir gün. Eşitməlisən sən bu harayı. Xalqın içindən oğlu-qızı qabağa durursa, onu eşitmək lazımdır. Onu eşitməklə sən onun qapısında kotan çəkmirsən. Ləyaqətini dərk edirsən. Öz insani və milli kimliyini dərk edirsən.

Bəs niyə eşitmir? Min illərdir ki, bizim içimizdə ideyamız, ideologiyamız, üzümüzün ifadəsi, gözümüzün baxarı, hər şeyimiz özgələşib. Milli mənliyimiz, milli ruhumuz özgələşib, yadlaşıb. Yadlıq oturub içimzidə. Mayamızı korlayıblar. Doğduğumuzu sevə bilmirik, böyüdə bilmirik. Hardasa dayanmaq və üzünü öz qibləsinə, millətinə tutmaq lazımdır. Mən böyüklüyü rusdan, ərəbdən, ingilisdən, farsdan daşımalı deyiləm. Niyə bu kənddən böyük kişi olmasın? Niyə bu kəndi müqəddəsləşdirməyəsən? Haranı öyərsən, ora da olar müqəddəs. Sən öz vətəninə tüpürürsən, başqalarının vətənini ziyarətə çevirirsən. Sənin vətənin olur zibil, başqalarının vətəni olur müqəddəs. Göstər səadətini, göstər xoşbəxtliyini... Ona görə sürüdən çıxmaq gərəkdir. Həqiqət sözünü dinləməkdən qorxmaq lazım deyil. Peyğəmbərləri Asif Atadan qorumaq lazım deyil. Asif Ata gözəlliklərin yiyəsidir. Dünyanın ayrı-ayrı xalqlarının gözəlliklərini məndən müdafiə eləmə-yin, mən onlara hücum eləməyəcəm. Yaxşı nə varsa, onun yiyəsiyəm. Mənim dizimin dibində oturub boğazdan yuxarı haqdan, ədalətdən danışma. Mən haqqı, ədaləti tanıyıram. Ömrümü buna həsr eləmişəm. Sizi də bir soydaşım olaraq buna çağırıram ki, xalqınızın gələcəyini düşünürsünüzsə, Asif Atanı dinləməkdən, öyrənməkdən qorxmayın. İçinizdə həqiqəti tapın. Onda zaman-zaman insan yaşamaq üçün ümid tapır.

İnsan böyüklüyü səcdəyə layiqdir. Asif Ata ona görə “Oldu” ki, xalqın içindən böyük şəxsiyyətlər yaransın və xalqına sahib çıxsın. O cür əmək qoyan, ideya qoyan, baxış qoyan insan qutsaldır...

*Şahin bəy tədbirdə iştirakından məmnunluğunu bildirdi, deyilən fikirləri bölüşdüyünü vurğuladı. Burada qorxacaq, çəkinəcək bir şey görmürəm dedi. Şahin bəy o bölgədə Günev Atalının hər gün çağırdığı, harayladığı eloğullarından biridir.*

*“Müqəddəs Oxuma” hissəsində Asif Atanın “Hüquqdan Haqqa” kitabından hissələr oxundu.*

*“Ata Ruhunu ürəyimizdə aparırıq!”, “Atamız Var olsun!” səcdəsilə “Ailə Günü” sona yetdi.*

***Od Ayı, 36-cı il. Atakənd.***
***(iyul, 2014. Bakı.)***







**Asif Atanın-İnam Atanın Mütləqə İnam Ocağı**
**Ata-Ocaq ilsırasının 36-ili**

**Günevin Yükümlüyündəki "Atagün" Ailəsinin**
**V “Ailə Günü”nün**
**Gedişatı**

***Gün:*** 27 Qürub Ayı;
**Yer:** Atagün Eli (Örənqala);
**Başlanır:** saat 16:00
Oda Amal Ruhuna uyğun hazırlanır. Gül-çiçək, texniki vəsaitlər hazırlanır – bunlara sorumlu Elana Atalı.
Hamı: “Ata Ruhuna pənah gətirmişik!” – deyir.
***Asif Atanın 10 dəqiqəlik çıxışı görüntüdən izlənilir – bunu Ocağın Ruhani Təşkilatçısı Göylü Atalı hazırlayır.***

**Hesabat qonuları:**
1) Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı.
2) Bir çox təlimlərdə Allah ali insan kimi təsvir olunur. Məsələn, yunanlarda, krişnaidlərdə, hətta təzadlı olsa da səmavi dinlərdə. Hürufilər də deyir insan allahdır. Bizdə də Ata-insan allah sayılır. Bunlar arasında doğmalıq varmı, fərq nədədir?
3) Yurdumuzda ictimai, siyasi hadisələr Ocaq görümündə.
Qonaqlara söz verilir.

**Müqəddəs oxuma:** “Haqq” Kitabının davamı oxunub şərh edilir.
“Ata Ruhunu ürəyimizdə aparırıq!”,
“Atamız Var olsun!” səcdəsi ilə Ailə Günü sona çatır.

**Günün carı:**
Ata-Ocaq sivilizasiyası – İnsanlığın Bəşər yaşamına bütöv gəlişi!

**Gedişatı yazdı:** Soylu Atalı
*19 Qürub Ayı, 36-il. Saray-Soylu.*
*(avqust, 2014.)*

## Atagün Ailəsinin
## V Aylıq Mərasimi

*Ocaq Günsırası ilə 27 Qürub Ayı Atagün Elində "Atagün" Ailəsinin V aylıq "Ailə Günü" mərasimi keçirildi.* ***Ailənin Yükümlüsü Günev Atalı*** *Ataya Səcdə ilə sözünə başladı:* Biz bu gün Atagün Elində "Atagün" Ailəsinin Evladları 36-cı ilin V Aylıq mərasiminə toplaşmışıq. Xüsusi izahata ehtiyac yoxdur. Öncə gedişatımıza uyğun Atanın 10 dəqiqəlik görüntüsünü izləyirik.

*Asif Atanın "Fikir Evi"ndəki görüşündən 10 dəqiqə izlənildi.*

**Günev Atalı:** Gedişatdakı mövzu ardıcıllığıyla hesabat vermək istəyirəm. Birinci Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı.

Amallaşmam – yenə də "Mütləqə İnam" Kitabını davam edirəm. Həm də "Qutsal Öyrənim Günü"ylə bağlı oxuyuram. Burda mən iki mövzuya toxunmuşam, onları ümumiləşdirmişəm. Müqəddəs beşliyin, – "Mütləqə İnam"ın üçüncü kitabından "Cəmiyyət" və "Ailə" qonularını özümləşdirmişəm. İndi yığcam qeydlərimi oxumaq istəyirəm.

*(Günev Atalı Özümləşdirdiyi fikirləri dəftərdən oxudu...)*

**Günev Atalı:** Kamilləşmə, yəni özüylə döyüşüm haqda nə deyə bilərəm: Özümün bu qənaətə gəldiyim, vurguladığım bir halım var – məndə bəzən əsəbi durum özünü göstərir. Hər halda bundan azad olmağa çalışıram. Əsəbilik məni geri çəkə bilir... Bununla belə ömrüm zənginləşir. Görürəm ki, bir anım belə Amalsız olmur. Əgər Amalımla bağlı öyrəndiklərimi verə bilmirəmsə, bir gün, beş gün fəalsızlığım yarananda, hansı səbəb ucbatından olur-olsun, fərqi yoxdur, buna övlad qayğılarımı mane olur, buna iqlimmi mane olur, bu məqam yarananda mən özümü son dərəcə ağır hiss edirəm, axı mən evdə oturmaq üçün deyiləm. Evdən çıxmalıyam. Mən Məcnun kimi çıxmalıyam. Bu əhval içimdə özünə elə yer eləməkdədir ki, birdən özümdən şübhələnirəm ki, deyəsən mən evdən çıxacam, bir də heç qayıtmayacam. Belə bir əhval doğur məndə öz-özünə. Özü də içdən gəlir bu. Buna özümü məcbur eləmirəm. Deməli, Ocaq günü-gündən özünə daha dərin kök salır ürəyimdə, içimdə. Hansı yükün altına çiyin verməyimi günü-gündən daha çox dərk edirəm. Adamlarla ünsiyyətim artdıqca yetginləşirəm sanki. Bir az da, necə deyərlər, yaxşı yeriyirəm adamların içinə. Heç

nədən çəkinmirəm. Artıq mənim çəkinəcəyim elə bir şeyim qalmayıbdır. Bircə özümü gözləyirəm yüngülsaqqallıq eləməkdən, sanbalsızlıqdan. Susmaq, yeri yoxdursa danışmamaq. Bəzən susmağın özü danışmaqdır Ata demiş. Bu baxımdan mən özümü daim kökləyirəm.



Xalqlaşma hesabatım. Nə qədər maneələr olsa da, xalqlaşma işim davamlıdır. Bir nəfər məshəti türküylə görüşdüm. Hardasa Beyləqan ərazisində yaşayan adamdır. Məmmədcan adlı bir kişidir. Onunla yaxşı söhbətlər elədik türkçülük yönündə. Ədəbiyyat verdim. O əlaqə saxlamağa, “Atagün” Ailəsinin toplantılarında iştirak eləməyə söz verdi. Ancaq sonradan onu aradım telefonu götürmədi. Belə şeyləri biz çox görmüşük, bu, məni üzmədi. Sonra “İkinci Aşıqlı” kəndinə getmişəm. Orda Ceyhun adlı bir tanışımız vardı, o da işini bəhanə edib bu kimi işlərə qatılmağa vaxtı olmadığını dedi. Mən də ona qınaq xarakterli münasibət bildirmədim. Ancaq vətəni belə sevməzlər dedim. O özü Kəlbəcər köçkünüdür. Beyləqanın “İkinci Aşıqlı” kəndində bir idarənin küncündə məskunlaşıblar. Çox ağır durumdadırlar. Hərtərəfli şəraitsizlik. Orda mən dedim ki, biz vətəni bu cür sevsək, onda nəinki Kəlbəcərdən bura qaçacağıq, hələ burdan da daha ağır yerlərə. Vətənə bəs kim yiyə durmalıdır?! Mən illərlə gözlədiyim eldən-elatdan bir nəfər ayağa qalxır, axtarır məni, tapır məni, mən onun ardınca gedirəm,

tapıram, görüşürük, bizim bir-birimizə münasibətimiz, vətənə münasibətimiz, bəşərə münasibətimiz, millətimizə münasibətimiz bu dərəcədə yanğılı söhbətlərlə getdi, üst-üstə düşdü fikirlərimiz, sonra iş bəhanəsi. Dünyada işi olmayan var ki?! Hamının işi var. Hamının işi də var, məişəti də var, qayğıları da var. Bir-birindən fərqli, bir-birindən artıq. Ancaq biz bir ay müddətində bu kimi gərəkli bir iş üçün bir-iki saat vaxt ayıra bilmiriksə, deməli, bizim vətənsevərliyimiz də, bəşərsevərliyimiz də, millətsevərliyimiz də elə-belə, xala-xətrin qalmasın üçündr. Nəysə... O da heç incimədi məndən. Çünki mən ona elə bir qayğıyla, sevgiylə dedim ki, dərdimi.

Kənddə auditoriya ən çox yas məclislərində olur. Çünki dinləmək məqamı orda var. Xüsusi hər hansı müəssisələr, məktəblər də ola bilər, hər hansı təşkilat da ola bilər, bu başqa, ancaq ümumi götürəndə xalq kütləsi, camaat, toplum üçün ən çox söz eşitmək yeri yas məclisləridir. Kənddə yas məclisində uzaq qohumlarla rastlaşdım. Əslində biz bir-birimizi heç tanımırdıq da. Təsadüfən baş tutan tanışlıq uğurlu nəticə verdi. Belə ki, söhbətlərimizin məcrası dünyanın pozulmuş nizamına münasibət yönündə yarandı. Söhbətim müsahiblərimin marağına səbəb oldu, xeyli adam toplaşdı. Dinləyənlər suallar verdilər, münasibət bildirdilər...

*(Günev Atalı başqa xalqlaşma əməllərindən də danışdı...)*

**Günev Atalı:** Sonra gedişatımızda belə bir mövzu var: "Bir çox təlimlərdə Allah ali insan kimi təsvir olunur. Məsələn, yunanlarda, krişnaidlərdə, hətta təzadlı olsa da səmavi dinlərdə. Hürufilər də deyir insan allahdır. Bizdə də Ata-insan allah sayılır. Bunlar arasında doğmalıq varmı, fərq nədədir?"

Çox gözəl sualdır. Mən nə fikirləşdim, düşündüm bu sual barədə. Nə cür yaxınlıq ola bilər. Yunanlarda Zevs vardı, Poseydon vardı, nə bilim Apollon vardı, bunlar hamısı insan qiyafəli, insan sifətli idi. Sonra Krişnanın özü gözəl bir insan təsvirində idi. Məsələ bundadır ki, bunların hamısında, Səmavi dinlərin özündə də, insan sifətləridi. Burda doğmalıq məhz onların insanlığa tapınmasındadır. Hökmdarlığından əlavə, fövqəlgücündən əlavə, yalanından əlavə, insan yönü daşıyırdılar. Deməli, allahların insanlaşması məsələsi vardı bəlkə də dərində. Fərq isə tamam böyükdür. Biz deyirik ki, insan özü mənaca allahdır. Yəni o

təlimlərdə gözəgörünməz, hardasa göylərdə məkan tutmuş uydurulan bir adamabənzər qüvvə allah adlanır. Ata belə şeyləri qəbul etmir. İnsan daxilində Mütləq gəzdirdiyinə görə mənaca allahdır deyir...

Yurdumuzda ictimai-siyasi hadisələrə Ocaq yönümündən baxış. Sünniləşmə, şiələşmə, vəhabiləşmə, nurçulaşma, sonra qloballaşma adı altında, beynəlmiləlçilik adı altında, Avropaya inteqrasiya adı altında gedən proseslər yurdumuza çətin aqibət hazırlamaqdadır. Burada yeganə dirəniş Ata ideyalarına söykənməkdir.

**Soylu Atalı** Ataya Səcdə ilə sözünə başladı: 36-cı ilin Qürub Ayı Atagün Elində "Atagün" Ailəsinin V Aylıq mərasiminə hesabat verirəm. Söz deməzdən öncə Atamızın bayrağını öpərək Ona səcdə edirəm. Amallaşma-Kamilləşmə-Xalqlaşma hesabatı. Amallaşmanı mən çox fərqli bir biçimdə aparıram. Fərqli biçim də nədir? Mən özümdən Amallaşıram. Düşüncələrimdən öyrənirəm, bilirəm, suallarımdan öyrənirəm. Hara baxıramsa, ordan mənim özümə sual yönəlir. Bu suallara cavablar mənimçün Atanı yarpaq-yarpaq, səhifə-səhifə öyrənmək demək olur. Ona görə də Atayla bağlı, Ocaqla bağlı izahım getdikcə səlisləşir. Getdikcə yön gəlir, getdikcə öz axarını tapır. Amallaşmaq heç də yalnız kitab oxumaq demək deyil. Onsuz da mən hər gün kitab oxuyuram. Mənim kitab oxumadığım vaxt yoxdur. Əlbəttə, başqa bir açıdan mən Atanı təqdim eləmək istəyirəm. Bunun üçün yenə mən böyük ədəbiyyata müraciət eləmişəm. Böyük ədəbiyyat Atanı izah eləmək yönündə mənimçün bir vasitədir. Bəşəriyyətin Ataya qədərki durumu, Ata çağındakı durumu və Atadan sonrakı durumu, Atanın arzuladığı durumu. Bunları Atanın öz ölçüsüylə izah eləmək üçün böyük ədəbiyyat mənə gərək olur. Məsələn, məni düşündürən əsas xətt nədir? Nəyi izah eləyirəm? Atanı Dəyişiklik eləyən, böyük xətt götürən, böyük addım götürən yaradıcı düha kimi hardan başlayım təqdim eləməyə, necə verim, doğrudan da, bütün bunların hamısı içimdə qurulma səviyyəsində gerçəkləşir.

Xalq – həyatı puç edilmiş durumdadır. Səbəb nədir ki, xalqın həyatı puç edilib. Bax, bu səbəb nədir məsələsi var, bir də bu səbəbdən doğru-düzgün nəticə çıxarmaq məsələsi var. Sonucda o puç olmuş həyatı bərpa eləmək məsələsi var. Puç olmuş həyatı bərpa eləmək sadə bir məsələ deyil. Təkcə izaha sığan məsələ də deyil. Çox böyük, çox çeşidli

addımlara bağlıdır, əməllərə bağlıdır, düşüncələrə bağlıdır. İndi mən fikirləşirəm ki, xalqın həyatı puç olana qədər hansı mərhələlər yaşanıb? Xalqın həyatı niyə heç olur? Çünki xalqın həyatını var edən keyfiyyətlər, məziyyətlər insanların ürəyindən boşalıb. İnsanların ürəyi boşdur. Boş ürəkdə xalqın nə ağrısı bəlli olur, nə qayğısı, nə də gələcəyi. Bax, bu boş ürəklərdə xalqın həyatına bağlı dəyərlərin, məziyyətlərin, fəzilətlərin bərpa olunması məsələsi var axı. Bununla kim məşğul olur və yaxud kim məşğul olacaq?! Biz deyirik ki, bununla peyğəmbərlər məşğul olmaq istədi. Xalq adlanan, həyatı puç edilmiş, bir varlığın nicatı, xilası – boş qalmış insan qəlbinin fəzilətlərlə dolmasında, bərpa olunmasındadır. Axı peyğəmbərlər xalqı rədd edir. Axı peyğəmbər xalq tanımır. Axı peyğəmbər deyir ki, sən atanın qədrini bil, anana qayğı göstər, sayğı göstər, amma onsuz da həyat puçdur, ailə də boş bir şeydir, fanidir. Həm qayğı göstər, həm də boş bir şeydir. Mən bu peyğəmbərin təzadlı sözündən, təzadlı fikrindən necə yaxa qurtarım? Axı peyğəmbərin təzadlı fikirlərinin arxasında qaragüruh var, kütlə var. Ürəyi boşalmış insan sürüsü var. Mən ondan necə xilas olum? Mən onunla necə əkim? Mən deyirəm ki, ailə müqəddəs hadisəsdir, müsəlman deyir dində də ailə müqəddəs hadisədir. Mən deyirəm ki, ana müqəddəsdir, müsəlman da deyir dində də ana müqəddəsdir. Mən deyirəm ki, vətən sevgiyə layiqdir, müsəlman deyir din də onu deyir. A balam, harda deyir?! Harda deyib?! Sənin qəlbində deyib, sənin ürəyinə yazıb? Sənin ürəyinə yazıbsa, onda sən ürəyində o vətəni mənə göstər. O ana qutsallığını mənə göstər. Göstərə bilmirsən... Asif Atanın varlığı, gəlişi dinlə konflikt kimi görünür, münaqişə kimi görünür. Halbuki Asif Atanın dediyi fikir heç bir dinlə hansısa bir mərhələ, hansısa bir cərgə təşkil eləmir. Necə təşkil eləsin? Bax, yaşadığımız bu mühitdə, bu müstəvidə xalq deyilən bir hadisə var. Bu müstəvidə vətən deyilən bir şey var. Bu müstəvidə insan, insanlıq deyilən bir şey var. Bu müstəvidə bəşərilik deyilən bir şey var. Asif Ata bax, bu müstəvidə həmin mənanı, məzmunu ortaya qoyur, onu xilas edir, onu sağaldır. Axı din üçün bu müstəvidə bunlar yoxdur. Mənə göstər, hardadır din?! Asif Atayla eyni mərhələdə, eyni müstəvidədirmi? Deyil! Axı mənim dediklərim Asif Atanın dedikləriylə birdir, bir yerdədir. Sən də dediklərinlə bir yerdəsən, birsən. Sənin dediyin nədir bəs? Asif Atanın dediyi, dediyim kimi, ailə,

millət, bəşər, insan, vətən məsələsidir. Bunların müqəddəsliyi, əsilliyi. Asif Ata bunları deyir. Bunların yanındadır, dediyiylə bir yerdədir. Sən nə deyirsən, əski peyğəmbər? Sən deyirsən ki, vətən yoxdur, millət yoxdur, bəşər yoxdur, fanidir, heçdir. Axirət var, cənnət var, allahın dərgahı var. Sən də öz dediklərinin yanındasan. Sən cəfəngiyyatın yanındasan. Sənin dediklərin cəfəngiyyatdır. Yoxdur gerçəklikdə, yoxdur yaşadığın həyatda, yoxdur gerçək düşüncələrdə dediklərin. Heç bir yerdə yoxdur. Harda var? Xülyada. Sən xülyadasan. Dediklərinin yanındasan. Ona görə də Asif Atayla o biri peyğəmbər bir müstəvidə, rəqabətdə deyil, münaqişədə deyil. Asif Ata əzab çəkir. Əzab çəkmək öyrədir. Bəs peyğəmbər nə deyir, nə öyrədir sənə? – Tüfeyli həyat. Gedəcəksən, nə isti görəcəksən, nə soyuq. Nə əzab görəcəksən, nə zəhmət. Nə gedəcəksən, nə gələcəksən. Nə başın daşa dəyəcək, nə əyiləcəksən. Heç nə olmayacaq. Tüfeyli həyat. Peyğəmbər sənə tüfeyli həyat öyrədir. Amma heç kim onun öyrətdiyi o tüfeyli həyata bel bağlamır. Niyə bəs bu "fani" həyat uğrunda mübarizə aparırsan? Niyə bütün işini-gücünü qoymusan bu fani həyat uğrunda mübarizəyə? Niyə qamarlayırsan, niyə yığırsan, niyə onun-bunun əlindən alırsan, niyə rəqabət aparırsan? Peyğəmbər sənə həyatın gözəlliyini öyrətsəydi, onda sən bu dediklərimi eləməyəcəkdin. Rəqabət aparmayacaqdın, cırmaqlaşmayacaqdın. Etməyəcəkdin bunların heç birini. Sənə əgər həyatın gözəlliyini öyrətsəydi, onda sən tüfeyli həyat uğrunda düşünməyə¬-cəkdin. Onda sən bu həyatın məzmunuyla bir yerdə olacaqdın. Bax, Asif Ata bizə, insana deyir ki, həyatın məzmunu filan şeydədir. Bizi də çağırır ki, həyatın məzmunuyla bir yerdə olun, həyatın məzmunuyla yaşayın. Həyatın töküntüsüylə, itəniylə yaşama, məzmunuyla yaşa. Məzmunuyla yaşayandan sonra görəcəksən ki, sən insansan. Görəcəksən ki, sənin qəlbində nə qədər gözəlliklərə yer var. O gözəliklərlə dolduracaqsan ürəyini. O boşalmış ürəyini. Xalqın puç olmuş həyatını, boşalmış ürəyini həmin fəzilətlərlə dolduracaqsan. Budur məna. Nə qədər canlı, aydın, gözəl. Asif Atanın dediyi budur. Nağıl yoxdur burda, mif yoxdur, ədəbiyyat obrazı yoxdur, anlayışlar fəlsəfəsi yoxdur burda. Canlı həyatın gözəllikləri var, mənası var. Mənim yaşamalı olduğumu mənə qaytarır, deyir, öyrədir. Mənə nağıl

öyrətmir axı. Bu qədər canlı, gözəl, aydın mühakimələr yürütmək olar Atanın yoluyla bağlı.



Amma bu qədər aydın, bu qədər sadə, bu qədər dolğun bir məsələylə məşğul olmaq nə qədər böyük əzab tələb edir. Nə qədər çətinliklər çıxır adamın qarşısına. Bu qədər aydın olduğu halda. Məhəmmədin dedikləriylə bağlı heç bir çətinlik çıxmır bugünkülərin qabağına. Heç kim ağlını işlətmir. Sadəcə olaraq, yaşadığı həyatın heçliyindən gileylənir, əzab-zad da çəkmir. Dəyişmək üçün əzab çəkmir. Əksinə, rahatlıq istəyir. Çünki Məhəmməd onu "rahatlığa" yuvarlayır. Mütilik rahatlığına, zəhmətsizlik rahatlığına, heyvanilik rahatlığına. "Ağrımayan başına soğan doğramır". Məhəmməd onu "rahatlığa" çağırır, Asif Ata isə onu əzaba çağırır. Puç olmuş həyatını bərpa eləmək üçün, yaratmaq, gözəlləşdirmək üçün zəhmət çəkməlisən, əzab çəkməli¬sən, – ona çağırır. Ona görə də Asif Atanın çağırışına üççə adam qulaq verir, boy verir. Məhəmmədin çağırışına "milyardlar" gedir. "Üç nəfər" verib Asif Ata. Çünki Asif Ata əzaba çağırır, aydın olanı, həqiqi olanı, doğru olanı yaratmağa çağırır. Əsilləşdirməyə, gerçəkləşdirməyə çağırır. Ona görə üç nəfər gedir onun ardınca. Çünki burda zəhmət var, burda böyük

məsələlər var. Zəhmət neyləyir? Zəhmət aləmi qatıb-qarışdırır. Bizim əzabımız qarşılıqsız ötüşmür. Aləmi qatıb-qarışdırır. Niyə? Baxın, fikir verin, insanların münasibətini, rahatlığını bir mərdiməzarlar pozur, bir də onu xilas edənlər. O, mərdiməzarlara dəymir, qorxur onlardan. Amma ona xilas gətirənlə durub döyüşür. Qorxutmağa, əl çəkdirməyə çalışır. Bax, bizim zəhmətimiz, varlığımız, bizim döyüşümüz, mübarizəmiz həmin mütilərin, həmin kölələrin rahatlığını pozur. Ona görə deyir ki, nə gözəl deyirsən. Amma nəyə lazımdır e bunlar. Sonra da deyir ki, dünya pozulub gedir. Mərifət yoxdur, qanacaq yoxdur, böyük yoxdur, tərbiyə yoxdur, böyüyü eşitmək yoxdur. Yaxşı, yoxdur, yoxdur, bəs nə edək? O gərək deyil, bu da yoxdur. Bunu da eləmə... Bax, sənin balaların var, nəslin var. Sənin əbədiliyin var arxanda, nəsil, şəcərə, xalq deyə. Onun rahatlığı üçün çalış. Onun əzabsızlığı üçün çalış. Sənin çəkdiyin əzabı o da çəkməsin. Qoy o əzab çəkməsin, amma sən zəhmət çək.

Biz Amallaşma hesabatı veririk. Nədir Amallaşma hesabatımız? Asif Atanı xalqın içinə gətirməyin yolları, məzmunu. Asif Atanı xalqın içinə niyə gətiririk? Dediyimiz kimi, xalqın puç olmuş həyatını diriltmək üçün. Asif Ata sənin üçün oksigendir. Asif Ata sənin yaran üçün məlhəmdir. İçinin çürümüşlüyü üçün məlhəmdir. Ona görə Asif Atanı gətirirəm sənin içinə.

Kamilləşməylə bağlı mən nə düşünürəm? Söz yox ki, Günevin dediyi kimi, Atanın yolunda külüng çalasan, inkişaf olmaya, bu mümkün deyil. Hər gün mənim nəfəsim saflaşır. Hər gün mənim içim bərkiyir. Amma günbəgün həyat ağırlaşır. İnsan hər gün ölümə məhkum olur. Həyatın pozulmuş gedişatında insan hər gün ölümə məhkumdur. Bunun ağrısının dalğaları çox uzağa ləngər vurur. Onda hamı başını itirir. Hamı bir-birini təhqir eləməkdən çəkinmir, çox asan təhqir eləyə bilir, çox asan bir-birinə ağır zərbələr vura bilir. Bir-birinin əsəbləriylə oynaya bilir. Çox asan da əsəbləşə bilir. İnsanlar günbəgün bir - biri üçün qiymətdən düşür. Bax bu gedişatda mən özümün ruhani ləyaqətimi qorumaq haqqında düşünürəm. Kamilləşməmin əsasında son vaxtlar bu durur. Ruhani ləyaqətimi qoruyuram. Həyatın sillə vurduqları dizi üstə çökür, mən çökməli deyiləm. Ayaqda durmalıyam ki, çökənləri ayağa qaldırım. Evdən çölə çıxırsan, hər addımın əsəbdir. Mən öz təmkinimə

sahib çıxıram. Xalqa, onun kimsələrinə sayğı duyum, sayğımı itirməyim. Ürəyimin gücü azalmasın. Sevgimin gücü azalmasın. Çağırmaq eşqim azalmasın, söz demək eşqim azalmasın. Usanmayım. Daim beynimdə məni məşğul edən budur. Ürəyimin gücü azalmasın. Hər kəsin ürəyinin gücü azala bilər, hər kəs yıxıla bilər. Hər kəs məhv ola bilər. Sivilizasiya batmaq təhlükəsi ilə üz-üzə qala bilər, mən ölməli deyiləm. Mən o batmaqda olan sivilizasiyada yeni bir dalğa başlamalıyam. Bax, bu dərəcədə. Peyğəmbər Evladı olaraq məsuliyyətini dərk eləmək. Bizim öhdəmizə peyğəmbərlik işi düşür. Asif Atanın Evladı olaraq bizim işimiz peyğəmbər işini həyata keçirməkdir... Bax, bu qapıdan çölə baxırsan, gözünə gör nə görünür. Gözünə əsrar görünür, sirr, sehr, təbiət, göylər, ənginliklər, gələcək, əbədiyyət. Bu biri yandan dizi üstə çökmüş, səfil duruma düşmüş insan. Hansı ki o sirrin, sehrin daşıyıcısıdır.

Bu qapıdan çölə baxıram, gözümün qabağında olanı görsəm, yəni yalnız zəlaləti, çökəni görsəm, ruhumun görməli olduğunu görməsəm, yəni o əbədiyyət çağırışını, o ölməzlik gözəlliyini, o ülviyyəti, o əsrarı, o sehri görməsəm, onda ürəyimdə güc qalmaz. Ürəyimin gücü, dayağı ruhumun gördükləridir. Deyirəm ki, yıxılan insan, özündən ayrılmış insan, özünə bərabər deyilsən. Mənasını, məzmununu daşıdığın sirrə, sehrə, əsrara layiq deyilsən. Düşmüsən aşağı. Bunun harayını çəkirəm. Bunun harayını çəkməsəm, onda ürəyimin gücü tükənə bilər. Onda Asif Atanın bayrağı enər, göylərə ucalmaz.

Xalqlaşmayla bağlı demək istəyirəm. Açığı son dövrlər ümumocaq səviyyəsində Ocağın xalqlaşma işi, məsələn bir il, iki ilbundan əvvəlki ilə müqayisədə çox artıb. Sistemli şəkildə, davamlı şəkildə. Bundan da artıq ola bilərmi? Ola bilər. Amma bunun özü də çox yetkindir. O cümlədən mənim özümün məqsədli görüşlərim, lap qonumda-qonşumda, iş yerimdə, İnam Evində, evimdə olur. Ən böyük hadisə kimi bu ay Güntayın ləyaqətini vurğu eləmək istəyirəm. Mən onun işinin adını “Ev görüşü” qoydum, yaxud “Fikir Evi”. Fikir Evini bərpa elədik. Bundan sonra da yəqin davamı olacaq. Asif Atanın Fikir Evi ideyası. Asif Atanı kəlam-kəlam, ideya-ideya eyni adamlara, yaxud yeni adamlara vermək. Bu, Güntayın fədakarlığıyla olacaq. Davamlı şəkildə adamları evinə toplamaq istəyir. Necə ki, indi də topladı və çox uğurlu da iş getdi. 4

saat söhbət oldu, saat ikidən altıya qədər. Bu qədər saatda bir adam havasını dəyişmək üçün belə çölə çıxmadı. Heç kim. Axıra qədər hər kəs dinlədi. Hər kəs mədəniyyətlə sual verdi. Ədəbiyyatları götürdülər ki, aparsınlar, oxusunlar.

Sonra Üstünün təşkilatçılığıyla yeni adamlarla görüşdüm... Xalqlaşma işim uğurludur. Çox adamlar çox şey aparır Ocaqdan. Çox ciddi söz aparırlar və çox ciddi ədəbiyyat aparırlar. Yayılır ədəbiyyatımız.

Mən son vaxtların hadisəsini də demək istəyirəm. Bizim ləyaqətli, fədakarcasına çabalarımızın hesabınadır ki, qıraqdan bizim səmimiyyətimizi görürlər və ara-sıra addım atmağa başlayırlar. Məsələn, indi Ailə Günümüz üçün hədiyyə gətirmişik kitabımızı, İlqar Türkoğlu öz yatırımı ilə onu çap elədi, ərsəyə gətirdi. Avropada yaşayan xanım dostumuz Ucaruh boğazından kəsib 100 dollar göndərib ki, Ocağın bir addımı da artsın. Bundan əvvəl də göndərmişdi. Bunu niyə eləyir? O görür ki, ortada iş var, zəhmət var. Fədakarlıq var, səmimiyyət var, xalq yaratmaq var. Özü də qatılır. İnanır, ümid edir... Başqa bir nəfər Güntayın xəttiylə Ocağa printer bağışlayıb. Bunlar zahirən adi görünə bilər. Bunlar adi məsələ deyil. Xalqın içində Ocağa yaxın olan insanların səmimi çabaları, Atanın işinə ümid bəsləmək meyilləri mərhələ-mərhələ genişlənəcək. Bizim xalqlaşma işimizin sonucu budur...

Allah məsələsi, Allahın insan kimi təsvir olunması, dünyabaxışlarda. Qaça bilmədilər. Başqa təlimlərdə Allah kainatın yaradıcısıdır. Bir var kainatın yaradıcısı, bir də var kainatın ünsürləri. Allahın yaratdığı maddələr. Bura insan da daxildir, təbiət də, hər şey də. Bir var allah, bir də var onun yaratdığı maddələr. Bax, allah fövqəlqüvvə kimi götürülür və insani məziyyətlərlə təsdiq olunur. Həmin o kainatın yaradıcısı, həmin insani məziyyətlərlə təsdiq olunan o allah hürufilərin dediyi "ənəlhəqq" məsələsi deyil. Yəni onlarda məzmun "insan allahdır" anlamına gəlmir. Sadəcə olaraq, insani məziyyətlər verirlər o qüvvəyə. İnsanın da, dünyanın da "yaradıcısı" olan bir qüvvə. Yaxud yunanların adam kimi davranan allahları da bütün insanların allah olduğu anlamına gəlmir. Seçilmişlərdir onlar. Onların konkret bir nəsli var. Konkret bir mühiti var. Bir də yerdə qalan bəndə sürüsü – cəmiyyət, bəşər.

Krişnaidlər də onun kimi. Həzrəti Krişna allah – ali şəxsdir. Yerdə qalanlar allah deyil. Amma hürufilər deyir ki, hər bir insan allahdır. Biz də deyirik ki, İnsan allahdır mənaca, məzmunca. Onların dediyi ilə Atanın dediyinin özəl bir fərqi nədədir? Onların dediyi kainatın yaradıcısı bir qüvvə fövqəl olan, kainatüstü olan bir qüvvə, bir də var kainatın nizamı, daxili qüdrəti, Mütləq olan, əzəli olan, əbədi, kamil, sonsuz olan – Asif Atanın dediyi. Kainatın daxili qüdrətinə Ata Dünyalıq deyir. Bu Dünyalıq həm də Həyatlıq deməkdir, İnsanlıq deməkdir. O məzmun ki, ona burada şərti olaraq allah deyirik, həmin o Dünyalığa, o Dünyalıq mənim içimdə İnsanlıq olaraq var. Mahiyyətcə İnsanlıq bərabərdir Dünyalığa. Daha dəqiq desək, Dünyalığın bir cəhətidir mənim içimdə olan İnsanlıq. Mən Dünyalığın İnsanlıq tələbini öz içimdə gəzdirirəm. Onu aşkarlayıram, ona doğmalaşıram. O oluram. Ona görə mən allaham. Yəni bir var Dünyalıq qüdrəti, bir də var onun bir cəhəti olan İnsanlıq qüdrəti. Mən o insanlığı daşıdığım dərəcədə allaham. Müsəlman da, qeyrisi də çaşır, nədə çaşır? Necə yəni, kainatı yaradan qüdrət var, allah. Sən osan? Kainatın bənnası yoxdur. Mən də o deyiləm. Kainatın daxili qüdrəti də deyiləm. Onun İnsanlıq adlı qüdrətiyəm, bu anlamda Oyam. Dünyalıq həm də mənim İnsanlıq adlı mahiyyətimdir. Dünyalıq məndən qıraqda deyil. Həm məndən alidir, böyükdür, həm də mənim içimdədir – İnsanlıq anlamında.

Ata çox böyük uğurla qabağa gedir və deyir ki, Dünyalıq, Həyatlıq, İnsanlıq Mütləqin məna çalarlarıdır, ancaq birdir, ayrı-ayrı mənalar deyil. Mütləq birdir. Həyatlıq canlı gedişatda təcəlla tapır. İnsanlıq insanların varlığında, ölməzliyində, yaşamında təcəlla tapır. Dünyalıq da bu anlayışlarla bir bütöv təşkil edir. Yəni o həm İnsanlıqdır, həm həyatlıqdır. Bu baxımdan Asif Atanın dediyi "insan allahdır" məsələsi məhz İnsanlıq daşıyıcısı olduğuna görədir. Dünyalıq mənasını özündə daşıdığına görədir. İnsanla Dünyalıq iç-içədir. Dünyalıq transendental deyil, insanüstü deyil. Kainatüstü deyil, ayrı deyil. Amma deyəndə ki, kainatın yaradıcısı var, həm də onda danışmaq qabiliyyəti var, görmə qabiliyyəti var, idarə etmək qabiliyyəti var, – bax, o, nağıldır, cəfəngiyyatdır. Burada allahın insan kimi təsvir olunması xülyadır. Dünyalıq insan deyil. İnsani sifətlər də daşımır. Yəni Dünyalıq danışmır, görmür, eşitmir. Ya maddə-maddə qurmur. O deyil. Görün nə qədər zəngin,

dolğun, aydın bir fikir ortadadır. Asif Atadan əvvəlki dünyabaxışlarla Asif Atanın dünyabaxışının fərqi çox dərindir...

– Ocağın yurdumuzdakı proseslərə münasibəti. Asif Ata deyirdi ki, dünya demokratiya-totalitarizm dairəsində fırlanır, kapitalizm-sosializm dairəsində fırlanır. Bu gün dünyanın ahəngi, yaxud ahəngsizliyi, nizamı, yaxud nizamsızlığı (çünki bu nizam deyil) həmin dairədə müəyyən olunur. Məhz dünya sosializm-kapitalizm dairəsinin içərisində nizamlandığına görə nizamsızdır. Dünya demokratiya-totalitarizm dairəsinin içində nizamlandığına görə nizamsızdır. Bütün gedişlər həmin nizamsızlıqdan, həmin dairənin içindən təzahür edir. Həmin dairənin içində fikirləşirlər. İnsan var olmur, insan özünə bənzəmir. İnsan içindəki böyük məsələləri aşkarlamır. İnsan içindəki insani mənanı aşkarlamır. Buna görə də belə bir vəziyyətdə insan insani keyfiyyətlərini aşkarlamırsa, mütləq dünyanın nizamında nizamsızlıq yaranır. Bu, məsələnin qlobal mənasıdır. Biz də bu qlobal mənaya, məzmuna baxıb izah edirik. Ordan yanaşırıq. Konkret olaraq Azərbaycanla bağlı. Necə ki biz bunu bir vaxtlar ayrı-ayrı yazılarımızda da yazmışıq, bu gün də mən o fikrin üzərində vurğu eləmək istəyirəm. Azərbaycanın indiki durumu sözün həqiqi mənasında izah olunmaz həddə gəlib çatıb. Biz, Azərbaycan olaraq, nə qədər ki, gizləndik, dərdimizi açıq demədik, Güneyimizin, Quzeyimizin parçalanmasını açıq demədik, Yurdumuzda bütün ölkələrin, dövlətlərin yaratdığı, sırıdığı hal bizi əydi. Biz də onlara qarşı tolerantlıq nümayiş etdirdiyimizə görə bütün nəsnələrə zamanında səsimizi çıxartmadıq. Özümüzü ağıllı göstərdik bir ölkə olaraq. Humanist göstərdik, tolerant göstərdik, bunları göstərə-göstərə uçurulmağımıza, yıxılmağımıza göz yumduq. Yıxıla-yıxıla gedirik. İş ora gəlib çatıb ki, ölkəmizdə, dövlətimizdə ən ibtidai məntiq pozulub. İnkişafdan danışırlar. Axı inkişafın əsasında təhsil durur. Bu gün test üsuluyla həyata keçirilən təhsilin keçid balı 150-yə enib. 700 balın qabağında 150-yə enib. Əgər bilik 700 balla ölçülürsə, 150 bal keçidiylə ölkədə hansı inkişafın əsasını qoyursan. O 150 balı hıqqana-hıqqana yığan adam oxumaz, avara, vələdüzna tələbəyə hansı tərbiyəni verəcəksən. Hansı vəzifəni ona tapşıracaqsan ki, mənim ölkəmdə, dövlətimdə abadlıq işi görsün. Yön yaratsın. Onun nəticəsidir ki, Azərbaycanda səhiyyə deyilən şeyə heç kim üz tutmur. Heç kim

inanmır. Heç kim həkimə getmək istəmir. Ona görə ölür. Orta yaş həddi şox aşağı enib. Hamı ölür. Niyə ölür? Ölkənin ölümün qabağını ala biləcək səhiyyə qüdrəti yoxdur. Dərmanlar hamısı insan sağlamlığını öldürəndir. Dərmanı satan insan sağlamlığını öldürəndir. İnsanı müayinə edən, müalicə edən insan sağlamlığını öldürəndir. Vicdan yoxdur, Mənəviyyat yoxdur, xalq sevgisi yoxdur. Vətən anlayışı yoxdur. Pul qazanmaq yarışı gedir dəhşətli dərəcədə. Baş alıb gedir dəhşətli dərəcədə. Səhiyyə ölübdür. Eləcə də idarəetmə. Təhsildir, səhiyyədir, hüquq sistemidir, məhkəmə sistemidir, dəhşətdir. Balaca bir işin ortaya çıxdı, nə qədər pul verməlisən. Yoxsa aylarla məhkəmədə sürünəcəksən. Gətir pulunu ver, get kef elə. İşin pis cəhəti də odur ki, bu gözlə görünəndir. Hər kəs gözlə görür ha. Amma addım atmır. Ona görə mənim kimi Asif Atanın ətəyindən tutan, ağıl işlədən, düşüncə ortaya qoyan adam uzağa baxır və deyir ki, xalqı bu durumdan xilas eləmək lazımdır. Amma toplum mənim kimi Asif Atanın ətəyindən tutmayıb axı. Onun gördüyü – yaşadığı gedişatdakı çıxılmazlıqlardır. Bunu görür, vahimələnir, ümidi ölür, həyata baxışı ölür, xalq olmaq meyli ölür, vətən haqqında düşünmür. Bu gündən sabahını sayır. Fürsət gözləyir, gedim mən hardan oğurlayım. Çaşır. Bu cür çaşanı da sən xilasa çağırırsan, o da deyir əşşi, siz nəyi qoyub nəyi axtarırsınız. Həyat məhv olub gedir. Siz də deyirsiniz, gəlin insanlaşaq. Gözünün gördüyünə görə düşünür, ağıl işlətmir. Xalqın içində bircə dənə sağlam toxum var. O da Ocaqdır. Ata haqqı, Ocağı uydurmadan mən bunu deyirəm. Bəşəriyyətin ortasında bircə dənə sağlam mühit var. O da Ocaqdır. Bax, Ocaq sağlam gələcəyin sağlam özəyidir...

Eləcə də taktiki mənada ölkənin içi, yönü. Nə qədər ki, bizim dövlətimizin, hakmiyyətimizin başında duranlar oyun oynadı, nə qədər ki, bir əli talançılıqda oldu, bir əli xalqın başında qapaz oldu, dövləti dövlət kimi qura bilmədi, dövləti dövlət kimi qoruya bilmədi. Elə acınacaqlı durumda qalmışıq ki, bu gün can hayında olan, ölüm ayağında olan Rusiyaya hələ də boyun əyir, qurbanlar verir hakimiyyətimiz. Bizi Avrasiya ittifaqına çəkir, sovet quruluşu kimi bir şey yaradaq, Avropanın gəlişindən, qamarlamasından, soyub aparmasından bir yerdə sığortalanaq, gizlənək deyir guya. Bizimkilər gedər ona, ən azı özünü qorumaq üçün, sərvətini qorumaq üçün. Amma bu

yandan da Avropa təhdid edir... O qədər adiləşib, asanlaşıb ki. Bircə kəlmə deyir, içində hakimiyyət çevrilişi ehtimalı yüksəlir. Vəssalam. İndi iki yana bax, görüm gözün qabağını necə görəcək?! Görməyəcək. Belə bir durumda hər kəs başını itirib. Nə dövlət ümid vermir topluma, nə dövlətin başında duranla mübarizə aparan yoxdur. Heç nə ümid vermir. Ona görə deyirəm ki, yeganə sağlam toxum var, o da Ocaqdır. Ocaq siyasi mənada güc deyil. Bizdən asılı deyil çox şeylər. Biz onu bacarmarıq. Onu bacarmaq üçün gərək əvvəldən ömrümüzü ona verək. Minlərlə insan toplayaq. Bu Ocağın işi deyil. Amma buna baxmayaraq, o xəttin özündə belə dirçəlişin, bərpa olunmağın özülü, özəyi yenə də Ocaqdır. Ona görə biz çağıranda ki, Asif Atadan yapışın, Onun ideyaları böyük imkandır, bəlağətə yol vermirik. Biz həqiqi çağırış edirik. Xilas budur. Ona görə də yaşasın Ata!

Sözümü bitirirəm.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız Var olsun!

Atamızın bayrağını öpürəm və ona səcdə qılıram.

**Elana Atalı** Ataya Səcdə ilə sözünə başladı: Doğrudan da, cəmiyyət içinə çıxanda dünyanın nə günə qaldığını adam görməyə bilmir. Bayaq qonşuya da deyirəm ki, dünya bir-birini yeyir. İnsanlar bir-birini yeyir. Belə halları gördükcə öz dünyam, ayrı bir dünyam olduğunu görürəm və sevinirəm. Yaxşı ki, mənim ayrı dünyam var. Həm maddiyyat, həm insanların bir-birinə münasibəti, həm içlərinin çirkinliyi insanları məhv edir.

Bu günlərdə içimdən belə bir fikir keçdi yaxın bir insan haqqında. O insan heç vaxt, deyərəm ki, ömründə bir dəfə zümzümə eləməyib, oxumayıb. Oxumaq insanın içini nə qədər gözəlləşdirir. Adicə bir zümzümə eləmək insanın içini gözəlləşdirir. İnsan öz içindən gözəlləşəndə, öz içindən saflaşanda onun həyatı da gözəlləşir. O insanın həyatı gözümün qarşısındadır. O insan nə qədər zəhətkeşdir, nə qədər çalışır ki, yaxşı yaşasın. Amma yaxşı yaşaya bilmir. Çünki içi azad deyil. İçi heç nəylə dolmayıb. Gözəlliklə içi dolmayıb deyə, bütün həyat ona qaranlıq görünür. Həyatdakıların heç biri onu təmin etmir. Mən də həyatdakıları görürüəm. Çatışmamazlıqlar son dərəcədə artıqdır. Həyat, doğrudan da, məhv olur. Amma məhv olan həyatda özümü təmiz hiss

edirəm. Çünki insan içini o şərdən, o pisliklərdən azad eləyəndə azad yaşayır. Bu azadlıq hələ ki ancaq Ocqçıların ömründədir. Atadan gəlir. Mütləqə İnamdan gəlir. Atamız Var olsun!

**Soylu Atalı:** Doğru bir ifadə işlətdin ki, insan tanıyıram ki, səhərdən axşama zəhmət çəkir, ancaq xoşbəxt deyil. Deməli, zəhmət insanı xoşbəxt eləmir. Mənəviyyat xoşbəxt edir. Zəhmət o vaxt gözəldir ki, o zəhməti həyata keçirən mənəviyyat olur. Kor istəklər olmur, küt niyyətlər olmur...

***Müqəddəs Oxuma:*** *Göylü Atalı X Qutsal Bitiqdən ("Hüquqdan Haqqa") "Haqq" Kitabının davamını oxudu və bitirdi, yığcam şərhlər, təhlillər edildi.*

*Ailə Gününə ruhani hədiyyələr təqdim olundu – "Türkdən başlayan Yeni Bəşər İnamı" kitabı, tədbir disqləri, paylamaq üçün Ocaq yazısını əks etdirən qəzet nüsxələri və b.*

*"Ata Ruhunu ürəyimizdə aparırıq!",*

*"Atamız Var olsun" səcdəsiylə Gün başa çatdı.*

*Tədbirdən sonra Amal Bağı, Atanın ilk üz qoyduğu torpaq ziyarət olundu, İnam Evində səfərlə bağlı ziyarət sözü deyildi.*

***Qürub Ayı, 36-cı il. Atagün.***
***(avqust, 2014. Örənqala).***



**Asif Atanın – İnam Atanın**
**Mütləqə İnam Ocağı**

**“Uluyol-Hünər”, “Ulufərəh” və “**
**Atagün” Ailələrinin**
**36-il, Ata Ayında birgə VII Aylıq**
**Mərasiminin Gedişatı**

**Yer:** İnam Evi;
**Tarix:** 24 Ata Ayı, Dözüm Günü;
**Başlanır:** saat 19.00
• Oda Mərasimin Ruhuna uyğun hazırlanır. Gül-çiçək, yazmaq üçün texniki vasitələr təşkil olunur. İşə sorumlu Üstün Atalıdır.
• “Ata Ruhuna pənah gətirmişik!” səcdəsiylə tədbir başlayır.

**Mərasimin qonuları:**
1. Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı;
2. Hər kəsin öz yörəsində ruhani mühiti və bu mühitə bağlı Ocaqsevərləri varmı? Onlarla vaxtaşırı görüşüb iş apara bilirmi?
3. Hər yerdə topluma Atanın İnamını demək və toplumun yanlış dünyagörüşünün üzərinə getmək cəsarətinə nə dərəcədə yetmişəm?

**Müqəddəs Oxuma:** “Yol” kitabından “Bugünə münasibət”, “Sabaha münasibət” bölümü oxunub şərh edilir.
*Sonda iştirakçıların mövqeləri dinlənilir və suallarına cavab verilir.*
*“Ataya Axşam Ricası”nı və “Dünyadakı Mütləqlə Axşam Təması”nı* Günev deyir.

“Ata Ruhunu ürəyimizdə aparırıq” səcdəsiylə Gün başa çatır.

***Gün’ün Carı:***
***Ruhani Mühitimizdən böyük Dünyamız yoxdur!***

*Gedişatı yazdı:* **Soylu** ***Atalı***
*Ata Ayı, 36-il. Saray-Soylu.*

## **“Uluyol-Hünər”, “Ulufərəh” və “Atagün” Ailələrinin birgə “Ailə Günü” toplantısı**

*Ocaq Günsırası ilə 24 Ata Ayı, 36-cı ildə İnam Evində “Atagün”, “Uluyol-Hünər” və “Ulufərəh” Ailələrinin birgə “Ailə Günü” mərasimi keçirildi. Öncə İnam Bayrağı qaldırıldı – hamı səcdə duruşunda“Ata Ruhuna pənah gətirmişik!” dedi və mərasimə açılış edildi. “Uluyol-Hünər” Ailəsinin Yükümlüsü* ***Nurtəkin Atalı*** *Ataya səcdə ilə sözünə başladı:* Hesabatıma ümumi başlayım. Öncə öz halımdan, əməllərimdən danışmaq istəyirəm. Ay ərzində, demək olar ki, hər gün Ocaq işləri görmüşəm.Bilgisayarım həmişə açıq olur. Vaxtaşırı işlərimizdən görürəm. Atanın kitabının düzəlişini edib çapa hazırlamışam. Son Tədbirlərdən birini kitablaşdırmışam. Ümumi “Tədbirlər kitabı”nı hazırlamışam (Mərasimlər və Bayramlar kitabını).

Amallaşma işimə gəlincə, konkret Atanın hər hansı bir kitabının üzərində işləməmişəm. Ayrı-ayrı düşüncələrim olur, əlbəttə. Amma məqsədyönlü amallaşma işinə vaxt ayırmamışam. İşlərin çoxluğundandı. İşlər üst-üstə gəlir, özümü kökləyə bilmirəm ki, bir saatımı məhz Amallaşmaya ayırım. Yalnız “Ailə Günü”nə son bir gün qalmış düşünmüşəm ki, köklənim, hazır olum. Hər mərasimin öz halı var, “Ailə Günü”nün də xüsusi halı var. Ona görə də hazırlaşmağımdan, əlbəttə, razı deyiləm. Amma “Ailə Günü”nə gəlmək və burda hesabat vermək həmişə mənim Ocaqçı məsuliyyətimi artırır.

Burdakı mövzular üstündə danışmaq istəyirəm. Burda elə mövzular qoyulub ki, bu əslində bizim həyat təzimizdir. “Hər kəsin öz yörəsində ruhani mühiti və bu mühitlə bağlı Ocaqsevərləri varmı? Onlarla vaxtaşırı görüşüb iş apara bilirmi?” Mən bununla bağlı, çox təəssüf ki, keçmiş vaxtdakı kimi danışacam. Çünki indi mənim vaxtımın məhdudluğu ona gətirib çıxarır ki, məhz səfərlərüstə iş aparmağa imkan tapa bilmirəm. Mən yalnız bəzi Ocaqla ilgilənənləri tədbirə dəvət edirəm və ara-sıra internetdə yazışmalarım olur. Doğrudur, mən texniki cəhətdən Ocaq işləri çox görürəm, bir az Ocaq yazarlığıyla da məşğul oluram. Bu da fərəhlidir. Amma məhz xalqlaşma işimin ciddi olmaması mənim fərəhimi yarımçıq edir. Mən görürəm ki, halım bütöv olmur. Hər bir Ocaqçı, məsələn, Üstün səfərdən hesabat verir. Soylu Atalının görüşləri

olur. Mənim içimdə o həsrət var. Bilirəm ki, xalqla görüş, Ocağı vermək, danışmaq, bölüşmək nə deməkdir, onun fərəhi nə deməkdir. Onun məsuliyyəti və yükü nə deməkdir. Bax, mən ona ciddi həsrət hiss edirəm. Dediyim kimi, bu yöndən hələ həsrətimi gerçəkləşdirə bilmirəm. Vaxtilə mən redaksiyalara gedirdim, orda halımı soruşanda mən ancaq Ocaq işlərimdən danışırdım.

Hər kəsin öz yörəsində ruhani mühitinin olması nə deməkdir? Mən özümlə döyüşürəm. Halımı ətrafdakılarla bölüşürəm. Ocaq əməllərimi bölüşürəm. Yəni mən öz üzərimdə işləyirəm ki, o düşüncəmi, o işimi bölüşüm. Özü üzərində işləməyəndə bölüşməyə də bir şey olmur. Belə olduqda görülən işlər adamın ağlına daha yaxşı çatır.

İkinci mövzu ki, "Hər yerdə Atanın İnamını demək və toplumun yanlış dünyagörüşünün üzərinə davamlı getmək cəsarətinə nə dərəcədə yetmişəm?!". Mən keçən "Ailə Günü"ndə istəyirdim qorxu duyğusu haqqında danışam. Son vaxtlarda özümü hərtərəfli təhlil eləmək istəyirəm. Atanı oxuyanda Atanın bir fikrinə rast gəldim: "qorxu, həsəd, şəhvət... bunlar insanda instinkt şəklində olur və instinkt kimi gəlir ilk gələn duyğu"... Mən özümü təhlil eləyəndə də görürəm, bəzi şeylər var ki, hər hansı bir hadisəni ilk eşidəndə, ilk xəbər tutanda halımda ilk hissim "qorxu" olur. Bir hadisə demək istəyirəm. Vaxtilə bunu Soylu Atalıyla bölüşmüşəm. Mən Şəki bölgəsinə səfərə gedəndə orda belə bir məqam oldu. İnstitutda görüş keçirdim tələbələrlə. Görüşün sonunda məni sorğu-suala tuta-tuta ötürdülər. Mənə rəğbət bəsləyənlər də oldu, qarşı çıxanlar da. Amma mühit elə idi ki, sanki üstünlük mənim tərəfimdə idi. Mən həmin gün Şəkidə qaldım. Səhərisi gün mənə zəng elədilər, dedilər ki, bəs siz instituta yenə gəlin, sizinlə görüşmək istəyirik. Mən getdim ora. Dünən mənim görüş keçirdiyim bir qrup tələbə, dinçi uşaqlar məni çağırdılar ki, söhbət eləsinlər. İnstitutun yeməkxanasında biz söhbət elədik. Böyük yer idi. Tələbələr vardı orda. Orda elə bir məqam oldu ki, onların hamısı mənim üstümə yeridilər. Bir oğlan vardı, o daha çox qızışıb danışırdı. Ayaq üstə durub mənim üstümə yeriyirdi. Mənim xalqlaşma işimdə qorxu ən çox o məqamda olub. Mən gördüm ki, artıq elə bir səs-küy yaranır ki, qıraqdakıların da diqqətini çəkirik. Mən onları sakitləşdirdim. Dedim ki, bura bizim söhbət edəcəyimiz mühit deyil. Mən vəziyyətə uyğun hərəkət elədim.

Gördüm ki, söhbət eləmək mümkün deyil. Onlardan ayrıldım... Bu halı indi də özümçün təhlil edirəm. Orda iki məqam yarana bilərdi. Ya Soylu Atalı kimi haray çəkməliydim, onları otuzdurmalıydım. Ya da ki, elə bir müdrik və sabit əhvalla yenə də onları sakitləşdirib hal yaratmaq gərək idi. Müdriklik tələb olunurdu. Mən nə o hala yetmişdim, nə də bu hala. Sadəcə durumdan uzaqlaşdım. Bildim ki, idarə edə bilməyəcəm bunları. İndiyədək çox olub Soylu Atalının görüşlərində bizə qarşı çıxanlar. Qıraqdan dinləmək, Soylu Atalının harayını eşitmək başqadır, amma məhz o halın özünün içinə düşəndə görürəm ki, məndə qorxu var. İndi o qorxunu xalqlaşma işində görmək istəyərdim ki, nə dərəcədə ötmüşəm. Kükrəyən kütləni nə dərəcədə sakitləşdirməyə, nə dərəcədə haray çəkməyə yetmişəm? Ondan sonra mənim elə bir görüşüm olmadı. Ancaq bugünkü səviyyəmlə fikirləşirəm ki, indi qorxmalı heç nəyim yoxdur. Bunu sübut etməliyəm, özümü çox məqamlara hazırlamalıyam. Çox ciddi məsələdir bu.

Adam bilməzlikdən qorxur. Qarşıda onu nə gözlədiyini bilmir. Ona görə də hadisəylə qarşılaşanda ilk instinkt qorxu olur. Halın sabitliyi – ruhun – İnamın, İdrakın, Mənəviyyatın, İradənin sabitliyidir. Özümə inanıram, qorxuma inanmıram. Bunu özümə hər dəfə deyirəm. Qorxu gələndə ancaq qorxu olur, mən olmuram. Hər şeyə hazır olmaq haqqında düşünürəm. Ata deyir ki, köklənməyən alətdə çalmazlar. Həmişə kökdə olmaq sabit, dayanıqlı hal deməkdir. Bax, məhz özünə inamın sabitliyi, iradənin sabitliyi, dayaq, elə bir təməl qurulmalıdır ki, ruh elə bir dayaqda, elə bir kökdə olmalıdır ki, məhz o həsəd gələndə, qorxu gələndə, şəhvət gələndə, o instinktiv duyğular gələndə təsir eləyə bilməsin. Yaxud da gəlməsin. Gəlməsin deyəndə ki, gələ bilər, amma onu tənzimləsin, dəf eləsin. Bu mövzu haqqında belə düşünmüşəm.

Bir neçə yazım var, onları oxumaq istəyirəm:

***xxx***

Quruluş dəyişəndə mədəniyyətin, ədəbiyyatın, musiqinin qonuları da dəyişir. Əvvəlki ideologiyanı tənqid edir, ya da lənətləyir. Halbuki ədəbiyyat, mədəniyyət, musiqi ayrıca hadisədir. Hansısa ideologiyaya bağlı olmamalıdır, həqiqəti təsdiq, şəri tənqid etmək görəvi daşımalıdır. Təəssüf ki, mədəniyyət asılılıqdan çıxmayıb.

Qəlibçi mədəniyyət deyil, həqiqətçi mədəniyyət yaratmaq gərəkdir.

Bunu ona görə yazdım ki, əvvəllər biz fərqli böyümüşük. Sovet ideologiyasını təbliğ eləyən filmlər çəkilərdi. İndi isə məhz inqilabı pisləyən filmlər çəkilir. Yəni quruluş dəyişib, sovet inqilabının iç üzü açılıb, başlayıblar inqilaba qarşı filmlər çəkməyə. Yəni bir dövrdə bu cür çəkirlər, bu cür ədəbiyyat olur, başqa bir dövrdə başqa cür.

***xxx***

Dünyada əzilənlər çoxdur, əzənlər az. Əzənlər özlərini güclü sayır. Çünki əzilənlərin birliksizliyinə, iradəsizliyinə, inamsızlığına əmindir, arxayındır. Əzilənlər birləşsələr əzənləri yıxarlar. Ancaq onlar özlərinə əzənlərin gözüylə baxır. Ona görə də bir olmaq haqqına yetmək haqqında düşünmürlər. Həm də gərək haqq nədir, onu da biləsən. Gərək haqqa yetəsən ki, qorunasan.

***xxx***

Qərb filmlərinin təməl xətti xaotik dinamizmdir. Hərəkətlər bolluğu, hadisələr bolluğu düşünməyə imkan vermir. Uşaqlar üçün çəkilən cizgi filmləri də robotlaşır, dinamikləşir. Məqsəd seyrçi toplamaqdır. Düşündürmək, bəhrələndirmək deyil. Məqsəd düşüncəsizliyə alışdırmaqdır.

***xxx***

Məmur özündən aşağıdakıları əzir, onlara soyğun, azğın, aşağılayıcı münasibət bəsləyir. Özündən yüksək vəzifəlilərdən qorxur. Yüksək vəzifəlilər aşağı vəzifəliləri əzir, onlara soyğun, azğın, aşağılayıcı münasibət bəsləyir. Zəif dövlətlər güclü dövlətlərdən qorxur. Beləliklə, qorxu təbəqəsi yaranır. Bütün münasibətlər qorxuya dayanır.

***xxx***

Həyat adama öyrədir ki, xeyirdən ziyan gəlir, şərdən mənfəət. Buna görə də şər məqsədləşib.

***xxx***

İmperiya o deməkdir ki, ölkəni əsarətə salır, işğal eləyir, sonra işğal etdiyi günü həmin ölkəyə bayram elətdirir. Hətta həmin günü ölkənin yaranma günü kimi də qəbul elətdirir...

Mənim bu ay üçün hesabatım bu qədər. Ocaq işlərim yenə də davam eləyir. Özümlə daha ciddi məşğul olmaq, düşüncələrimi yetkinləşdirmək, xalqlaşma işimi artırmaq qətiyyətindəyəm. Səfərlərə getmək,

bunu Bakı şəhərində də eləmək olar. Atanın tələbi – Amallaşma, Kamilləşmə, Xalqlaşma hamısı bir yerdə, ömrümə daxil olmalıdır.

Atamız Var olsun! Bayrağımızı öpürəm.




**Günev Atalı:** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali səcdəylə!

Söz deməmişdən öncə Bayrağımızı öpürəm.

Bugünkü "Ailə Günü"müzün məğzi, mənası hər birimizə aiddir. Asif Ata Ocağı Ailələrdən ibarətdir. Bizim "Atagün" Ailəsinin Evladları Soylu Atalı – Ocaq Yükümlüsü, Amaldaşım və həyat yoldaşım Elana və mən Beyləqanda Atagün Elində bir Ailənin Evladlarıyıq. Bu gün üç Ailənin birlikdə "Ailə Günü" toplantısıdır. "Ailə Günü"ndə hesabatlarımızı veririk. Ay ərzində nəyə nail olmuşuq, ruhani ugurlarımız nədən ibarətdir?! Bir də ki, qoyulan suallar, o suallara cavab öz düşüncələrimizdə bizi yeni bir mərhələyə aparır.

Mən Amallaşmağımla bağlı hesabat vermək istəyirəm. Nə öyrənmişəm Asif Ata irsindən bu ay müddətində?! "Qutsal Öyrənim Günü"ndə məktəb səviyyəsində Asif Ata irsini öyrənirik. Hər dəfə şəhərə gəlib bu tədbirdə iştirak edə bilmədiyim üçün həmin hesabatımı məhz Ailə Günlərində verirəm. İki mövzunu – "Gözəllik" və "Xeyir"

mövzularını düşünmüşəm, özümləşdirmişəm, bunları yığcam şəkildə yazmışam. Mən bütünlüklə "Mütləqə İnam"ı həmin yığcamlıqla ardıcıl yazıram. Gələcəkdə bu yığcam sistemləşdirmədən yararlanıb "Mütləqə İnam"ın məzmununu qısa bir müddətdə oxuyub öyrənmək mümkündür. Burda Gözəllik haqqında yeni meyarlar, Xeyir haqqında yeni meyarlar məni o qədər fərəhləndirir, o qədər açır ki, bunu hər kəsə çatdırmaq, oxutdurmaq istəyirəm. Yığcamlaşdırıb hazırladığımı sizə də oxumaq istəyirəm...

*(Günev Atalı "Mütləqə İnam" Bitiqindən "Gözəllik" və "Xeyir" izharlarından özümləşdirdiyi fikirləri oxudu* - *G.A.)*

İkinci, Kamilləşməyim haqqında. Mən hərdən fikirləşirəm ki, niyə mənim ömrüm bu qədər çarpışma ilə keçir?! 25 il elə belə ömür deyil. Yəni bəlli ideyanın ardınca 25 il gedəsən, düşünəsən, Asif Ata kimi bir ideya yaradıcısını davam edəsən, ancaq bunlar həm də özümü təmin eləməsin. Əgər doğrudan da buna həyat baxımından yanaşmaq mümkün olsa idi, deyərdim ki, təmin eləyir, ancaq Mütləqçi baxışıyla yanaşanda təmin eləmir. Çox düşünmüşəm ki, nəylə bağlıdır bu? Gəldiyim nəticə odur ki, özüylədöyüş ardıcıllığı yoxdur. Ümumi mənada özüm özümün nəzarətimdəyəm. Eyni zamanda cəmiyyətin nəzarətindəyəm. Məndə hər hansı bir nəsnə tapan kimi, sən də beləsən deməyə haqqı var. Təbiidir ki, hələ cəmiyyətdə mənə qarşı elə bir fikir yaranmayıbdır. Çünki özüm özümü cəmiyyətdən daha yaxşı görürəm. Vicdanın gözüylə baxıram. Amalın tələblərinə uyğun baxıram. Mütləqçi kimi baxıram. Buna görə də, özüylədöyüş ardıcıllığı hər anda mənə gərəkdir.

Xalqlaşma işində də uğurlarım var. Səfərlərim olub. Beyləqan rayon Mərkəzi Kitabxanasına getmişəm. Orda işçilərlə söhbətlərim olub. "Türkdən başlayan Yeni Bəşər İnamı"nı onlara təqdim eləmişəm. İkinci səfərim Baharabad kəndinə olubdur. Orda Məhsəti türkləri yaşayır. Xeyli vaxt öncə bir tanışla söhbət eləmişdim. Nəsə o çəkilmişdi qırağa. Yenidən getdim onun ardınca, söhbət elədik. O da heyrətini bildirdi ki, doğrudanmı bu qədər vaxtda sən bu işi hələ də davam eləyirsən. Deyirəm, biz çox uzaq deyilik axı, eşidə bilərdin. Bu hadisələr qulağının dibində baş verib. Atanın dəfni baş verib, sonra nələr nələr... O da dedi ki, eşidirdim. Amma bu dərəcədə bilmirdim. Ona yeni kitab, özəl buraxılışlar verdim.

Fərdi görüşlərim çox olubdur. Kənd mühitində hər hansı bir məsələyə münasibətdə Ocaq gözüylə yanaşıram, Ocaqçı münasibətimi bildirirəm. Təbii ki, diqqət yaranır.

Hesabatım bu qədər. Burda qoyulan suallara qarşı münasibətim desəm ki, kənddə konkret bir Ocaq mühiti var, elə deyil. Ancaq ümumilikdə bütün bölgədə, buna Ocaqçılar şahiddirlər, xüsusilə Soylu Atalı şahiddir, – bütün bölgədə bu mühit yaranmaqdadır, yaranır da. O mühit yox deyil. Amma konkret on nəfərlə, ya beş nəfərlə vaxtaşırı yığışırıqmı, danışırıqmı, təbii ki, o səviyyədə deyil. İnanıram, o işləri ki, biz başlamışıq Atagün Elində, İnam Məbədinin tikintisi, Amal Bağı, bunlar davamsız ola bilməz. Mümkün deyil. Heç bir qüvvə, inanmıram ki, onun qarşısını ala biləcək. Mən ona yiyə dura biləcək şəxsiyyətlər də görürəm. O da var. Amma gözlədiyim adamlar hələ özlərini yaratma işində Mütləqçi yönündə deyil. Amma heyrət var, istək var. Mən inanıram ki, o davam edəcək. Yəni Günev Atalı getdi, elə Asifçilik də qaldı orda yalın – belə olmayacaq.

O ki qaldı camaatla təmasımda cəmiyyətin köhnə dünyabaxışından çəkinirəmmi? Mənə elə gəlir ki, bu mənim ömrümdə çoxdan həllini tapmış bir şeydir. Qətiyyən yer yoxdur. Heç nə narahat eləmir. Hər hansı qorxumu deyim, narahatçılıqmı deyim, istehzalı baxışlardan çəkinməkmi deyim, o mərhələni keçdim getdi. Maneələr hər vaxt olacaq. Dünyada elə bir yenilik yoxdur ki, o maneəylə rastlaşmasın.

Mən fikrimi bitmiş hesab eləyirəm. Hesab eləyirəm ki, bu ayım mənalı və zəngin olub.

Son dövrlərdə zəngin olmayan ayım yoxdur. Çünki evindən çıxdın, darvazadan çıxdın, artıq həmin münasibətlə qarşılaşıram. İş gedir, söhbət gedir.

Milli Təhlükəsizlik idarəsi tərəfindən haqqımda bütün ətraf kəndlərdə sorğu keçirilib. "O müqəddəsdir" deməyən qalmayıb. Hətta narazılar belə. Hətta bəziləri "O, çox düzgündür, amma heyf ki, bu yola düşüb" deyir. Yolu qiymətləndirmək gücü yoxdur. Bunun yaxşılığı varsa, elə bu yoldandır da, bu dünyabaxışdandır.

Bu gün səhər Bakıya gələndə Bakı Dövlət Universitetində dərs deyən bir müəllimlə söhbət elədim. Özünü millətçi sayırdı. Dünyabaxışı da islamçı. Deyir "kaş mənim kimi Azərbaycanda beş faiz millətçi olaydı".

Mən belə türkçülüyü başa düşmürəm dedim. Sən təpədən-dırnağa özgəçisən, ərəbçisən, özün də deyirsən türkəm. Hanı sənin türk dəyərləriylə özünü yaratmağın, düşüncələrin? O, onda artıq susdu, dedi ki, bağışla, deyəsən mən bu məsələləri nəzərə almamışam. Yəni belə-belə hər addımımız, hər anımız Ocaqlaşmaq, xalqalşmaq olur. Həmişə deyirəm, indi də deyirəm, özümü çox xoşbəxt sayıram. Ocaqçı düşüncəsinə bağlı olmayan vaxtım olmur. Atamız Var olsun.



**Göylü Atalı:** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə!

Əslində mən bu gün yox, sabah danışmaq istəyirdim. Nəyə görə? Nədənsə mən bu əhvalı hələ də ötə bilmirəm. Mərasim öncəsi gərginlik çökür halıma. Hər dəfə çalışıram ki, mərasimi sakit qarşılayım. Bəlkə də yaxşı bir gərginlikdir. Hər halda bilirəm ki, məsuliyyətdən irəli gəlir.

Mənim də ay ərzində deyə biləcəyim Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatım var. Sistemli hazırlaşmadığıma görə nəticələri deyəcəm.

Amallaşmam – Atanın "İçdən Yaranma" Bitiyini oxudum. Həm də Dostoyevskini oxuyuram, müqayisə aparıram. Dostoyevskidə çox güclü

təsvir etmə qabiliyyəti var. Adamlığı duymaq, göstərmək qabiliyyəti çox güclüdür. Amma müqayisə aparıram, Atanı oxuyanda adam ruhən yüksəlir, doğrudan da, dəyişmək istəyirsən, artmaq istəyirsən. Amma Dostoyevskini oxuyanda mənə elə gəlir ki, əhvalımı geri çəkir. Əlbəttə, yenə də oxuyuram onu, bəhrələnirəm. Ata isə dəyişir insanı.

Dəyişmə demişkən, mənim bu ay içdən dəyişmələrim var. Yenə mən nəticələri deyəcəm. Vüqarımda təzələnmə oldu. Eləcə də Amal eşqimi, Amal təpərimi bu ay yenidən özümə qaytardım. Ay ərzində, demək olar, hər gün özümü mərasimə kökləmişəm. Hər gün də oyananda ilk dediyim o olur ki, bu gün Ocaqla bağlı neyləyəcəyəm. Qarşıma məqsəd qoymuşam. Ayın 15-dən bu yana hər gün nəsə eləmişəm. Ocaqla bağlı hər gün addım atıram. Bir neçə məktəblərdə oldum. Onlardan üçündə təhsil şöbəsinə göndərdilər. Birində Sərt Ayında geniş görüşə söz verdilər. Ocaqla bağlı təxminən 15-20 dəq. söhbət elədik. Ocağın hal-hazırda qurum kimi necə yaşadıldığını soruşdu. Soylu Atalının adını eşidən kimi oxumuşam onun yazılarını dedi. Ordan çıxanda içimdə fərəhli bir əhval var idi. Cağın təsiri görünür.

Jurnalla bağlı addımlar atmışam. Sənədləşmə işi tam yekunlaşmaq üzrədir.

Burdakı mövzulara da toxunum. Mövzu belə qoyulub ki, "Hər kəsin öz yörəsində ruhani mühiti və bu mühitlə bağlı Ocaqsevərləri varmı, onlarla vaxtaşırı görüşüb iş apara bilirmi?" Mənim Ocaqda özümü tanıyandan belə bir problemim var. Səfərlərə gedirəm, kütləvi görüşlər keçirmişəm. Bir də var insanlarla fərd-fərd görüşüb onların ruhunu böyütmək, ağlını, ürəyini böyütmək. Bu, məndə alınmayıb. Bunu özümçün qüsur hesab eləyirəm. Deyim ki, ağlımın gücü çatmır, o deyil. Mən bələdəm özümə. Bunu aydınlaşdırmağa çalışıram. Bu hardan irəli gəlir? Təkliyə çəkilməkdimi, biganəlikdimi? Özümə bu yöndə daim suallar verirəm, bu niyə belədir? Mənim olduğum mühit əsasən iş və evdir. İş mühitimdə hər kəs bilir kim olduğumu. Hər kəs mənim dinə münasibətimi də bilir, inancımı da, mövqeyimi də. Bunu bilirlər, amma mənim onlara təsirim daha çox əhvalımladır, davranışımladır.

İkinci mövzu: "Hər yerdə topluma Atanın İnamını demək və toplumun yanlış dünyagörüşünün üzərinə getmək cəsarətinə nə dərəcədə yetmişəm". Mən özümdən qəti arxayın idim ki, qorxunu ötmüşəm.

Qardaşımla bağlı olaylardan sonra (Ocaqçılar bilirlər), o dönəmdə mən o duyğuyla çox görüşmüşdüm. Nəhayət, dedim ki, deyəsən mən ötmüşəm bu duyğunu. Sonuncu dəfə Günev Atalının anasının yas mərasimində olan hadisələrdən sonra bir də o sualı özümə verdim ki, doğrudanmı ötmüşəm? O suala Nurtəkin də cavab verdi, qorxuyla bağlı. Məndə durum belədir. Bilirəm ki, ölüm-qalım məsələsi meydana çıxsa, ya var, ya yox məsələsi meydana çıxsa, mən "var"ı seçəcəm. Qorxunun üstünə gedə bilirəm. Ancaq hər halda azadlığımı tam əldə eləmək istəyirəm ki, toplumun da üzərinə daha cəsarətlə gedim.

*( Bu arada Göylü ilə Soylu Atalının Göylünün halına yönəlik fikir bölüşməsi oldu – G.A.)*



**Güntay Atalı:** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə bayrağımızı öpürəm!

Mənim içimdə bir az tərəddüdlər var idi son 15 gündə. Metroda gələ-gələ düşünürdüm, burda yazılanlar beynimdən keçdi. Cəsarətə yetə bilmişəmmi? Burda hesabata başlayanda, Göylü bacım demişkən, nəsə insanın üzərində bir basqı olur. Bu da nədən irəli gəlir? Cavabı bəllidir

mənim özüm üçün, hələ içimdə söz (Ocaq Sözü) demək sistemli oturuşmayıb.

Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatım. Amallaşmamda Atanı oxuyuram. Oxuduqlarım ağlımdan çox halıma çatır. Atanı böyük bilirəm. Atanı qüdrət bilirəm. Atanın ideyasını yol bilirəm. Yeganə yol bildiyim üçün mənə qanad verir. Bacardığım qədər çalışıram ki, Amallaşma yönündə əhvallar sərgiləyə bilim. Özüm də sonra görürəm ki, bu məndə heç də yaxşı alınmır. Son 5 gündə özümdə elə şeylər müşahidə eləmişəm ki. Hansı məqam məni öz təsirinə çəkə bilib, məni özümdən çıxarda bilir, məni ələ ala bilir, məni idarə edə bilir. Düşdüyüm vəziyyətə görə özümü qınayıram da. Bu da ondan irəli gəlir ki, içim kasaddır. Belə tərəddüdlərim var.

Ocaqda mən sonuncuyam. Fərəhli aylarım olubdur. Amma Ocağın tələbləri qarşımda açıldıqca ki, Ocaq nə istəyir, sən kim olmalısan – bu tələbləri qarşımda açıldıqca sabitliyim pozulur. 2-3 ay əvvəl mənə elə gəlirdi ki, artıq sabitəm, ziddiyyətsizəm, düz yola çıxmışam. Amma görürəm ki, yox, düz yola çıxmağa hələ çox varmış.

Öz ətrafımda mən mühit yarada bilmişəmmi? Hərdən mənə elə gəlir ki, evimdə hal yarada bilmişəm. Ən azı evimdə mühit yarada bilmişəm. Sonra elə şeylər olur ki, görürəm ki, yox, mən evimdə mühit yarada bilməmişəm. Son vaxtlarda Ocaq hansısa qurumlarla müqayisə olundu bizim evdə. Əməlli-başlı hidddətləndim, qəzəbləndim. Çox kəskin şəkildə etirazımı bildirdim. Mən özümü bilirəm, tanıyıram. Bilirəm ki, təsirə düşməmişəm. Sadəcə mən tapdığım həqiqəti tapmayıb evdəkilərim. Mən tapdığım işığı tapmayıblar evdəkilərim. Söhbət bundan gedir. Ona görə belə şeylər məni bir az hiddətləndirir. Sən Ocağı hər hansı siyasi təşkilatlarla müqayisə eləyə bilməzsən. Müqayisəyə də gəlmir. Belə şeylər var.

Mühitlə bağlı, məsələn, mənə işdə sayğılı olan iş yoldaşlarım var. Onlar bilirlər mən Ocaqçıyam, Asif Atanın Evladıyam. Mən bilirəm ki, özümə görə qüsurlarım nədir. Ancaq qıraqdan baxan insanlar bizi ya ideal, ya da ideala çox yaxın sayır. İş yoldaşlarımın sayğısını görürəm. Bu da Ocağın sayəsindədir...

Mənim mühit yaratmağım, mühitə söz deməyim özümü qane edəcək səviyyədə deyil. Mən özümə deyirəm ki, belə gediş kölgədə durmaqdır.

Lap Ocağın kölgəsində. Nəsə eləməlisən. Sən söz qoymalısan ortaya, daha ciddi əməl qoymalısan.

Hər yerdə toplumun yabançı dünyabaxışının üstünə gedə bilirəmmi? Əlbəttə, biz bütün dünyabaxışları, xüsusən də səmavi dinləri yanlış sayırıq. Bunu hər yerdə də deyirik. Amma mən gedə bilirəmmi? Mən bu yaxınlarda Mingəçevirə ezamiyyətə gedəsi oldum. Qayıdanda da kəndə gedəsi oldum. Hüzür yerlərini atam gəzməli idi. Belə bir adət var. Mən də atama yoldaşlıq elədim. Orda mən gördüm ki, hələ mən toplumun üzərinə gedə bilmirəm. Hələ ki, dişimə yem axtarıram. Qarşımdakı adam idraklıdır, idraksızdır deyə yox, sadəcə səviyyəsi nədir, ucadan danışmayaq, birdən diqqət cəlb eləyər. Bu hamısı yəqin qorxu duyğusundandır. Məndə yəqin ki, var. Yəqin ki, yox, var! Narahatçılıq keçirirəm. Bunlar da zaman-zaman yəqin ki, həllini tapacaq. Başqa yol yoxdur. Biz hansı yükün altında olduğumuzu bilirik. Bu mənim içimə çatıbdır...

**Üstün Atalı:** Mütləqim, Müqəddəsim, Ulu Peyğımbərim Asif Ataya – İnam Ataya ali səcdəylə sözümə başlayıram! Bayrağımızı öpürəm.

Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatım. Bu ay ömrümə gözəl bir ay kimi yazıldı. Çalışdım ki, yaratdığım halı bu ay da qoruyub saxlaya bilim. Keçən ay bölgələrdə oldum. Bu ay işimlə əlaqədar bölgələrə səfərə çıxa bilmədim. Bakıda oldum. Təzə kitablarımızı kitabxanalara təqdim elədim. Hətta birində təklif elədim ki, bir vaxt təyin edək, görüş keçirək. Müdir özü də istədi. O da dedi ki, baxmayaraq ki, mən kitabxana işçisiyəm, Asif Ata, onun ideyaları haqqında məlumatım yoxdur, elə işçilərin də. Yaxşı olar ki, belə bir şey təşkil edək. Həmin o görüş bu gün alındı. Yaxşı görüş oldu. Mən çoxdandır Soylu Atalının görüşlərində olmurdum. Özümçün müqayisə apardım – əvvəlki hal və indiki hal. Mövzuya necə giriş vermək, necə danışmaq. Özümçün nələrsə götürdüm. Orda xanımın biri bir az inkarçı mövqe sərgilədi. Soylu Atalı bütün suaalları cavablandırdı. Mənimçün bugünkü görüş çox xoş oldu.

Sonra mən özüm Sumqayıt kitabxanasına kitab verməyə gedəndə işçilərlə yığcam söhbət elədim. Onlar mənə arayış verəcəkdi, gözləyirdim. Özüm maraqlandım ki, sizə bu qədər kitablar gətirib veririk, onları oxuyan varmı? Söhbətdən bəlli oldu ki, nəinki Asif Atanın, təzə

gələn kitabların oxucusu çox azdır... Mən Şəkiyə gedəndə orda mənə dediər ki, bu kitabın yiyəsi filan adamdır. O, həmişə gəlib belə kitablar oxuyur... Mən də Sumqayıtda dedim ki, yəqin sizin oxucuların da içində elə adamlar var ki, belə kitabları oxuyur. Dedilər var. Mən inanıram ki, zaman-zaman bu kitabların axtarışında olanların sayı artacaq. Başqa çıxış yolu yoxdur.

Bir nəfərlə görüşdüm. Mən onu əslində Soylu qardaşımla görüşdürmək istəyirdim. Sosial şəbəkədən tanış olduğum Cavid adlı bir nəfərdir. Asif Atadan, Ocaqdan xəbəri var idi. Amma tam olaraq Atanın nə istədiyini bilmirdi. Onunla da yaxşı söhbət elədim.

Özümün ümumi halımı deyim ki, fərəhliyəm. Niyə? İşlədiyim mühitdə ətrafımda insanların çox adi, qarışıq halını görürəm, özümün bu haldan uzaq olduğumu görürəm. Bu mənim içimə bir fərəh gətirir. İnsanlar hər şey üstündə bir-biriylə intriqaya girir, mübahisə edir. Mənim ağlıma çatır ki, bunların hər biri ötəri, keçici hadisələrdir. Nəyinsə üstündə dava eləmək, bir-biriylə rəqabət aparmaq, artıq bu səviyyəyə enmirəm. İstəyirəm ki, ətrafımdakı insanlara da o yöndə təsir edim. Onların içində eləəri olub, mən insanlıqdan danışanda lağ ediblər ki, indi insanlığa kim baxır, həyatda əsas rol oynayan maddiyyatdır, puldur. Amma bu gün görürsən ki, həmin adamlar sözlərinin qarşısında aciz qalırlar, divara dirənirlər İnsanlıq olmayanda. Mənim də dediyim odur ki, insanlıq yoxdur ki, insanların bir-birinə münasibəti maddiyyatçılıq şəklindədir.

Gedişatdakı mövzuyla bağlı: Bir də bir məqamı demək istəyirəm. Həyət evimdə apardığım tikintiylə bağlı məni bir az narahat elədilər. Mən rəsmi adamla pul söhbəti eləməli oldum. Rüşvət verib işimi davam eləmək. Mən o məqama gedəndə düşündüm ki səhvmi edirəm, düzmü?! Bunun bir hüquqi tərəfi yoxmu, varmı? Məsləhətləşmələr elədim. Məlum oldu ki, proses uzana bilər... Mən nəyi qeyd eləmək istəyirəm? İnsanların, xüsusən də onun timsalında Azərbaycan kişisinin pul qarşısında bu qədər acizliyi. Mən özümü onunla danışanda kökləyirdim ki, əslində o mənim qarşımda alçalır, mən onun qarşısında yox. Onun qarşısında nə əzilmirəm, nə yalvarmıram. Mən ona pul verirəmsə, məcburamsa ki, işimi görüm, o mənim qarşımda alçalır.

**Soylu Atalı:** Belə söhbət gərək deyil. Bilirsənmi, bizim hədəfimiz kiminsə aşağı, alçaq olduğunu sübut eləmək deyil. Bu söhbət gərək deyil. Mən öz işlədiyim mühitdə rəhbərliklə mübarizə aparıram. Deyirəm ki, tələbkarlığını elə, amma Azərbaycan kişisini aşağılama. Hər yerdə, bütün müəsssisələrdə Azərbaycan kişisini aşağılayırlar. Ümumi Azərbaycan kişisi haqqında belə ifadələr gərək deyil. O özü-özünü aşağılayıbdır. Bu bir bəladır. Amma "mən ondan üstün oldum, ya o məndən aşağı oldu", belə söhbətlər gərək deyil. Bu, Ocaq söhbəti deyil. Xahiş edirəm, belə söhbətlər gələndə eləməyin.



**Əlisəfa bəy**: Bu Ocağın Yükümlüsü olmaq həyatda hansısa bir sahədə nəsə eləmək deyil. Bu mümkün deyil. Nə olursan ol, gərək bu işin gerçəyi, özəyi olasan. Həddindən artıq çətin işdir. Lamalar silaha yox demişdilər. Çin işğal elədi, hamısı kütləvi qırğına getdi, özlərini müdafiə üçün silaha əl atmadılar. Cəmiyyət başdan-başa bulaşıq, pırtlaşıq, Sədi Şirazi deyirdi, dünya zəncinin saçları kimi qarışmışdı. Bu günləri bu qədər sivilizasiyaların dialoqları içərisində, hərə ağzına, ağlına gələni danışdığı bir vaxtda durub təmizlik, "cənnət" ovqatı yaratmaq, o dünya mənasında yox təbii ki, həddindən artıq böyük yükdür. Asif Atanın kitablarında cəmiyyətin münasibətləri incədən incə

incələnib. Bütün o müqəddəs sifətlərin hamısına tərif verilib. Konkret olaraq, ruhani ucalığa yüksəlmək üçün də İnsan adının daşınması nə deməkdir.

Mənim kəndçilərim demiş, amma dərd bundan sonra başlayır. Tarixdə konkret şəxsiyyətlər olur ki, onlar cəmiyyətin düşüncə yönünü dəyişirlər, ehkamları dəyişirlər. Bundan sonra kim nə iş görmək istəyirsə, onların qoyduqları təfəkkürə, o ideologiyaya köklənirlər. O məcrayla gedirlər. Onlar öz sözünü deyiblər. Bizim tariximizdə Nizami Gəncəvi, Füzuli, ondan sonra uzun illər bu torpağın yiyəsi kimi, mən kiməm sualına cavab axtarıblar, bu torpaqda yaranmış o dövlətçiliyi yaradanlar Babək və s. İndi bax, bizim cəmiyyətimizdə bu Ocağın qalanması bu cəmiyyətə o səviyyədə stimul verəcəkmi? Məni maraqlandıran budur. Söz yox, mənə ləzzət eləyir. Mən də istəyirəm ki, cəmiyyət sizin istədiyiniz kimi olsun. Bunun formaları fərqlidir... Danışıqlardan belə anlayıram ki, konkret Günevin davranışını, yerişini, baxışını, təbəssümünü görənlər bəs eləyir ki, ondan öyrənsinlər. Ondan sonra Günev bu dünyadan gedəcək, bu duruşu, bu baxışı, sözsüz, o davranışı görənləri də tərbiyə edəcək özündən sonra illərlə. Məsələ burasındadır. Amma bunu kütləviləşdirmək, bayaq dediyim kimi, o boyda nüvəni ortaya qoymaq ki, cəmiyyət kütləvi şəkildə bu boyda ədaləti özlərində görə bilsinlər, anlaya bilsinlər. Buna köklənmək, bunu gerçəkləşdirmək çətindən çətin bir işdir.

Soylu bəy qalın-qalın kitablarını yazır, amma o boğazlar ki, onu keçirdə bilmirlər də, yemin keçməsi üçün də bir ölçü olmalıdır.

Hitler bir dənə əmriylə, deyək ki, Stalin bir dənə göstərişiylə cəmiyyətdə konkret qaydalar qoydu. Yəni gücün, zorun bir qayda kimi ortaya qoyulması həddindən artıq asandır. Bəşər də 30-40 min ildir ki, bu qoyuluşla formalaşıb gəlib. Bu günə gəlib çıxıb. Birdən-birə gətirib sən konkret sırf ruhani bir qayda ortaya qoymaq istəyəsən, bunun da yükünü çəkəsən...

**Günev Atalı:** Xoşbəxtlik başlamaqdır.

**Əlisəfa bəy:** Xoşbəxtlik bunun içində yaşamaqdır. Siz özünüz xoşbəxtsiniz ki, onun içində yaşayırsınız. Doğrudan ha. Yəni meşənin içində, səhranın ortasında, bu qədər arzuladıqlarının ətrafında olmadığı bir yerdə sən özünü onun içində görürsənsə, bu böyük xoşbəxtlikdir.

Əgər ruhani dünyanı görən insanlar gəlib burdan keçsəydilər, sizin bu ovqatınızı görsəydilər, sizə qibtə eləyərdilər. Siz nə qədər xoşbəxt adamlarsınız. Niyə? Siz uşaqlar kimi dupdurusunuz. Sizin içinizdə heç bir qərəz yoxdur. Acıq yoxdur. Deyək ki, Üstünün qarşılaşdığı bir həyat hadisəsindən danışdığı bir vaxtda o dəqiqə onun əlindən tutub saxlayırsan, yox, onu demə. Elə demə, bu cür deynən.

**Günev Atalı:** Məktəbdir də...

**Əlisəfa bəy:** Əgər bu Ocaqda sizlərdən çox olsaydı, bu Ocağa gələnlərin və bu cəmiyyətin daşıdıqlarının təfəkkür səviyyəsi elə bir irqin nümayəndələri olardılar ki, ondan sonra nə var idi ki. İndi çoxdan burdan köz-köz gəlib daşıyıb aparardılar. Yüzlərlə Ocaq qalanmışdı. Günəş boyda işıq var içərimizdə.

**Soylu Atalı:** Sizin bu söhbətiniz özü bir nəğmə kimi gəldi mənə. Çox sağ olun. Bu istək, bu görüm, bu arzular, kaş bu olaydı, o olaydı, həm müşahidə aparmaq, həm də bunu öz xalqının taleyinə arzulamaq, bu da bir nəğmədir. Bir qəlbdə də nəğmə belə çalınır.

**Əlisəfa bəy:** Və böyük hərflərlə sonda nida işarəsiylə "alqış" sizə.

**Soylu Atalı:** Əlbəttə, doğru müşahidədir. Asan bir iş deyil, olduqca çətindir. Ancaq eyni zamanda bu da bir məsələdir ki, mənim üçün Əlisəfa bəyin dediyi bu söz özü bir stimul verdi. Deyir 30-40 min ildir bəşər həyatı belə gəlib, zorun diqtəsiylə həyat axarına düşüb. İndi siz təsəvvür edin, bu özü gözəl bir şeydir. Deməli, 30-40 min ildir bəşərin başlamaq istədiyi, başlaya bilmədiyi bir işi Asif Ata gəldi başladı. Yəni bəşəriyyət indiyə qədər zor axarında həyatını qurub. İndi isə Asif Ata tamam ayrı bir şey istəyir. Nə vaxt bu hakim olacaq? Söz yox bu 3 ilin, 5 ilin söhbəti deyil. Amma bu başlayıb. Deməli, bəşəriyyət hansısa bir nöqtədə başlamalıydı. İnsana qarşı hansısa bir zor eybəcərliyini dayandırmalıydı. Ordan başlamalıydı. Asif Ata başlayıb. Biz onun ilk carçılarıyıq.

Çox sağ olun. Həqiqətən ağlıma bir işıq damcısı kimi düşdü. İnsanların bir yerdə olması ona görə lazımdır. Birgə fikir bölüşməsi ona görə lazımdır. Birdən sənin dediyin məndə, mənim dediyim səndə gözəl bir stimul yaradır. İfadə edə bilmədiyini ifadə edir. Sənin ifadə edəcəyin, doğrudan da, başqası üçün düşüncə qaynağı olur.

**Nurtəkin Atalı:** Bizim carımız burda öz yerini tapır: “Ruhani mühitimizdən böyük dünyamız yoxdur”. Bu elə bizim dünyamızdır, bir-birinə qovuşan...



**İnamlı Atalı:** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə!

Atanın bir tələbi var. Deyir, Ocaqçının Ocaqda 3 borcu var: Amalı öyrənmək, – Atanın həqiqətini, fəlsəfəsini öyrənmək, özünü öyrənmək və bu həqiqəti xalqla bölüşmək, xalqa vermək. Ocaqçının nə haqqı var ki, bildiyini xalqa verməsin.

Bu gün səhər tezdən Atanı oxumağa başladım. Ağlıma bir fikir gəlmişdi, onu aydınlaşdıra bilmirdim. Mən niyə Ocağa gələn kimi hər şeyi kortəbii götürdüm. Bu mənim cahilliyimdirmi, ya bəxtiyarlığımdırmı?! Mən həqiqəti görürəm, göydə tuturam. Bunu Ata deyibsə, qəbul edirəm. Bu mənim bəxtiyarlığımdır ki, həqiqəti görürəm, çək-çevir eləmirəm. Mübahisə etmirəm. İkinci də fikirləşirəm ki, bu gün islamın dünyada yayılmasının tək səbəbi insanların kortəbii axına qoşulub dini qəbul eləməyidir. Biz kortəbii istəmirik. Mütləqə

İnamımızı, fəlsəfəmizi öyrənək, öyrənməsək, qarşımızdakına onu yaşatmaq öyrədə bilməyəcəyik.

Atanı mən tam oxuyub qurtarmamışam. Təbii ki, öyrəndiklərim şeylər var. Ata deyir Mütləqə İnamı elə-belə öyrənmək yox, özümləşdirmək gərək. Mən fikirləşirəm ki, görəsən Mütləqdən o qədərmi uzağam ki, bəzən dilimə islama aid andlar gəlir. Mən içimdə özüm özümü söyürəm. Kaş ki, dilimdən "vallah" sözü yerinə "Ata haqqı" sözü çıxa. Mən onda deyəcəm ki, Mütləqçiyəm. Mən bu gün özümə dərində Mütləqçiyəm sözünü deyə bilmirəm...

...Mənim bir tanışım var, fizikdir. O sübut eləməyə çalışır ki, həyatda mütləq yoxdur, nisbi var. Mən də ona deyirəm ki, bizim inamımızın adı Mütləqə İnamdır. Ata deyir ki: "Mütləq bugündə nişanələriylə, əbədi sabahda bütöv mövcudluğuyla aşkara çıxan, nisbi hadisələrin daxilində yaşayan və onları özündən kənara çıxarıb özünə yaxınlaşdıran, Dünyaya, həyata, insana ali daxili qüvvə olan ruhani qüdrətdir." Müsəlmançılığa görə dünya Allah tərəfindən yaradılıb 6 gündə, hər şeyi də Allah yoluna qoyub.

Ata deyir ki, dünya yaradılmayıb. Dünya öz mənasından yaranıb. Əzəli, Əbədi, Sonsuz, Kamil mahiyyətə malikdir. Dünyanın dağılacaq, pozulacaq vaxtı olmayıb, olmayacaq. Nisbi ona görə var ki, Mütləq var. Mütləq olmasaydı, nisbi olmayacaqdı.

Ona görə mən Ocağa gəlmişəm ki, Atadan sonra Atanın yolunu davam elətdirim. Ötürüm məndən sonra gələn nəslə.

Mövzuyla bağlı deyim, mən əsasən məktəblərdə iş apara bilirəm. 3 ay yay müddətində zəmin yaratmışam. Mənim işdəki işim ikitərəflidir. Fiziki işimlə bərabər, ruhani iş də görürəm, həm də kim ki, məktəblərdə işləyir, söhbət edirəm, ünsiyyət qururam. Bir az içlərinə Ata közü atıram. Yəni demək istəyirəm ki, qorxudan uzağam...

**Azər bəy:** Mən Atanı institutda oxuyanda oxumuşam. Mən müsəlmanam və islam dininə sitayiş edirəm. Amma Atanın türkçülüyü məni valeh elədi. Mən ona inandım. Lev Tolstoy bütün Rusiyanı əsərlərində tənqid edib. Əziz Nesin ateistdir, ancaq Türkiyənin bütün problemlərini yazıb. Dediyim kimi, mən islama sitayiş edirəm, amma Atanın ideyalarını, Türk Dünyasını bütöv görmək istəyini qəbul edirəm. Ata uzun illər əziyyət çəkib, təzyiqlərə uğrayıb. Fikirləri gərəklidir.

Bizim bir müəllimimiz vardı, deyirdi ki, deyələr ki, xristian olaq hamımız, gedək Qarabağı işğaldan azad eləyək, mən ona razı olaram. Ateist olaq, amma Qarabağı işğaldan azad eləyək. Razı olaram onunla. Vətənpərvərlik ruhu budur. Mən Atada həmin ruhu gördüm. Onu başa düşəndən sonra başlayırsan oxumağa. Mən onun kamil oxucusu deyiləm, amma Atanın fikirləri mənimçün stimul yaratdı, mən düşünməyə başladım Babək haqqında, Nəsimi haqqında, Dədə Qorqud haqqında. Ən əsası türkçülük haqqında Atanın fikirlərinə valeh oldum.

***(Yasin Türksoy** Ocağa hədiyyəsini verdi. Bu "Duyğulu Könüllər" verilişinin disqdə görüntüsü idi – G.A.)*



**Yasin Türksoy:** Çoxdandır demək istəyirdim, sonərklə bağlı, Mütləqə İnamçıların "Ölügötürmə qaydaları" kitabda əks olunubdur. Burda tam quralın yerinə yetirilməsi A-dan Z-yə izah edilibdir. Ona görə də sonərkimi (vəsiyyətimi) bəribaşdan vaxtında bildirirəm. Mən, Yasin Türksoy, vəsiyyət edirəm ki, mən öləndə torpağa gömülməm tam Asif Ata Ocağının qaydalarıyla icra olunsun. İndidən deyirəm qoy yazılsın, bəlkə sabah başıma bir iş gəldi.

**Soylu Atalı:** Yaxşı eləyirsən. Ancaq hələ yaşa və yaşat! Xalqımıza qulluq elə. Cavansan. Ancaq sözünü də demək doğrudur. Ayrı-ayrı insanlarımız millət qarşısında öz mövqeyini ortaya qoymalıdır.

**Soylu Atalı:** Mən də hesabat verməliyəm. Mən "Atagün" Ailəsinin Evladıyam. Ancaq bu dəfə ənənəmizi pozacam, qısa, yığcam danışacam. Çünki vaxt baxımından axşamdır, gecdir. Sabah da bizim mərasimimiz var. Sabahkı mərasimdə biz daha geniş iş görəcəyik.

Bu gün Ocaq Ailələrinin birgə keçirdiyi qutsal "Ailə Günü"dür. Bir neçə fikir demək istəyirəm. Hesabat vermək istəmirəm. Mənim hesabatım qalır gələn tədbirimizə. Atamıza səcdə edib bayrağımızı öpürəm.

Ata ona görə deyib ki, Ailələr 3-5 adamdan ibarət olsun. Çünki 10-15 adam olanda onun hesabatı da uzun çəkir. İkinci bir tərəfdən bu Günün adı Ailə Günüdür. Tutaq ki, səhər saat 10-dan başlamalıdır axşam 6-ya kimi. Ata elə nəzərdə tutub əslində. Bu Ailə saatı deyil, Ailə Günüdür. Ayda bir gün Ailəçilər özlərinə ayırırlar. Orada fasilə edə-edə ardıcıl gün keçirirsən. Əvvəllər olub günün daha çox hissəsini Ailəyə həsr eləmək. Uzun illərdir, elə Atanın sağlığında da, bizdə Ailə Günü deyil, Ailə saatı olub. Yığcam deyirik, ümumiləşdirib deyirik.

Ailə Günüylə bağlı konkret hazırlaşmaq lazımdır. Yaşadığın ayı hazırlaşıb yığcam, aydın hesabat vermək lazımdır.

Üstün ay ərzində çox böyük işlər görüb. Amma bu çox işləri düşünüb ümumiləşdirmək lazımdır. Burada hadisələri sadalamaq zəruri deyil. Zərurət olar, fikrini izah eləmək üçün fakt demək olar. Amma bütün vaxtı hadisələr sadalamaq gərək deyil. Məğzi açmaq lazımdır.

Amallaşma – nə öyrəndim, necə Amallaşdım. Kamilləşmə – özümlə necə döyüşdüm, nəyə yetdim, nədə yetə bilməmişəm. Xalqlaşmada konkret Atanın filan kəlamını bu cür çatdırdım. Belə də reaksiya gördüm.

Sonra İnamlı qardaşımız özü, çox böyük işlər görüb, özəllikcə də Ocaq Eviylə bağlı, sonra özü vurğu elədi, görüşlər təşkil eləməsi, ancaq o fikirlər ki, görüşlərdə deyilməlidir, hər dəfə onu Ailə Günündə deməyə gərək yoxdur.

Ailə Günündə konkert bu mövzular – Amallaşma, Kamilləşmə, Xalqlaşma üzrə hesabat verilməlidir. Buna tamam hazırlaşın. Belə ənənə

olmalıdır. Ailə Kitabı yaranır. Ailə Kitabını gələcəkdə əlinizə alacaqsınız, onda görəcəksiniz ki, bir çox hallarda özünüz özünüzü təkrar eləmisiniz. Hər dəfə eyni şeyi təkrar vurğu eləmək gərək deyil. Bax, bu baxımdan hazırlaşmaq lazımdır. Söz yox ki, burda lüzumsuz fikir yoxdur ha. Amma dediyim kimi, hər dəfə eyni şeyi vurğu eləməyə lüzum yoxdur. Yaxud da xalqın içində deyəcəyin şeyi Amaldaşlarının yanında deməyə ehtiyac yoxdur. Bunu bilirlər Amaldaşların. Yeni bir şey ki, sən içində aşkarlayırsan, onu açmaq lazımdır. Bax, bu yöndən öz üzərində işləmək yaxşı olar.

Mövzulara hərə bir cür münasibət bildirdi. Əski baxışların üzərinə gedə bilirəmmi, cəsarətim varmı, azdırmı, çoxdurmu, yaratmışammı, bunlar təbiidir. Burada həyəcanlar var. O narahatlıqlar mənim özümdə var. Yaşayıram onu. Heç bir səfər mənə həyəcansız başa gəlmir. Dönə-dönə mən görüşlər keçirmişəm, özümü tamam unutmuşam. İçim Asif Ata ilə dolu olduğu üçün kükrəmişəm. Həm də özümü unutmuşam. Ancaq dodağım quruyub həyəcandan. Niyə? Bir ziyalı, bir tarixçi, bir yazar, bir şair gedər bölgələrə, gedər toplumun qarşısında çıxış eləyər. O çox rahat danışa bilər. Çünki o, adamların düşündüyünü və istədiklərini deyir. Biz söz dediyimiz adamların düşündüklərini, istədiklərini demirik. Onların içindəkilərə qarşı deyirik sözümüzü. İçində daşıdığı baxışlara qarşı deyirik. Bu baxışlar səni kiçik saxlayır deyirik. O öz üzərinə götürmür. Necə yəni kiçik saxlayır? Deyir Azərbaycanda hər şey əladır, qaydasındadır. Hardadır qaydasında? Qaydasındadırsa, belə çıxır ki, biz dəliyik. Dəliyik ki, Azərbaycana əyri deyirik və bu əyrini düzəltmək istəyirik. Hər şey düzdür və biz də onu əyirik, əyri görürük. Bax, məsələ burasındadır. Asif Ata ortaya yeni bir İnam qoyub. Sən gedib xalqa deyirsən ki, sənin içindəki yanlışdır. Bu doğrudur. Bu sənin mənliyini qurur. Ancaq bunu qəbul eləmək asan bir şey deyil. Hərə bir yandan gözlərini döyür o saat ki, nə danışır bu?! Bu elə-belə başa gəlmir. Ona görə bu həyəcandır. Sən xalqın içini dəyişirsən. Bayaq qardaşım deyir ki, 30-40 min ildir bəşəriyyət zorla yönəldilir. Zorakılıqla yönəldilir. Sən də deyirsən ki, indiyə qədər bəşəriyyətin yaşadığı bu yol, xətt doğru deyil.

Baxın, bizdən siyasi dəyişiklik cəsarəti, gücü, qüdrəti umurlar. Biz siyasi dəyişikliyə gəlməmişik. Asif Ata bəşəriyyətdə insan haqqındakı

fikri, mövqeni dəyişməyə gəlib. İnsan haqqında fikir yanlışdır. Asif Ata onu dəyişməyə gəlib. Və deyir, nə qədər ki, insan haqqında fikir dəyişməyib, dəqiqləşməyib, doğrulaşmayıb, sən bəşər olaraq heç nəyə nail ola bilməyəcəksən. Heç bir xilasa, özgürlüyə yetə bilməyəcəksən... Asif Ata insan haqqında fikri dəyişməyə gəlib. Qardaşımızı da (Əlisəfa bəyi nəzərdə tutur-G.A.) mən anlayıram. Ancaq bu fikri dəyişmək üçün zorla mümkün deyil. Bundan ötrü böyük səbrin olmalıdır. Nə qədər böyük için olmalıdır. Nə qədər böyük idrakın olmalıdır. Min il sən bu xalqa bu sözü deməlisən. Bəşəriyyətə deməlisən. Min il. 30-40 min ildir sənin ağlın, düşüncən yanlışdır. O yanlışı əsaslandırırsan, sübut eləyirsən. O yanlışı sübut eləmək üçün Antraktidanın buzunu əritmək lazımdır. Zarafat məsələ deyil. Ona görə də hər bir Ocaqçı öz içində Asif Atayla bağlı o qədər böyük, dəqiq yəqinliklər yaradır ki. O qədər ciddi, əsaslı fikir yönü, yolu, ölçüsü yaradır ki, o xalqın içinə gedir, sözünü deyir, xalqın reaksiyası bu gün sayğı ilədir, sabah etirazlıdır. Buna baxmayaraq o, daim gedir və deyir. Xalq deyilən toplum, mən sənin içinə axıra qədər gələcəm. Gələcəm o vaxta qədər ki, sənin içində buzu əridim.

Fikir verin, mən deyirəm Asif Ata insan haqqında fikri dəyişməyə gəlib. Bu gün iki fikir mövcuddur. Bir fikir odur ki, insan öləndən sonra gedəcək cənnətə. Cənnətə gedəcək fikri insanlığa xəyanətdir. Niyə xəyanətdir? Asif Ata insana, bəşəriyyətə əbədiliyi öyrədir. Əbədiliyin nə demək olduğunu öyrədir. Bizə cənnət vəd edənlər isə cənnəti maddi nemətlər əbədiliyi kimi təqdim edirlər. Maddi nemətdən əbədilikmi olar?! Eyş-işrətdən, kefdən əbədilikmi olar?! Ölməzlik eyş-işrət deyil, kef deyil, kef maddidir, öləridir. Əbədilik ayrı şeydir. Əbədilik xoşbəxtlik deməkdir. Bəs o xoşbəxtlik nədir? Mən bir yazı yazmışam, "Tərəqqi və Antitərəqqi" yazımın detallarıdır bunlar. Bir var xəstə, bir var bədbəxt. Xəstəyə fiziki qulluq gərək olur, bədbəxtə mənəvi qulluq. Fiziki qulluq bütün bəşər toplumu içərisində 99 faiz insanlar onu bacarır. Azdan-çoxdan mərhəmət hissi hər kəsin içində var. Mənəvi qulluğu isə 0,99 faiz bacarır. Çünki bədbəxtə mənəvi qulluq göstərmək üçün, gərək özün içindən xoşbəxt olasan. Xoşbəxt olasan ki, bədbəxtlik nədir, xoşbəxtlik nədir biləsən. Biləsən ki, bax, bu bədbəxtlikdir, bu da xoşbəxtlik. Bədbəxtliyi tanımaq lazımdır. Bədbəxt özü bilmir ki, o

bədbəxtdir. Bilsəydi bədbəxt olmazdı ki. Ancaq sən xoşbəxt, bilirsən ki, bu bədbəxtdir. Bəs xoşbəxtlik nədir? Həmin dediyim məsələ. Bu maddi tələblərə bağlı deyil. Məsələn, mən heç bir vəzifə tutmuram, məmur deyiləm, amma tutalım ki, normal bir həyatım var. Normal bir yaşayışım var. İşim də, maaşım da imkan verir, ailəm yaxşı dolanır, özüm də hər yeri gəzirəm, dincələ bilirəm. Bu, xoşbəxtlik deyil! Bu fiziki mövcudluğa, fiziki həzzə bağlı öləri məqamlardır. Bəs xoşbəxtlik nədir? Gəlirəm Asif Atanın dediyinin üzərinə. Ata deyir "adam içində ilan, tülkü, canavar gəzdirir". Baxın, o ilan onun mənliyini, mənəviyyatını çaldıqca, o da başqalarının üzərinə zəhər qusur. Sənin içindəki ilan sənin mənliyini çalır, sən də başqalarını çalırsan. Həyat qana qərq olur.

Sənin içində tülkü var. Bu tülkü sənin mənəviyyatını, mənliyini alçaltdıqca, sən də başqalarına qarşı hiylə işlədirsən. Məkr, fırıldaq işlədirsən. Sənin içində canavar var. O canavar sənin mənliyini, mənəviyyatını parçaladıqca sən də başqalarına qarşı vəhşi münasibətdə bulunursan. Bax, Asif Ata deyir ki, içindəki ilanı öldür! Mənliyini xilas elə. İçindəki tülkünü öldür! İçindəki canavarı öldür! Özüylədöyüş budur. İçin təmizlənəcək. Mənim içim o canavardan, ilandan, tülküdən azad olandan sonra bütün dünya mənim olur, gözəllik mənim olur, sevgi mənim olur, insan mənim olur, vətən mənim olur, hər şey mənim olur. İçimə yerləşir onların hamısı. İçimdəki canavar içimdən çıxandan sonra hər şey içimə yerləşir. Hakim olur mənim varlığıma. Xoşbəxtlik budur. O içimdəki mənliyimi məhv edənlərdən azad olmaqdır xoşbəxtlik. Mən içimdəki canavardan azad olum, ola bilər bir tikə çörəyə möhtac ola bilərəm. Amma bir tikə çörəyə möhtac olmağım mənim fiziki, ölərі varlığıma bağlıdır. Gedərəm deyərəm, Elana bacım, mənə bir tikə çörək ver, ehtiyacım var. Amma içimdə xoşbəxtəm. Həqiqətən bu mümkündür. Həqiqətən bu nağıl-zad deyil. Dühalar olub. Buna çatanlar olub. Çünki o xoşbəxtlik özü əbədiliyə bağlı anlayışdır. Mən sabah öləcəm, o bir tikə çörəyə möhtaclıq da qurtaracaq. Amma xoşbəxtlik örnək olaraq sənin bütün nəslinə, xalqına gedəcək. Budur əbədilik. Əbədilik cənnət şirəsi deyil. Ona görə bu gün deyirəm, iki baxış mövcuddur. Biri deyir, insan cənnətdə həmin nemətlərə qovuşacaq, yəni əbədiliyə qovuşacaq. Bir qismi deyir ki, mənə o cənnətin nemətləri gərək deyil. Bu həyatın

nemətləri lazımdır. Cənnətin nemətinə inanmayan (mənim kimi yox ha) bədbəxt materialist, ateist deyir ki, cənnəti verdim sənə. Dini, ibadəti verirlər yoxsullara. Get Allahla, dinlə başını qat. Mənə bu dünyanın neməti lazımdır. Bütün dünyanın nemətini yığacam mədəmə və başlayacam gövşəməyə.

Asif Ata nə deyir bəs? Asif Ata deyir, bu iki yanaşmanın ikisi də insanı öldürür. Asif Ata yeni ölçü gətirir. Bəşəriyyətin yolunu, yönünü dəyişir ki, nəhayət, burdan sonra ayrı yol başlamalıdır. Bu nöqtədə dayanmaq və başlamaq lazımdır. Dayandı və başladı. Hara qədər gedəcəyik, hara qədər nail olacağıq, bu məsələdə mən münəccimlik eləyə bilmərəm. Amma onu bilirəm ki, mən öz içimdə bu xoşbəxtliyi yaşayıram. Bu mücərrəd deyil, müşkül deyil. Mən içimdə buna çata bilirəm. Özümü qura bilirəm. Bütüm varlığım buna bağlıdır. Bütün varlığım Asif Atanın dediyinə bağlıdır. Ayrı bağlılığım yoxdur. İnsan buna çatdıqca, yetdikcə yetirir. Bu örnəkdir. Biz göydən zənbillə sallanmamışıq. Biz seçilmişlər deyilik. Bu xalqın balalarıyıq. Biz bunu yaşaya biliriksə, zaman-zaman nə qədər çətin olsa da, xalqın ümumi halına bu daxil olacaq. Biz demirik ki, qurd quzuyla yanaşı otlayacaq, bu mümkün də deyil. Ancaq böyük mühit yaranacaq. Yaranıb da. “Ruhani mühitimizdən böyük dünyamız yoxdur.” Bu bizim mühitimizdə var. Yaranıb. Bu genişlənməlidir. Ocaqçıların hamısı eyni səviyyədə deyil, amma mühitdə bu Ocaqçıların hamısının ülvi, gözəl qatqısı var. Hərənin özünəməxsus təsiri, qatqısı var. Xalq da hamı standart bir şey olmur ki. Xalq da yaranır. Xalq da baxır görür ki... yaxşı, bur vaxtlar sənin Vedalarından öyrəndim, Misir hekayələrindən öyrəndim, dindən öyrəndim, bəs bu türkdən mən nə öyrəndim? Türkdən Asif Atanın qoyduğu ümumbəşəri bir ölçünü! Buna görə də Ocaqçının cəsarət etməyə haqqı var. Xalqın içində söz deməyə imkanı var. Xalqın ümumbəşəri dəyərlərinin cövhərini çıxarıb işıq kimi ona təqdim edirsən. Buna Ocaqçının daha çox haqqı var. Ocaq nədir? Ocaq Türkçülükdür, Bəşərçilikdir, Şərqçilikdir, İnsançılıqdır, Vətənsevərlikdir, Həqiqətsevərlikdir. Hər şeydir. Bəşər həyatında bütün dühaların gözəlliklərinin hamısını Asif Ata, “Mütləq” izharında yazdığı kimi, yığıb qəlbinə və onlardan daha gözəl, daha ali bir surət yaradıb bəşəriyyətin özünə təqdim edir...

Bununla da söhbətimi bitirirəm. Sizə də mən təşəkkür edirəm. Biz bir mühitə toplaşmışıq. Bu özü bir yaşamdır. Təkcə "Ailə Günü"müzün tələbiylə yox, içimizlə qatıldıq.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız var olsun!

Atamızın bayrağını öpürəm.

*"Dünyadakı Mütləqlə Axşam Təması"nı və Ataya Axşam Ricası"nı Günev Atalı dedi.*

*"Ata Ruhunu ürəyimizdə aparırıq!",*

*"Atamız Var olsun!" səcdəsiylə Gün başa çatdı.*

*Ata Ayı, 36-cı i. Atakənd.*
*(sentyabr, 2014. Bakı.)`*

**Asif Atanın – İnam Atanın**
**Mütləqə İnam Ocağı**
**Günevin Yükümlüsü olduğu "Atagün" Ailəsinin**

**36-cı ildə VII Aylıq Mərasiminin**
**Gedişatı**

**Yer:** Atagün Eli (Örənqala);
**Tarix:** 30 Xəzan Ayı, Mərhəm Günü;
**Başlanır:** saat 16.00

• ***Həm Oda Mərasimin Ruhuna uyğun biçimlənir, həm də Ocaq tələbinə uyğun əhvallara köklənilir. İnam Evi, Amal Bağı gəlişimizə – ziyarətimizə hazırlanır. Gül-çiçək, yazmaq üçün qələm-dəftər, çəkiliş üçün, mərasimin gedişini sabaha çatdırmaq istəyiylə texniki vasitələr təşkil olunur. İşə sorumlu Elana və Günev (Ailənin Yükümlüsü) Atalılardır.***

• "Ata Ruhuna Pənah gətirmişik!" səcdəsiylə tədbir başlayır.

**Mərasimin qonuları:**
1. Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı;
2. Asif Atanın bütün ideyalarının doğruluğuna və həyata keçəcəyinə ümid bəsləyirəm, yoxsa gerçəkdən inanırammı? İnanıramsa bunu hansı məntiqin, yaxud faktların üzərində əsaslandıra bilərəm?
3. Bölgə hadisələri fonunda Yurdumuzun durumu.

**Müqəddəs Oxuma:** "Təməl" kitabından bir parça oxunub şərh edilir.

*İştirakçıların mövqeləri dinlənilir və suallarına cavab verilir.*
"Ata Ruhunu ürəyimizdə aparırıq" səcdəsiylə Gün başa çatır.

***<u>Gün’ün Carı</u>***

**-**

1) ***İnam Yolumuz –Yolların ən çətini, ancaq ən şərəflisi və Alisi!***
2) ***İnsanlığın qarşısında duran bütün məchulları Ata İnamının İşığında tanımalı və həll etməli!***

*Gedişatı yazdı:* ***Soylu Atalı***

*Xəzan Ayı, 36-cı il. Saray-Soylu.*
*(oktyabr, 2014.)*

## Atagün Ailəsinin "Ailə Günü" Tədbiri

*Öncə Amal Bağı ziyarət olundu.*

***Ocaq Yükümlüsü Soylu*** *Atalı ziyarət sözü dedi:* Bu gün 30 Xəzan Ayı, 36-cı ildə Amal Bağında Atanın ilk dəfə cismi qoyulan torpağı ziyarət edirik. Mən vətən anlayışıyla bağlı bir tərif yazmışdım. Yazmışdım ki, vətən milləti millət eləyən dəyərlərin yaşadığı, inkişaf elədiyi və milləti başqa xalqlar cərgəsində bəşəri mənaya qovuşduran məkandır. Vətən - Dəyərlərin yaşadığı ünvandır. Ona görə hər kəsin ilk baxışdan tanımadığı bir yerə torpaq kimi baxdığı halda, həmin torpaq hansısa bir xalqın dəyərinin yaşadığı ünvan, yaxud onun vətənidir. Bu gün burada, bu torpağın altında heç nə yoxdur. Amma torpaq bizim üçün müqəddəsləşib. Ona görə müqəddəsləşib ki, bu torpaq özündə dəyər mənası daşıyır. Asif Atanın cisminin ilk dəfə qoyulduğu bu torpaq müqəddəsləşib. Buna görə də bizim hər zaman gəldiyimiz, ziyarət elədiyimiz müqəddəs bir məkana çevrilib.

Bir ürəyin inadında min ürəyin sevdası yaşayır. Bu torpağın ziyarətləşməsi, müqəddəsləşməsi, min ürəyin sevdasına çevrilməsi bir ürəyin inadından başlayır. Biz Amal Bağına gəlirik. Buraya gəldiyimiz yol Atanın yoludur. Atanın yoluyla biz bura gəlirik. Başqalarının yoluyla biz başqa ünvanlara gedərdik. Amma Atanın yolu bizi bura gətirib çıxarır. Bizim bu yolu gəlişimiz torpağın, kütləvi şəkildə ağıllarda müqəddəsləşməsinə impuls verməkdir. Ona görə mənim üçün bu gün yenə xüsusi bir andır. Ziyarət məqamında mən içimlə, varlığımla özümü Atanın hüzurunda bilirəm. Mən hər zaman Atanın hüzurundayam. Atanın hüzuru deyəndə mən nəyi nəzərdə tuturam. Mən hər gün Ocaq işləriylə məşğulam, hər gün xalqa söz deməklə məşğulam, hər gün xalqın ləyaqətini, gələcəyini düşünürəm. Xalqın gələcəyi, onun ləyaqəti, onun varlığının qarantı, onun böyüməsi, var olması Asif Atanın yaratdığı bir yoldur. Atanın hüzurunda olmaq o deməkdir ki, hər gün onun bəlli elədiyi işlərlə məşğulam. Amma bir an var ki, adam hüzurda özünü toparlayır, özünə hansı ömrü yaşadığını, harda olduğunu bir daha xatırladır. Bu onun hesabat məqamıdır. Hüzurdakı hesabat anıdır. Daim hüzurda olduğum məqamların, yaşantıların hamısını ümumiləşdirib günlərin bir günü müqəddəs bir torpaqda, müqəddəs bir zamanda

hesabat verirəm. Mənim ziyarətim bu deməkdir özüm üçün. Ziyarət halı yaratmaq istəyimlə içim dolur. Tükənmirəm. Tükənmək heç mənə içəridən bir pıçıltı da vermir ki, hardasa bir özüm özümdən pəsinəm. Bu qədər gəliş, bu qədər gediş nə deməkdir?! İçim dolur. Bu gün Ailə Günümüzdə deyəcəyim bir söz var, Atanın yoluna inamımız nə deməkdir?! Sizi əmin edirəm, bir vaxtlar doğrudan da, sevgim var filan, öz yerində, mən ağılla bura gəlirdim. Yəni bura gəlmək lazımdır. Ağlım mənə bunu deyirdi. Bunu eləmək lazımdır. Bunu yaratmaq lazımdır. Mən indi ağlımla gəlmirəm bura, tam olaraq içimlə gəlirəm. Deməli, adamın ağlı, idrakı çatırsa, böyük ziyarəti içinə çevirə bilir zaman-zaman. Gəlişin özünü, sevginin özünü, münasibətin özünü tamam içinə çevirir. İçdən ibarət olur hər şey. Xalqımız da eləcədir. Mən demək istəyirəm ki, ilk baxışdan kimlərsə deyər ki, adam özünü vadar eləyir, nəyə lazımdır bu? Burda nə dərəcədə səmimisən? Amma öncə sən özünü vadar eləməsən yaranmır. Mən onu demək istəyirəm. Özümü bura gətirirdim, ağılla gətirirdim. İndi ayrı bir səviyyə, hal yaranıb. Sənin vətənində xalqını bəşər eləyən dəyər yaranıb. Sən onu özünə deyirsən deyirsən, o sənin içinə çevrilir. İçin sənin yaşamındır da. Yaşamına çevrilir. Millətin dəyəri, qibləsi, yönü, sabahı belə yaranır. Mənim qibləm belə yarandı. Ağlımla gələ-gələ içimə çevirdim. Bu nədir? İçdən yaşamaqdır. Ziyarətimiz qutlu olsun!

Ata torpağına müqəddəs baxdığımız kimi Atanı ziyarətə də müqəddəs baxırıq və onu sabaha, gələcəyə izhar edirik.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!
Atamızın əlini öpürəm!

**Günev Atalı:** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya - İnam Ataya ali səcdəylə! Mən də bir-iki kəlmə deyim. Elə bu Amal Bağıyla bağlı, bu gəlişimizlə bağlı. Artıq müşahidələrimdən, eşitdiklərimdən hiss edirəm ki, Amal Bağı ürəklərdə daşıdığı anlamı ilə oturuşmaqdadır. Müqəddəs bir ünvan kimi oturuşmaqdadır. Vaxt vardı heç kim inanmırdı, əşi o, bu ad altında özünə yurd qurur. Ancaq indi hətta ən uzaq bölgədə belə söhbət eləyəndə, bu ərazidən keçmiş adam deyir ki, orda belə bir bağ var. Özümdən də soruşurlar ki, onu sən

salmısan? Bax, belə bir sədasını eşidirəm mən bunun. Mənim fərəhim yerə-göyə sığmır, artıq Amal Bağı adını ürəklərə yazmaqdadır. Soylu qardaşım demişkən, qiblə belə yaranır. Hal-hal, öncə şübhəylə. Sonra o şübhə dövrü keçir. Bura gələnin, gedənin, Soylunun, sizin qeyri-adiliyinizi hiss edirlər. Yolboyu keçəndə hamısı dönüb baxır. Bilirlər ki, Amal Bağına gələn kimlərdir. Vətən bu bölgədə vətənləşməyə başlayır. Ürəklərdə vətən öz mənasına çatmağa başlayır. Vətən dəyər ünvanı kimi böyük bir ulusun kök atdığı, özündə ürəyində coğrafi ərazisi kimi dediyi vətən ürəklərdən başlayır. Vətən mənim özümdən başlayır. Vətənin bir zərrəsiyəm mən. Bu baxımdan Amal Bağı, səssiz-sözsüz öz sözünü deyir.



Gəlişimiz qutlu olsun!

Atamız Var olsun!

*(Bundan sonra Odada "Ailə Günü" başlayır. Öncə tədbirin qurallları icra olunur - G.A.)*

**Ailənin Yükümlüsü Günev Atalı:** 30 Xəzan Ayı, 36-cı ildə Asif Ata Ocağının Atagün Ailəsi özünün VII Ailə Günü törənini həyata keçirir. Burda Amallaşma-Kamilləşmə-Xalqlaşma hesabatı və qoyulan mövzulara cavab verməliyik.

İndi mən hesabatıma başlayıram. Bayrağımızı öpürəm.

Amallaşmamla bağlı. Mən "Mütləqə İnam" Kitabını oxumağı davam eləyirəm. "Mütləqə İnam" beşliyinin üçüncü kitabı olan "Ruh" bölməsinin son hissələrini ixtisarla öyrənib yazmışam. Həm də bu bizim "Qutsal Öyrənim Günü"müzə aiddir. Mən Bakıda - Atakənddə o tədbirə qatıla bilmirəm. "Ailə Günü"ndə bu barədə hesabat verirəm. Bu mənim Amallaşmama gərək olan bir işdir. Bir neçə qonuya toxunacam, ruhani mövcudluq haqqında. Burda da zamandan yüksək, məkandan yüksək, gerçəklikdən yüksək, özündən yüksək, ölümdən yüksək başlıqlarını qapsayır. "Ruhani mövcudluq"...

Kamilləşməm barədə bir neçə kəlmə istəyirəm bildirəm. Desəm ki, tam olaraq kamiləm, doğru deyil. Kamillik bəlkə də mənimçün əlçatmazdır. Mütləqə yetməkdir. Mütləqə yetmək də əbədi bir yoldur. Onun zirvəsini fəth eləmək bizim açıdan Asif Ataya nəsib olub, mən elə bilirəm ki, sonra Soyluya nəsib olur. Amma desəm ki, özümdən çox narazıyam, bu təvazökarlıq oyunu olar. Mən qəbul eləmirəm bunu, heç kim də qəbul eləməz. Təvazökarlıq ayrılıqda gözəl bir əhvaldır. "Ruhani mövcudluq" bölməsini oxudum, bunu təkcə bilik səviyyəsində qəbul eləməmişəm. Mən bunu ömrümə çevirməkdəyəm. Amala bağlılığım da hər an cilalanır. Bu da məni son dərəcə fərəhləndirir. Kamillik yolunda irəliləməyimə kömək edir. Mənim duyğularım doğrudan da mütləqçilik yoluna cavab verə bilir. Mən demək olar ki, yalançı təvazökarlıq etməyəcəm, həqiqəti deyirəm, özümdə ləkə tapmıram. Duyğularımda saflaşıram.

Xalqlaşma yönündə sözümü iki günün qeydlərini gündəlikdən oxumaqla deyəcəm. Səfərlərimiz oldu. Birinci səfərimiz Ağcabədinin

Ağabəyli kəndinə oldu. Orda yaxşı bir söhbət elədik. Söhbətdə iştirak eləyənlərdən biri Ağcabədi rayon Mədəniyyət Evinin müdiri oldu. O çox yaxşı yanaşdı. Qərəzli yanaşmağı da biz çox görmüşük, elə belə səthi yanaşmaları da. Muğamla bağlı söhbətlərdə, o həm də mədəniyyət evinin işçisi olduğuna görə, bir az yaxşı reaksiya verdi. Mən bunun əhvalından istifadə elədim. Orda bir görüş istəyimi bildirdim ona. Buna şərait yaratmasını xahiş elədik. Bir az tərəddüd elədi. Dedi ki, bizim Mədəniyyət Evi bilavasitə İcra Hakimiyyətinə bağlıdır. Bizə çətin icazə verərlər. Amma Muğam Mərkəzində sizi bir nəfərlə görüşdürərəm. Orda da görüş üçün gərək sizin yetər sayda iştirakçılarınız ola. Dedim dinləyicilərimi mən Beyləqandan ora aparmalı deyiləm ki. Orda lap bir ay qabaqdan afişa da vurula bilər. Təbii ki, biz Muğam Mərkəzinin direktoru ilə görüşüb söhbət edəcəyik. Yeni olduğuna görə onunla hələ görüşməmişik.
İkinci səfərimiz İmişliyə oldu. Biz İmişlidə 50 ildən çox bir vaxtda görüşmədiyimiz, mən uşaqkən onu görmüşdüm, bir nəfərin telefonunu əldə elədim. İndi artıq onun 70-dən o tərəfə keçib yaşı. Onunla görüşdük. Evində yaxşı söhbətlər elədik. Onun ailəsiylə birgə getdik Alovlular kəndinə. Orda dörd ailənin üzvləri toplaşdılar. 4 saata qədər gözəl söhbət elədik. Heyrətlə dinlədilər bizi. Hiss elədim ki, orda dinçiliyin təsirləri çox azdır. Dini dünyabaxışlara münasibət bildirəndə islamın da adını çəkməli olursan, ürəklərindən tikan çıxırdı. Hətta üzləri gülürdü o söhbəti eləyəndə. Nəhayət, bir nəfər orda din yönündən yox, işin çətinliyi yönündən, bu baş tutan işdir, ya deyil deyə sual verəndə, dedik ki, bir görüş təşkil elə bizimlə. Sonradan münasibəti durulmağa başladı. Elana da söhbətə qatılırdı. Çox yaxşı da münasibət bildirirdi. Soylu deyir ki, bir nəfər danışır, hamı qulaq asır, ancaq tək bircə nəfər reaksiya verir. Heç fərqinə varmır ki, bu nə deyir. Amma ağlına çatır və deyir ki, sən düz deyirsən. Bu dəstək istər-istəməz insana ruh verir, qanad verir. Yeni əhval verir. Hətta görürdüm ki, sualların bəziləri Elanaya verilirdi. Elana cavab verdikcə onlar o qədər fərəhlənirdilər ki, adi bir kənd qadınının bu dərəcədə əzmlə məni qəbul eləməsi, söykək olması, kömək eləməsi. Hətta yaşlı biri vardı, o dedi ki, səndəki bu qüdrət onun bu yolu qəbul eləyib sənə arxa durmağındadır. Bəli, burda müəyən çalarlar var, o böyük işdir. Mən demirəm onun fikri mütləq

düzdür, ya düz deyil... Orda Fərhad adlı 43 yaşlı biri vardı, dedi ki, mənim üçün bu görüşü təşkil etmək problem deyil. Amma ədədbiyyat lazımdır ki, dəvət elədiklərimə mən deyim. Mən dedim ki, istənilən sayda ədəbiyyat verə bilərəm. Bu kəndə çatar. Çantam orda boşalıb. Onu deyim ki, biz ora gedəndə öncə kitabxanaya döndük. "İçdən Yaranma" Bitiyini verdik kitabxanaya, kitabxanaçılarla söhbət elədik. Artıq bu ay ikinci səfərdir.

Sonra Beyləqandan çıxanda yanacaqdoldurma məntəqəsində bir rəğbətçi tapdıq. Məshəti türküdür. Məni görüb bağrına basdı. Elə-belə söhbətlərimizdən Ocaqsevər olubdur...

Həmin gün çox zəngin keçdi. Fərhad bəylə bağlantımız var, dünən də telefonla danışdıq. Bura da gəlib-getmək fikrindədir. Mən o fikrin arxasında əzmlə dayanmışam. Görüş yaxşı alınacaq. Mən orda heyrəti gördüm. On beş, iyirmi adamın gözündə zərrə qədər mənfiliklər görmədim. Bu 25 il müddətində mən çox narahatlıqlarla rastlaşmışam, - rişxənd, ağızbüzmə. Ancaq burda olmadı. Deyirlər ki, sizi artıq həqiqət carçısı kimi biz tanıyırıq. Əlimizdən də gələni edəcəyik. Biz millətimizin faciəsini açıb dedik. Bu cür söhbətlər düşünə-düşünə alınırsa, əlimizi əlimizin üstünə qoyub niyə gözləməliyik. Axı vətən bölük-bölük getdi, millət pərən-pərən oldu. Bizi birləşdirən bir fikir, bir ideya, dəyər ortada yoxdur. Yaranmalıdır, olmalıdır. Xalqlaşma yönündə bu qədər.

"Asif Atanın bütün ideyalarının doğruluğuna və həyata keçəcəyinə ümid bəsləyirəm, yoxsa gerçəkdən inanırammı? İnanıramsa bunu hansı məntiqin, yaxud faktların üzərində əsaslandıra bilərəm?"

Biz birmənalı deyirik ki, gerçəkdən inanırıq. İnam olmasa beş addım da yol getmək olmaz. Ümid bəsləmək balaca bir işdir. Ümid hamı bəsləyə bilər. Hamı deyər ki, haqq-ədalət yaxşı şeydir. Nə vaxtsa həyata keçər. Bu bir ümiddir. İnanıram odur ki, özüm o əhvalda yaşayıram. Arzu elədiklərimi öz çevrəmdə, öz ailəmdə, öz elimdə, ətrafımda, xalqda yaradıram. Hansı faktlar üzərində əsaslandırıram, nəyə görə inanıram? İslam baxışıyla yaşadıq, Xristianlıq baxışıyla yaşadıq. İndi o baxışlarla yaşayan insanların əslində münasibəti tükənibdir. Ona ümidi də kəsilib, inamı da. Bütün bəşəriyyət inamsızdır. Amma insanların

içində İnama ehtiyac var. O İnam ki, başqa qüvvələrə ehtiyacın yox, İnsanlığa gərəkliyin harayını çəkir.

Atamız var olsun!

**Göylü Atalı:** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya - İnam Ataya ali səcdəylə!

Bayrağımızı öpürəm!

"Atagün Ailəsi"ndə söz demək məsuliyyətdir.

Bir neçə gün öncə Amallaşma-Kamilləşmə-Xalqlaşma hesabatı vermişəm öz "Ailə Günü"müzdə. İndi təkrar deməyəcəyəm.

Burda sualın ikinci hissəsi var. Soylu Atalı ilə bu mövzunu qısaca çözmüşdük. Düşündüklərimi demək istəyirəm.

"Asif Atanın bütün ideyalarının doğruluğuna və həyata keçəcəyinə ümid bəsləyirəm, yoxsa gerçəkdən inanırammı? İnanıramsa bunu hansı məntiqin, yaxud faktların üzərində əsaslandıra bilərəm?"

Burda sualın iki tərəfi var. İdeyaların dogruluğu, bir də həyata keçəcəyinə ümid, yaxud inam... Atanın bütün ideyalarının doğruluğuna birmənalı şəkildə inanırıq. İnanmasaq addım ata bilmərik. Bundan söhbət gedə bilməz. Həyata keçəcəyinə ümid bəsləmək, yaxud gerçəkdən inanmaq - mən bu sualı bir daha özümə verdim. Çalışdım ki, özümə qarşı səmimi olum. Bu ideyaların mənim ömrümdə hərtərəfli təsirinə inanıram. Amma ümumbəşər səviyyəsində götürəndə idrakım hələ o dərinliyə işləmədi. Bilirəm ki, bu ideyaların həyata keçməsi gərgin ömür istəyir, zəhmət istəyir. Böyük zəhmət lazımdır.

**Günev Atalı:** Bu qədər ehtiyac görünmürmü? Ən çox məni inandıran o ehtiyac məsələsidir. Bəşərin dəhşətli ehtiyacı var buna. bəşər zəlilidir, acıdır bunun. Hətta daş dövründə belə allah ideyası ehtiyacdan yaranmışdı. Məna axtarırdı insanlar. Dil yoxkən belə əl göylərə açılırdı. axtarırdı insan.

**Göylü Atalı:** Bilirsən qardaş, mənə elə gəlir ki, o ehtiyacı biz görürük. Onu biz görə bilirik ki, bəli, bəşərin buna ehtuyacı var. Bəşər bu gün o qədər biganə görünür ki, halı, əhvalı o qədər biganədir ki, xaosun, qarışıqlığın içində əriyib gedir. Məqsədsiz, mənasız yaşayır. O baxımdan deyirəm. Çox böyük qüdrətlər gərəkdir Ata ideyalarını bəşəriləşdirsin...

**Elana Atalı:** Sözümə Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Atanın adına səcdəylə başlayıram. Bayrağımızı öpürəm. Bu aykı səfərlə bağlı məndə yaranan təəssürat genişdir. Dünya o qədər əyilib ki, cəmiyyətdə hansısa bir gözəllik görəndə istər-istəməz adamın ümidi bir az da artır. Mən Ocağın həyata təsir edəcəyinə ümidsiz deyiləm, ümidsiz Ocaqda qalmaq mümkün olmaz. Amma həyatdakılarda o halı görəndə, ən azından, onların yaxşı olmağına ürəyim açılır. Bütün həyat tamamilə məhv olub getməyib.



Mən elədiyim söhbətlərdə, heç bir sünilik yox idi. Ürəyimdən keçən sözləri deyirdim. Özümdə olanı deyirdim. Özümdə olmayanı yəqin ki, danışa bilməzdim. Bu da yaxşı qəbul olunurdu. Yaxşı deyəndə ki, bütün insanların içində gözəlliyə yer var...

Ocağa inanıram. Ocağın istəkləri hər bir insanın istəkləridir. Ocaqda mən ürəyimin böyüdüyünü görürəm. Dünyanın Ocağa ehtiyacı çoxdur. Ona görə də mütləq Ocaqlaşmalıdır...

**Soylu Atalı:** Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Atanın adına səcdəylə söz demək istəyirəm. Biz 30 Xəzan Ayında "Atagün Ailəsi"nin VII Aylıq törənini keçiririk. Biz Ocağa bir "Ailə günü" borcluyuq.

Amallaşma-Kamilləşmə-Xalqlaşma hesabatım. Mən elə işləyirəm ki, o elə mənim öz üzərimdə işləmək demək olur. Ata həyata və dünyaya

baxmağı bizə necə öyrədirsə, ona addım-addım girirəm. Atanın "Özüylədöyüş" ideyası, Atanın varlığa münasibət yönündən düşüncəsi, eləcə
də "Dünyanın Mənası Dünyadan Böyükdür" ideyası. "Dünyanın Mənası Dünyadan Böyükdür" ideyası, Asif Ataya qədər olan səmavi baxışların "Allah böyükdür və kainatın yaradıcısıdır" ideyasından daha böyük etki yarada bilir mənim düşüncəmdə. Əslində "Dünyanın Mənası Dünyadan Böyükdür" ifadəsi səmavi dinlərin "Allah böyükdür" ideyası çəkisində olan baxış yönüdür, ancaq dediyim kimi, ondan üstündür. Ona görə hər zaman yurdumuzda kök atmış müsəlmanlar necə ki, hər şeydə allahın adını çəkir, deyirlər ki, bismillah, allahu-əkbər, əlhəmdülillah və s. Belə belə ifadələri az qala hər danışıqda işlədirlər. Mən hər düşüncəmdə, hər baxışımda və hara baxırımsa orada "Dünyanın Dünyadan Böyük Mənası"nı görürəm. Onu düşünürəm, onu deyirəm. İndi burada iki məsələ aydınlaşır. Bir bizə qədər insanın ağlında oturuşan varlığa münasibət, allahla bağlı məsələlər, bir də "Dünyanın Mənası Dünyadan Böyükdür". Bir var onu bizə ideya kimi verənin dediyini biz təkrar eləyək, onu sunaq, bir də var bizdən qıraqda olanların səhərdən axşama dilindən düşməyən məsələsi. Bizdən qıraqda olanların cəfəng yadlıq dilindən düşmür, "Dünyanın Mənası Dünyadan Böyükdür" ideyası isə mənim içimdən düşmür. Hara baxıram onu görürəm.

Bir fakt deyim. Mən bunu Ocağın o biri Ailələrinin tədbirlərində də epizodik vurğu etmişəm.

İş yerimdə oxuyub düşünürdüm. Gecənin bir vaxtında havamı dəyişmək üçün çölə çıxdım. Bir az təmiz hava aldım. Gördüm ki, bizim oturduğumuz tikilinin qabağında bir ağacı kəsiblər. 40 sm onun boyunu saxlayıblar. Kökü də torpaqdadır. Ağaca orda gözümüz alışıb axı. İndi o yoxdur. Amma gördüm ki, pöhrələr verib. Təzə budaqlayıb. Onda ağlıma gəldi, ağacın qolunu-budağını kəsirlər, yenidən qolu-budağı əmələ gəlir. Yaşıllaşır, böyüyür, artır, yenidən ağaca çevrilir. Amma insanın qolunu-qıçını kəsərsən, onun yerində yeni qol-qıç əmələ gəlməz. Ancaq qolun-qıçın kəsilməsindən yaranan əzabın yaratdığı yeni ruh əmələ gəlir. Elə bir ruh ki, insan həmin ruhla o əzabın, həyatın anlamına yetir. İnsanda belə bir dəyişiklik yaranır. Demirəm ki, insan dünyanı dərk eləmək üçün ona ancaq işgəncə vermək lazımdır. İnsanın qolunu

qıçını kəsərlər xəstəlikdən, nədən, itirər onu. Məsələn, mən bu halı Tolstoyun "Hərb və sülh" əsərindəki Andrey obrazında müşahidə eləmişəm. O yaralanır. Sağında solunda qolunu-qıçını itirən əsgərlər, zabitlər görür. Döyüş səhnəsində. Obrazın üzərində işləyən yazıçı onun düşüncələrini, fikilərini, əzabını elə təsvir edir ki, həmin əzabdan mən görürəm ki, müharibə nə qədər amansız, pis şey olsa da, o, Andreydə başqa ruh əmələ gətirib. Bu vaxta qədər o başqa cür düşünürdü. qəşəng mundir geyinmiş, əmr eləyən, hökm edən bir zabit... İndi o özünün düşündüyü kimi göylər aləminə və yerin-göyün "yiyəsinin" qarşısında yerdə uzanıqlı vəziyyətdə və əzab içində, əzablı düşüncələr içində qovrulur. İnsan taleyini düşünür. Bax, insan qolunu-qıçını itirər, onda yeni qol-qıç əmələ gəlməz. Amma yeni ruh əmələ gəlir. Nə deməkdir bunlar? O deməkdir ki, dünya, təbiət heç bir vaxt özündə dirçəliş imkanını itirmir. Dirçəliş, yəni intibah - inkişaf imkanını itirmir. Həmişə inkişaf, dirçəlmə, ümid, yenidən məsələsi var. Bu elə "Dünyanın Mənası Dünyadan Böyükdür" deməkdir. O ideyadır. Dünyada nə baş verirsə versin, nə sönürsə sönsün, nə ölürsə ölsün, nə kəsilirsə kəsilsin, onun özündən artıq olan mənası ona dirçəliş imkanı verir. Yenidən yaradır. Bax, mənimçün həmin ağacın kəsilməsinə baxmaq bir duyğu, bir məqam idi. Amma mənim içimdə məhz "Dünyanın Mənası Dünyadan Böyükdür" ideyasını aşkarladı.

Sonra, adamın içində bir biriylə yol getməyən duyğular olur. Məsələn, tamah duyğusu, bir də Deyək ki, insan sevgisi. Bəzən görürsən ki, adamda tamah duyğusu güclü olur. Cüzi insan sevgisi olur, o da ayrı-ayrı məqamlarda hansısa münasibətlərdə özünü göstərir. Məsələn, yolla bir adam gedir, gücü çatmır yükünü aparmağa, kömək edir ona. Amma bu o demək deyil ki, o tamah duyğusundan xilas olub. Adamın içində iki duyğu - insan sevgisi tanah duyğusuyla, tamah duyğusu insan sevgisiylə yol getmir. Bunlar hər ikisi özü olmaq istəyir. Mühitin sahibi olmaq istəyir. İnsan qəlbinin gözəlliklərində, incə tellərində özü oturmaq istəyir. İkisi bir-biriylə döyüşür. İnsan qəlbində döyüş gedir. İkisi də eyni dərəcədə aktiv olur. Əgər insanın qəlbində bir-biriylə yol getməyən iki duyğu eyni dəcərədə aktivdirsə, insan qəlbini bədbəxtlik ələ keçirir. O döyüşün qızışdığı anlarda, getdikcə kəskinləşdiyi bir səviyyədə

bədbəxtlik bütün ömrə hakim olur. Ömrün qarşısında qaranlıqlar açır, qaranlığa çəkib aparır. Düşüncələri qaranılığa çəkib aparır.

Ancaq insan əqidə əsasında yaşayanda onun içində bir-biriylə yol getməyən duyğuların biri, daha doğrusu naqis olanı sıradan çıxır. Əqidə o deməkdir. Əqidə o deməkdir ki, fəzilətə zərər verən duyğu sıradan çıxır. Sıradan çıxırsa, insanın içində fəzilət qalır. Sabitlik yaranır. Birxətlilik yaranır. Aydınlıq yaranır. Ziddiyyət aradan gedir. O qəlbə heç vaxt bədbəxtlik hakim ola bilmir. O qəlbdə ancaq xoşbəxtlik başlayır böyüməyə. Bax, əqidə insan qəlbində xoşbəxtlik yaradan və o xoşbəxtliyi ömrə hakim eləyən bir qüdrətdir, gücdür. Bax, Asif Atanın "Özüylədöyüş" ideyası odur. Mənimlə bir qadın işləyir. Söhbət edirdik, gileylənir həyatından, maaşından. İri uşaqları var. Deyir təkəm, gücüm çatmır. Mən bunların səbəbini izah edirəm. Deyirəm ki sizə cənnət vəd edirlər. Cənnətin adını əbədilik qoyurlar. Ancaq nə qədər böyük xəyanət edirlər. Cənnətdən əbədilik olmaz. Çünki cənnətdə eyş-işrət, kef var. Meyvə var, qida var. Hazır yeməklər var. Zəhmət yoxdur orda. Əzab yoxdur orda. Amma həyat zəhmətlə oluşur. Əgər zəhmət yoxsa, həyat da yoxdur. İnsan varlığı hərəkətdə bilinir. Zəhmətdə bilinir. O isə tüfeyli həyata çağırır. Deməli, indi səni, qeyrisini narazı salan bilirsənmi nədir? Bir var zəhmət, bir var işgəncə. Zəhmət odur ki, sən öz əməyinin 3-5 saatını, lap götürək 8 saatını həsr eləyə bilərsən və gözəl ailə ola bilərsən, gözəl yaşaya bilərsən, dolana bilərsən, dincələ bilərsən. Hər bir işin aşar. Sənin özünə vaxtın qalar. Ancaq sən sutkanın 24 saatını çabalayırsan, gücl̈ə-bəlayla bir tikə çörək əldə edirsən. Sən ancaq və ancaq mövcud olmağın üçün çabalayırsan, ona çatır. Bax, işgəncə budur. Çünki sən başqa şeylərdən məhrum olursan. Çünki sən özünlə bağlı düşüncələrdən, göylərin əsrarını düşünməkdən, gələcəyi düşünməkdən, hər şeydən məhrum olursan. İşgəncə məhrumiyyət deməkdir. Biri səndən çox çörək yedi, sən az yedin, işgəncə bu deyil. İşgəncə odur ki, sən fəzilətlər haqqında düşünməkdən və o yöndə addımlar atmaqdan məhrum edilirsən. Bax, əzab, işgəncə odur. Mən zəhmət və işgəncə fərqini dedim. Deyir ki, axı adamlar başqasını nəzərə almırlar. Deyirəm adamların içində bir eqo deyilən şey var. Mənəmlik var. Deyir axı o heç vaxt aradan qalxmayacaq. Deyirəm aradan qalxmır o. Onu sən aradan qaldırırsan. Öz-özünə aradan qalxmır. O biologiyadır,

səninlə bir yerdə doğulur. Sənin də məqsədin odur ki, doğulub həyata qədəm qoyanda öz içindəki eqonu döyürsən, onun təsirini sıradan çıxardırsan. Onda günlərin bir günü başını qaldırıb həyata baxırsan. Məni nəzərə alırsan, onu nəzərə alırsan. Güclü, harın sənin mənim əlimdən qamarlayır, mən də sənin cibindən qamarlamağa çalışıram, dolanmaq üçün. Həyat uğrunda heyvani mübarizə gedir. heyvanlar bir-birinin əlindən alır. Böyük heyvan hamısının əlindən alır, balacalar da bir birini didir. Bu heyvani həyatdır, insani həyat deyil. Asif Ata insani həyat istəyir, onu qurur. Onu qurmaq üçün də deyir ki, içindəki eqonu islah elə. Sən dünyaya ona görə gəlirsən ki, o eqonu islah eləyəsən, öz mənəviyyatına qovuşasan. Əbədilik tələbi olan mənəviyyatına qovuşasan. Onu yetirəsən, böyüdəsən. Bax, insanın içində bir-biriylə yol getməyən duyğular məsələsi həmin eqo məsələsidir. O eqo məsələsi ki, səninlə bir yerdə doğulur, səninlə bir yerdə də ölür. Amma Asif Ata deyir ki, o səninlə bir yerdə doğulur, imkan vermə ki səninlə bir yerdə ölsün. Sən onu öldür ki, sən qalasan, ölməyəsən. Onu öldürə bilsən, əbədilik əldə eləyirsən. Onu öldürə bilmirsənsə, onunla bir yerdə də torpağa gömülürsən, qurtarırsan. İndi bu Özüylədöyüş məsələsini insanlara anlatmaq üçün, heç də özüylədöyüşün fəlsəfəsindən xarüqələr yaratmaq gərək deyil. Çox sadə, hər kəsin anladığı dildir Asif Atanın sözü. Bax, onu aparasan...



Mənim düşündüyüm məsələlər çoxdur. Çünki mən "Tərəqqi və antitərəqqi" adlı əsərimi işləyirəm. Onun da o qədər detallarını yazmışam ki.

Harda oluramsa, hara baxıramsa baxdığım yerdə Atanın ideyasının əks-sədasını görürəm. Ata içimdə oturub.

Sonra, kamilləşmə məsələsi. Kamil kimdir? Bəzən biz hesab edirik ki, kamil o şəxsdir ki, onun heç bir qüsuru filanı yoxdur. Düppədüz gedir. Yox, o deyil kamillik. Söz yox ki, əyri yeriməmək kamilliyə xas olan bir cəhətdir. Amma kamil odur ki, o özünü olduğu kimi görür, özünü doğru döyür. Sən ömrünün axırına kimi özünü döyəcəksən. Çünki qüsurlar üstünə gəlir. Sən o qüsuru döyəcəksən ki, o sənin ömründə gerçəkləşməsin. Yoxsa sən qaya, dəmir parçası deyilsən ki, pasını təmizlədin qoydun bir tərəfə. Tərtəmiz durur orda. Yox, mən canlı insanam, yaşadıqca qarşıma adam çıxır, hadisə çıxır. Onunla davranış məsələsi gündəmə gəlib çıxır. Mənim içimdən gələn olur. Amma mənim içimdən gələn bir ayrı, bəzən gerçəkliyin tələbləri sənin qolundan tutub başqa tərəfə çəkmək istəyir. Onda sən gerçəkliyin əlindən alırsan özünü, bu tərəfə çəkirsən. Özünü doğru görmək odur. Mən belə gedirəm. Düzmü gedirəm?! Gedirsən görürsən ki, düz getmirsən, deyirsən yox, bu mənim gedişim deyil, bu tərəfə getməliyəm. Biz bioloji mövcud olmalıyıq. Yaşamalıyıq da. Mübarizə aparırıq. Qarşımıza çıxanın birinin gözü aladır, birinin qaradır. Daim düşünürsən ki, qarşına çıxan obyektlə münasibətdə səhv eləməyim. Özünə nəzarət edirsən. Özünü ələ alırsan. Özünü tam tanıyırsan. Kamillik odur, özünü doğru bilmək, görmək. Bir də özünü doğru döymək.

Bütünlüklə insani fəzilətlərlə dolmaq və bütün münasibətləri o yönə kökləmək. Bu bizim qarşımızda duran böyük bir tələbdir...

İndi mən sizə bir faktı demək istəyirəm. Siz hamınız bilirsiniz ki, mən Asif Atanın bircə saralmış yarpağının da üstündə necə əsirəm. Bunu bilirsiniz, mənim Asif Atanın hər bir vergülünə münasibətim hansı səviyyədədir? Zirvə səviyyəsindədir. Bunu hər kəs bilir. Ancaq indi sizə bir fakt deyim. Biz bu yaxınlarda "Beşikbaşı Mərasimi" keçirdik. "Beşikbaşı Mərasimi"nə gedərkən torbada mən Asif Atanın iki variantda "Mütləqə İnam" Bitiyini apardım, hədiyyə üçün. Torbada həm Bitiqlərdir, həm kameradır. Sonra Elçin bəylə görüşdüm "20 yanvar"da.

Göylü gəldi, Üstün gəldi, dördümüz burdan getdik. Güntayla Nurtəkin o tərəfdən gəldi. Metroya minəndə basabasdır, Elçin bəy mənim əlimdən torbanı aldı ki, verin mən saxlayım. Qatarda gözüm sataşdı, Elçin bəy torbanı yerə qoyub özü qarşısında durmuşdu. İçimdən qırıla-qırıla qaldım ki, bu "Mütləqə İnam" kitabıdır, onu yerə qoymaq olmaz. Elçin bəy qəsdən eləmir, sadəcə fərqinə varmır. Sonra gəldik, gözləyirik ki, indi bizə söz verəcəklər, biz "Beşikbaşı" keçirəcəyik. Hamımız stol qırağında oturmuşduq. Güntay kitabları tilinə dizi üstə qoyub, bir əliylə də asta-asta çörək yeyir. Mən işarə verdim ki, Göylü, kitabı onun əlindən al. Bu kitabı əlində elə tutub çörək yemək olmaz. Bu, Mütləqə İnam kitabıdır! Sənin öz qutsal, müqəddəs kitabına münasibətin çox şeyi həll eləyir, çox söz deyir. O da aldı kitabı. Bu münasibətlər içimdə hiss elədim ki, qırıqlıq yaratdı. Bir balaca acıq hissi oyatdı. Ancaq sonra işə gedəndə düşündüm. Hə, bax, filankəsə bunu demək, "Mütləqə İnam" kitabını yerə qoymaq olmaz, sən kitabı belə qoyub əlində çörək yemək olmaz. Bəs mən, başqalarının gözündə tükü gördüm, öz gözümdəki tiri görmədim. Halbuki orada kitaba münasibət məsələsində mənim özümün qüsurum vardı. Mən "Mütləqə İnam" kitabının önəmini bu qədər bildiyim halda kameranı onların üstünə niyə qoymuşam?! Deyirəm ki, nəinki kameranı onun üstünə qoymaq olmaz, bir torbada "Mütləqə İnam" kitabından ayrı əşya götürmək olmaz. Sonradan ağlıma çatdı ki, mən özüm də səhv eləmişəm. Görürsüzmü, elə məqam gəlir ki, adamın ağlına gəlmir, fikir başqa yerdə olur, "Beşikbaşı"nı belə keçirək, belə söz deyək. Adam fərqinə varmır. Bu böyük günah deyil ha, amma qüsurdur. Bax, indi kamillik nədir? Kamillik odur ki, o qüsuru işlədənə qədər onu görürsən və o qüsurdan həmin anda ayrılırsan, çıxırsan. Onda ayrılırsansa, sən kamilliyi yaşayan birisən. Yoxsa sonra anlayırsansa, deməli, sən kamillik yolunda gedirsən. Doğrudur, Kamillik böyük daxili hallardır, bu faktı dedim ki, o halları araşdıranda belə detallar nəyisə izah edə bilər.

Mən illərdir özümü görə-görə gəlirəm. Özü də həm Ocaqda, həm qıraqda mənim qədər sağlam özüylə döyüşən adamlar nadir olub. Təkcə indi yox, tarixdə də. O nadir adamlardan birini mən deyirəm Tolstoydur. Konkret bioqrafiyaları olduğu üçün deyirəm, Qandidir, Asif Atadır... Bax, fikir verin, mən onların dalınca gedirəm özüylədöyüş məsələsində.

Öz üzərimdə qələbələr çalan adamam. Mənim gündəliklərim, düşüncələrim, özümə münasibətlərim, bəzən amaldaşlarımın dediyi kimi deyil. Özüylədöyüş hesabatları verirlər: "Mən bu ay özümdən razı qalmadım. Amma inanıram ki, bundan çıxacam. Gələn ay bundan daha yaxşı olacaq". Bu, özüylə döyüş deyil. Bu hesabat deyil. İndi təhlil elədiyim bir münasibətimi demək istəyirəm. Məndə ədalət hissi çox güclüdür. Ancaq mərhəmət hissim zəifdir. Mərhəmət hissim ədalət hissimə bərabər deyil. Hərdən fikirləşirəm, bəlkə ruhaniyyatla məşğul olan adamlar heç rəsmi müəssisədə işləməmlidir. İşin tələbləri var. İşə cavabdehlik daşıdığım üçün mən bütün hallarda mərhəmətli ola bilmirəm. Mərhəmətli olmaq o deməkdir ki, bunun da xətrinə dəymə-yim, onun da. Qoy hamısı necə gəldi işləsin. Onda iş olmur. Bu bəraət deyil ha, amma bunun o biri tərəfini fikirləşən kimi ağlıma gələn odur ki, bəlkə heç bizim kimi insanlar belə yerlərdə işləməli deyil. Fikirləşirəm ki, bu bəraətdirmi, deyilmi? İndi elə edim ki bəraət verib dabanımı qaldırmayım, başımın altına yastıq qoymayım. Burda özünü aldatma ola bilər. Sonra bunların ötəsində fikirləşirəm, sonra görürəm ki, yox, elə mərhəmət hissi məndə zəifdir. Bəzi məqamlarda insanlara qarşı təkəbbür nümayiş etdirirəm. Hiss olunmayacaq dərəcədə təkəbbür. Bəzən o təkəbbürü pərdələyirəm. İstəmədən pərdələyirəm ha. Nəylə? Fikrimin gücüylə. Görürəm pərdələyirəm. Bunu anlayanda üzümə qızartı çökdü. Mənim üzümə isti gəldi. Bax, o məqamda ki, mən özümə onu etiraf elədim, isti çökdü üzümə. Sonra mən onu gündəliyimə yazdım. Bir aya yaxındır bu əhvalımı düşünürəm. İş yerimdə köməkçim var, oturub bir tərəfdə, gözünü qıyıb mənə baxırdı. Mən stolda oturub yazırdım. Ağdaşlıdır, yaxşı bir oğlandır. Yazdım, başımı qaldıranda gözüm ona sataşdı. Gördüm diqqətlə mənə baxır. Dedim niyə elə baxırsan? Deyir bayaqdan fikirləşirəm ki, sən bu boyda sözü hardan alırsan, heç yerə baxıb köçürmürsən də, hardandır bu? Dedim istəyirsən oxuyum sən də qulaq as. Oxudum. Mən gördüm ki, oxuduqca bu oğlan həm ağardı, həm qızardı, qəribə bir əhvalda mənə baxa-baxa. Mən qurtarandan sonra dedi ki, mən sizə pərəstiş eləyirəm. İnsan özü haqqında nə qədər aydın, doğru fikir deyə bilər, insan özünü necə qınaya bilər?! Bunu sizdən başqa heç kimdə görmürəm. Dedim indi başa düşdünmü ki, bu boyda yazı hardan gəlir. O yazı adamın öz

içindəki tələbdən irəli gəlir. Burdan bir qənaət də hasil olur, - Ocağın yaratdığı və yönəltdiyi ömür məsələsi. Bir var insanın öz içində dəyişməsi, bir də var insanın zamanda dəyişməsi. Bizdən qıraqdakılar da dəyişirlər. Amma onların hamısı zamanda dəyişirlər. Zamanla dəyişirlər. Asif Ata zamanda dəyişmədi. Asif Ata içində dəyişdi və bizi içində dəyişmək yoluna yönəltdi. Nə deməkdir bu? məsələn, quruluş, zaman dəyişir. Bizə bəlli olan bir çox adamlar, dünənki kommunistlər bugünkü millətçi olur, ya da demokrat olur. Zaman onu dəyişir də. Halbuki onun içində nə millətçilik var, nə də lap demokratiya var. Yoxdur ha. Bu baxımdan da, biz o cür adamlara qiymət veriləndə çaşmırıq. Görürsən, filankəs də guya millətçidir. Millətçi deyil. Zaman onu dəyişib. Onun düşüncəsinə, yazısına, davranışına, həyatına bax, görəcəksən ki, zamandan heç bir fərqi yoxdur. Zamanın yavrusudur. Mən zamanla dəyişmirəm. Mən içimdə dəyişirəm. İçimdə özümü boğa-boğa, içimdəki balacalıqları öldürə-öldürə dəyişirəm. O içindəkini öldürmür. Onun içi çölə uyğunlaşıb. O uyğunlaşıb, dəyişməyib. Asif Atanın Ocağı insanı dəyişir. Özüylədöyüşünün də yönü odur ki, insan özünü dəyişsin, uyğunlaşmasın. Çünki sən zamana uyğunlaşarsansa, heç bir vaxt sənin adil duyğuların ayağa durmayacaq. Heç bir vaxt sənin böyük prinsiplərə yönəlik içində qüdrət aşkarlanmayacaq. Amma içində sən o naqis duyğuları öldürürsən, xalis duyğuları becərirsən. Xalis duyğuların böyüdüksə sənin için yetişir, yetkinləşir, ayrı bir insan əmələ gəlir. Var uyğunlaşan insan, var yeni insan. Asif Ata Yeni İnsan yaradır. Onun özüylədöyüşünün canı budur. Mən bunları ideya kimi demirəm, öz yaşadığım prinsiplər kimi deyirəm. Özüm içimdə dəyişməyi təhlil elədikcə bu qənaətlərə gəlirəm.

Və sonuncu bir fikir, xalqlaşma məsələsi. Ocağın xalqlaşması üçün atdığım addımlar, bayaq sizə dediyim kimi, "Beşikbaşı Mərasimi" oldu. "Beşikbaşı Mərasimi" doğrudur ki, bizim istəklərimizə uyğun mühit deyildi. Amma neyləyək, hardan alaq o mühiti? Biz getdik o ünvanda gərəkən sözü dedik, gərəkən halı yaratdıq. Çox ciddi hadisə hesab elədim. Çox ciddi söz dedik. Orada həm də mərasimə qatılan yazı-pozu adamları vardı. Getdikcə bizim saytlarımızı izləyənlər artır. Bizim saytımız informasiya saytı deyil. İnformasiya saytı daha çox oxunur. Bizim saytımız arxiv saytıdır. Ocaq ədəbiyyatları saytıdır. Belə götürək,

bir həftədə əgər bizim saytımızı 300 adam oxuyursa, bu çox böyük göstəricidir. Amma bir həftədə informasiya saytını 3000 adam oxuyursa bu çox balaca göstəricidir. Bir daha vurğulayıram ki, informasiya saytı hadisələrin dalınca yortur. Hadisələri sadalayır, göstərir insanlara, 5 gündən sonra bu hadisə aktuallığını itirir. Amma Ocaq gələcəyi, keçmişi, insanın içini, varlığı, mahiyyəti, dünyanın mənasını, mahiyyətini öyrədir. O heç vaxt aktuallığını itirmir. Ona görə istəyirsən bir mövzunu qoy, 8 ay qalsın, o köhnəlmir, aktuallığını itirmir. Bizim xalqlaşma işimizdə bu, xeyli dərəcədə qabağa gedib. Sonra mənim fərdi görüşlərim. Bu son vaxtlar ki Atanın kitablarını hazırladıq: "Türkdən başlayan Yeni Bəşər İnamı" kitabı, o birilər, "Türkel Araşdırma Qurumu"nun tədbiri, bunların hamısı mənim o qədər vaxtımı alır, üstəlik onun üzərində işləmək, saydığım və saymadığım o qədər cəhətlər var ki. Mənə vaxt deyə bir şey bəs eləmir. Hədsiz dərəcədə vaxtdan gileylənirəm. Çatdırmıram. Vaxt mənə az gəlir. Ona görə bunun qabağında hər atdığım addım, kitablar, fərdi söhbətlər, dayanmıram, iş yerimdə də mən söhbətlər aparıram. Söhbətimin də yönü nədir? Asif Atanın dediyinin insani, milli məktəb olduğunu anlasın insanlar. Onlara deyirəm, heç bir vaxt kimisə, nəyisə bizdən qorumağa cəhd eləməyin. Bizdən ancaq öyrənməyə çalışın. Biz heç bir vaxt xeyirin ayağının altını eşmirik. Biz xeyrin ayağının altına çiynimizi veririk. Ona görə də bizdən qorumağa çaılışmayın. Bu gün Azərbaycan cəmiyyətində İmam Hüseynə yas keçirirlər. İki ay İmam Hüseynə yas keçirəcəklər. Amma başqa bir qütbdə həmin bu azərbaycanlılardır ki, Babəki "Babok" deyə pakistanlı elan eləyir, kafir elan eləyir. Füzuliyə kafir deyir. Bax, bizim azərbaycanlılar Azərbaycana gərək olan dəyərlərin ayağının altından zəmini götürür və dəyərlərimizi yıxır. İmam Hüseynə isə yas keçirir. Amma biz o dəyərləri əlimizdə elə tutmuşuq ki, o dəyərlər yıxılmasın. Sənin millətini ayağa qaldırsın. Sənin millətini yox ee, bəşəriyyəti ayağa qaldırsın. Bəşəriyyəti ayağa qaldırmağı da sənin millətindən başlayırıq. Sənin millətindən yayılan bir dalğa kimi, onu dünyanın o başına, bu başına yönləndirmək istəyirik.

İçərişəhərdə mənim ayrı-ayrı adamlarla fərdi söhbətlərim olub. Bu söhbətlərdə Ocaq ədəbiyyatlarını bağışlamışam. Sonra bizim "Ailə Günləri"nə yeni insanlar gəlir, onlara da Atanı təqdim edən çox ciddi,

sanballı söz demişik. Yeni ədəbiyyatlar vermişik. "Türkel Araşdırma Qurumu"nun da xəttiylə mən xalqlaşma işini həyata keçirirəm. Mənə ayrı-ayrı ünvanlardan məktub yazıb təşəkkür eləyənlər olur ki, xalqlşama məsələsində bu addımlar nə dərəcədə vacibdir. Bizim bu xətdə gördüyümüz işlər də insanlara yaxşı təsir edir. Düzdür, Ocaq məsələsini yaxşı dərk eləmirlər. Elə bilirlər ki, Ocaq elə öz yerində, öz içindədir. Amma hər halda, bizim xalqlaşma üçün atdığımız çox uğurlu addımlar var.

Sonuncu bir mövzu ki, qısa deyəcəm, Atanın ideyalarının doğruluğuna ümid, yaxud inam məsələsi. Azərbaycanda, yaxud dünyada mən bədbin olmayan adama rast gəlməmişəm. Nikbin adamın nikbinliyi də başqa şeylə bağlıdır. Mən bədbinlik, yaxud nikbinlik məsələsini həmin bu təməl prinsipə yönəlik deyirəm ha, dünyayla bağlı, varlıqla bağlı bədbinlik, yaxud nikbinlik məsələsi. Mən bu böyük məsələdə bədbin olmayan adama rast gəlməmişəm. Səbəbi nədir onların bədbinliyinin? Hər kəs deyir ki, bu gün həyatımızı təlatümə gətirən gedişat "Qiyamət Günü"nün yaxınlaşdığını göstərir. Hər kəs onu deyir. Hər kəs deyir ki, əşi, onsuz da bu dünya düzələn deyil. Üzü dağılmağa gedir. Bu dini xətt. İkinci, dini olmayan xətt. İnsanın dəyişib başqa xilqət olacağına inanmırlar. İnanamırlar ki, insanın əlindən, nəfəsindən böyük quruculuq doğa bilər və dünyanın nizamı dəyişə bilər. Buna görə də hər kəs bədbindir və bədbin də danışır. Mən nikbinəm. Niyə məhz nikbinəm? "Müəyyən uğurlu işlər görürürk, ona görə mən nikbinəm, bu nikbin sözünü də özümə bir epitet eləmişəm". Elə deyil. Elə yanaşmıram. Nikbinliyimi dərk eləmişəm. Var xeyir, var şər. Bu günlərdə yenə mən bunu fikirləşmişəm. Dində deyilir ki, qəza da, qədər də allahdandır, xeyir də, şər də Allahdandır. Mən özüm də elə bilirdim ki, şər də böyük Mənanın təzahürüdür. Hadisədir də. Hadisə mənadan gəlir. Mənadan ayrılır. Amma mən son vaxtlar bu qənaətə gəldim ki, Şər allahdan deyil, yəni Mənadan deyil.

**Günev Atalı:** Şər xeyirin yoxluğundan yaranır.

**Soylu Atalı:** Xeyir yoxdur nə deməkdir? Yəni Məna xeyir biçimində təzahür eləmir, şər biçimində təzahür eləyir? Xeyir yoxdursa, şər varsa, deməli, Mənadan xeyir deyil, şər təzahür eləyir. Belə çıxır? Amma mən bu qənaətdə yanıldığımı gördüm doğrusu. Bu fikrə gəldim ki, şər

mənadan deyil, Allahdan deyil. Yəni birbaşa deyil. Niyə deyil? Dolayısıyla Mənadan demək olar ha. Məsələn, varlığın mayasında xeyir var, şər yoxdur. Əgər varlığın mayasında şər olsaydı, nə kainat olardı, nə həyat, nə dünya. Olmazdı. Çünki şər öldürməyə, uçurmağa, dağıtmağa, yəni aqressiyaya meyillidir. Şər odur. Xeyir dirçəlişə, inkişafa meyillidir. Varlığın mayasında daim inkişaf var. Şər hadisədə var, gedişatda var. Bax, burada ağac bitib. Bu ağacı bitirmək üçün bura bir toxum əkmişəm. Bu bir gündə bitmir ki. Bu mərhələ-mərhələ bitir də. Xeyir inkişaf mərhələləridir. Bunun mayasında xeyir var, inkişaf var. Bunu bura əkirsən, bitir. Əgər bu əmələ gəlirsə, deməli, bu xeyirdir.



İnkişafda xeyir olar də. Şər olsa, bu bitməz heç. Şər hər şeyi məhv eləyir. Ona görə mayada şər yoxdur. Balaca bir gül bitirirəm. Bu gülün bitməsi üçün nə qədər vaxt lazımdır. Amma bu gülü məhv eləməyə o qədər vaxt lazım deyil. Götürüb çırpıram yerə, o yoxdur daha. Şər hadisədə var, gerçəklikdə var, gedişatda var. Şər o böyümədə yoxdur. Orda inkişaf var. O xeyirdir. Deməli, varlığın mayasında şər yoxdur, xeyir var. Şər olsa həyat olmaz. Bax, Asif Atanın "Dünyanın Mənası Dünyadan Artıqdır" məsələsinə gəlib çıxırıq yenə. Mənim nikbinliyimin əsasında bu durur. Şər deyə bir şeyin əbədi qələbəsi yoxdur. İnsan ondan çıxa bilər. Dünya ondan çıxa bilər. Çünki o mayadan gəlmir. Gerçəklikdə onun qabağını kəs, o yoxdur. Mayadan gəlmir. Bu Asif Ata

ideyasının verdiyi böyük nikbinlikdir. Həqiqətən adamın ürəyinə işıq dolur.

**Göylü Atalı:** Soylu, onda bu ziddiyyətli səslənmirmi ki, yenidən doğulanlar var deyirik, o özüylə şər duyğular gətirir.

**Soylu Atalı:** O, mayada deyil. Mayada insanlıqdır. Xarakterində, xislətində var. O bioloji xislətindən gəlir, insanlıq mahiyyətindən gəlmir. Şərdən gəlsəydi o heç doğulmayacaqdı, şər onu öldürəcəydi. İndi qayıdıram Atanın ideyalarının doğruluğuna inam məsələsinə. Mən burda Atanın ideyalarına inandım. Sual verə bilərsiniz ki, indiyə kimi hansı hisslər bəsləyirdin? Bilmirəm hansı hisslər keçirdiyimi. Bilmirəm o ümid idimi, inam idimi? Amma mən bu qənaəti aşkarlayandan sonra görürəm ki, inanıram. Çünki nikbinlik verir mənə. İnamımın özülünə nə qoyur? Nikbinlik. Nikbinlik olan yerdə heç bir vaxt inamsızlıq ola bilməz. Çünki zəmin var. Ümid odur ki, havadan asılmışam, kimsə gəlib məni burdan qurtara bilər, uçuruma düşüb ölməyəcəm. Ümid odur. İnam isə odur ki, ayağımın altında zəmin var. Uçurum yoxdur altımda. İnam odur. Ümid doğrula da bilər, doğrulmaya da. İnam isə bitib.

Yaşasın Ata!

Yükümüzdən Böyük Fərəhimiz Yoxdur!

Atamız var olsun!



**Sara xanım:** Asif Ata Ocağını, sizləri tanıyana qədər sizdən eşitdiklərim, Asif Atanın ideyalarından bəhrələnərək sizin yaydığınız fikirlər, ideyalar, məqsədlər, məramlar demək olar ki, mənim mənəvi dünyamda bir aclıq yaradırdı. Mənim ətrafımda sizdən eşitdiklərimi,

Asif Atanın fəlsəfəsindən, dünyagörüşündən, yaradıcılığından irəli gələn fikirləri görmədim, eşitmədim. İnsanların heç birinin təfəkküründə, dünyagörüşündə yoxdur. Həmişə sizlərdən eşitdiklərimi insanların dilindən eşitmək, sizlərdən gördüklərimi onlardan görmək istəmişəm. Amma mən bilmirdim ki, belə ideyaları yayan bir şəxsiyyətimiz var və onun davamçıları var. Mən bir ilə yaxındır ki, sizləri tanıyıram. Ocağı tanıyıram. Bu mənimçün böyük fərəhdir. Mənim həyatımın böyük bir hissəsi mənasız insanların mənəviyyatsızlığından irəli gələn bir mübarizəyə həsr olunub. O mübarizə ki, onlar həyatda mənimçün heç nəyi ifadə eləməyib. Amma mən məcbur olmuşam o mübarizələrdə ömrümü məhv eləməyə. Həmişə sizin dediklərinizə ehtiyacım olub. Mənəvi dünyamda bir aclıq olub həmişə, istəmişəm sizin dediklərinizi həyatda, gerçəkdə görüm. Sizin Ocağa gəlməyim yalnız bu mənəvi dünyamın aclığından irəli gələn bir istəkdir.

Dünən bir yoldaş vardı. Asif Ata yaşadığı dövrdə o da islamçı filosof olub. O bildi ki, mən sizin tədbirə gəlmək istəyirəm. Dedi ki, nə işin var, sənin o allahsızlar tədbirində. Dedim ki, orda mənim mənəvi dünyamın qazandığı ruh var. Mən sanki gücsüzləşirəm. Mübarizələr qarşısında gücsüzləşirəm. Onlardan ruh alıram, mübarizləşirəm. Dedi ki yox, onlarda mübarizə yoxdur... Mən səhər bura gələnə qədər gəlmək fikrimdə yox idi. Çünki nazirlikdən təhsil şöbəsindən yoxlama vardı. Bizim məktəbə də gəlmək ehtimalı böyük idi. Direktor narazılıqla mənə icazə verdi. Dedi yoxlamanın gəlmək ehtimalı var. Bu, təhlükə yarada bilər sənin işinə. Buna baxmayaraq, mən işimi təhlükə qarşısına qoysam belə, sizin məndə yaratdığınız ruh aləmini görmək, hiss etmək niyyətiylə, mən o təhlükəni gözümün önünə qoyub gəldim. Məqsədim budur yalnız. Fəxr edirəm ki, sizləri tanımışam. Nə vaxtsa yenə dəvətli olsam, çalışacam ki, hər zaman gəlim.

**Günev Atalı:** Var olun. Biz hər kəsi dəvət eləyirik. Bizə qarşı əks düşüncəsi olanları da dəvət edirik. Amma bilirik ki, bu qapıdan o, əks düşüncəylə çıxmayacaq. Çünki gəlib burda özüylə üz-üzə qalacaq. Həmişə dəvət edərik sizi. Atanın Sonevini ziyarət etmək istəyin var. Ora da dəvət edərik. Hər ay bura dəvət edərik. Sənin gəlmək imkanına baxır. O ki, qaldı vaxt məsələsi, bütün dünya vaxtdan gileylənir. Üzr istəyirəm, sizdən uzaq, bizim bu ortalıq deyirik də, domino-şaşqi oynayanlar, hamı

yığılır ora. Onlar da vaxtdan gileylənir. Axşama kimi nərd atır ha. Sonra əsəbləşir infarkt olur, ölür. Ömür də bada getdi, vaxt da. Mən həmişə bir sözü vuröulayıram ki, bir məsələ var ee, "yar yarını istəsə gecəni yarar gələr". Əgər həsrət varsa, ehtiyac varsa, onun vaxt məhdudiyyəti yoxdur. Başqa maneələr ola bilər. məsələn, birdən mən mərasimə gedə bilmirəm. Elana xəstə olur, yaxud başqa bir səbəbdən ki, maddiyyatmı deyim, yaşımmı, səhhətimmi, bir ayda iki dəfə Bakıya gedib-gəlmək mənimçün çətin olur. Orqanizmim üçün də bir az artıq yük olur. Amma vaxt yox. Vaxt var. Demirəm lap hər hansı bir işdə işləsəm belə, bir ay müddətindıə necə yəni mənim iki saat, 5 saat, ikicə gün məınim özümə vaxtım olmadı. Bu ömür mənimdir axı. Ömür nə işin deyil, nə cəmiyyətin deyil. Ömür mənimkidir. düzdür, məişətimi təmin eləmək üçün bir yerdə işləyirik. Borclanarıqsa işi itirmək təhlükəmiz olar. Yenə də bunu insan istəsə yoluna qoya bilər.

*Müqəddəs Oxuma: Fəlsəfənin Təməli" Bitiyindən Təməl Kitabı oxunub şərh olundu.*

*Ailəyə ruhani hədiyyələr təqdim olundu.*

*"Ata Ruhunu Ürəyimizdə Aparırıq!",*

*"Atamız var olsun!" Səcdəsiylə Gün başa çatır.*

**Asif Atanın – İnam Atanın**
**Mütləqə İnam Ocağı**
**Günevin Yükümlüsü olduğu "Atagün" Ailəsinin**
**36-cı ildə VIII "Ailə Günü" nün**
**Gedişatı**

**Yer:** Atagün Eli (Örənqala);
**Tarix:** 23 Yağış Ayı, İnam Günü;
**Başlanır:** saat 16.00

• ***Oda Mərasimin Ruhuna uyğun hazırlanır. Gül-çiçək, yazmaq üçün texniki vasitələr təşkil olunur. Amal Bağı, İnam Evi Ziyarətimiz üçün sahmanlanır. İşə sorumlu Elana Atalı və Ailənin Yükümlüsü Günev Atalıdır.***
• "Ata Ruhuna pənah gətirmişik!" səcdəsiylə tədbir başlayır.

**Mərasimin qonuları:**

1. Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı;
2. Sevgi – rahatlığı itirməkdir. Bəs Azadlığı necə, itirməkdirmi? Başqa sözlə İxtiyarı əldən vermək Azadlığı da əldən vermək anlamına gəlirmi? Yəni biz ixtiyarımızı Ocağa vermişik, bununla da azadlığımızı itirmişikmi?

**Müqəddəs Oxuma:** "Təməl" kitabının davamı oxunub şərh edilir.
*İştirakçıların mövqeləri dinlənilir və suallarına cavab verilir.*
"Ata Ruhunu ürəyimizdə aparırıq" səcdəsiylə Gün başa çatır.

***Gün'ün Carı***

-
1) ***Ata Sözü – Ulusu Amallaşdıran Qutsal Tələb!***
2) ***Ocaqçılıq – İnamlaşan Xalqçılıq!***

*Gedişatı yazdı:* **Soylu Atalı**
*16 Yağış Ayı, 36-cı il. Saray-Soylu.*
*(noyabr, 2014.)*

## “Atagün” Ailəsinin VIII “Ailə Günü”ndə deyilmiş fikirlər

*Ocaq Günsırası ilə 23 Yağış Ayı, 36-cı ildə Atagün Elində “Atagün” Ailəsinin VIII “Ailə Günü” mərasimi keçirildi. “Ata Ruhuna pənah gətirmişik!” səcdəsilə “Ailə Günü” başladı. Ailənin Yükümlüsü **Günev Atalı** Ataya səcdə ilə sözünə başladı:* “Ailə Günü”nün birinci tələbi olan Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatımı verirəm. Mən, adətim üzrə, “Mütləqə İnam Beşliyi”ni öyrənməkdə davam eləyirəm. Onu özümləşdirirəm və yığcam şəkildə yazıram. İndi Qutsal Beşliyin “Həyat” kitabının başlanğıcındayam. Həyatilik və Antihəyat bölməsində. **Həyatilik:** “Həyat cismaniliyin ruhaniləşməsidir. Əşyavarilik bu tələbə ziddir. Əşyavarilikdə insanın taleyini qeyri-ruhani amillər təşkil edir. Əşyaya sahib olmaq – onun hökmünə, tələblərinə baş əyməkdir.

Əşya zəruri ehtiyacdır. Ancaq insan mahiyyətini ifadə etmir. Hökm – tabe münasibətləri yaradır, “yuxarı” və “aşağı” asılılıqlarını qoruyur ki, insan bu münasibətlərdə itir. Yalançı, süni bağlı¬lıqda əşyalaşır, cansızlaşır. Bu baxımdan əşyavarilikdə həyatilik yoxdur.

Vəhşivarilikdə heyvani münasibətlər təsdiq olunur: Şəhvət iradə bəndini aşır; Zor– heyvanlığın adama sahib olmasıdır; Qorxuda adam özünü heyvan kimi qoruyur, insan kimi təsdiq etmir; Xudbin özünü düşünür, yalnız özü üçün yaşayır; Hərislikdə adam heyvanın qulu olur; Müstəbid insana heyvani münasibət bəsləyir; Kin – özündə parçalamaq, yerlə bir etmək heyvanlığını gəzdirir; Sürüləşdirmə – heç eləmə meylindəndir; Müharibədə insan iki mənada ölür, – cismən öldürən ruhani varlıq kimi özünü də öldürür; Fateh özünə deyil, zora, qəddarlığa arxalanır; İrqçilik qatı heyvanilikdir. Başqaları artıqdır onun gözündə. Mənəviyyat insanın özünə sahib olmasıdır. Mənəviyyatsızlıq heyvanın insana sahib olmasıdır. Heyvanın Mütləqi yoxdur, mütləqsizlik vəhşilikdir. Dünyaya heyvan gözüylə baxmaqdır. Həyatda nə əşyavarilik, nə də vəhşivarilik aradan qalxır. Bu, ali həyatda baş verir. Ancaq həyat buna çalışır. Hər ikisi ilə döyüşür və mahiyyəti də bununla bağlıdır. Həyat anti-həyat ilə ali həyat arasında körpüdür. Maddiyyatın ruhaniləşməsi həyatdan başlayır. Ali həyatda başa çatır. Buradan belə qərara gələ bilərik ki, elə bir dövr gələ bilər ki, dünyada əşyavarilik, vəhşivarilik,

qeyri-kamillik, baş tutmayan dövr haqda demək olar ki, heç vaxt mümkün olmayacaq. Çünki Soylu Atalı demişkən, adam qüsurlu doğulur. Sonradan təkmilləşməlidir, kamilləşməlidir. Ona görə həyat mübarizə meydanıdır. Nə qədər özüylə döyüş var, nə qədər həyatdakı mənfiliklərlə döyüş var, Həyat da var. Bunlar dayananda həyatilik itir. Burda insani həyat tərzi yox, heyvani həyat tərzi var.

**Soylu Atalı:** Onu oxumağı davam etməzdən öncə bir məsələni aydınlaşdıraq, sonra keçək.

Heyvanın Mütləqi yoxdur deyir Ata. Nə deməkdir? İnsan, Həyat Mütləq Mənadan yaranır. Heyvan da Mütləq Mənadanmı yaranıb? Yaranıbsa, yəni Mütləq Mənanın təzahürü kimi formalaşıbsa, niyə onun Mütləqi yoxdur?

**Günev Atalı:** Demək, Mütləq Mənadan yaranmayıb.

**Soylu Atalı:** Nədən yaranıb? Təbiətin bir hissəsidir axı.

**Günev Atalı:**Təbiətin özündə də Mütləq yoxdur. Mütləq ancaq insana xas olan xislətdir. İnsanın mənası Mütləqdir. Sadəcə onu aşkarlamaq, üzə çıxartmaq, var etmək gərək olur. Ancaq heyvanın mənası yoxdur. Yəni heyvanın mənası elə heyvanilikdir.

**Soylu Atalı:** Əslində bir az uzaqlaşırsan. Çünki deyirsən təbiətin Mütləq Mənası yoxdur. Asif Ata deyir var.

**Günev Atalı:** Onda biz niyə deyirik "Təbiətdə təbiətdən yüksək olan Məna"? "Məndə məndən yüksək olan Mütləq Məna" dediyimiz kimi orda da Mütləq sözünü işlətmirik. Təbiətdən yüksəkdir Məna, amma Mütləq deyil. Çünki onun İnamı, İdrakı, Mənəviyyatı, İradəsi yoxdur axı. Dağ başqa səbəblərdən yaranır, ancaq Mənanı ona, təbii ki, insan verir. İnsan verməsəydi... dağın öz qürurundan xəbəri yoxdur axı.

**Soylu Atalı:** Onda belə çıxır ki, Məna İnsandan asılıdır?

**Günev Atalı:** Sadəcə o Mənanı İnsan dərk eləyir.

**Soylu Atalı:** Dərk eləyir ayrı şeydir. Ancaq ona Mənanı İnsan verir? O verməsə Məna yoxdur, verirsə var?

**Günev Atalı:** O, Mənanı ifadə eləyir. Təbii ki, təbiətin mənası var. Ancaq Mütləq deyil. Belə düşünürəm.

**Soylu Atalı:** Yaxşı, onda Asif Ata niyə deyir ki, Dünya özünün Əzəli, Əbədi, Sonsuz, Kamil mahiyyətindən yaranıb? Təbiət də dünyanın bir hissəsidir axı.

Həyat özünün Əzəli, Əbədi, Sonsuz, Kamil Həyatlıq adlı Mənasından yaranıb. İnsan da özünün Əzəli, Əbədi, Sonsuz, Kamil İnsanlıq adlı Mənasından yaranıb deyir Ata. Deməli, Dünyanın Mənası Mütləqdir. Təbiətin də Mənası Mütləqdir. İnsanın da Mənası Mütləqdir. Təbiət və İnsan, bunlar dünyadan təcrid deyil. Heyvan da təbiətdir. Axı insan da (deyək ki, daşıdığı insanlığı, yəni mənasını bir qırağa qoysaq), hələlik o mənaya çatana qədər, özü də heyvandır, yəni bədən biologiyadır. İnsan özündəki Mütləq Mənaya qovuşur, onu aşkarlayır, ifadə eləyir və o, heyvandan ayrılır. Heyvan özündə məna aşkarlamır, ifadə etmir, ona qovuşmur. Niyə? Çünki onun ona qovuşduranı yoxdur, ruhu yoxdur.

**Günev Atalı:** Mənim üçün artıq bu təzə açılan bir şeydir. Çünki mən düşünürdüm heyvanın mənası o deyil ki, ora çata bilmir, sadəcə onun ruhu yoxdur, o özünü tanımır.

**Soylu Atalı:** Təbiət özündə Mütləq Məna daşıyır. Amma Təbiət özündəki Mütləq Mənaya bərabər ola bilmir, ola bilməz. Niyə ola bilməz? Təbiət özündəki Mütləq Mənaya bərabər olsa, onda gedişat pozular, nizam pozular. Çünki təbiətdə dağ uça bilir, bulaq soğula bilir, ağac bitə bilir. Bütün bunlar hamısı gedişatdır. Əgər Təbiət yalnız Mütləq Mənaya bərabər olarsa, dediyimiz kimi, onda gedişat pozular. Yəni Məna olar, gerçəklik olmaz. Amma insan ifadədir. İnsanın atdığı addım var, əməl var. İnsan heyvanlığa əməl eləməyəndə yox olmur. Məna da yox olmur, insan da. O, mahiyyətin tələbinə uyğun addım atır, ona doğru atır, ona bənzəyən əməl eləyir, ona doğmalaşır. Ona görə insan dünyanın əşrəfidir deyiblər, amma təəssüf ki, bu deyilənin mahiyyətinə enməyiblər. İnsan dünyanın ruhani varlığıdır. Onu ruhani varlıq eləyən də ifadədir. Mütləqin kamil səviyyədə ifadəsidir, elə Mütləqin özüdür, bu ifadə vasitəsilə o, Mütləqləşir. Heyvan Mütləqi ifadə eləmir. Heyvan Mütləqdən ayrılan hadisədir. Hadisə olaraq da qalır. İnsan doğulur. Doğulma da bir hadisədir. Ancaq hadisə olaraq qalmır, Mənaya yetir əməliylə, düşüncəsiylə, varlığıyla. İnsan ona yetdiyi üçün hadisə kimi qalmaqdan xilas olur. İnsan itmir. Ruh qoymur itsin. Həmin ruh yaşayır. Dinlərin dediyi, ancaq dərinə enə bilmədiyi, təhrif elədiyi dəbu məsələdir.

**Günev Atalı** (oxumağa davam edir):

**Antihəyat**

İnsandan qıraqdakı iradə ona sahib olanda, cəsədi, əli, gözü olsa belə insan yoxdur. Çünki başqa iradənin hökmünü yerinə yetirir. Ağlı, ürəyi əlindən alınıb, – arzusu, duyğuları, idarə olanın özü yoxdur əslində.

**Soylu Atalı:** Bax, heyvanı nə idarə eləyir? Heyvanı mədə idarə eləyir. Mədə nə istəyirsə, onun tələbini verir. İnsanı isə Mütləq idarə eləyir, özünə bənzədir.

**Günev Atalı** (davam edir): Ruhu ola-ola bədənə çevrilir. Yalnız bədəndən ibarət olur. Onu qoruyur, dünyada baş verən bütün naqisliklərlə barışır. Çünki Ruhani xislət olduğunu unudur. Maddiyyat inkişaf meyarına çevriləndə antihəyat yaranır. Tərəqqi, iqtisadiyyat, dövlət, hakimlik münasibətləri baş-ayaq olanda antihəyat yaranır. İnsanlar arasında saxta münasibət yarananda, doğmalıq itəndə antihəyat yaranır. Antihəyatda insan yad dünyada yaşayır, insansızlaşır...

Kamilləşmə haqqında onu deyə bilərəm ki, halım sabitdir. Ocaqçı halıma köklənmiş səviyyədə sabitdir, fərəhliyəm. Az da olsa, Ocaqçılıq əməlim daim olur. Çünki bütün ömrümüz Ocaqçı əməli ilə dolanda, hər bir işə münasibətimiz, hər addımımız, hər baxışımızdan tutmuş bütünlüklə ünsiyyətlərimizdə belə Ocaqçı əhvalı verməkdəyik. Mən narazı deyiləm o halımdan. Təbii ki, insan heç vaxt özündən razı olmur. Nə qədər yüksəlsə belə, hələ o zirvə qarşıdadır. Bəzən özümə sual verirəm ki, daha mən neyləməliyəm ki? Daha yüksək səviyyədə, kamillik səviyyəsində olmasa belə, hər halda hiss eləyirəm ki, Ocaqçılıq halımda bütün həyatım budur. Yəni mənim bundan artıq həyatım yoxdur. Oturuşub mənim həyatımda Ocaqçılıq. Hər an özüm özümün nəzarətindəyəm.

Xalqlaşma işim bu ay bir qədər az oldu. Çünki yas, xəstəlik hadisələri, bir də təsərrüfat işləri elə mərhələyə gəlib çatdı ki, vaxtımı aldı. Ancaq böyük ara verməmişəm. Fərdi söhbətlərdən başqa Fizuli rayonuna getmişəm, orda yaxşı söhbət eləmişik. Ümumi mənada kənd yerində mənə auditoriya ancaq hüzür məclislərində olur. Bəzən getmək istəmədiyim yerə belə, söz demək xatirinə gedirəm. O baxımdan mən onu səfər adlandıra bilərəm. Bunu da dəfələrlə sınaqdan keçirmişəm ki, birinci cümləmizdən sonra diqqət yaranır. Orda vaxtın imkan verdiyi

səviyyədə "Azərbaycanımız-Azərbaycanlığımız"la bağlı söhbətlər, dünyada baş verən, vətənimizlə bağlı, millətimizlə bağlı baş verən müşküllərin həllinə yönəlik Asif Atanın fikirlərini, ümumiyyətlə, Asif Ata haqqında, onun kimliyi haqqında söz deyirəm. Camaata müraciət eləyəndə ki, sizin içinizdə Asif Atanı tanıyan varmı? Bir nəfər dedi ki, onu çox gözəl tanıyıram, onun Ocağı vardı, bilmirəm indi yaşayır, ya yox. Dedim ki, Asif Atanın Ruhani Evladlarından biri də mənəm. Burdakı Ailə Günlərimizi nişan verdim, hər kəsi dəvət eləyə bilərəm dedim. Sizə də ədəbiyyat paylamaq fikrindəyəm. Elə bir hal yarandı, qorxdular ki, burda nəsə olacaq. Bunlara buraxılış, ədəbiyyat versəm, kiminsə nəzərinə düşəcəklər. Halbuki orda bu kəndin ab-havası yox idi. Bu kənddə mənə qarşı kimdəsə mənfi münasibətlər qalıbsa, orda o yox idi. Çünki orda məni birinci dəfə idi ki, görürdülər. Yəni elə oturuşmuş, narahat münasibət yox idi. Amma nəsə ondan çəkindilər. Bu yöndə başqa işlərim də olur. Addımlar atmaqda özümü var hesab eləyirəm.

Sonra, gedişatımızda qoyulan mövzu: "Sevgi – rahatlığı itirməkdir. Bəs Azadlığı necə, itirməkdirmi? Başqa sözlə İxtiyarı əldən vermək Azadlığı da əldən vermək anlamına gəlirmi? Yəni biz ixtiyarımızı Ocağa vermişik, bununla da azadlığımızı itirmişikmi?"

Bu cümlənin özü insanı nə qədər silkələyir, ayıldır. Ən küt adamın halında belə istər-istəməz titrəyiş yaradır. Sevgi rahatlığı itirir. Bu təbiidir. Bəs azadlığı necə itirməkdirmi? Əslində azad adamlar sevə bilərlər. Əslində biz ixtiyarımızı Ocağa vermişik, bu, azadlığımıza qovuşmuşuq anlamıdır. Ümumiyyətlə, Mütləqçi baxışıyla mən belə fikirləşirəm ki, Ocaq mənim haqqımdır. Mən insan gəlmişəm, mənim insan olmaq haqqım var. Buna hər hansı bir məhdudiyyət qoymaq ixtiyarı əldən vermək olar. Ömrümü Ocağa, böyük ideallara həsr eləmişəmsə, bu, mənim azadlığımdır. Cəmiyyət məndən sallaşır daim, bütün qohum-əqrəba sallaşır məndən. Mən bunlardan yaxamı qurtarandan sonra özümü böyük ideallara həsr eləyə bilərəm. Bu baxımdan bütün Ailə Günlərimizdə qoyulan suallar kimi, bu sualı da yüksək qiymətləndirirəm, bu suala belə cavab verirəm ki, biz azadlığımızı itirməmişik, azadlığımızı tapmışıq. Mənim fikrim bu qədər. Atamızın adıyla Bayrağımızı öpürəm.

**Soylu Atalı:** Deyirsən ki, insan heç vaxt özündən razı qalmır. Nə deməkdir bu?

**Günev Atalı:** Təbii ki, Mütləqə qovuşa bilsə... Asif Ata Mütləqə qovuşdu, onun özündən razı qalmaq haqqı vardı. Mən nə qədər ona qovuşmamışamsa, özümdən razı qalmıram. Müəyyən bir mərhələyə yüksələ bilərəm. Amma Mütləqə qovuşmaq, tamam başqa şeydir. Mahiyyətlə bir olmaq. Mən həyatda nə qədər varamsa, elə bilirəm ki, mahiyyətimi tam ifadə eləsəm, Mütləq olaram. Ancaq mən özümü tanıyıram, Mütləq olmaq imkanım yoxdur. Mən belə düşünürəm ki, həyat mənə imkan vermir Mütləqə qovuşum, Mütləq olum. Özüylə döyüş də dayanar o gedişlə. Mən əgər Mütləq olsam, nə ilə döyüşəcəm. Özüylə döyüş dayanan yerdə də, təbii ki, geri getmə var. Ona görə nə qədər həyatdayam, məndə qüsur olacaq. Özüylə döyüş qurtaran yerdə İnsanlıq qurtarır, Ocaqçılıq qurtarır.

**Soylu Atalı:** Onda yeni bir sual yaranır. Qüsurların var, hələ özündən razı deyilsən. Eyni zamanda nə qədər ki, həyatda varsan, deməli, qüsurların da olacaq. Onda bəşəriyyəti hara çağırırsan, nəyə çağırırsan?

**Günev Atalı**: Mütləq yönə. Yəni ruhaniyyata.

**Soylu Atalı**: Çağırdığın yön nədir?

**Günev Atalı**: Kamilləşmə.

**Soylu Atalı**: Kamilliyi bütün həyatın boyu əldə eləməmisən, ancaq özünlə döyüşmüsən. Məni də çağırırsan, mən neyləyim, mən də kamillik əldə eləməyəcəmsə niyə çağırırsan?

**Günev Atalı**: Mütləq səviyyədən gedir. Söz yox, Soylunun dediyi kimi, o yola düşməyimin özü də bir kamillikdir, yolumu müəyyənləşdirmişəm. Müəyyən mənada kamilliyim var ki, yolumu müəyyənləşdirmişəm. Mən səni həmin o kamilliyə çağırıram.

**Soylu Atalı:** Ora çağırırsan, gəlib çıxdım, bəs sonra? Axı sənin çağırdığın səviyyə, özüyün dediyin kimi, müəyyən mənada kamillikdir, yəni nisbidir qardaş.

Əslində isə sən dərk elədiyin, bildiyin Olmalıya çağırırsan. O izə düşməyə çağırmırsan, o iz azdır. Sən nisbi kamilliyə çağırmamalısan. Günev Atalı: Topluma birdən-birə sən onu deyəndə, o, heç vaxt ağlına yerləşdirə bilmir ki, doğrudan da, ona yetmək olar. Bu qədər

qüsurlarımdan azad olub "O" olmalıyam? Bir var belə deyəsən. Bir var birinci pilləkəni göstərəsən ki, yol budur, yön budur. Bu saat mən ona çağıra bilərəm? Mən Təvəkkülə "O" olmaq deyəndə, deyir ki, yox, qardaş, mənlik deyil. Get kim yetə bilir onu çağır. Ona görə deyirəm ki, qardaş, yön budur. Biz bu yolla gedə bilərik arzuladığımıza. Qüsursuz həyata, ali həyata, əbədiyyətə, ölümsüzlüyə və s.

**Soylu Atalı:** Deməli, belə çıxır ki, Atanın dediyi "İdeal ölçü"nü göstərməməliyəm topluma. Onda heç bir vaxt bəşəriyyət o İdealı tanımayacaq axı. Biz o İdealı bütöv olaraq təqdim eləyirik. Ancaq fərdi ora aparanda, əlindən tutub mərhələ-mərhələ aparırıq.

**Günev Atalı**: Təbii ki, təqdimat başqa şeydir, bu saat mən nəyə çağırıramdan gedir söhbət.

**Soylu Atalı**: Bizim hədəfimiz nədir? O qarlı zirvəni görürsənmi, bax, ora çıxacağıq. Biz ora çıxmaq üçün o dərədən keçib, o döşə çıxacağıq, o döşdən keçib ora qalxacağıq. Amma biz, bax, o qarlı zirvəyə çıxmalıyıq. Sən onu deyirsən, – bizim hədəfimiz qarlı zirvəyə çıxmaqdır. Onu indi-dən göstərirsən. Ancaq aparanda əlindən tutursan, o qarlı zirvəyə mərhələ-mərhələ aparırsan. Bəri başdan o İdealı göstərməlisən ona. Əgər bəri başdan eləmirsənsə, onda heç bir vaxt toplumun ağlında, axtarışında Asif Atanı bəlli eləyə bilməzsən. Asif Ata kimdir, nə istəyir? Onun ölçüsü nədir, idealı nədir?! – Bax, səni ora çağırıram.

**Günev Atalı:** Təbii ki, Mütləq haqda biz onlarla söhbət eləyirik. Mütləq nədir, Əzəli, Əbədi, Sonsuz, Kamil nədir? Bunu deyirsən, ancaq sadəcə olaraq, çağırmaq məsələsinə gətirdim ki, yəni ona gedən yolla qalxmaq...

**Soylu Atalı:** Məsələn, ora çağırıram səni. Sən, bugünkü nəsil, ora çatacaqsan-çatmayacaqsan, mən ora çatacam-çatmayacam ayrı, amma gəl cəhd eləyək. Hədəf odur, çağırdığın odur. Əlbəttə, birdən-birə sıçrayıb ora gedə bilməzsən. Mərhələ-mərhələ gedəcəksən.

İkincisi, özündən razılıq və narazılıq. Sən özündən narazı deyilsən, razısan. Sadəcə olaraq, sən bu məqamda əldə elədiyinlə razılaşmırsan. Onu yetərli saymırsan, daim yenisinə can atırsan. Amma özündən razısan. Bu qədər ömür yaşamısan, bu qədər addım atmısan, bu qədər qeyrət ortaya qoymusan. Gördüyün işlərdən razı olmalısan, amma

yetərlənmirsən. Necə mən razı olmaya bilərəm? Razı olmasaydım, gözümdən düşərdim.

Nə demək istəyirəm?! Bizim ifadələrimiz, anlayışlarımız aydın olmalıdır.

Mən, Soylu Atalı olaraq, əsaslandırılmamış faktı demirəm, nə də əsaslandıra bilmədiyim faktı demirəm. Bütün hallarda sözə qarşı məsuliyyət hiss eləyirəm. Bizim, Ocaq olaraq fikirlərimiz, anlayışlarımız, onların mənası – hamısı aydınlaşdırılmış və əsaslandırılmış olmalıdır. Hər kəs Asif Atanı bizdən öyrənir. Çünki biz məktəbik, Asif Atanı öz kitabından çox bizdən öyrənəcəklər. Sadə toplum Asif Atanın kitabını da bizdən öyrənəcək – bizim həyatımızdan, bizim dediyimiz fikirlərdən, bizim davranışımızdan, bizim insana münasibətimizdən. Ona görə mən bütün hallarda çalışıram ki, fikirlərimiz əsaslandırılmış və təsdiqini tapmış olsun.

**Günev Atalı:** Bu cür söhbətdən təbii ki, mən öyrənirəm. Amma "Rica" deyəndə bir dəfə mən dedim: "Təbiətdə Təbiətdən yüksən olan Mütləq Məna"... Onda Soylu Atalı mənə dedi ki, Təbiətdə təbiətdən yüksək olan Mütləq Məna yox, Təbiətdə Təbiətdən yüksək olan Məna. Çünki Təbiətdə Mütləq Məna deyil, Məna var. Onda məndə belə fikir yarandı ki, Təbiətdəki məna Mütləq deyil, ancaq mənadır. Təbiət o mənaya qovuşa bilmədiyindən Mütləq deyil.

**Soylu Atalı:** Ricalarda Asif Atanın özü elə yazıb. Mən də onu belə əsaslandırmışam: Asif Ata ona görə "Məndə Məndən yüksək olan Mütləq Məna", "Təbiətdən Təbiətdən yüksək olan Məna" (yəni birincidə "Mütləq" sözünü işlədir, ikincidə yox) deyir ki, mən, yəni insan, Mütləqə qovuşa bilirəm, ora özümü aparıram, ona üz tuturam. Təbiət isə özündəki Mənaya bərabər olmur. Heç buna cəhd eləmir də. Amma bu, o anlama gəlmir ki, təbiət özündə Mütləq Məna daşımır. Mən özümdəki mənaya bərabərəm, bərabər olmaq imkanım var.

Sonra, "özündən razılıq" məsələsinə qayıtmaq istəyirəm. Məsələn, şəxsiyyətin özünün özündən razılığı var, bir də qırağın ondan razılığı. Qırağın şəxsiyyətdən razılığı, narazılığı nisbidir. Çünki qıraq şəxsiyyəti tanımır, dərk eləmir, bilmir. Çünki qıraq şəxsiyyətin keçdiyi yolu keçmir, şəxsiyyətin yaşadığı ömrü yaşamır. Ona görə onun şəxsiyyətə münasibəti nisbidir. Şəxsiyyətin özünə münasibəti mütləqdir. Şəxsiyyət

özü Mütləqə çatıb-çatmamağından asılı olmayaraq, özünə münasibəti mütləqdir. Yəni özündəki qüsurları tanımağa, deməyə yönəlik münasibəti də tam səmimidir, özündəki gözəllikləri deməyi də. Ona görə özü mütləq olmasa da, özünə münasibəti mütləqdir. Yəni özü-özünü aldatmır, gizləmir və özünü olduğu kimi görür, olduğu kimi qiymətləndirir. Razılıq və narazılıq da ordan yaranır. Nə vaxt narazıyam? O vaxt narazıyam ki, özümə münasibətdə mütləq deyiləm, səmimi deyiləm. Qüsurumu qüsur kimi, gözəlliyimi gözəllik kimi tanıyıb, deyə bilmirəm. Onda mən özümdən narazıyam. Amma özümdən narazılığım ardıcıl, davamlı, sistem halında deyil. Qüsura enəndə narazı qalıram. Ancaq bütün hallarda qüsur üstə yaşamıram axı. Ola bilər hansısa səbəbdən qüsura yol verə bilərəm. Ancaq mən qüsur üstündə yaşamıram. Mütləq tələbin yolunda yaşayıram. Bax bu cəhətdən də özümüzə münasibət burda da aydın və şəffafdır. Ona gəlib çıxırıq ki, bütün bəşəriyyətin çaşdığı və özü üçün aydınlaşdıra bilmədiyi, dərk eləyə bilmədiyi məsələ var – İnsanın özünə, gerçəkliyə münasibəti necədir, necə olmalıdır? Bizim münasibətimizdə hər şey aydındır. Anlayışlarımız öz yerinə gəlir, ifadələrimiz, hər şeyimiz öz yerinə gəlir. Hər şeyimiz öz yerinə gəlib çıxandan sonra İnsana sağlam münasibət başlayır. Hər şey yerində olmayanda münasibət hardan başlasın – bəlli olmur. Münasibət qaçır ora-bura. Gah qüsurlu əhvalımdan başlayır, gah qüsursuz əhvalımdan, gah şərdən, gah xeyirdən. Yəni münasibət qaçır, bəlli olmur. Qarşıdakına, dünyaya, insana. Gah qalxırsan, gah enirsən, gah əyilirsən, gah düzəlirsən. Yəni ömür həlməşik bir şeyə çevrilir. Amma Atanın anlayışlarıyla dolursan, məzmunuyla dolursan, aydın olur, doğru olur və doğru olandan sonra sənin həlməşik münasibətin hamısı sabitləşir. Bayaq sağ-sol gedirdin, dünyanın, həyatın bəsitliyindən sərxoş idin. Amma ayılmısan, düz gedirsən. Bu baxımdan, sənin, Atanın kitabından, yazdığın məsələlər ki var, bunların özünə gərəkəndə şərhlər vermək doğrudur.

**Elana Atalı:** Sözümə Mütləqim, Müqəddəsim, ulu Peyğəmbərim Asif Atanın adına səcdə ilə başlayıram. Bayrağımızı öpürəm.

Hər dəfə xalq arasında, insanlara münasibətdə çalışıram ki, bildiklərimdən bacardığım qədər deyim, Atanın həqiqətini göstərim.

Tam yetgin səviyyədə olmasa da, ancaq nələrsə məndə alınır. Yaxşı da qarşılanır, çoxlu suallar verilir.

**Soylu Atalı:** Fərdin obrazlaşması deyirlər. Yəni obrazlaşma nə deməkdir? Bəlli bir keyfiy¬yətin olur, tanınırsan. Ona görə bir bşey olanda, deyirlər bunu filankəsdən soruş. Bunu niyə deyir? Sən daim doğru danışmısan, insani fikirlərini ortaya qoymusan, davamlı şəkildə deyirsən, görürlər ki, sənin dediyin müqəddəsdir, sözünü dəyişmirsən, yönün dəyişmir. Hər şeyin sabitliyinlə ölçülür. Tərəzi də sabitdir. Ona görə onun adı tərəzidir. İnsan da tərəzidir, kimlər üçünsə ölçüyə çevrilə bilər. Bu qədər ciddi, zəngin, ləyaqətli ömür yaşayanda ölçü yaranır.



**Elana Atalı:** Ocaqçı kimi özümdən razı deyiləm, ancaq həyatda Ocaqçı kimi özümdən razıyam.

Mövzuya yönəlik bir cümlə də mən əlavə edim. Sevmək rahatlığı itirməkdir. Bir adamı sevmək rahatlığı əldən alır. Ancaq Ocağı sevmək, Atanı sevmək insana azadlıq verir. (*Elana Atalı özünün evdə, qıraqda davranışlarından bəhs etdi* - *T.A.)*

**Soylu Atalı:** İndi mən hesabatıma başlayıram.

23 Yağış Ayı, 36-cı ilimizdə Atagün Ailəsinin 8-ci aylıq mərasimində söz demək üçün Ataya səcdə qılıb Bayrağımızı öpürəm. Mən də sözümə Amallaşmadan başlayıram. Amallaşmamın mühüm bir cəhəti var. Həm kitabdan, həm düşüncələrimdən, həm gördüklərimdən, həm Atanın özündən, bir sözlə, hər bir şeydən Atanı öyrənirəm. Diqqətimi cəlb eləyən hadisələr olur, elə məqamlar olur ki, məni Atanın insan haqqında, dünya haqqında dediyi fikirlərə aparıb çıxarır. Mən o fikirlərdə Atanın mənalandırdığı prinsplərlə daha da möhkəmlənirəm. Hər zaman mənim varlığımda o özünü göstərir. Məsələnin Amallaşma tərəfinə gəlincə, daha doğrusu, hesabat tərəfinə gəlincə, düşündüyüm bir sıra məsələlər olub. Bir az öncə insana münasibət məsələsini sual şəklində qoydum. Bu mənim düşündüyüm məsələdir və özümə verdiyim suallardır həm də. Onu da sizə deyim ki, özümə cavabsız suallar çox verirəm. Cavabsız, yəni düşünürəm, amma yazmıram cavablarını. Sadəcə sualı yazıram. Bildiyiniz kimi, mənim özümə suallar dəftərim var. Bəşər tarixində birinci fərdəm ki, "özünə suallar gündəliyi"m var. Mən bunu fərqlənmək üçün, orijinallıq üçün eləməmişəm. Mənim içimdən keçib ki, bu suallar itməsin.

Son suallardan biri də insana münasibət məsələsidir. Yəni insana sevgi və insana səcdə. Ataya münasibətimiz səcdəli münasibətdir. Sevdalı münasibətdən daha yüksəkdir. Sevgili münasibət nədir, səcdəli münasibət nədir? Niyə biz Ataya səcdəli münasibət bəsləyirik? Sevgidən daha yüksək münasibət bəsləyirik? Sevgi bəs deyilmi? İçimizdə bu sualların mənasına vardıqca ləyaqətimiz ölçüyə çevriləcək. Bir insan gözümüzün qabağında özünü yaxşı aparar. Ayrı-ayrı hallarda əlimizdən tutar, yaxşı işlər görər. Bizim ona münasibətimiz getdikcə sevgiyə çevrilər. Sayğı həddini aşar, sevgi yaranar içimizdə. Sonra, körpə uşağı çox sevirik, bağrımıza basırıq. Niyə? Körpə uşaq safdır, arıdır, durudur. Qüsurlara bulaşmayıb, eybəcərliklərlə yarışmayıb. Ona görə də onun məsumluğu, saflığı içimizdə duyğu yaradır, sevgimizə daxil olur və sevgimizlə biz onu əzizləyirik, bağrımıza basırıq. Elə gözəl münasibətimiz yaranır ki, sevgimizin özü çox yüksək səviyyədə olur. Amma deyə bilmərik ki, o sevgi səcdədir. Ali bir sevgidir, bəlkə də heç ifadəyə gəlməyəcək dərəcədə gözəldir. Bir də var səcdə. Səcdə kimə olur? Səcdə körpə uşağa olmur. Səcdə yetkin, idraklı, yüksək

mənəviyyatlı, qurucu insana olur. Çünki o insan körpə deyil ki, deyəsən bu həmişə saf, məsumdur. O insan bütün çirkabların içindən arınıb çıxıb. O böyüdükcə, yaşa dolduqca həyatın hər bir üzüylə qarşılaşıb, görüşüb. Hər bir eybəcərliklə görüşüb, onlardan heç birini götürməyib. Öz ömrünü arı, duru saxlayıb, yaxud da ömrünü arılaşdırıb. Onun düşüncəsi, fikri, yol göstərməsi, müdrikliyi – hər şeyi bizim müşahidələrimizdə, ağlımızda, içimizdə təsirə çevrilir və bizim içimizdə davamlı olaraq heyrət yaradır, ülviyyət yaradır, gözəllik yaradır. Gözəlliyə yönəldir, heyrəti tanıdır, böyüklüyü tanıdır, bunları bizim içimizdə əkir. Biz ona münasibət sunarkən sevgidə dayana bilmirik. Sevgi o qədər aşıb-daşır, dolur ki, mümkün deyil sevgidə dayana biləsən. Sevgi həddini aşır münasibət. Bilmirsən ona münasibətini necə ifadə eləyəsən. Sevgi özündən yüksəyə qalxır. Ona görə biz şəxsiyyətin əlini öpürük. Səcdə yaranır. Davamlı şəkildə bizə ülviyyəti göstərən, tanıdan, içimizi saflıqla dolduran, heyrətlə dolduran, gözəlliklərə münasibətlə dolduran bir şəxsiyyət bizim ömrümüzə işıq salır, mənəviyyatımıza işıq salır. Mənəviyyatımıza işıq saldığı qədər də bizim ona səcdəmiz yaranır. Bax, bu, insana münasibət məsələsidir. Bu əslində Asif Atanın "İnsanlaşın-İnsanlaşdırın" harayının təsdiqidir.

Bir haşiyə çıxım. Mənim barmaq sayda Amaldaşlarım var. Onları sevirəm. Onların qüsurlarına heç bir vaxt yapışmaq meylim olmayıb. İlk baxışda, insana baxanda, ilk gördüyüm – pis şey olmur, yaxşı şey olur. Çalışıram ki, ilk baxdığımda pis şeyi görməyim, həmişə yaxşı şeyi görüm. İlk baxdığımda pisə baxsam, onda mənim ona münasibətim yaranmayacaq, sevgim cücərməyəcək. Yaxşını görməklə yanaşı ali səviyyəyə heyrətlənmək gücü də olmalıdır insanda.

Fərd heyrətlənə bilməyəndə asan davranır, asan danışır. Heyrətlənə biləndə dili topuq çalar. Sənə heyrətlənim və sənin haqqında nə gəldi danışım, mümkün deyil. Ocaqçının birinci işığı heyrətdir. Yeri gəlmişkən, ona görə Nurtəkinin kitabının adını "Heyrətimin inciləri" qoyduq.

Ocaqçı olaraq hər kəs bilməlidir, dərk eləməlidir, bizim işimizin yönü, çağırışımız, harayımız "İnsanlaşın-İnsanlaşdırın" ideyasına bağlıdır. Bütün varlığımızın qayəsi odur. "İnsanlaşın-İnsanlaşdırın" məsələsi birbaşa bizim insana münasibətimizi oluşdurur. İnsana doğru münasibətin yoxdursa, Ocaq yoxdur, daha doğrusu Ocaq deyilsən.

Çünki sənin qarşına məqsəd qoyulub ki, sən İnsanlaşıb İnsanlaşdırmalısan. Din deyir bəndələş – Allahlaşdır. Onu da eləyəndə kölələşirsən. Asif Ata deyir İnsanlaşın-İnsanlaşdırın. Asif Atanın dediyi odur ki, İnsana münasibətin əyri ola bilməz. Əgər əyri olacaqsa, onda Ocaq yoxdur, Ocaq baş tutmaz.



Əgər dinin prinspi insanı bəndə eləyə bilməsəydi, onu Allaha aşağıdan yuxarı buzov heyrətiylə heyrətləndirməsəydi, din olmazdı. Din elə ondan oluşur. Asif Atanın baxışı isə, dediyimiz kimi, “İnsanlaşın-İnsanlaşdırın”dır. Ona görə sənin bütün fikrin, diqqətin İnsana münasibət üzərində olmalıdır. İnsana münasibət özünə münasibəti ifadə eləyir, amaldaşına münasibət məsələsi var və s. Bax, bu dediklərim, əslində mənim “İnsanlaşın-İnsanlaşdırın” ideyası üzərində düşündüyüm bir məqamdır.

Sonra, mənim gəldiyim bir qənaət olub “İnsanlaşın-İnsanlaşdırın” ideyamızın, çağırışımızın məğziylə bağlı. Ailə övlad gətirir dünyaya və onu tərbiyə edib böyüdür, xalqa verir, belə deyək. Ancaq bu ailə nədir? Böyütdüyü nədir, xalqa verdiyi nədir, yaxud kimdir? Bunu durub araşdırırsan, öyrənirsən o, xalqa nə verib, kimi verib? Xalqa şəxsiyyətmi

verib, (anamın sözü olmasın) cirimi verib?! Xalqa şəxsiyyəti vermək üçün ailə qurulmalı, mənasına bənzər olmalıdır. Ailədə övlad nədən doğulub, nədən böyüyüb? Bu sual çox mühüm məna daşıyır. Asif Atanın istəyi də odur, "İnsanlaşın-İnsanlaşdırın" çağırışının canı da odur. Ailə məhəbbət əsasında qurulmalıdır deyir Ata. Məhəbbət əsasında qurulmayıbsa, ailə deyil. Deməli, dünyaya gələn övlad məhəbbətdənmi doğulub, üzr istəyirəm, cinsiyyət istəyinin tələbatındanmı doğulub? Məhəbbətdən doğulan övladı məhəbbət böyüdür. Atanın anaya, ananın ataya məhəbbəti böyüdür, tərbiyə verir.

Bir də, ailədə həyata münasibət məsələsi də böyütdüyünün həyatında rol oynayır. Böyütdüyünün kimliyində rol oynayır. Ailənin işi, peşəsi maddiyyat azarına tutulmaqdır. Daim maddiyyat dalınca yortur. Heç kimdən geri qalmamaq üçün, dayanmadan, səhərdən-axşama doğub dünyaya gətirdiyi uşağı işlədir, yükləyir. Onu məhrum eləyir xalqdan, düşüncədən, sevgidən, göylərə baxmaqdan – hər şeydən məhrum eləyir. Hər şeydən məhrum elədiyin övlad necə xalq ola bilər? Xalq ola bilməz. Ona görə də, yenə gəlib çıxıram "İnsanlaşın-İnsanlaşdırın" məsələsinə. Ailə məhəbbət əsasında qurulmalıdır, bir-birinə məhəbbət bəsləyənlərin övladına verdiyi ömür yönü əsasdır.

Bir qismi də var ki, nəinki övladını işlədir, heç ayaqla 10 addım yeriməyə də qoymur. Harın böyütməklə, əziyyətdən qırağa çəkməklə, gizləməklə bu tip valideyn də övladını xalqdan məhrum eləyir, vətəndən, düşüncədən, bütün göylərin əsrarından məhrum eləyir, cəmiyyətə, xalqa parazit verir.

Həyat belə qurulub, ona görə Asif Ata bu axını ləğv eləmək üçün ortaya çıxıb dedi: "İnsanlaşın-İnsanlaşdırın. Bəşərin nicatı insanlaşmaqdadır"...

İndi gəlirəm Asif Atanın dediyi başqa bir çaların üstünə. Asif Ata daha nələri ömrümüzə gətirir? Nələri ləğv eləyir? Xristianlıq yoxsulların dini sayılırdı. Yoxsulların dini olan xristianlıq, əgər İsanın çarmıxı olmasaydı, bu dərəcədə müqəddəsləşməyəcəkdi. Deməli, xristianlığı insan¬ların diqqətində, münasibətində müqəddəsləşdirən dinin özünün insana yönəlik çağırışı deyildi. "İnsanlaşın-İnsanlaşdırın" çağırışı yox idi. İsanın çarmıxıydı, ona qarşı yaranan mərhəmət hissi idi. Məhəmmədin dinini insanların diqqətində müqəddəsləşdirən nə idi?

Yazdığı Quranı Allahın kəlamı elan eləməsi. Quran indiki təfəkkürlə götürəndə bəsit deyimlərdən ibarət kitabdır. Bu cür bəsit təfəkkürdən ibarət kitabın məhz Allahın kəlamı olduğunu elan eləməsi, Allah xofu, qorxusu, Allahın varlığının insandan əlçatmaz dərəcədə yüksəkdə elan olunması İslamın müsəlmançılığını insanların nəzərində müqəddəsləşdirdi. Bu müqəddəsliklər Mütləqə çatmayan, həqiqətə yetməyən müqəddəsliklərdir. Avamların diqqətinə sunulan müqəddəsliklərdir. İnsanların ömründə bitən müqəddəslik deyil. Burada başqa bir pis şey də yaranır: "Bütün ölənlər diriləcək və İsanın hüzuruna gedəcək". Mən bunu düşünürəm, görürəm "burda yerə-göyə sığmayan əxlaqsızlıq var. Əslində "insanlar diriləcək və İsanın yanına gedəcək" deyə bir sıra Xristianlıq etiqadı daşıyan cavan qızlar, xəyallarında nəinki İsanın hüzuruna gedəcəklərini düşünür, özlərini İsanın ağuşunda görürlər, umsunurlar ona. İsanın arvadı olacaqlarına hətta. Necə ki, Məhəmmədin müsəlmanları yuxusunda da, düşüncəsində də özlərini hüri-pərilərin ağuşunda hesab eləyirlər. Bax, Asif Ata gəlib "İnsanlaşın-İnsanlaşdırın" harayıyla insanın ləyaqətini, yönünü, ixtiyarını özünə tanıtmaqla bu cür eybəcərliklərin qarşısını alır. İnsanın varlığında, diqqətində, baxışında belə əxlaqsızlıqların qarşısını kəsdi, sədd çəkdi. Bu da Asif Atanın böyük bir uğurudur...

Bu gün düşündüklərimin hamısını sayıb-sadalamaqla vaxtı çox uzatmaq istəmirəm. Mənim Amallaşmam özüm üçün özəl hal daşıyır. Hər gün Amallaşıram, hər gün öyrənirəm. Son çağlar Hüqonu oxuyuram, "Tərəqqi və antitərəqqi" əsərimi işləmək istəyirəm. Bununla bağlı əlavə fikirlərim, düşüncələrim çox olur. Əlbəttə, bu gün bunun müəyyən bir hissəsini vurğu eləmək istədim. Onların hamısı yazıla biləcək bir əsərin məhsuludur.

İkinci, Kamilləşmə məsələsiylə bağlı bir neçə kəlmə demək istəyirəm. Mənim ən çox özümə baxdığım, özümü təhlil elədiyim, özümü gördüyüm və narahat olduğum mühit iş mühitimdir. Başqa yerlərdə mənə narahatlıq gətirə biləcək bir mühit yoxdur. Çünki iş mühiti elədir ki, bağlı oluram və orda müəyyən bir məsuliyyət daşıyıram. Mənim qırağa çıxmalarım orda ola bilər. Başqa yerdə qırağa çıxmalarım, demək olar ki, olmur. İş yerimdə mənim qırağa çıxmalarım nə olur? Bəzən görürəm ki, işə münasibətim həlledici olur. İnsanlara münasibətim

hardasa kölgələnir. Bəzən görürsən kobudlaşır. Bunu mən hesabat xatirinə demirəm. Bu mənim yaşadığım bir ağrıdır. Elə bir hal keçirəndən sonra hədsiz dərəcədə gərginləşirəm. Niyə o məqamda mən enə bildim?! Enirəm, enəndə də görürəm gərginləşirəm. Pərtlik gətirir içimə. Mənim qarşımda qoyduğum bir tələb var. Bu tələbə də o məqamlarda cavab verə bilmirəm, onda yenidən yeni bir qüsura enirəm. O qüsuru da o anda əhvalımda rahat həll eləyə bilmirəm. Düşünürəm bununla bağlı. Deyəsən buna da təkan verən əsəblərimi çox yükləməyimdir. Əsəblərimi yükləməyim də qaçılmazdır. Qaçılmazdır, çünki həm işlərim çoxdur, həm də maraqlıdır ki, mən iş görəndə yox, iş görməyəndə pis oluram. İş görməyəndə əsəbləşirəm. Tədbiri işləyirəm, onu qurtarandan sonra fərəhlənirəm. Qurtarandan sonra o biri işi götürürəm. Bax belə bir hal yaranıb məndə. Pisdir, yaxşıdır, məsələnin o tərəfini vurğulamaq istəmirəm. Deyirəm ki, Atanın "İnsanlaşın-İnsanlaşdırın" harayı var və o harayın nə demək olduğunu, mahiyyətini o qədər dərk eləyirəm ki, dərk elədiyim məqama bir balaca xələl gətirəndə, dediyim kimi, qatıb-qarışdırır içimi, gərginləşdirir, pis təsir eləyir. Ancaq məni qoruyan, xilas eləyən nədir? Xilas eləyən davamlı şəkildə sevinmək, tükənməyən sevinc. O da nəylə bağlıdır? Dediyim kimi, Ruhani işimin çoxluğuyla. Özümdə də bir hal yaranıb. Elə bil ki, sevinc dalğaları yaranıb. Heç cür istəmirəm ki, o dalğa qırılsın. Ona görə işi işin dalınca düzürəm, dəhşətli dərəcədə sevə-sevə gedirəm. Sevinc içimi elə gözəl cilalayır, bəzən deyirəm ki, o cür əhvalla adam 200 il yaşayar.

Hesabatın başqa bir tərəfi xalqlaşmaya bağlıdır. Mənim bu ay, hələ də başa çatmayan işlərim çox hüdudsuz olub. Xəzan Ayının (oktyabr) 30-u "Ailə Günü"nü, ayın 3-ü Türkel Araşdırma Qurumunun tədbirini keçirdik. Yağış (noyabr) Ayının 5-i orta məktəbdə böyük bir görüş keçirdim. Ayın 7-si Atanın çap elədiyimiz kitablarının hamısından kitab evlərinə, kitab dükanlarına daşıdım. Ayın 12-si bir neçə fərdlə görüşüm oldu, 13-ü "İnam Evi Günü" Mərasim-Törənimiz oldu. 16-sı yenə fərdi görüşlərim oldu, 20-si məktəbdə böyük bir görüş keçirdim. 23-ü bura gəl¬dim, 26-sı məktəbdə görüşüm olacaq, 27-si "Uluyol-Hünər" Ailəsi ilə "Ulufərəh" Ailəsinin birgə "Ailə Günü" tədbiri olacaq. Bu tədbirlərin hamısını işləmişəm, mətbuata vermişəm, üstə gəl kitabları işləmişəm,

tədbirlərlə bağlı yazıları yazmışam. Bu işlər hamısı sevinc dalğaları yaradır. Mənə zəng eləyib kimsə soruşanda necəsən? Mən "əla" sözündən başqa bir şey demirəm. Mənim iş yoldaşım deyir ki, səndən soruşanda deyirsən ki, əla. Sən doğrudan əlasan? Deyirəm, mən bu qədər işlər görürəm, özümü o qədər zəngin ruhani işlərlə yükləyirəm ki, səhv eləməyə vaxtım yoxdur. Heç səhv haqqında düşünməyə belə vaxtım yoxdur.

Bəli, mənim Xalqlaşma işim Amallaşma işimlə bağlı olaraq çox zəngindir.

Amallaşmanın məzmunu ilə bağlı bir neçə kəlmə demək istəyirəm. Ocaqçılarımız bəzən hesabat verib deyir ki, mənim bu ay Xalqlaşma işim olmayıb. Bu o deməkdir ki, Amaldaşımız Xalqlaşmanı yalnız kimlərləsə ünsiyyətdə görür.

**Günev Atalı:** Elə mən də elə bilirəm.

**Soylu Atalı:** Qardaş, o Məbədin divarına beş dənə daş qoyursan. O, xalqlaşma işidir. Mən Türkel Araşdırma Qurumunun tədbirini redaktə eləyirəm. O, Xalqlaşma işidir. Xalqa təqdim eləyirəm Atanın ölçüsündə deyilən o düşüncələri. "Ailə Günü" tədbirini səsdən sözə çevirirsən, o xalqlaşma işidir. Mən redaktə eləyirəm, o xalqlaşma işidir. Atdığın addım, hər şeyi ki, toplumun diqqətinə göndərirsən, divarın içindən çölə göndərirsən, o, xalqlaşma işidir, xalq yaratma əməlidir. Xalq yaratma təkcə o deyil ki, getdim fərdin yanına söhbət elədim. Sənin burda gördüyün iş həm də xalqlaşma işidir. Bu həm Amallaşmadır, həm Xalqlaşma, həm də Kamilləşmədir. Bir də konkret olaraq, Amal "xurcununu" götürüb gedirsən səfərlərə, bu, birbaşa qatqısız xalqlaşmadır. Bir də var ki, bu işi görürsən, o işi görürsən, Atanın fikrini, sözünü yazırsan, öyrənirsən, şərh eləyirsən. Bunu da götürüb mətbuata çıxardırsan, sabaha təqdim eləyirsən. Xalqlaşma bu gün də baş verə bilər, sabah da baş verə bilər. Sənin Xalqlaşman həm bu gündə var, həm sabahda var. Sən özündən sonra da xalqlaşacaqsan. Məgər bu işlərin hamısı Asif Atanın xalqlaşması deyilmi? Məgər sənin Fizuli bölgəsinə gedib apardığın söhbət Asif Atanın xalqlaşması deyilmi? Səni qurub qoyub ortaya, sənin vasitənlə xalqlaşır, mənim vasitəmlə xalqlaşır. Bunların məzmununu izah eləmək Xalqlaşma işidir. Fərdi xalqlaşmamız var, eyni zamanda birgə xalqlaşmamız var. Bizim bugünkü tədbirimiz

həm Amallaşmadır, həm Kamilləşmədir, həm Xalqlaşmadır. Ailə kitabı yaranacaq, səsdən sözə çevriləcək. Sənin bu tədbirin xalqa söz deyəcək. Saytımızın Ailə kitabı odası var ayrıca. Bunlar hamısı kitab şəklində qoyulur ora.

Bunların hamısının sonunda yenidən bayaqkı fikrimin üstünə gəlmək istəyirəm. Bizim dediyimiz sözün, fikrin hamısını, Ailə Günləri ondan ötrüdür ki, incələyək. Özümüzə nəyi aydın eləyiriksə, onu sabahkı üçün də aydın eləyirik. Yenə vurğu eləyirəm ki, bizim hər bir əməyimiz, işimiz, davranışımız, dediyimiz söz, fikir, kəlam – hamısı bizi sabah davam edəcək insanlar üçün məktəbdir. Necə ki, Asif Atanın nəyi varsa, bizim üçün məktəbdir. Bizdən sonrakı üçün də məktəbdir. Bizim özümüzün artıq hər bir işimiz bizdən sonrakı üçün məktəbdir. Davam eləyir bu, qırılmazlıq yaranır. Bir ömürdən başlayan, ömürlərdə ifadə olunan, qurulan və ömürlərə calanan böyük bir hərəkat, əməl. Ocaqçılıq budur.

Sonuncu mövzumuzla bağlı deyim. “Sevgi rahatlığı itirməkdir, bəs azadlığı necə itirməkdirmi?”. Sevgi, konkret olaraq, fərdə münasibət kimi olanda, deyək ki, bir oğlan bir qızı sevir, bir qız bir oğlanı. Sevgi vüsal çağırandır. Nə qədər ki, sevgi vüsalda sonuclanmayıb, o, fərdin rahatlığına qənim kəsilir. Fərdin rahatsızlığı nə deməkdir? O deməkdir ki, o, vüsal istəyir. Sevir bu kişini, bu qadını, qovuşmaq istəyir. Nə qədər ki, qovuşmayıb, həsrət var. Həmin həsrət onun içəridə rahatsızlığı deməkdir. Həsrət içəridə böyüyür, qovrulur, tələb eləyir, ehtiyac yaradır. Əli ələ çatdırmaq istəyir, üz-üzə oturtmaq istəyir, göz-gözə baxdırmaq istəyir, tellərini oxşatmaq istəyir və s. və i.a. Bu həsrət vüsalın yolunda sevgi üçün bir mərhələdir. Ona görə rahatlığı pozur. Ancaq özgürlük (azadlıq) məsələsi var. Özgür olmaq. Bəs öz nə deməkdir? Asif Atanın fikri var: “iki şəxs bir olanda sevgi təsdiq olunur”. İki şəxsin bir olması nə deməkdir? İnsan özünü başqasında tapır. Fərd özümləşir, özünün ülviyyətinə qovuşur, gözəlliklərinə qovuşur. Hər kəsdə özündəki gözəllikləri axtarır. Görəndə özünü onda tapır, görməyəndə özünü onda yaratmaq istəyir. Bax, özündəkini onda tapdığına görə sevir. O onu sevdiyinə görə, o münasibət özgür olur. Özgür, yəni özünə bağlı olur. Özünə dayaq olur, özünə yarar olur. Azadlığın adı odur. Ona görə insan azadlığı itirmir. Əksinə, tapır. İnsanın özgürlüyü (azadlığı) nədir? İçində

ülviyyəti aşkarlamaq, gözəlliyi aşkarlamaq, onu başqasına vermək, yaxud başqasında görmək. Özündəkiylə başqasının vəhdətindən heyrətlənmək, fərəhlənmək, sevinmək, yaşamaq. Özgürlüyün adı budur. Bu ona qovuşur. Amma nə qədər ki, bu yoxdur, insan əsarətdədir. O onun özümlüyüdür. Başqasında özünü tapmaq, başqasıyla vəhdət, başqasını sevmək özümlüyüdür onun. Bəs özümlüyü olmayan kimdir? – Heyvani ömür yaşayan. Yəni həmin özününkü olan mahiyyətdən ayrılıb biologiyanın əsarətində, tələbində yaşayan. Biologiyanın tələbində yaşamaq əsarətdir. Mənasından ayrılıb özünə aid olmayan tələbdə yaşayır. Özümlüyünə aid olmayan bir tələbdə yaşayır. Zindanda yaşayır. Bu onun üçün əsarətdir. Azadlıq deyil. Azadlıq – bu əsarətdən çıx¬maq, bu tələbdən ayrılıb həmin özümlüyünə üz tutmaq. Özümlüyü də, dediyim kimi, başqasını sevə bilmək. Bu böyük mənada gəlib çıxır əqidəyə. Biz adi həyat yaşayırıq. Hər bir doğulan adam gözünü açır, eyni şey görür. Qoyuna gedir, mal otarır, bir-birilə dalaşır, bu ondan oğurlayır, o bundan... Bunu görür hər bir fərd, bunu davam eləyir. Günlərin bir günü biri çağırıb deyir ki, bu bəsit həyatdır. Gəl bura, sənə başqa şey göstərəcəm. Başqa şey nədir? Amal, əqidə. Bu əqidənin dalınca get. Bu əqidənin içinə girəndən sonra o görür ki, onun bu vaxtacan üzləşdiyi nə varsa, uçurum imiş. Əqidə onun əlindən tutur, ali, gözəl mənaya qovuşdurur. Özünəməxsusluğa, özünü var eləyən cəhətlərə tapşırır. O əqidədə onu tapdığı qədər, o, öz azadlığını tapmış olur. Öz özümlüyünü, varlığını tapmış olur. Ona görə Amal bizi özümüzə, öz mənamıza bağladığı üçün, qaytardığı, ona doğmalaşdırdığı üçün bizim azadlığımıza çevrilir. Amal bizim azadlığımızın adı olur, ünvanı olur. Həyat bizim özgələşməyimizin ünvanı olur. Amal bizim özümləşməyimizin ünvanı olur. İnsanın özümləşməsi onun özgürlüyüdür (azadlığıdır). İnsanın həyatlaşması onun əsarətidir. Bizim ixtiyarımız həyatın əlindəydi, bu tərəfdə bizim özümlüyümüz vardı. İxtiyarımızı həyatın əlindən alıb özümlüyümüzün əlinə verdik.

Amal səni özümlüyünə qaytardığı üçün ixtiyarını özünə verir. Əslində ixtiyarı Amala vermək ixtiyarını əlinə almaqdır. İxtiyar və azadlıq məsələsi. İxtiyar odur ki, fərd hansı tələbdə addım atır, nəyin tələbində fəaliyyət göstərir. İxtiyarımı nəyə verirəmsə, o, tələb eləyir belə yaşa, belə davran. Azadlıq isə budur ki, ol! Yəni Azadlıq olmaqdır,

olursan, İxtiyar isə olmağa doğru fəaliyyət göstərməkdir. İxtiyarı əldən vermək – fəaliyyət nəticəsində özgürlüyə qovuşmaqdır. Yaşasın Ata!

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız Var olsun!

Atamızın Bayrağını öpürəm.

**Günev Atalı:** Gedişat üzrə Müqəddəs Oxuma. "Təməl" kitabından növbəti hissəni oxuyuruq:

**Xalqın təməli**

Xalqın Təməli – Fərddir.

Xalq – Fərd Mahiyyətindən, Mənasından yaranıb.

Fərd Özünəməxsusluğunda, Bənzərsizliyində Xəlqi Mahiyyət yaşayır.

Xalq Varlığının Mahiyyəti, Mənası – Fərdiyyətdir.

Xalq – Fərd Təməli üzərində Yüksəlir.

Fərd Özünəməxsusluğunda, Bənzərsizliyində Xəlqi İnam yaşayır.

Özünəməxsusluq, Bənzərsizlik Xəlqi İnamı yaşadır.

Fərd Özünəməxsusluğunda, Bənzərsizliyində Xəlqi İdrak yaşayır.

Özünəməxsusluq, Bənzərsizlik Xəlqi İdrakı yaşadır.

Fərd Özünəməxsusluğunda, Bənzərsizliyində Xəlqi Mənəviyyat yaşayır.

Özünəməxsusluq, Bənzərsizlik Xəlqi Mənəviyyatı yaşadır.

Fərd Özünəməxsusluğunda, Bənzərsizliyində Xəlqi İradə yaşayır.

Özünəməxsusluq, Bənzərsizlik Xəlqi İradəni yaşadır.

Fərd yetişib Xalq olur.

Xalq Fərd yetkinliyindən yaranır.

Fərd Yetkinliyi – Fərdlər Birliyi yaradır: – Özünəməxsuslar, Bənzərsizlər Birliyi yaranır; Xalq – Özünəməxsusluğu, Bənzər¬sizliyi yaşadır.

Xalq – Özünəməxsuslar, Bənzərsizlər Birliyi deməkdir əslində.

Xəlqi Birlik – Özünəməxsusluqdan, Bənzərsizlikdən yaranır.

Hamılaşma – Xalqlaşmaya qarşıdır.

Fərdiyyətə qarşı çevrilmiş İnam – İnamsızlıqdır.

Fərdiyyətə qarşı çevrilmiş İdrak – İdraksızlıqdır.

Fərdiyyətə qarşı çevrilmiş Mənəviyyat – Mənəviyyatsızlıqdır.

Fərdiyyətə qarşı çevrilmiş İradə – İradəsizlikdir.

Fərdi İnam Böyüyüb Xəlqi İnam olur.

Fərdi İdrak Böyüyüb Xəlqi İdrak olur.

Fərdi Mənəviyyat Böyüyüb Xəlqi Mənəviyyat olur.
Fərdi İradə Böyüyüb Xəlqi İradə olur.
Fərd Böyüyüb Xalq olur.
Fərd toxumundan Xalq Ağacı Bitir.

**Soylu Atalı:** Bir misal deyə bilərikmi ona? Yəni "Fərdi İdrak böyüyüb Xəlqi İdrak olur"-a.

**Günev Atalı:** Yəni Ruhaniyyat – İnam, İdrak, Mənəviyyat və İradə bütövlükdə kütlədə yaranmır. Bir fərdin düşüncəsində yaranır, yetişir və ondan ətraf işıqlanır, ötürür. Yavaş-yavaş həmin o bənzərsizlər, inamlılar birliyi yaranır.

**Soylu Atalı:** Fərd ölüb gedir, ancaq o idrak ölmür. O xalqda qalır. O düşüncə ölmür, xalqda qalır. Yəni ötürülə-ötürülə o xalqda qalır. Məsələn, fərd deyir ki, xalq adlanan bir toplumun bir-birinə bağlanması üçün belə bir dəyər yaranıb. Bu dəyər xalqı bir-birinə bağlamalıdır. Deyək ki, Mütləqə İnam dəyəri xalqı bir-birinə bağlayır. Xalqı bir-birinə bağlayan dəyər yaşayıb, qorunur, var olur. Bunu yaşadan müqəddəs bir məkan var. Onun adı vətəndir. Fərd bu qərara, qənaətə gəlir, bunları deyir. Bunu hamı kütləvi deyə bilmir. Fərd deyəndən sonra artıq hamı deyir onu. Hamının içində olan, ifadə eləyə bilmədiyini fərd özündə aşkarlayır və onu xalqın özünə qaytarır. Sonra hamı deyir ki, vətənimizi qorumaq lazımdır, sevmək lazımdır. Bax, əslində Fərdi idrakın Xalq idrakına çevrilməsi budur. Məsələn, yunan filosofları – Sokrat, Platon dövlət ideyasını irəli sürdü. Sonradan bütövlükdə xalq onu dedi ki, belə olmalıdır. Yəni fərd idrakı böyüyür, xalq idrakına çevrilir əslində. (Kitabı oxumağa davam edir – T.A.)

Fərdsizlər Birliyi olmur – Fərdsizlər cəmi olur.
Xəlqi Zənginlik – Fərdi Zənginlikdir əslində.
Xalqa Yetməyən Fərd – Fərdsizlikdir;
Fərddən Yetirilməyən Xalq – Xalqsızlıqdır.

**Soylu Atalı:** "Xalqa yetməyən fərd fərdsizlikdir". Bayaq dedin ki, fərdin idrakı xalqın idrakına çevrilir. Xalq fərddən başlayır. İndi sanki əksinə deyilir?

**Günev Atalı:** Deməli, xalq həmin idraka yetməyib. O inama, mənəviyyata yetməyib. Özünü öncə fərdiyyət kimi formalaşdırmayıb.

**Soylu Atalı:** Deyir ki, xalqa yetməyən fərd fərdsizlikdir. Yəni fərdin aşkarladığı, yetdiyi, dərk elədiyi nəsnə xalqdan gəlir. Xalq deyə bir toplumun min illərdir yaşatdığı, gətirdiyi ənənə var, qayda var. Xalq fərddən götürür öz başlanğıcını. Həm də xalq fərddə formalaşır. Fərd də xalqdan götürür. Bu xalqın içində deyək ki, Babəklik imkanı var. Xalqın o imkanı ki var, onu fərd aşkarlayır. Yəni xalqdan gələni əslində fərd aşkarlayır. Xalqdan gələn mənim içimdə olandır. Mən onu bilməyib qəbrə də apara bilərəm. Amma xalq mənə bir təcrübə öyrədir, bir örnək göstərir, bir hikmət göstərir ki, bu var, sən də aşkarla. Necə ki, mən gedirəm məktəblərə deyirəm, ay məktəblilər, sizin içinizdə Babək var, aşkarlayın. Həmin məsələdir. Yəni görürəm ki, özümdən Babək qura bilərəm. Təzədən aşkarlayıram özümü. Aşkarlayıram ki, xalqı yetirəm, deməli, xalq yenidən məndən başlayır. Yenilənir məndə. Atanın fəlsəfəsi gözəldir, çox aydındır.

**Günev Atalı:**

Cəmiyyətin təməli

Cəmiyyətin Təməli – Ağalıqdır.
Cəmiyyət Ağalıq Təməlsizliyindən yaranıb.
Ağalıq İnsanlığa qarşıdır.
İnsan üzərində Ağalıq – İnsansızlıqdır əslində.
İnam üzərində Ağalıq – İnamsızlıqdır əslində.
İdrak üzərində Ağalıq – İdraksızlıqdır əslində.
Mənəviyyat üzərində Ağalıq – Mənəviyyatsızlıqdır əslində.
İradə üzərində Ağalıq – İradəsizlikdir əslində.
Ağalıq – Mahiyyətə, Mənaya qarşıdır.
Əzəli Ağalıq olmur.
Əbədi Ağalıq olmur.
Sonsuz Ağalıq olmur.
Kamil Ağalıq olmur.
Ağalıq Ədaləti olmur.
Ağalıq Həqiqəti olmur.
Ağalıq Xeyiri olmur.
Cəmiyyət Fərdiyyətə qarşıdır; Xalqa qarşıdır: Fərd üzərində Ağalıqdır, Xalq üzərində Ağalıqdır; Özünəməxsusluğa, Bənzərsizliyə qarşıdır; Özünəməxsusluq, Bənzərsizlik Birliyinə qarşıdır.

Ağalığı yaşadan əsarətdir.
Cəmiyyət – əsarət üstə qurulub.
Cəmiyyət – İnam əsarəti yaradır; –
əsarət İnamı yaradır.
İdrak əsarəti yaradır; –
əsarət İdrakı yaradır.
Mənəviyyat əsarəti yaradır; –
əsarət Mənəviyyatı yaradır.
İradə əsarəti yaradır; –
əsarət İradəsi yaradır.
Xeyir əsarəti yaradır; –
əsarət "Xeyri" yaradır.
Ədalət əsarəti yaradır; –
əsarət "Ədaləti" yaradır.
Həqiqət əsarəti yaradır; –
əsarət "Həqiqəti" yaradır.
Ağalıqdan Təbəqəlik yaranır; Təbəqəlikdən – Özgələşmə;
Özgələşmədən – Yadlar cəmi...
Təməlsizlik üstə qurulan cəmiyyət – qurula-qurula dağılır.
Adamlıqdan yaranan – İnsanlığa yaramır.

Burda Ata mücərrəd yazmayıb. Düzdür, müəyyən mənada şərhlər ola bilər. Öz düşüncəmizin, fikrimizin imkan verdiyi səviyyədə ifadə eləmək olar. Ata bunu o qədər sadə yazıb ki, burda mücərrəd heç nə yoxdur.

**Soylu Atalı:** Sənə çatır. Amma indi qayıt onu mənim üçün şərh elə. Özünə çatanı, gör şərh eləyə bilirsənmi? İşin çətini odur. Bir də görürsən ki, onun içindən elə sual ortaya çıxa bilər ki, fərqinə varmazsan, deyərsən hər şey aydındır. Ancaq Atanın hər bir fikri sadə və aydın göründüyü qədər həm də mürəkkəb və çətindir. Çünki onun arxasında yalnız oxuduğun məqam durmur. Onun arxasında ondan daha dərin məzmunlar dayanır. O məzmunları üzə çıxartmaq məsələsi var. Bizə belə görünür. Bizim Atanın dediyi hər bir sözə qulağımız alışıb, qəlbimiz, sevgimiz alışıb. Ona görə bizə doğmadır. Amma ona bir balaca o doğma gözlə yox, yad gözlə də bax.

**Günev Atalı**: Sənin dərk elədiyin azadlıq əsarətdir deyəndə, əlbəttə, fikirləşərlər ki, necə yəni əsarətdir. Hətta hərcayiliyə gedər, kefim istəyəni eləyirəm, çünki azadam deyər. Bu mənada razıyam ki, şərhlər olmalıdır.

Tarixin təməli

Tarixin Təməli – Zordur.
Tarix Zor üstündə qurulub.
Zor – ölkələr Fəth eləyib, Dövlətlər, Səltənətlər qurub, xani¬manlar dağıdıb, qan töküb; Qalibləri yüksəldib, Məğlubları alçaldıb; Zor – Adamı əyib, Adam Zora baş əyib; tarix Zorlular meydanı olub, Zoru Təsdiq edib.
Zor İnama sahib olub; – Zora İnam Yaranıb – Zor İnamı yaranıb.
Zor İdraka sahib olub; – İdrak Zora xidmət eləyib – Zor İdrakı yaranıb.
Zor Mənəviyyata sahib olub; – Mənəviyyat Zora xidmət eləyib – Zor Mənəviyyatı yaranıb.
Zor İradəyə sahib olub; – İradə Zora xidmət eləyib – Zor İradəsi yaranıb.
Zor – İnamı İnamsızlaşdırıb.
– İdrakı İdraksızlaşdırıb.
– Mənəviyyatı Mənəviyyatsızlaşdırıb.
– İradəni İradəsizləşdirib.
Zor Zülm yaradıb – Zor Ədaləti yaranıb.
Zor Şər yaradıb – Zor Xeyiri yaranıb.
Zor Yalan yaradıb – Zor Həqiqəti yaranıb.
Tarix – Adamlıq Aqibəti olub; – İnsanlıq Aqibəti olmayıb.
Nisbilik Aqibəti olub; – Mütləqilik Aqibəti olmayıb.
Mahiyyətə xidmət eləməyib – Təzahürə xidmət eləyib.
Əzəliliyə xidmət eləməyib – Ötəriliyə xidmət eləyib.
Əbədiliyə xidmət eləməyib – Keçiciliyə xidmət eləyib.
Sonsuzluğa xidmət eləməyib – Sonluluğa xidmət eləyib.
Kamilliyə xidmət eləməyib – Qeyri-Kamilliyə xidmət eləyib.
Tarix – Zorçuluq olub, Ruhçuluq olmayıb.
Ruhçular tarix boyu Zorçularla döyüşüb; Tarix Ruhçular Faciəsi törədib – Amansız, Aramsız.
Tarix – Zorçular meydanında Ruhçulara divan tutub...

Ruhçular Tarixlə döyüşüblər.
Zaman Dəyişib, Mühit Dəyişib, Şərait Dəyişib, əsrlər biri-birini əvəz edib, Tarix – Zorçuluğundan dönməyib.
Bəşər öz Tarixi Aqibətindən Ruhani Aqibətinə keçməlidir; Ruh Zoru əyməlidir – Adam İnsanlaşmalıdır.

**Soylu Atalı:** İndi burdan nə çıxır, tarix pis şeydir, ondn imtina eləmək?

**Günev Atalı:** Dəyişmək. Əslində tarixin özündən öyrənmək ki, yəni zorçuluq səni nə günə salıbdır. Zorçuluğun olub, ruhçuluğun olmayıb. Zora tapınıbsan.

**Soylu Atalı:** Deyir tarixin təməli zordur. Bunun təməli zordursa, hər şey əbədi zor üstə gedəcək?

**Günev Atalı:** Yəqin başqa anlamda işlənib. Yəni tarix o deyil ki, dünyanın təməli, həyatın təməli zor üstədir. Tarixin keçib gəldiyi yol zor tarixidir. Yəni ruh tarixi deyil, insanlıq tarixi deyil.

**Soylu Atalı:** Bəli, Atanın vurğu elədiyi odur ki, siyasətin tarixi yazılıb, öyrənilib. Hadisələr tarixləşib. Mənəviyyat, mahiyyət tarixləşməyib. Ruhaniyyatın özünün gözəlliklərinin ayrıca tarixi yaranmayıb, yazılmayıb. Ayrıca tarixi nə vaxt ola bilərdi? O vaxt ola bilərdi ki, ruhaniyyatın özəl gedişatı olardı. Olmayıb. Məsələn, mənəviyyat üstə yaşayan bir toplum olmalıydı ki, onun da hadisələrinin tarixi gəlib bizə çataydı. Mənəviyyat üstə deyil, mənəviyyatsızlıq üstə yaşayan toplumun bütün münasibətləri, cırmaqlaşmalarının tarixi gəlib çatıb. Buna çevrilib. Xalqın həyatında ruhaniyyat yaranmalıdır ki, tarix dəyişsin. Xalqın həyatında ruhaniyyat hakim olmalıdır ki, ruhaniyyatın məzmunu tarixləşsin. Ruhani münasibətlər, ruhani quruculuqlar tarixləşib, sabaha getsin. Ona görə Ata deyir ki, olmayıb. Ona görə tarix insana gərək deyil. Biz insanlığın tarixini başlamışıq. Bizim bugünkü işimiz də bir tarixdir. Bu insanlığı öyrənməyin tarixidir, yaşatmağın tarixidir. Deməli, tarixin təməlinə insanlığı qoymaq gərəkdir.

**Günev Atalı:** Ümumiyyətlə, tarixdə təkcə başdan-başa zorçuluq yazılmayıb. Ruhaniyyat da, məsələn, Şəms-Rumi münasibəti də yaranıbdır, Babəklik, Qorqudluq, Füzulilik, Hürufilik yaranıbdır. Bunlar müəyyən qədər olublar. Bu da tarixin bizə gətirib yetirdikləridir. İntəhası, təməl məsələsində mən çaşdım. Həmişə tarix belə olacaq?

**Soylu Atalı:** Təməl dünyanın özündə daşıdığı Mütləq mahiyyət deyil ki. Bu evin təməlini tökmüsən filan şeydən. Deyirsən filan şeydir. Təməlini qumdan tökərsən, deyərsən təməli qumdur. Tarixin təməlini zordan töküblər, deyirsən zordur tarix. Tarixin təməlini Ruhaniyyatdan qur. Tarixin təməlini dəyişməliyik. Yeni tarix başlamalıdır. İnsanlıq tarixi. Sivilizasiya məsələsi. Biri var ki, təməl hadisəyə uyğundur. Məsələn, Ruhani münasibətin təməli ədalətdir, misal üçün. İndi adlandırdığımız hadisənin təməlində nə durur? Onun özünə uyğun olanmı durur təməlində, yoxsa ayrı şey, bu təməldən ayrı şey hasil olub, ayrı münasibətmi yaranıb? Yəni bu təmələ nə qoyursansa, ondan təzahür eləyir. Təmələ zor qoyursan, zordan təzahür eləyir. Müqəddəslik qoyarsan müqəddəslikdən təzahür eləyər. Ona görə Atanın dediyi ki var, “tarixin təməli zordur”, deməli, siyasət tarixi var, siyasi dövlətin tarixi var, siyasi münasibətlərin tarixi var, siyasi gedişatın tarixi var. Bunların içərisində adda-budda, onlardan fərqli olan hadisələr də görünür. Amma tarix onların tarixi deyil...

**Günev Atalı:** “Ailə Günü”müz, ənənəmizə uyğun, yenə də Amal çağırdı, yenə də yeni bir səviyyəyə yüksəldik. Hər toplantımız, hər sözümüz, hər münasibətimiz yeni əmələ yüksəl¬məkdir, yeni hala yüksəlməkdir, yeni düşüncəyə, yeni təfəkkürə yüksəlməkdir. Bu gün həmin hal təsdiq olundu. Mən şəxsən özümü əməlli-başlı artmış hesab elədim. Çünki bu söhbətlər məni çox silkələdi bu gün. Çox ciddi yanaşdım fikirlərə, bütün varlığımla. Şərhlərimizdə özüm üçün çox şeyi götürdüm. Bu qədər.

**Elana Atalı:** Ailə Günü doğrudan da adamı artırır. Eşitdiyim hər söz məni dünyadan, həyatdan yaxşı anlamda ayırır.

**Soylu Atalı:** Ona görə də, bir an təsəvvür elə ki, ayda bir dəfə “Ailə Günü” keçirmirik. Yaxud ayda bir dəfə mərasim keçirmirik, onda Ocağın halına bax. Qurulmaz. Ocağın hər bir tədbiri məktəbdir. Hamısında quruluruq. O olmasa qurula bilmərik. Ona görə uğurlarımız ona bağlıdır.

*“Ata Ruhunu ürəyimizdə aparırıq! Atamız Var olsun!” səcdəsilə “Ailə Günü” sona yetir.*

*Qeyd: Bu səfər içində, hər vaxt olduğu kimi, Amal Bağı – Atanın “torpağı” ziyarət olundu və qutsal söz söylənildi.*

*Günev Atali Ocaq Yükümlüsü ilə tikilməkdə olan İnam Evinin (Məbədin) tikintisinə bağlı söhbətlər, məsləhətləşmələr elədi.*

*Yağış Ayı, 36-cı il. Atagün Eli.*
*(noyabr, 2014. Örənqala.)*



**Asif Atanın – İnam Atanın**
**Mütləqə İnam Ocağı**

**Günevin Yükümlüsü olduğu "Atagün" Ailəsinin**
**36-cı ildə IX Aylıq mərasiminin**
**Gedişatı**

**Yer:** Atagün Eli (Örənqala);
***Gün: 19*** **Köçəri** Ayı;
**Başlanır:** saat 16:00

Oda mərasimin Ruhuna uyğun hazırlanır. Gül-çiçək, texniki araçlar (vasitələr) hazırlanır. İşə sorumlu Günev Atalı.

"Ata Ruhuna pənah gətirmişik!" səcdəsilə tədbir başlanır.

**Mərasimin Hesabat qonuları:**

1) Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı.

2) Atagün Ailəsinin yaranmasından 3 il ötdü. Bu zaman kəsiyində yetdiyimiz uğurlar, yetmədiyimiz əməllər haqqında.

3) Bölgədə və ölkədə ictimai, siyasi, mənəvi durumun ruhani təhlili.

İştirakçılara (qonaqlara) söz verilir.

**Müqəddəs oxuma:** "Təməl" Kitabından oxunub şərh edilir.

"Ata Ruhunu ürəyimizdə aparırıq!",
"Atamız Var olsun!" səcdəsi ilə Ailə Günü sona çatır.

**Günün carı:**

Atagün`üm – Ömür Yolum – yeriməkdən usanmadım, Tələbindən tükənmədim!

***Gedişatı yazdı:*** **Soylu Atalı**
*11 Köçəri Ayı, 36-il. Saray-Soylu.*
*(fevral, 2015.)*

## "Atagün" Ailəsinin IX Aylıq toplantısında deyilmiş fikirlər

Ocaq Günsırası ilə 19 Köçəri Ayı, 36-cı ildə Atagün Ailəsinin "Ailə Günü" mərasimi keçirildi. "Ata Ruhuna pənah gətirmişik!" səcdəsilə "Ailə Günü" başladı. **Atagün Ailəsinin Yükümlüsü Günev Atalı** "Ailə Günü" mərasiminə yeni qatılanlar üçün Ruhani Ailənin biçimi və mahiyyəti haqqında qısa bilgi verdi. Bundan sonra öz hesabatına başladı: Mən ardıcıl "Mütləqə İnam" Bitiyini öyrənirəm, hələ qurtarmamışam. Öyrənməyi şüuruma yeridirəm və çatdıra bilmək üçün onu yığcam biçimdə yazıram.

Bu gün isə tamam başqa bir yöndə olan, dövrün, zamanın siyasətlə bağlı halını göstərən "Siyasətdən Üstün" kitabını həmin qayda ilə öyrənməyə başlamışam. Özüm dönə-dönə öz yazdıqlarımı oxumuşam. İndi də bunu sizinçün oxuyuram. Sabah üçün də oxuyuram. Çünki heç kim birdən-birə kitabın dediyini mənimsəyə bilmir.

Şifahi nitq başqadır, əladır. Nə yaxşı olardı ki, şifahi çatdıra biləydim. Onu mən yaxşı bacarmadığımdan yazdığımı oxuyuram.



***(Günev Atalı "Siyasətdən üstün" kitabından özümləşdirdiklərini oxudu – G.A.).***

Siyasət hər çeşiddə ağalıq tələb edir, yadlıq tələb edir, yalan tələb edir, xudbinlik tələb edir. Siyasət əsarət gətirir. Ancaq "azadlıq gətirirəm" deyə bağırır. Yeridir ki, mən səni əsarətdən xilas eləməyə gəlirəm. Bu gün Amerika həmin siyasətin bağırtısını təmsil edir. Onların əslində nə törətdikləri hər kəsin gözünün qabağındadır. Bəşər bu siyasətdən imtina eləməsə, özünü uçuruma yuvarlayır.

Vaxt vardı yağı tayfalar bir-birinin üstünə qılıncla, qalxanla gedirdi. Yüzillər keçir, indi dünyanın hər tərəfində aramsız qan axır. Bir namərdin istəyindən 70 milyon insan fəlakəti, qurbanı! Bir neçə 70 milyonun da sinəsinə çəkilən dağ. Budur siyasət. Krılovun qarğa-pendir-tülkü məsələsi bəşəriyyətin yaşamının yönünə çevrilib. Məsələ bundadır. İmtina eləmək gərək. Bunun üçün gərək yolun olsun. Yeni bəşər nizamı olmalıdır.

İkinci, Kamilləşməyimlə bağlı. Həmişə mən bu suala çox məsuliyyətlə yanaşıram. Ayda bir dəfə mən nəyi qazandım, nəyi qazana bilmədim məsələsi. Əhvalda xırdaca yüksəliş olmasa, deməli, geriləmə var. Bu tələbdən çıxış edərək deyə bilərəm ki, halımda sabitlik var. Adamı içdən, həmişə görürsən ki, həyata çəkən bir ilişki olur. Onu içdən çıxarmayanda Amal yolunda çətin yerimək olar. Ona görə arxayınlaşmıram. Ata deyir özüylədöyüş qurtaran yerdə Ocaqçılıq qurtarır. Mən özüylədöyüş əməlindən fərəh alaraq çətinliklərin üzərinə yeriyirəm. Geriyə dönmək yoxdur. Geriyə dönüb baxmaq, nağıllarımızda deyildiyi kimi, daşa dönməyə bərabərdir. Heç olmağa bərabərdir. Geri artıq yoxdur mənim üçün.

Xalqlaşmam – xüsusi auditoriya görüşüm heç olmayıbdır. Ancaq harda olmuşamsa, hətta uçaqla Rusiyaya gedəndə, gələndə, oturub zalda gözləyəndə, boğazım quruyana qədər, danışmadığım, Asif Atanın harayını çəkmədiyim məqamım olmur. Hüzür yerində olmuşam. İsmixan bəy (yanındakı eloğlusunu deyir-G.A.) də vardı, söhbətlər aparmışam. Onun özüylə günlərlə bu evdə oturmuşuq. Soylu Atalının çıxışlarına qulaq asmışıq görüntüdə. Mənim çıxışlarıma qulaq asmışıq. O maraq da bu gün onun özünü çəkib bu tədbirə gətirib. Gözüylə də görmək istədi.



Bu gün həm də bizim üçün seçilən gündür. “Atagün” Ailəsinin yaranmasının üçüncü ildönümüdür. 3 yaşımız qutlu olsun. Baxmayaraq ki, Ailə olaraq 3 yaşımız var, ancaq divardan tuta-tuta yerimirik, uçuruq. Bax, ən gözəl olan budur ki, qısa vaxtda yetkin bir hala dolduq. Bu, bizim uğurumuzdur. Bu, Asif Atanın uğurudur. Asif Atanın buna görə üzü gülərdi.

Bu üç il müddətində nə qazandıq, yaxud nə qazana bilmədik? Birinci ən böyük uğurumuz odur ki, bölgədə durmadan Ailənin Ocaqçılıq etkisi artır. Məbədimizin, bəlli təpkilər, rahatsızlıqlar olsa da, 3 il öncə təməl daşını qoyduq. İndi də işlər görmüşük. Bu, üç ildə böyük uğurlarımızdan biridir. Bir sütun qaldırırsan, Soylu Atalı demiş, yolla ötən üçün o sütunun, o daşın üst-üstə qoyulması sənin sözündən az iş görmür. Yerdən boy verib, qalxır. 24-25 il öncə orda torpağı alanda hüzür yerlərində mollaların harayı-həşiri qalxırdı: Bax, gəlirlər, tikirlər, qoymayın. O yazıqlar milli ruhu tanımırlar, özgəlik üçün vahimələnirlər. Səni içinə gələn yadlıqlarla ölçür. Qısqanclıqla, xudbinliklə, paxıllıqla yanaşanlar da az deyil. Onlar həmişə olacaq. Min il bundan sonra da olacaq. Birdən-birə kütlə kamilləşməyəcək ki. Sabaha ünvanlayırıq sözü. Sözümüz iş görür, görəcək. Bu baxımdan uğurlarımız çoxdur. Ailə Günlərimizi keçiririk. Davamlı harayımızı çəkirik. İnadla adamları tədbirlərimizə çağırmışam. Gəlməyiblər, qorxurlar, hürkürlər, çünki heç

biri içdən azad deyil. "Qorxuram məni işdən çıxardarlar" deyənlər də olur. Amma bir dəfə səbrini basıb düşünsə özündə cəsarət tapar. Axı nə üstündə səni işdən çıxardarlar?! Öz divarlarımın arasında oturub milli kimliyimi danışıram. Dərdimi danışıram. Bundan ötrü çıxardarlarsa, heç ordan mən o çörəyi yemərəm. Zəhər gedib yeyərəm. Bax, bu cəsarət millətimizdən uzaq düşüb.

Nə edə bilməmişik hələ? Toplumun içini, geniş biçimdə “Atagün” Ailəsinə yönəldə bilməmişik. Bəzən insanlara acığım da tutur. Hiss edirəm ki, içimdə acıq baş qaldırıb toplumun donuqluğuna. Kor tutduğunu buraxmır, kar eşitmir. Bu qədər də gözəl münasibət yaradırsan, görürsən ki, yenə, kənddə, aralıq deyirlər, orda nərd oynamağı, orda hər hansı hərcayi söhbəti burda, bu isti odada qutsal söhbətə qulaq asmaqdan üstün bilir. Niyə qaçırlar? Heç bir əngəl yoxdur. Gerilikdən çıxmaq istəyi olmalıdır. Halbuki söhbət edəndə hər kəs heyrətlənir, Atanın mövqeyini içində doğru sayır...

Mənim sözüm bu qədər. Bir daha Atamıza səcdə qılıb barağımızı öpürəm!

İndi söz Soylu Atalınındır.



**Soylu Atalı:** Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdəylə!

İçimdə qutsal hal yaradan belə bir törəndə söz demək üçün, hər zaman olduğu kimi, Ataya, Onun varlığına səcdə qılmaq, bayrağını öpmək istəyim yaranır.

Mən Ailəylə bağlı ayrı-ayrı məqamlara toxunacam. Ancaq ona qədər bir-iki önəmli məsələlərə baxış sərgiləmək istəyirəm.

Biz bu gün səhər tezdən səfərə çıxmışıq. Beş nəfər. Gəlin görək, bu beş nəfəri bir-birinə bağlayıb bura gətirən nədir? Heç kim deyə bilməz ki, bunlar bir-birinin xətrinə, hörmətinə durub bura gəlib. Bu xətir-hörmət məsələsi üzgörəlik olardı. Ötəri bir istəyin kiçik bir ifadəsi ola bilərdi. Burdakı hər bir şəxs yaxşı bilir ki, bizim atdığımız addım başqalarının atdığı addımdan çox fərqlidir. Bu fərq nədir? Bu fərq odur ki, biz başqalarının elədiyi və dediyi kimi, xalqın içində görsənişlər yaratmırıq. Biz saxtakarlıq eləmirik. Biz doğrudan da bu xalqın taleyində oturuşmuş ağrıları, fəlakətləri anlayırıq. Bu xalqın yerişi, gedişi haradır? Bunu da bilirik. Eyni zamanda biz dişimizlə-dırnağımızla bu axının, bu suyun qabağında dirəniş yaratmağa çalışırıq. Bax, bu insanlarımızın içində o əhval var. Millətin gələcəyinə qatılmaq var, sevinmək var, olmaq istəyi var. Bu insanları bir-birinə bağlayıb, bu gün səhər tezdən bura gətirən odur. Bu səfərdə toplumun bəlli bir kəsiminə, xalqın balalarına biz ağrı-acı dolu fikirlər dedik. Həm də fərəh dolu fikirlər dedik. Baxmayaraq ki, bir nəfər danışır, ancaq hər kəsin ardınca qoşduğu istəyi ifadə elədik. O həyata keçdi. Biz ondan sonra durub gəlmişik bura. Bu cür tədbirlər də fərdi qurulmanın və toplumda qurulmanın məntiqi ifadəsidir, görsənişidir.

Biz çox böyük işlər görürük. Hürufilər neyləyirdilər? Mən bizim işimizlə bağlı şəkildə izah edə bilərəm, adama çox adi görünər. Onlar neyləyirdilər, nə deyirdilər? Onlar deyirdilər ki, bu xalqın ləyaqətinə hakim kəsilən özgəliyi yurdumuzdan qırağa çıxarmaq gərəkdir. Ərəblərin faciəvi şəkildə bizi yenməsi, insanlarımızın namusuyla, şərəfiylə oynaması onu kölə duruma gətirib çıxardıb. Onun içində dayağı qalmayıb. Yenilib o. Bu xalqı bu yenilmişlikdən çıxarmaq gərəkdir. Rəmzi döyüşün ifadəsi kimi əllərinə taxta qılınc alırdılar, adamları bir yerə yığırdılar. Söz deyirdilər, fikir deyirdilər... Hürufilər öldülər.

Nəimini atın quyruğunda parça-parça elədilər. Nəsiminin dərisini soydular. Hürufilik qurtardımı? Qurtarmadı. Bu gün biz topluma söz deyirik. Deyirik sənin Qədimliyində Nəimin, Nəsimin var. Bu gün də sənin içində Nəimi, Nəsimi var. O olmasaydı nə olardı? Dünən mən işdə idim. Xaliq bəylə bir məsələylə bağlı zəngləşmişdim. Deyir nə yaxşı arada bir keçmişimiz olub. O olmasaydı, mən tamam umudumu itirərdim. Deyirəm, Xaliq bəy, əgər o keçmiş olmasaydı, bizlər də olmazdıq. Bizi həmin keçmiş doğub...

İndi bu gün bizim bu harayımız, bu qətiyyətimiz həmin keçmişdən qidalanır. O olmasaydı, mən o gənclərin qarşısına çıxıb haray çəkə bilmərəm. Sən böyük xalqsan deyə bilmərəm. Adama deyərlər nəyim böyükdür? Hanı böyük, göstər görüm. Bax, onda mən ona deyirəm böyüyün Babəkdir, Nəsimidir, Nəimidir, Dədə Qorquddur, Füzulidir, filankəsdir. Bu böyüklərindir, bu böyükləriyin yaratdığı dəyər sistemindir. Filan məsələ böyükləriyin yaratdığı həyat ortamıdır. Həyatı sənin babaların yaşayıb, görüb-götürüb. Bu gün az-çox, yaxşı nəyin varsa, ordan gəlir.

Buna görə deyirəm ki, biz çox böyük işlər görürük. Üzdə görünməyən, ancaq içəridə görünən. Biz içimizdə olan başqa dünyagörüşlərə meydan oxuyuruq. Heç biriylə cırmaqlaşmırıq, ancaq meydan oxuyuruq. Deyirik ki, bizim xalqımızın mənliyindən çıx. Dilini də çıxart, ruhunu da çıxart, baxışını da çıxart, əsarətini də çıxart. Mən özüm öz meydanımın yiyəsi olmaq istəyirəm. Mən özüm öz ruhumun yiyəsi olmaq istəyirəm. Mən kişi olmaq istəyirəm. Mən qadın olmaq istəyirəm. Mən millət olmaq istəyirəm. Əl çək məndən. Bunu biz elə-belə həvəslə demirik. Biz bunu ən yüksək, əlçatmaz ideyalarla deyirik...

İndi Amallaşma məsələsiylə bağlı bir neçə kəlmə söz deyim. Mən adətim üzrə dünyanı da öyrənirəm, dünyadan Asif Atanı da öyrənirəm. Əslində mən öz kimliyimi öyrənirəm. Öz millətimi öyrənirəm. Mən insanı öyrənirəm. Asif Ata deyir "İnsanlaşın – İnsanlaşdırın". Topluma deyərsən ki, Asif Atanın məqsədi insanlaşma, insanlaşdırma məsələsidir. Deyər o nə deməkdir? Çünki toplum elə bilir ki, Asif Atanın çağırışı elə o iki sözdən ibarətdir. Bunu mənə Azərbaycanın alimlərindən biri deyib. Deyib "İnsanlaşın – İnsanlaşdırın" mücərrəd bir şeydir. Şüar kimi yanaşır bu çağırışa. Deyirəm filankəs bəy, sizin adınız

da mücərrəd bir şeydir. Nə qədər ki, bu adı ifadə edən sözdən başqa bir şey düşünmürsən, ad mücərrəddir. Elə ki, mən düşünürəm bu adın altında bir boy dayanır, bir üz cizgiləri dayanır, bir keyfiyyət dayanır, bir xasiyyət dayanır. Onda o ad bilirəm ki, kimi ifadə eləyir, nəyi ifadə eləyir. O sözün altında müəyyən bir məzmun yatır axı. Bu sözün, çağırışın altında da böyük məzmun yatır. Siz iki söz eşidib məzmununa varmayanda mücərrəd görünəcək təbii ki.

Mən o məzmunu öyrənirəm. Nə deyir "İnsanlaşın – İnsanlaşdırın!"? - Hamı deyir demokratlaş, hamı deyir qloballaş, hamı deyir dinləş, ərəbləş, farslaş, açıq deməsə də. Asif Ata deyir İnsanlaş, Bəşərləş.

Günev qardaşımız yazını oxuyanda dedi ki, bəşər siyasətdən imtina eləməlidir. Kimə desən bunu normal qarşılamaz. Necə yəni siyasətdən imtina. Dünya siyasətlə idarə olunur. Siyasətdən imtina nə deməkdir. Bəşər siyasətdən imtina eləməlidir nə deməkdir?

Dövlətin, dövlətlərarası münasibətin gedişində siyasət qalacaq, ancaq necə qalacaq? Nə qalacaq? Siyasət münasibətlər oyunudur. Ailədə, evdə, xalqda hər yerdə oyun gedir. Siyasət bu oyunun tərtibçisidir, qurucusudur, yönəldicisidir. İndi Asif Ata deyir siyasətdən üstün olmaq gərək. Kitabın adı belədir. Nə deməkdir siyasətdən üstün? Deyir xalqına münasibət bəsləyəndə onunla oyun oynama. Hakimiyyətə gələn adama, xalqın başına gələnə deyir ki, xalqa ağalıq eləmə, atalıq elə. Siyasət ağalıq deməkdir, atalıq demək deyil. Çünki ata oyun oynamır. Övladının yolunda zəhmət çəkir, böyüdür onu. Onu aldatmır, böyütmək yerinə kiçiltmir. Ona görə dövlətin başında durana deyir ki, xalqınla oyun oynama. Onun içində münasibətləri insani səviyyəyə qaldır. Onda böyüyün böyük yeri olacaq, kiçiyin kiçik yeri. Onda xalqın içində bir ölçü olacaq. Hər kəs hər kəsə fırıldaq münasibət bəsləməyəcək. Heç kəs heç kəslə saxta davranmayacaq. Ehtiyat eləyəcək, rahatsız olacaq, qırağa duracaq.

İndi hər kəs hər kəsi ittiham edir. İttiham, ittiham, ittiham. O səhv elədi, bu səhv elədi. Hər şey səhvdir. Yaxşı, bu səhv elədi elədi, bəs səhv eləməmək üçün nə gərəkdir? Asif Ata ona görə deyir ki, münasibətlər oyunundan çıx – “İnsanlaşın-İnsanlaşdırın!”.

Gələk Dövlətlərarası münasibətə. Sənin dövlətinin ayrı istəyi var, o biri dövlətin öz istəyi var. Dövlətlərarası münasibətlərdə mütləq alış-

veriş olacaq, alver olacaq. Bunu sənə verirəm, bir şərtlə, filan şeyi mənə ver. Deməyəcək ki, al bunu sənə umacaqsız verirəm. Bax, sən bunu belə eləsən, mən də bunu belə eləyəcəm. Yəni dövlətlərarası münasibətlərdə bu hal qaçılmaz olacaq. Qalacaq. Necə ki, ictimai həyatda da uşaq doğulan kimi kamil olmur. Məmə deyəndən pəpə yeyənə hamı kamil olmur. Naşısı olacaq, nadanı olacaq. Ancaq hal kamil olacaq. Ümumi gedişat kamil olacaq. O gedişatı içəridə kamil insanlar yönləndirəcək. Ölçü olacaq. Ləyaqət ölçüsü olacaq. Münasibət ölçüsü olacaq. Eləcə də dövlətlərarası münasibətlərdə ölçü olacaq. Ata deyir, siyasəti xalqın içindən çıxart. Ailənin içindən çıxart. Mədəniyyətin içindən çıxart. Musiqinin içindən çıxart! Sənətin, ədəbiyyatın içindən çıxart! Ədəbiyyat fəlsəfədir, həyatdır. Mən ədəbiyyatdan həyat öyrənirəm. Bunun içinə siyasət soxma. "Yazıçılar "Birliyi" yaradaraq başına öz köləni qoyub bu xalqı aldatma. Oynatma xalqın mədəniyyətini, ruhunu. Asif Ata onu deyir. Bu mümkündürmü? Niyə mümkün deyil? Ona mümkün deyil, buna mümkün deyil deyirik, onda niyə mübarizə var, niyə razılaşmamaq var, barışmamaq var?! Mümkündür. İstək və mübarizə gərəkdir.

Sonra deyəcəyim fikir həm də "özüylədöyüş"ə aid olan bir məsələdir. Mən, Soylu Atalı olaraq, həm öz üzərimdə, həm də Amaldaşlarımın üzərində müşahidə aparıram. Həm özümə görə rahatsız oluram, həm də Amaldaşlarıma görə. Onların hər bir doğru olmayan addımına görə rahatsız oluram. Qayğılanıram, qayğılarımı deyirəm. Ancaq bununla belə, özüylədöyüş məsələsinə çox inanıram. Özüylədöyüş məsələsi qabağa addımdır. Aparır adamı. Nağıl deyil o. Bir az aşırı istəmək gərəkdir, az istəmək yox.

İndi sizə bir fakt deyim. Bayaq Günev qardaşımız oturub orda, Amaldaşı İnamlıya irad tutur. İnamlı onu sakit qarşılayır. Sonra başqa bir məqamda irad olur, İnamlı onu da sakit qarşılayır. Ancaq bir ilmi, il yarımmı öncə İnamlı bu stolun qırağında ən elementar bir şeydən o qədər hikkələnmişdi ki, mən təəccüb eləyirdim, məəttəl qalırdım ki, bu adamın içində heç duyğu sakitliyi yox imiş, üzdə imiş hər şey. Bu gün o həmin İnamlıdır. Bu gün ona, etdiyi yanlış bir addıma görə, irad bildirirsən, söz deyirsən, onu anlayışla qarşılayır, qarşılaya bilir. Bu nədir bilirsinizmi? Bu özüylədöyüş tələbinin gerçəkləşməsidir. Halbuki Ocaqda qıraqdan iradçılıq yoxdur, başqası ilə döyüş yoxdur,

özüylədöyüş var. Ancaq fərd özüylə döyüşmürsə, yaxud zəif döyüşürsə, onda Ocağın qarışması gərəkir. Nə gözəl olar ki, özüylədöyüş daha böyük səviyyədə şüurlu şəkildə getsin. Bu onun idrakında gedən prosesdir ki, Ocaqda bu cəhətlər olmamalıdır. Ocaqda başqa əhvallar olmamalıdır.

Asif Ata deyir, ruhaniyyat elə bir şeydir ki, orada çoxbaşlılıq əyir. Orada birbaşlılıq olmalıdır. Ruhaniyyat birxətlilik tələb eləyir. Mənəviyyat birxətlilik tələb eləyir. Ona görə burada Ocağın içində demokratiya yerimir. Demokratiya özbaşınalıq gətirir. Demokratiya hərcayilik yaradır. Hərə bir hava çalır. Ocaqda birxətlilik olmasa, 18 il Asif Atanın ölümündən sonra yol gəlməzdik. Bir xətt var. Bu xətdə heç kimin haqqı gözardı edilmir. Bu xətdə heç kimin döşündən geri itələnmir. Heç kim yaradıcılıqdan geri itələnmir. Quruculuqdan geri itələnmir. Ancaq Ocağı bilməyən Ocağı biləni dinləməlidir. Bax, bu özüylədöyüş məsələsidir, mənim əzizlərim. Xalqda bu yaranmalıdır. Asif Ata xalqda bunu yaratmaq istəyir. Yaratmaq istəyir ki, toplum, sənin içindən filankəs adlı bir aydın çıxıb. Bayaq görüşdə dediyim kimi, sənin tərəvəz becərməyinin əleyhinə deyiləm. Ancaq sən sənin içindən çıxmış həmin aydını eşitməlisən. Eşitməyə borclusan. Yoxsa balıq-ördək-xərçəng nağılı oxuyacağıq biz yenə. Hərə bir yana dartacaq. Biz millət ola bilmirik. Bax, ən böyük çətinliyimiz də, qüsurumuz da odur ki, biz bir xətt yaradıb bu xətti səmimiyyətlə, doğruçuluqla, ləyaqətlə yönəldəni eşitmirik. Bu özüylədöyüşün çox önəmli prinsipial bir yönüdür. Əgər hərə bir hava çalacaqsa, Ocağa heç ehtiyac yoxdur. Yaxud da hərə bir hava çalacaqsa, millət adına iddia etməyə ehtiyac yoxdur. Millət bir vəhdətdir, birlikdir. Bu birliyin nizamı olmalıdır. Bu birliyin yönü olmalıdır. Başı-ayağı olmalıdır. Bu olduqca önəmli məsələdir. Ona görə Asif Ata özüylədöyüş ideyası verib. Ancaq Asif Ata özüylədöyüş ideyasını təkcə öz Ocağının içindəkilərinə verməyib. Öz xalqına verib, bəşəriyyətə verib.

Üçüncü, xalqlaşma məsələsiylə bağlı da bir neçə kəlmə deyim. Mənim xalqlaşma işim çox genişdir. Fərdi və kütləvi görüşlərim çox olur. Mən demək olar ki, evimdə çox az oluram. Bu da mənim seçdiyim aqibətdir. Heç kimin də boynuna minnət qoymuram. Heç kimdən də özəl olaraq sağ ol ummuram.

Bu mənim özümün Millət qarşısında, insanlıq qarşısında ləyaqətimdir. Mən bunu yaşayıram. Mənim fərdi görüşlərim evimdə də olur, İçərişəhərdə də olur. Başqa ünvanlara çağırırlar gedirəm. Bəzən Amaldaşlarım mənə deyir ki, filankəslərin ayağına, yanına getmək nəyə gərək?! Mən Azərbaycan toplumunda hər kəsin ayağına getməyə hazıram. Mənim üçün baş, ayaq yoxdur. Mənim üçün xalqın yanı var. Xalqın ürəyi var. Mən xalqın qəlbinə gedirəm. Mənim çəkdiyim zəhmət odur ki, Asif Atanın istəyi xalqında doğrulsun və xalq baş olsun. Biz xalqın çiyninə ayaq qoymuruq. Biz xalqın ayağının altına çiyin veririk. Başqa cür xalq yaranmır.



Öz övladının zəhmətini çəkirsən, qayğısını çəkirsən, bu sənin canından, cismindən qopandır. Söz yox, mənəviyyatın da rolu var. Ancaq əsasən canından, cismindən qopandır. Bəs bu xalq? Bu xalq sənin gələcəyindir axı. Niyə canından, cismindən qopana bu qədər xərclənirsən, ancaq sənin əbədiliyini daşıyan bu xalqa qulluq eləmək istəmirsən. Niyə?!

Mənim kütləvi görüşlərim ən çox İnamlının təşkilatçılığı ilə araya gəlib. Yazdan üzü bu yana 30-dan çox kütləvi görüşlərimiz olubdur oxullarda. Sonra, Göylünün təşkilatçılığı ilə olub. Güntayın təşkilatçılığı ilə olub bir-iki dəfə. Ən çox İnamlının təşkilatçılığı ilə olub. Çox ciddi

söz demişik, ədəbiyyatlar vermişik. Yön yaratmışıq, hal yaratmışıq. Əlbəttə, bunu biz hər şey saymırıq. Əgər deyiriksə böyük işlər görürük, böyük işlər o demək deyil ki, bu artıq sonuca varır. Sonuca varmır. Mən bu gün də o fikirdəyəm ki, Böyük Yolun başlanğıcındayam. Hələ mən Böyük Yolun başlanğıcına gəlib çıxmışam. Böyük Yol böyük məsələdir. Ona görə xalqa verdiyimiz, xalqda görmək istədiyimiz dəyərlərlə yaşamağımız bizi ayaqda saxlayır. Fərəh verir. Bizim ləyaqətimizi yetirir. Bəlkə də adama bu qədər fərəh verməsə, həqiqətən bu zəhmətin qabağında çətindir fiziki olaraq dözmək.

Bir həftənin içində olan məsələni mən sizə demək istəyirəm. Bizim son on gündə iki dəfə Türkel Araşdrıma Qurumu adına tədbirimiz olub. O tədbirin biri araya gəlib. Mən onu redaktə eləmişəm. Onu yazıya çevirmişəm. Üç dəfə onu redaktə eləmişəm. Hələ onun səsdən sözə çevrilməsi bir yana, onun birinin üzərində ən azı iki gün işləyirəm. Çünki şifahi danışığı yazı şəklinə salmaq çətindir.

Ocağın xalqda başladığı çox böyük bir proses var – "Yas Mərasimi" keçirdik. Bunun gərginliyi var, ağırlığı var, çətinliyi var. Gecə işdən çıxmışdım, gedib o mərasimi keçirmişik. Onun dalınca dalbadal görüşlər keçirmişəm. Gecə işə getmişəm. Səhər tezdən işdən çıxıb səfər eləmişik. Bunları fiziki cəhətdən çatdırmaq olmur. Çox ağır zəhmət tələb eləyən məsələdir. Ancaq inanın ki, bunları eləməyəndə mən boğuluram, bunları eləyəndə yox. Həqiqətən bunlarla yaşayıram. Bax, bu kişi mənimlə işləiyr *(İlham Mustafanı göstərir. – G.A.).* Onun gözünün qabağında olur, bu nə vaxt ora gəlir, məni yaradıcılıqla uğraşan görür. Bu mənim havamdır. Bu mənim suyumdur. Ona görə mən zəhmətdən gileylənmirəm. Zəhmətdən giley həm də zəhməti minnətə çevirə bilər. Onu hər bir Amaldaşım düşünüb qorumalıdır. Zəhmətdən giley xalqın boynuna minnətə gətirib çıxara bilər. Sonra sənin zəhmətin olur bir heç.

İndi bir neçə kəlmə də "Atagün" Ailəsi ilə bağlı deyim. Sizi çox yormayım, bu gün yaxşı işlər görmüşük. Asif Atanın sağlığında bu bölgədə Qədimyurd adında bir Ailə yaranmışdı. Bunun bir neçə, on nəfərə qədər Evladı oldu. Bunların içərisində olan adamların hamısı bu xalqın içindən durub Asif Atanın Ocağına gələn adamlar idilər. Bunların çoxu sıradan adamlar idilər – özüylə uğraşmayan. Asif Ata isə seçim

eləmir. Mənə yüksək oxul keçmiş adam gərəkdir deyə seçim eləmir. Asif Ata deyir mənə insanlığı yaşamaq istəyən və onun uğrunda mübarizə aparmaq istəyən insan gərəkdir. Təhsil də olar, lap yaxşı. Ancaq burada ailədəkilərin hamısı xalqın içindən gəlmiş sadə insanlar idi. Onların da içərisində hər cür bəsit, balaca hisslər vardı. Gah dağıldı, gah quruldu, gah alındı, gah alınmadı, sonucda, alınmadı. Ancaq şəxsiyyət varsa, Ailə yenə olacaq. Biz, üstündən illər keçəndən sonra, Günev Atalının burda olmasına görə, bölgədə əsaslı işlər gördüyünə görə və burda tək qalmasın deyə, Atagün adında Ruhani Ailəni yaratdıq. Onun burada duyğuları kəsərdən düşməsin deyə bu Ailəni yaratdıq.

Dağlara qar yağır. Bu qarın qalınlığı bəzən 40-50 metrə çatır. O qar yaz-yay əriyir. Qış gələndə yenidən qalınlayır. Əgər o yenidən qalınlamasa, qar əriyib qurtara bilər. İnsanın da halı elədir. Əgər o artmasa tükənir, azalır. Gərək o daim qurulsun, köklənsin. Biz burada istədik ki, bölgənin halını kökləyə biləcək Amaldaşlarım Günev və Elana Atalılar Asif Atayla dolsun, dolğunlaşsın. Özləri ilə məşğul olmaq üçün daha böyük məsuliyyət hiss eləsinlər. Ailə qarşıya daha böyük məsuliyyət qoyur. Atagün Ailəsi, bu adı mən yaratmışam, Atagün – Atanın günü, Atanın günü böyük gündür. Atanın günü xalqın özünə bənzəməsi günüdür. Atanın günü xalqın milli kimliyini dərk eləməsi günüdür. Həm də bu günü qoruyan, yaşadan Günev var. Bu Ailənin adı həm də Atanın Günevi anlamına gəlir. Günev, Atanın ona verdiyi addır və xalqın böyük mənada günü anlamından qaynaqlanır o söz.

3 ildir burada biz "Ailə Günü" keçiririk. Üç ildir biz haysız, həşirsiz, yorulmadan, usanmadan bura gəlirik. Mən həmişə gəlirəm, arada bir gəlib gəlmədiyi vaxt olub, əsasən Göylü də həmişə gəlib. Göylü "Atagün" Ailəsinin Evladı deyil. Amma o, həmişə bura gəlir. Gəlir, təşkil edir, yazır, çəkir. Bu nədir? Bu quruculuqdur. Bu Ocaq quruculuğudur. Bu insan quruculuğudur. Nəhayət bu, böyük anlamda millət quruculuğudur. Ciddi məsələdir.

Ailə Günlərində Atanı öyrənirik, özümüzü öyrənirik, təhlil eləyirik. Özümüzü döyürük. Özüylə döyüşümüzün məzmununu ortaya qoyuruq. Xalqla işləməyin açarını ortaya qoyuruq. Yönünü, yöntəmini deyirik özümüzə. Ürəyimiz güclənir, böyüyür, ağlımız kəsərini artırır. Ağlımızın kəsəri artdıqca xalqa qarşı acığımızın kəsəri azalır.

Bir var ağlın kəsəri, bir var acığın kəsəri. Atanın çağında da, dediyim kimi, mənim acığımın kəsəri çox güclü idi. Acığın kəsəri küt olur, kəsmir o, əzir. Ağlın kəsəri isə kəsir. Ona görə biz ağlın kəsərinə üstünlük veririk.

Var özümüzün hisslərimiz, var böyük istəklərimiz, Amalımız, Ocağımız. Acıq məsələsi nədən qaynaqlanır?! Nadanın da acığı olur, müdrikin də. Nadanın acığı öz hisslərini qorumağa yönəlir. Niyə mənə bu söz deyildi? Niyə mənim xətrimə dəyildi? Nadanın acığı ona qarşı yönəlir. Müdrikin acığı nəyə yönəlir: Niyə həqiqətin xətrinə dəyildi? Niyə həqiqət ayaqlandı? Müdrikin acığı ordan qaynaqlanır. Sonra, nadan bəzən elə bilir onun acığı, həqiqət üçündür. Elə bilir doğrunu qoruyur. Əslində doğrunu qorumur. Doğrunu qorumaq üçün gərək doğrunu tanıyasan. Həqiqəti gərək tanıyasan. Nadan həqiqəti tanımır, acığına həqiqət adı qoyur.

Mən, Soylu olaraq, 25-ci ilə keçib ki, Asif Atanın dalınca düşüb yürüyürəm. Bu qədər vaxtda bir dəfə də olmadı ki, mən öz şəxsi işimi, şəxsi həyatımı Ocağın işinə qarışdırım. Bir dəfə olmadı ki, mən milli məsələlərin içinə öz şəxsi işimi, şəxsi istəyimi qarışdırım. Olmadı. Mənim üçün Ocağın işi qatqısızdır. Orada başqa şeyə yer yoxdur. Mən bunu deyəndə bəzən Amaldaşlarım da məni anlamayıblar. Mənə deyirlər səbirli ol. Mən deyirəm məndə fil səbri var. Çox böyük səbrim var. Ancaq həqiqət üzü üstə yıxılıb çabalayanda mən haray qoparıram. Mən onda dözüm göstərə bilmirəm. Mənim Amalım təkcə mənim nəfəsim deyil, mənim millətimin yönüdür, bünövrəsidir, gələcəyidir. Mən ömrümü buna həsr eləmişəm. Mənim evimin, oğlumun, üzr istəyirəm, arvadımın dərdi, qayğısı Amalımın içinə girə bilməz. Ocağımın içinə girə bilməz. Girə bilmədiyi üçün Asif Atanın Ocağının işi, ölümündən sonra 18 ildir gəlir.

Bütün partiyalar, bütün təşkilatlar, bütün təriqətlər, sektalar, hamısına yaxşı baxın. Hamısında özünün şəxsi karyerası var, mənfəəti var, məqsədi var, ailəsi var, özünü düşünmək var. Bir adam barmağını qatlayıb desin filan təşkilatda yoxdur. Hamısında var. Mən istəmirəm Ocaqda olsun. Mən istəyirəm Ocaqda tamam böyük səmimiyyət, böyük həqiqət olsun. Böyük fədakarlığa ziyan gəlməsin, böyük ölçüyə ziyan gəlməsin. Dəqiqliyə ziyan gəlməsin. Asif Atanın bu vaxta qədər

mərasimini, Ailə Günlərini saat 10-da deyib heç vaxt 11-də keçirməmişəm. 11-ə on dəqiqə işləmiş keçirməmişəm. 10-da demişik, 10-da keçirmişik. Bəlkə də bu 18 ildə iki dəfə, ya üç dəfə ola bilər ki, bizdən asılı olmayan səbəbdən, bir-iki dəqiqə o tərəfə keçib. Bax, bu ruhaniyyatın tələbidir – dəqiqlik. Bu dəqiqlik topluma örnəkdir, topluma verilən tərbiyədir, özünə verilən tərbiyədir. Bizim, xalq olaraq, yenilmişliyimizin əsasında dəqiqsizliyimiz, məsuliyyətsizliyimiz dayanır. Olmaz!

İstənilən adam bizim tədbirə gələndə yüyürə-yüyürə gəlir ki, gecikdi. Çünki bilir, biz tədbiri elan olunan saatda başlayırıq. Mən qəti əminəm ki, bizim tədbirə gələn hər kəs çaşıb ki, bunlar nə qədər dəqiq adamlardır. Deyiblər də mənə. Bir yoldaş mənə deyir, üç dəqiqə mən gecikmişdim, gəlmişəm ki, siz başlamısınız.

Asif Ata bizə nə deyirdi bilirsinizmi, deyirdi ki, dəqiqliyi almanların inhisarına verməyin. Türk ondan daha dəqiq olub. Qaytarın onu türkün özünə, o dəqiqliyi. Kişilik dəqiqlikdən başlayır, qadınlıq dəqiqlikdən başlayır, intizamdan başlayır. Ailə intizamdan başlayır. Millət intizamdan başlayır, dövlət intizamdan başlayır. Ləyaqət intizamdan başlayır. Hər şey intizamdan başlayır. Baxın, “Atagün” Ailəsinin də bütün tədbirlərini, bu gün istisna, biz saat 4-də yazırıq, 4-də başlayırıq. Hamısı nizamla, hamısı qaydasında. Bu, Ocaq quruculuğudur. Bu, mənim şəxs olaraq, işimin quruculuğudur. İçimdə tarazlıq pozulmur, əyilmir. Öz qüsurlarımı görüb döyürəm. O ayrı şeydir. Amma o tarazlıq qorunmalıdır. O tarazlıq əyilməməlidir. Mənim evimin işi min dəfə əyilə bilər... Bizim bir dostumuz o gün tədbirdə deyir ki, gərək bu cür yanğıyla danışmaq üçün əsas olsun, bu millət filan şeydir. Deyirəm ki, yox, bunu belə demək olmaz. Əsas var. Millət mahiyyətində çox böyük hadisədir. Sadəcə Özündən qopub, ayrılıbdır. Sonra, mənim yanğım, qardaş, 14 il mən sənin də gözünün qabağında, nəmin içində yaşamışam. Başımın üstündən su tökülüb. Döşəmə silən ağaca əski bağlayıb silmişəm, gedib uzanıb yatmışam. Gecənin bir aləmində bir də durub silmişəm, atamın üz qoyduğu torpaq haqqı. 14 il mən elə yaşamışam. Vaxtım da yox idi, pulum da. Vaxtımı, pulumu Ocağın yerimәsinə qoyurdum. Bu yaxın çağlara qədər belə olub, sonra uşaqlar işlədilər,

qolumdan tutdular, nəmişliyin içindən çıxdıq. Hardaydım bəs? Bu rayon, o rayon,  o kənd, bu kənd, gəzirdim, haray çəkirdim.

Bəli, İçimdə yanğı var, böyük dərd var. O dərdi tanıyıram, ona görə bu yanğı var məndə. Sən mənə deyə bilməzsən axı yanma. Necə yanmayım?! İçimdə alov püskürür, sən də deyirsən yanma.

Bax, Ocaq olmaq üçün, Ruhani Ailə olmaq üçün, xalqa qulluq göstərmək üçün, onun ləyaqətini qorumaq üçün Asif Ata mənə belə bir ruhani tərbiyə verib. Ona görə də mən Asif Ataya səcdə qılıramsa, təsadüfi qılmıram. O səcdə bir vərdiş deyil. Mənim içimdə Ocaqçılıq, səcdə vərdiş deyil. Ata o qədər heyrətləndirirdi məni. Ata bu xalqın içində böyük dayaqdır, böyük hikmətdir. Elə böyük bir hikmət ki, bu xalqın yenilmişliyinin qarşısını alır. Xalqın içində onu ayaqda dik saxlayan gücə çevrilir. Ona görə sözümü yenə Atamızın adına səcdə ilə bitirirəm.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!
Atamızın Bayrağını öpürəm.

**İnamlı Atalı:** Ataya səcdə ilə sözə başlayır.

Mən həmişə arzulamışam, kaş yaxın olaydı, həmişə qatılaydım “Atagün” Ailəsinin tədbirlərinə. Burda fərq nədir? Təbii Ocaqçılar arasında fərq qoymuram. Fərq ondadır ki, iki qocaman Ocaqçı təmsil eləyir “Atagün” Ailəsini. Burdan öyrənmək imkanı daha çoxdur. Amallaşma, Kamilləşmə, Xalqlaşma işinin necə qurulmasını... Günev qardaş bayaq qınadı məni, düz elədi, mənim o yöndən qəzəbim bir az daha qabarıq olub. Bayaq Soylu Atalının dediyi kimi, ağlımın kəsəri deyildi, acığımın kəsəri idi.

Mən bu gün Günev qardaşımı da diqqətlə dinlədim, Soylu qardaşımı da. Bir də ki, bu Oda mənə qeyri-adi, ruhani təsir bağışlayır. Bilmirəm niyə, sadə bir evdir də. Bəlkə də mənim özüm kənd adamıyam, kəndə bağlı olduğumdandır. İlham bəyə bayaq deyirəm, bir addım o tərəfdə mənim uşaqlığım keçib. İçimdə elə duyğular baş qaldırır ki, onu mən ifadə eləyə bilmirəm. Həm bura gəlmək istəyirəm, həm də gəlmək istəmirəm. Gəlmək istəyirəm ona görə ki, burda bizim Məbədimiz ucalır. Bu, Azərbaycanda, ümumiyyətlə, Türk Dünyasında ilk atılan bünövrədir. Burda atılıb. Günev qardaşımın fədakarlığıyla. İkinci bir

tərəfdən də, sanki öz elimizin havasını alıram, o da məndə bir duyğu yaradır. O duyğu həm kədər gətirir, həm də sevinc gətirir. Daha çox kədər gətirir. Bu, böyük mənada Yurdumuzun aqibəti ilə bağlıdır, rayonlarımız, kəndlərimiz əlimizdən alınıb.

Əslində mənim bu gün bura gəlməkdə birinci məqsədim Sabirabad bölgəsində görüşü təşkil eləmək idi. Bu tədbirə gəlməyim ikinci ruhani qazancım oldu. Gəlib Atanın ilk torpağını ziyarət elədik. Atagün Ailəsini də 3 illiyi münasibətiylə qutlayıram.

Bütün Ailələr Ocağın tarixində yaşayacaq. Ancaq bu Ailənin özünəməxsusluğu, dediyim kimi, iki qocaman Ocaqçının, ikisi də Ata ilə üz-üzə oturan insanlardır, şəkillərində də var, "Ata Səsi" kitabında bir şəkil var – Soylu Atalı Asif Atanın bir yanında oturub, Günev qardaşımız da bir yanında. Ona görə də mən sizi qutlayıram. Bu gün "Ailə Günü"nüzə xalqlaşma işimizi – Sabirabad görüşümüzü hədiyyə elədik.

Atamız Var olsun!



**Göylü Atalı:** Ataya səcdə ilə sözünə başladı:

Bura gəliş önəmlidir. İnamlı deyir görüşdən sonra mən qayıda da bilərdim. Yoldan geri qayıtmaq qüsur olardı, məncə. Mən Ocağı təbrik eləyirəm, Atagün Ailəsinin yaranmasının 3 ili münasibətiylə.

Təxminən bir aya yaxındır ki, mən Ocaq şəkillərini işləyirəm. İlk günlərdən – Atanın sağlığından ta bu günə kimi, nə varsa, hamısını boğçalara yığa-yığa. Orda “Atagün” Ailəsi boğçası da var. “Atagün”lə bağlı – İnam Evinin açılışı, İnam Məbədinin təməlinin tökülməsi, “Atagün” Ailəsinin yaranması. Hər biri ilə bağlı o şəkillər çox söz deyir. O şəkillərə baxmaqla o illəri bir-bir vərəqləyirsən.

Üç il ərzində Ailə çox qabağa getdi. İstisna nədir? Günevin arada Rusiyaya gedişiylə bağlı bir neçə ay “Ailə Günü” mərasimləri keçirilməyibdir. Qalanı davamlı olaraq keçirilib. Mən Bakıda ola-ola, Amaldaşlarım bağışlasınlar məni, “Uluyol-Hünər” Ailəsinin tədbirlərinə o qədər getmirəm, bu Ailəyə isə gəlirəm. Bura gəlişim, başlanğıcda, bəlkə də qeyrət duyğusunun etkisi idi. Tək qoymamaq, söykək olmaq. Sevgi-filanla bir yerdə sırf o duyğu vardısa, get-gedə artıq bu mənim ruhani ehtiyacıma çevrildi. Məbəd də öz yerində, Ailə qurumu da öz yerində, Günevin varlığı da rol oynayır. Var ol qardaş! Əminəm ki, “Atagün” siz olmayanda belə olacaq, yaşayacaq! Bu elə sənin uğurundur.

Atamız Var olsun!

**Günev Atalı**: Bizim burda iki İlhamımız var. İlham Axund bilir, İlham Mustafa da bilsin, biz üç nəfərik Ailə olaraq. Soylu qardaşdır, mənəm, bir də mənim həyat yoldaşım, həm də Amaldaşımızdır. Səhhəti ilə bağlı Rusiyada oğlunun yanında müalicədədir. Gələn ay gələr yəqin ki. Onunla biz səfərlərə gedirik. Mənim ata kəndim, ana kəndim, Arazbarı Ağdama yaxın kəndlərdir. Həm də bir tutalqa vardı. Bir nəfər qohumun araçılığı ilə bəlli yerlərə getmək. Bir əmioğluyla bizə söz verən bir adamın axşam evinə getdik ki, toplansınlar görüş keçirək. Dedim bax, bu xanım yoldaşımdır, Elana Atalı. El-obaya analıq iddiası var bunun içində, ona nə dərəcədə yetib yetməməyindən asılı olmayaraq. Ancaq bu iddia ilə ortadadır. Biz gəlirik. Mən sizi gözləyirəm dedi. Söz də verildi. Biz axşam çıxmaq istəyəndə əmim oğlu dedi neyləyirsiniz. Sabah biz bu kəndin içində alabaydaqlı olacağıq. Niyə alabaydaqlı olacaqsınız? Bəs qadın xeylağı... Çox maraqlıdır, bir fikirləşin, təsəvvürünüzə gətirin də, sözün gücü çatmır ey, bunu deməyə. Bəs qadın xeylağı gedir başqa yerə, özü də hansı söhbəti eləməyə. Əgər alverə getsəydi olardı. İnanın ki, çiyninə bir "şumotka" keçirib mənim

arvadım bir yerə getsəydi, ona heç kim heç nə deməyəcəkdi. Ancaq indi milli ruhu haraylamağa getmək ayıbmış. Biz dəhşətə gəldik. Bir-birimizə baxdıq ki, bu nə münasibətdir. Axı bu kənddə elə şey yoxdur. Polkovnikdir özü də kişinin oğlu. Dedi ki, mən ölüm, yığışdırın, qayıtsın geri.

Ancaq biz inadımızdan dönmədik. Elana da dedi ki, bu gün biz bu tilsimi sındırmalıyıq. Bu yazığın da əlacı kəsildi, bu əmioğlunun, düşdü bizim yanımıza, getdik. Qapını döyüb soruşduq, Rafael bəy evdədir? Evindən bir nəfər tələm-tələsik yoxdur, yoxdur dedi. Təsəvvürünüzə gətirin. Bu halı anlamaq olmur, doğru demirdi, evdə idi. Adətən biz görmüşük ki, Azərbaycanda bir evə qonaq getsən soruşurlar, kimsiniz, gəlin bəri. Elə bir səviyyəyə gəlib çıxmışıq.

Öncədən o kənddə söhbət aparmışdım, böyük coşğu və heyrətlə dinləmişdilər. Sonda dedim ki, mən burda davamlı olaraq bir nəfərlə münasibət qurmaq istəyirəm. Kim döşünü irəli verə bilər? 40-50 adamın içindən hamı dedi ki, elə Rafael yaxşıdır. Münasibət, söz-söhbət adamıdır. Dedim istyərsənmi? Dedi hə, istəyərəm. Dedim olarmı gələk sizdə beş nəfərlə, lap elə sənin ailən olsun, bu söhbətləri sistemli şəkildə, bir az da geniş edək? Gözləyirsənmi saat 8-də bizi? - Hə, gözləyirəm. Axşam da getmişik, darvazanı döymüşük, içəridən biri qayıt ki, yox, yox, yoxdu. Aydın məsələdir, Rafael bəy Qurbanəli bəy kimi gedib hardasa... Yaxasını vermədi, qayıtdıq gəldik.

İndi Göylünün hər dəfə ordan bura gəlməsi, vicdan haqqı, mənim qeyrətimi silkələyir. Hər dəfə bu əziyyəti çəkməsi, nəinki bura gəlməsi, hara getmir ki. Hansı çətin yerlərə getmir ki. Bu evdə, bu ailədə Göylüyə yumruq qıcanıbdır anamın yasında. Nadanlar, filanlar olubdur. Ancaq nadanlığı saymamaq Göylünün şərəfiydi, baş ucalığı idi. Mən Göylüyə ikiqat minnətdarlığımı bildirirəm.

Təbii ki, mən həmişə hər yerdə, yeri gələndə deyirəm ki, Atadan sonra mənim bəşəriyyətdə səcdə qıldığım bir şəxsiyyət var: o da Soylu Atalıdır. Çünki Soylu mənim özümün yaranmağımda böyüklük edib. Nəinki "Atagün" Ailəsinin, mənim özümün yenidən ayağa qalxıb möhkəmlənməyimdə, özümü toparlamağımda Soylu qüdrəti dayanır.

O çağlar Ata ruhani təməl yaratmışdı mənim içimdə. Ancaq özümə inamımın yetərli olmaması məni Ocaqdan geriləmişdi. Yükün böyük-

lüyü ilə mənim özümün səviyyəm arasındakı hədsiz təzad, istər-istəməz başım yorulmuşdu. İçimdən bir səs gəlirdi ki, deyəsən mənim gücüm çatmır. Həm də bilirsiniz, kitab-dəftər adamı olmamışam. Sadəcə hal vardı. Yeri gəlmişkən, onu da deyim, Soylu məni o duruma gətirib çıxardı ki, bu yaxınlarda kitabım çıxır, sizə o kitabı paylayacam. Gör kimi?! Məktəbdə mənə 3-ü ona görə verirdilər ki, atam dəmirçi idi. Onlara peç-zad düzəldib verirdi. Mən oxuyan olmamışam. Ancaq Asif Atadan da qabaq içimdə, ürəyimdə nəsə bu dünyanın nizamının pozulduğunu hiss eləmişdim.

**Soylu Atalı:** Poeziya sevgisi, ədəbiyyat sevgisi olubdur. Fitri ruhaniyyatçılıq olub.

**Günev Atalı:** Hə, bədiiyyata çox güclü meyil olubdur məndə. Asif Ata da deyirdi, fitri ruhaniyyatçısan.

**Soylu Atalı:** İnsana onu heç kim qıraqdan torba ilə vermir. İçəridən gələn bir şeydir. Bunlar hamısı üst-üstə gəldi və içində olan yüksək keyfiyyətləri aşkarlamağa gətirib çıxardı.

Asif Ata elə bir məktəbdir ki, bu məktəb istənilən lalın dilini açır, karın qulağını açır. Yetər ki, o lal, kar ona doğru bir balaca addım atsın. Mən özüylə yetərlənməyən bir adamam. Səmimiyyətlə deyirəm, bu gün də yetərlənmirəm özümlə. Bəzən fikirləşirəm ki, hələ o qədər dərinliklər var ki, o dərinliklərə mən enməmişəm. Enməliyəm. O qədər yüksəkliklər var ki, o yüksəklikləri mən aşmamışam, aşmalıyam. İçimdə o yəqinlik var. Ancaq bununla belə atam Qaranın evindən çıxan Soyluyla bugünkü Soylu arasında yer-göy fərqi var. Bax, Asif Ata bu məktəbi yaratdı, bu məktəbdə biz açıldıq, aşkarlandıq.

**İlham Mustafa**: Mən sisin sözünüzə qüvvət bir şey deyim, bu gün siz demiş, Azərbaycan qadını çiyninə bir aeroport sumkasını keçirib İran gömrüyündə şallaqla, qırmancla döyülə-döyülə saqqız gətirib satsa, deyəcəklər halal olsun bu qadına. Bax, gedib saqqız gətirib satır, o palçığın içində pul qazanır. Nə qeyrətli qadındır. O polis söyür, bu birisi döyür, bazarkom pul yığır, başına itin oyunu açılır. Ona deyir nə qeyrətli qadındır. Ancaq xalqı, milləti, vətəni üçün, gələcək üçün... mən Soyluya çox demişəm, biz Soyluyla neçə ildir bir yerdəyik, işdə bir növbədə işləyirik. Mən Soyluya deyirəm ki, sən çox dəhşətli bir işin dalınca düşmüsən. Bu ağır yükün altında sən necə var ola bilirsən, neyləyirsən?!

Yəni burda tək beş-on adamı böyütmək və buraya yığmaqla iş bitmir. Bu çox böyük kürəsəl bir işdir.



Bu gün biz beş nəfərə milli ruhu başa salana qədər əzab çəkirik. Ancaq baxın, bir nəfər ingilis qadını, bir nəfər fransız qadını, bir nəfər rus qadını gəlib desin, şəhərin, kəndin harasında istəsələr toplanacaqlar onların başına. Deyəcəklər demokratik düşüncələri yayan bir hüquq müdafiəçisi gəlib Almaniyadan, qadınları, kişiləri yığır ora, başa salır. Ya Ərəbistandan biri gəlsə başı çadralı, inanın sürü kimi gedəcəklər. Axışacaqlar ora. Hamı da deyəcək halal olsun. Əla! Ancaq öz içimizi, öz millətimizi, öz vətənimizi, öz xalqımızın gələcəyini bizə öyrədən bir işin arxasınca gedəndə insanlarımızın dizi qatlanır.

Soylu mənə, 96-cı il olardı, Atanın kağızda çap olunmuş izharlarını vermişdi. Mən getmişdim kəndə. Əlimdə o vərəqlərdən çox idi. Apardım ki, onu paylayım camaata, tanış olsunlar. Məktəbin həyətində, bir də bizdə ortalıq deyirlər, dükanın yanına yığılır camaat, apardım verdim. Bizdə də kənd camaatının inandığı bir seyid var idi. Onun nəvəsi də orda idi. Bir az da dilində pəltəklik vardı. Dedi bu nədir? Oxuyur orda: vətənə sevgi, millətə sevgi. Atanın dedikləridir də. Bu nədir sevgiylə bağlı gətirib camaata paylayırsan. Sən şəhərdən gəlmisən...

Keçid dövrüdür də, sevgi deyəndə psixologiya pozulur. Sevgi deyəndə hamı başqa şey fikirləşir. Onları da mən yaxşı tanıyıram. Başa saldım, dedim sən öz ananı sevirsən? Dedi niyə sevmirəm, anamdır. Atanı sevirsən, Bacını sevirsən? - Dedi bunun nə dəxli var? Dedim necə olur, anana sevgində bir şey axtarmırsan, millətə, vətənə sevgidə başqa şey axtarırsan?!

Mən Ocaqçı deyiləm. Mən sadəcə, necə deyərlər, Ocağın orbitində fırlanıram. Mən sizlərin yanında, Soylunun yanında dinlədikcə çox şey öyrənirəm. Atanın ideyası, fikri, dünyaya baxışı, insana baxşı, sözün həqiqi mənasında bugünkü ifadə ilə desək, analoqu olmayan bir şeydir. Ona görə hər mənada Atamız var olsun! Hələ ki, mən özümü Ocağın içərisinə sala bilməmişəm. Hələ ki, özümdə o gücü tapmamışam. Ancaq fikrim, məqsədim odur ki, mən o çərçivənin içərisində oturum, Olum. Mən dəqiqliyə çox çalışıram. Eləyirəmsə dəqiq eləyəcəm. Beynimə yeridirəm ki, bunu mən eləməliyəm. Eləməyəcəmsə, deməli artıq mən mən deyiləm. Yalançı bir şeyəm. Ona görə hamınıza təşəkkür edirəm. Bu günü də qutlayıram. Mənimçün çox böyük fərəhdir, sevincdir belə bir yerdə, belə bir gündə gəlib sizinlə bu istəkləri paylaşmaq. Mən fəxr eləyirəm.

**Günev Atalı:** Çox sağ ol. Bilirsənmi, əsas istəkdir.

Bəzən Amaldaşlarım bir baxımdan məni suçlayıblar ki, gileylənmək olmaz. Getmişdik Muğanlı kəndində görüş keçirdik. Ağcabədinin kəndidir, orda kəndin bir müəllimi, özünü ziyalı sayan biri ilə öncələr çox söhbət eləmişəm. Özü də söz verib. Sonra Göylü, Soylu, mən, getdik bunun qapısına. Dedim ki, belə-belə məktəbdə gedib görüş keçirmək fikrimiz var. Bu bizi qəbul eləmədi. Dedi ki, xahiş edirəm, məni o işə qatmayın. Hətta yağış yağırdı, demədi də ki, uzaq yol gəlmisiniz, bir stəkan çay için. Axı bu millət bu deyil. Bunun əgər ziyalı sayılanı bu kökdədirsə... Nə isə, getdik, alındı da görüş. Görüşdə mən də söz dedim, o adamın simasızlığına da münasibət bildirdim. Görüşdən sonra bacım da, qardaşım da mənə irad tutdular ki, o cür olmaz. Gileyçilik olmaz. Qəbul elədim. Amma yeri gələndə, o şeyləri izah edən bir məqam da var. Məsələn, görürsən, ad çəkməyəcəm, Ocaqla uzun müddətdir münasibətdə olan adam var, hər dəfə də gəlib ağıl verir – "Ocaqda Soylular çox olmalıdır". Bəli, Günev bu gün Soylu ola bilmir.

İnamlı bu gün Soylu deyil. Qardaş, gəl ol də. Gəlmirsən, olmursan və deyirsən Ocaqda Soylular çox azdır...

Sizə uğurlar arzulayıram. Yenə deyirəm, bu elə işdir ki, biz ağlın, ürəyin qapısını döyə bilərik. Açmırsa, biz ora girə bilmirik. Amma insan da özündə məsuliyyət hiss etməlidir ki, verdiyim məsləhətin, sözün, fikrin arxasında heç olmasa özü də olsun, dursun.

Biri soruşur ki, Günev bəy, Məbəd nə vaxt hazır olacaq? - Deyirəm qardaş, mən 134 manat pensiya alıram. Qəpiklə tikirik onu. Ayasofiya məbədini tikmək üçün böyük bir imperiyanın xəzinəsini baş-ayaq çevirmişdilər. Məryəmin mozaikasını divara üç ton qızılla həkk elədilər. Bünövrəsinə 500 kq qızıl tökülübdür. Bizim Məbədi isə İmperiya tikmir. Nə də böyük bir kəndin büdcəsi yığılmır. İndi sən özün hesabla, hansısa aydın verir mənə bu sualı. Bəs niyə elə gec tikilir? Üzümdən bura qədər gəlir, Soyludan ehtiyat eləyib deyə bilmirəm ki, çünki sən qıraqda durmusan. Bu xalq təkcə mənim deyil. Yeri gələndə olar da bunu demək. Asif Atanın sözünü təkcə mən deməliyəm?

İndi yükün böyüklüyünü qoyaq qırağa, Asif Ata Ocağı ilə təmasda olmağın nə olduğunu özün dedin. İnsanı hara yüksəldir. Necə böyük inam, umud verir insana.

Hər dəfə deyirəm, axı nəsil qoyub gedirik. Hansı dünyada qoyub gedirik. Bir az məhdud danışım da, hansı dünyabaxışın təsirində qoyub gedirik. Bütün bunları dərk elədikcə deyirəm, mən öz millətimə, xalqıma, bəşərimə yanğıyla irəli durmuşam. Bunun hamısının da qarşılığında özüm qalxmışam göyə. O yoldayam. Dağın zirvəsinə doğru gedirəm. Bu eşqə, bu istəyə düşmüşəm. Ona görə deyirəm, İlham bəy, istək əsasdır. İstək varsa, mütləq onun arxasınca gediləcək. Ondan sonra biləcəksən ömrü necə yaşamısan. Nə qoyub gedirsən? Nəsimi, İsa cavan ikən getdi. C.Bruno cavan ikən getdi. Ancaq görürsən, əbədi qaldılar. Çünki həqiqətin yolunda meydana çıxmışdılar. Sən özün də özünü o yöndə istə.

**Soylu Atalı**: Bir var ummaq, bir var gileylənmək. Günev Atalı bu sözləri ilə umur, əslində haqqı da var. Biz umuruq soydaşlarımızdan ki olun, olmalıyıq. Ancaq qınaq, deyinmək-filan, yenə deyirəm, olmaz. Niyə? Deyinmək, qınaq gətirib nəyə çıxardır? Ürəyimizin gücünün azalmasına. Giley bərabərdir minnətə. Mən nə deyirəm? Mən deyirəm ki, sən səbrli, davamlı şəkildə öz ləyaqətini ortaya qoy, o görünəcək.

İlham Axund ikinci dəfədir bura gəlir. Mən çağırmışam, demişəm, ay İlham qardaşım, gəl gedək, o da gəlib? Elə deyil. Uzun müddət müşahidə aparıb, görür ki, bu soydaşları umacaqsız olaraq millətini sevir.

Bu kişi mənə deyir ki, "mən bu qədər vaxtda sənin qədər millətsevərə rast gəlmədim. Məni sənə bağlayan odur". O bunu görüb, səmimiyyətimizə, zəhmətimizə, ləyaqətimizə inanıb. Öz ləyaqətini bizim ləyaqətimizə qoşub, durub gəlib. Sən öz ləyaqətini ortaya qoy, o görünəcək. O biri də addım atacaq, bu biri də. Hər şeyi zaman həll edir. Birdən-birə hər şey olmadı. Bu mümkün də deyil. Qardaş, bir var adam hoppana ki, hündür görünə, bir də var boyunu ucalda ki, hündür ola. Biz boyumuzu ucaldırıq.

Günev özü Asif Atanın Ocağının qapısını açandan sonra nə eləyibsə, böyük fədakarlıqla edib. Hər şeyindən keçib edib. Böyük səbrlə edib, ərdəmliklə edib. Bu olmasaydı bura gəliş də olmazdı. Sənə bu sevgilər hardan sunulur? Həmin o keyfiyyətinə görə, həmin davamlılığına görə, həmin dayanıqlılığına görə. Ona görə deyirəm ki, biz giley adamı deyilik, ancaq bu dediklərim sənin gileyçi olmağın anlamına gəlmir, sadəcə gileylə bağlı fikirlərimi aydınlaşdırıram.

**İlham Axund:** Mənə söz verdiyiniz üçün sağ olun. Mən burda ikinci dəfədir oluram. 3-4 dəfə də Bakıda Ocaqda olmuşam. Burada fikir ayrılığımız olan hissə var. Mən onun haqda danışmaq istəmirəm. Məni əsas bura bağlayan şey sizin millətçiliyinizdir, millətə bağlılığınızdır. Göstərəcəyiniz yol milli ideologiyadır ki, mənim ürəyimdən keçən şeylərdir. Ola bilər səhər kimsə ordan baxıb deyəcək ki, bunun onlarla nə işi var? Deyəcəm burda nə var ki? Hələ bax gör o nə danışır. Bax gör o nə istəyir. Ola bilsin ki, müəyyən şeylər var, fikirlərimiz düz deyil. Ancaq milli baxımdan hər şeyimiz düzdür. Bayaqdan giley söhbəti eləyirdiniz, bu dində də var. Siz nə deyirsiniz – Giley eləmə qardaş, giley qəlbi sındırır. Qəlbi də tikmək üçün hələ elə bir material yoxdur ki, onunla yamayasan. Ona görə mən sizinlə yol yoldaşlığı elədiyim üçün fəxr duyuram, Türk oğlu kimi. Fəxr edirəm ki, sizin kimi türk qardaşlarım var. Türkün düşməni özündən iki dəfə böyükdür. Amma zaman gələcək belə-belə görüşlərlə, bayaq görüşdə iki gənc əməlli-başlı alınmışdı. Gəldilər yaxınlaşdılar mənə, əlimi kürəklərinə vurdum ki, sağ olun, bax, siz söhbəti tutmusunuz. O kitabları aparıb evdə stolun üstünə

atmayın. Oxuyun, görün o kitab nə istəyir sizdən. Sizin vəzifəniz nədir. Belə bir söhbət elədik. Oğlan dedi mən hətta əlifbanı da öyrənmişəm. O şeiri də bilirəm.



Sözümün canı nədir. Mən də sizin kimi həmin istəklərin peşindəyəm. Sadəcə Ocaqçı deyiləm, mən islamçıyam. Amma milli baxımdan mövqelərimiz üst-üstə düşür. Sizə millətin dirçəlişi yolunda uğurlar arzulayıram. Atagün Ailəsini 3 ili münasibətiylə qutlayıram. Gün o gün olsun, 3-ün arxasına bir sıfır artıraq.

**Soylu Atalı:** Bir neçə kəlmə deyim bölgədə və ölkədə gedən ictimai-siyasi, mənəvi durum haqqında. Biz adətən hadisələrə "Türkel Araşdırma Qurumu"nda aydın dostlarımızla İdeoloji qiymət veririk. Ocağımızda ona ruhani qiymət veririk. Politoloji qiymət vermirik, siyasi qiymət vermirik. Bu ayrı bir şeydir, o bizim işimiz deyil. Bilsək belə. Bizim özümüzün öz qiymətimiz var. Bir neçə kəlmə istəyirəm deyək.

Azərbaycan olaraq bağımsızlıq əldə eləyəndən sonra yanlız bir yöndən biz bərkidik. Dövlətin strukturları quruldu, onun güc strukturları quruldu. Sonra hərbi potensiyası aşama-aşama oturuşdu. Ancaq biz, bir millətin mədəniyyətini, varlığını ifadə eləyən, daşıyan bir dövlət olaraq

qurulmadıq. Bunu mən ağrıyla deyirəm. Bunu mən onun başında duranları ələşdirmə xatirinə demirəm. Çünki xalqın içində xalqın milli dəyərləri, mənəvi dəyərləri onun özünə qaytarılmadı, verilmədi, öyrədilmədi.

Tolerantlıq deyə bir şey öz-özlüyündə yaxşı səslənir. Ancaq bizdə tolerantlıq oyunu var. Bu da ona gətirib çıxarır ki, içinə ilan-qurbağa doldurur, dözməlisən. Bunun adını qoyur tolerantlıq. Bu tolerantlıq deyil. Bu ayrı şeydir. Bizim bu gün yurdumuz hər tərəfdən fərqli qüvvələr tərəfindən basqı altına alınır və hədələnir. İstər siyasi xətlə, istər dini xətlə. Bu gün sizin hər birinizin gördüyünüz bir şey var ki, Azərbaycan Suriyanın taleyinə sürüklənir. Bunu da Sələfi deyilən, vəhhabi deyilən qüvvələrin əliylə gerçəkləşdirməyə çalışırlar. Ehtimalla gerçəkləşdirəcəklər də. Təəssüf ki, belədir, mən bunu ağrıyla deyirəm. Bizdən asılı deyil. Proses ora aparır. Çox təəssüf. Axı o üzünə saqqal buraxan vəhhabi kimdir? Mənim soydaşım. Onun 70-80 faizi mənim soydaşımdır. Qoy içində olsun 5-3 nəfər etnik kimlərsə. Onlar əsasən mənim soydaşlarımdır. O soydaşımla mən qarşı-qarşıya gəlmək həddindəyəm. Təhlükə həddində, qorxu həddində yaşayıram. O məndən qorxmur. Mən də şəxsim üçün ondan qorxmuram. Ancaq millətim üçün, millətimin gələcəyi üçün ondan qorxuram. Çünki onun qəlbinə cahillik hakim kəsilib. Onun ağlına cəhalət hakim kəsilib. Bizi ora sürükləyirlər. Bax, bu, böyük bir yanlışdır, böyük bir suçdur.

Sonra aydınlar adına biçimlənən, şəkillənən zümrənin böyük suçu var. Onlar öz toplumuna heç yerdə axıra qədər həqiqəti öyrətmir, maarifləndirmir. Dəyərlərlə bağlı da çox qarışıq, ziddiyyətli fikirlər ortaya gətirirlər. Mən siyasi adamları demirərm, ictimai adamları deyirəm. Olduqca ziddiyyətli, çeşid-çeşid özündə fərq daşıyan baxışları ortaya gətirirlər ki, bu da toplumda vahid bir xəttin, ölçünün yaranmasına əngəl olur. Hərə bir hava çalır. Toplum bilmir ki, onun dəyəri nədir, dəyərsizliyi nə. Xeyiri nədir, ziyanı nə. Bilmir. Bu gün dünyada böyük bir güc yaradıblar, ağa yaradıblar Amerika adında. Bunu çağında Avropa özü yaratdı. Avropalılar gedib hakim kəsildilər, tutdular o torpaqları. Onu vaxtilə kimin axtarıb tapmasından asılı olmayaraq. Orda hansı kökənli tayfaların yaşamağından asılı olmayaraq. Ora Avropa xalqları qılıncla, tüfənglə, zor gücünə gedib hakim oldular, oranı işğal

elədilər. İspanlar, italyanlar, fransızlar, ingilislər və başqaları. Getdilər oranı işğal elədilər və orada bir dövlət yaratdılar. O dövlətdə adını çəkdiyim xalqların, toplumların hamısının nümayəndələri var. Yəni Amerika Avropanın əmniyyətidir. O bunları qoruyur. Baxmayaraq ki, bu gün Avropayla Amerikanın arasında bəzən iqtisadi çəkişmə gedir. Amerika orada, okeanın o tayında Avropanı Doğudan, onun mədəniyyətinin etkisinə düşməkdən qorumaq üçün düşünülmüş bir dövlətdir. Amerika Avropanın gücüdür. Bu güc xeyirxah güc deyil, bəşəri güc deyil, dağıdıcı gücdür. Avropanın caynaqları daha yaxşı ilişsin deyə, həmin Amerika özünün yaratdığı struktur araçılığı ilə, yaxud da böyük maliyyə bazasıyla yeriyir xalqların içinə. Köklü xalqları bir-bir sıradan çıxarır. Köklü xalqların məbədlərini məhv eləyir. Ərəblərin qədim məbədlərini məhv eləyir, Türklərinkini məhv edir. Orta Asiyanı diqqətdə saxlayıblar. Əfqanstanda nə qədər dağıntılar yaratdılar. Niyə yaradırlar? Baxın, mətbuatda çox yazmışam, köklü xalqları dağıdıb yerində onları idarə eləmək üçün milli dövlət adına balaca-balaca xalqların dövlətlərini yaradırlar. Həmin balaca xalqlara qarşı guya bu humanizmdir, guya hər bir xalqın haqqı var, demokratiya da bunu tələb edir. Ancaq köklü xalqları dağıdır, onun coğrafiyasında idarə olunan və dağıdan dövlətlər yaradırlar. Dönə-dönə yazmışam, əgər Amerika o qədər humanistdirsə, qoy kürdə, yaxud başqasına ştatlarının birini versin, dövlət yaratsın. Yaxud Rusiya bu qədər humanistdirsə, qoy o çöllərində Ermənistan dövləti yaratsın. Niyə mənim torpağımda, niyə mənim içimdə yaradırsan?! Bax, bu dalğa gəlib Doğunu üzük həlqəsi kimi dövrələyib. Bunun da əsas hədəfi nədir? Sovetlərin dağılmasına qədər iki güc ki, qarşı-qarşıya dayanmışdı, Batı və Sovetlər – iki fərqli ideologiya daşıyıcıları, dünyanı idarə eləyən iki güc. Bunlardan biri sıradan çıxdı. Təkqütblü bir dünya yaradıblar. İndi bu tək qütb bütün işini-gücünü yönəldibdir bu coğrafiyalara. Rusiyanın özü getdikcə gücdən düşür. Bu coğrafiyalarda böyük güclər – türklər var. **B**aşlıca hədəf bu türklərin dirçəlib ayağa durmaması, bu türklərin bu coğrafiyanı idarə etməməsi, bu coğrafiyada hakim qüvvəyə çevrilməməsidir. Başlıca hədəf budur. Mən bunu qəbul eləyərəm bir mənada ki, əgər biz türkün dünya üzərində ağalığını düşünürüksə, imperiyasını düşünürüksə, elə onlar yaxşı eləyir. Ancaq biz dağıdıcılıq haqqında düşünmürük axı.

Bu gün bizim gəncliyimizin içində həmin fikir yürüdülür. Turançılıq deyə bağırırlar. Onu da Avropa özü bu gəncliyin ağlına salıb. Əslində Avropanın özünün türkçülüyü var ortalıqda. Türkün özünün türkçülüyü işləmir. Eləcə də bu gün bizim yurdumuzda da, yurdumuzun dışında da əsasən üç islam fəaliyyət göstərir. Bunlardan biri Amerikanın islamıdır, biri ingilisin, biri də İranın islamıdır. Şiəlik, nurçuluq, vəhabilik. Bundan başqa həm də bizim içimizdə həmin qüvvələrin türkçülüyü var. O türkçülük də nədir – dağıdıcılıq, imperiyaçılıq, Turan imperiyası. Gəncliyimizin ağlına bunu yeridirlər, bizə sübut eləsinlər ki, dağıdıcılıq haqqında düşündüyünüz üçün sizi düz eləyib basqı altında saxlayırıq. "Sizi kəndirdən açıb buraxsaq, bizi məhv eləyəcəksiniz. Dünyanı imperiya ağalığınız altına alacaqsınız". O proseslər ondan ötrüdür. Ona görə biz istəyirik ki, Asif Atanın türkçülüyü gəlsin ortaya. Onun türkçülüyü humanist türkçülükdür, bəşəri türkçülükdür. Onun türkçülüyü İnam, İdrak, Mənəviyyat, İradə türkçülüyüdür. Zor türkçülüyü deyil, başkəsən türkçülük deyil. Bəşəridir. Ona görə dünyanı suçlayırıq, qınayırıq ki, sən üzü o yandan dağıda-dağıda gəlirsən bu milləti çökdürməyə. Bundan ötrü çeşid-çeşid oyunlar gedir: Ukrayna oyununda, baxın, zərbə kimə dəyir? Türklərə. Ərdoğan burda guya Türkiyəni qoruyur. Onların gördüyü işin hamısı Orta Doğu projesinin layihəsidir. Amerikayla Ərdoğanın planlarının arasında heç bir kəskin fərq yoxdur. Ərdoğan Türkiyəni elə duruma salacaq ki, Amerika onu dağıtmağa haqq eləsin. Amerika onun üzünə dayansın ki, sən xilafət yaradırsan. Mən də məcburam dağıdam. Sən geriliyə çəkirsən bəşəriyyəti.

Ərdoğan ona gedir. Üzdə isə guya Türkiyə üçün çalışır. Belə bir vaxtda Azərbaycanın durumu da bunlardan çox asılıdır. Azərbaycanı sürüyürlər, boyunduruğa çəkirlər. Bizim dövlətin başında duranlar elə görüntü yaradıblar ki, guya onlar dövləti qoruyurlar. Amerika başda olmaqla Avropa bizi ordan boyunduruğa çəkir, Rusiya burdan. Bunlar da guya balanslaşdırmağa çalışırlar, nə ora girir, nə də bura, bağımsızlığımızı qoruyur. Halbuki bizim bağımsızlığımızı məhv elədilər talamaqla. Məhv elədilər oyunlarla. Məhv elədilər bu xalqın kimliyini təhrif eləməklə. Məhv elədilər bu xalqın içinə minlərlə ilanı-qurbağanı buraxmaqla. Dağıdıcı gücləri buraxmaqla. Sektaları, təriqətləri, siyasi təşkilatları, hüquq müdafiəçiləri deyə əcnəbi qüvvələrin buyruğunda qulluq

göstərənləri. Xalq gör kimə umud bəsləyir? Qıraq qüvvələrin buyruğunda fəaliyyət göstərən Leyla Yunusovaya. Mən humanistəm. Mən istəmirəm Leyla Yunusova deyə biri həbs olunsun. Bu mənə nə verir? Heç nə. Ancaq Leyla Yunusova kimdir? Amerikanın Demokratiya institutunun buyruğunda çalışan biri. O, millət üçün çalışmır, Amerika üçün çalışır, iqtidarı vurmaq üçün çalışır, millət üçün yox. İqtidarı millət üçün qınamır, Amerika üçün qınayır. Oyundur.

Ona görə bizim dilimizdə, nəfəsimizdə, sevgimizdə doğruluq, doğmalıq, fikir-söz bütövlüyü yaranarsa, bizim etkimiz xalqın içində yeriyəcək. Zaman-zaman yeriyəcək, çox inanıram. İndi də yeriyir. İndi də var. Neyləyək ki, bizim fiziki gücümüz azdır. Ancaq az da o demək deyil ki, biz addımı dala qoymalıyıq. Yox. Bəzən damcı seldən daha çox iş görür. Sel qayanı dağıtmır, torpağı yuyub aparmır. Amma damcı qayanı dağıdır.

Bizim bu işimizin arxasında durmaq üçün bəs qədər imkanımız var. Həm sevgimiz var, həm də yenilməz ideyamız, qeyrətimiz, ləyaqətimiz var. Oyun oynamırıq. Bu böyük məsələdir. Böyük umuddur. Nikbinlikdir bu. Mən bu nikbinliyə dayanıb hər birinizə soydaşlıq, millətdaşlıq sevgisi sunuram.

*Müqəddəs Oxuma: “Təməl” Kitabından "İnamın təməli" hissəsi oxundu.*

*Ocaq Yükümlüsü Ailəyə ruhani hədiyyələri sundu – Ocaq tədbirlərinin görüntü disklərini, Ocaq kitablarını, qəzet buraxılışlarını, Günsıra vizitlərini.*

*“Ata Ruhunu ürəyimizdə aparırıq!” səcdəsilə “Ailə Günü” sona yetdi.*

***Tədbirdən sonra gec də olsa (hava qaralmışdı) mərasimə qatılanlardan bir neçəsi Amal Bağında Ata “Torpağı”nı ziyarət elədilər.***

*Köçəri Ayı,36-cı il. Atakənd.*
*(fevral, 2015. Bakı).*

## *İçindəkilər*


"Atagün" və "Ulufərəh" Ailələrinin I "Ailə Günü" toplantısı
(21 Günəş  Ayı, 36-cı il)....................................................................3
Günev Atalının evinə "Qutsal Onluğun Qəbul Törəni"
(22 Gunəş Ayı, 36-cı il)................................................................... 17
"Atagün" Ailəsinin II  "Ailə Günü" toplantısı
(30 Çiçək Ayı, 36-cı il) ....................................................................39
"Atagün" Ailəsinin III "Ailə Günü" toplantısı
(15 İşıq Ayı, 36-cı il) ......................................................................57
Atagün" Ailəsinin IV "Ailə Günü" toplantısı
(24 Şölə Ayı, 36-cı il) ......................................................................84
"Atagün" Ailəsinin V "Ailə Günü" toplantısı
(27 Qürub Ayı, 36-cı il) ................................................................104
Atagün", "Uluyol-Hünər", "Ulufərəh" Ailələrinin birgə
VI "Ailə Günü" toplantısı (24 Ata Ayı, 36-cı il...............................120
"Atagün" Ailəsinin VII  "Ailə Günü" toplantısı
(30 Xəzan Ayı, 36-cı il) .................................................................146
"Atagün" Ailəsinin VIII  "Ailə Günü" toplantısı
(23 Yağış Ayı, 36-cı il) ..................................................................170
"Atagün" Ailəsinin IX  "Ailə Günü" toplantısı
(19 Köçəri Ayı, 36-cı il) ................................................................ 198